Azərbaycan dili 7

Dövlət dili

METODİK VƏSAİT

LAYİHƏ

SAMİRƏ BEKTAŞİ
YEGANƏ ABDULLAYEVA

Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün

AZƏRBAYCAN DİLİ

(DÖVLƏT DİLİ)

fənni üzrə dərsliyin

METODİK VƏSAİTİ

© “Şərq-Qərb” Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

LAYİHƏ

MÜNDƏRİCAT

Giriş 4
Dərsliyin komponentləri və strukturu 6
Məzmun standartları və onların şərhi 9
Ümumtəhsil məktəblərinin VII sinfi üçün
Azərbaycan dili fənni üzrə məzmun standartları 19
İllik planlaşdırma nümunəsi 20
Qiymətləndirmə 24
Diaqnostik qiymətləndirmə 24
Diaqnostik qiymətləndirmədə istifadə olunan üsul və vasitəyə nümunə 25
Formativ qiymətləndirmə 25
Müşahidə vərəqinə nümunələr 27
Summativ qiymətləndirmə 27
Şagirdin özünüqiymətləndirmə vərəqi 28
Qruplarda işin qiymətləndirilməsi 29
Qrupun qiymətləndirmə vərəqi 30
Şagirdlərin qarşılıqlı qiymətləndirmə vərəqi 31
Qrup təqdimatının qiymətləndirilməsi 32
Essenin qiymətləndirilməsi 33
Diskussiyanın qiymətləndirilməsi 33
Summativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr 34
Bir-birini öyrətmək üçün məsləhətlər 35

I BÖLMƏ. VƏTƏNİM AZƏRBAYCAN

1-ci dərs. Layihə: “Öncə Vətəndir!” 38
2-ci dərs. Ailə və Vətən tərbiyəsi 40
3-cü dərs. Anım günü 41
4-cü dərs. Ananın öyüdü 43
5-ci dərs. Ananın öyüdü 46
6-cı dərs. Bir qarış torpaq 49
7-ci dərs. Bir qarış torpaq 50
8-ci dərs. Müəllim 52
9-cu dərs. Müəllim 54
10-cu dərs. Kiçik Summativ Qiymətləndirmə 56
11-ci dərs. İnamın qələbəsi 59
12-ci dərs. İnamın qələbəsi 61
13-cü dərs. Dan ulduzu görünəndə 62
14-cü dərs. Dan ulduzu görünəndə 66
15-ci dərs. Azərbaycan 68
16-cı dərs. Qayıdışın mübarək! 70
17-ci dərs. Layihənin yekunlaşdırılması 72
18-ci dərs. Kiçik Summativ Qiymətləndirməyə nümunə 73

II BÖLMƏ. BİZ VƏTƏNİN SABAHIYIQ

1-ci dərs. Layihə: “Biz vətənin sabahıyıq” 78
2-ci dərs. Peşələr necə yaranıb? 80
3-cü dərs. Ailəm və peşə 84
4-cü dərs. Planlaşdırma 86

LAYİHƏ

5-ci dərs. Planlaşdırma 88
6-cı dərs. Diplomsuz mühəndis 90
7-ci dərs. Diplomsuz mühəndis 92
8-ci dərs. Kiçik Summativ Qiymətləndirmə 94
9-cu dərs. Balaca aşpaz 99
10-cu dərs. Balaca aşpaz 102
11-ci dərs. Köhnə araba 103
12-ci dərs. Köhnə araba 104
13-cü dərs. Sürücü 106
14-cü dərs. Sürücü 108
15-ci dərs. Sərhədə gedən yol 112
16-cı dərs. Sərhədə gedən yol 113
17-ci dərs. Kiçik Summativ Qiymətləndirmə N°2 115

III BÖLMƏ. SAĞLAM VƏ TƏHLÜKƏSİZ GƏLƏCƏK

1-ci dərs. Layihə: “Sağlam və təhlükəsiz gələcək” 117
2-ci dərs. Yalan 119
3-cü dərs. Yalan 122
4-cü dərs. Mətn 123
5-ci dərs. Dinamit 125
6-cı dərs. Dinamit 126
7-ci dərs. Yol 128
8-ci dərs. Yol 129
9-cu dərs. Kiçik Summativ Qiymətləndirmə 131
10-cu dərs. İki kənd 134
11-ci dərs. İki kənd 135
12-ci dərs. İki kənd 137
13-cü dərs. Bizim planet 138
14-cü dərs. Bizim planet 140
13-cü dərs. Bizim planet 141
14-cü dərs. Layihənin yekunu 142
Kiçik Summativ Qiymətləndirmə – 2 143

IV BÖLMƏ. AİLƏDƏ EKOLOGİYA

1-ci dərs. Layihə: “Planetimiz gələcəkdə” 147
2-ci dərs. Sınmış budaq 148
3-cü dərs. Sınmış budaq 151
4-cü dərs. Sınmış budaq 152
5-ci dərs. Seyranın göyərçinləri 154
6-cı dərs. Seyranın göyərçinləri 156
7-ci dərs. Kiçik Summativ Qiymətləndirmə 157
8-ci dərs. Təbiət özü özünü tənzimləyir 160
9-cu dərs. Təbiət özü özünü tənzimləyir 162
10–11-ci dərslər. Yaşıl planet (hekayənin yazılması) 160
12-ci dərs. Haqqın səsi 165
13-cü dərs. Haqqın səsi 167
14-cü dərs. Layihənin yekunu 168
15-ci dərs. Şəkil əsasında inşa 169
16-cı dərs. Kiçik Summativ Qiymətləndirmə 170

Azərbaycan dilinin orfoepiya normaları 174

LAYİHƏ

GİRİŞ

Ümumtəhsil məktəblərində tədris olunan və milli təfəkkürün formalaşmasında birbaşa rolu olan Azərbaycan dili (dövlət dili kimi) fənni dili öyrənmək və ünsiyyət qurmaq, nitq vərdişlərinə yiyələnmək baxımından çox əhəmiyyətlidir.

Təlim digər dillərdə aparılan məktəblərdə şagirdlərin Azərbaycan dilini öyrənməsi onların bu dildə olan ədəbiyyatı, qəzet və jurnalları oxuması, televiziya verilişlərinə baxması, müxtəlif informasiya mənbələri vasitəsilə əldə etdikləri məlumatı anlamaları üçün şərait yaradır. Bu məktəblərdə şagirdlər Azərbaycan dilində dinləyib-anlama, danışma, oxu və yazı məzmun xətləri üzrə müvafiq nitq və yazı vərdişlərinə yiyələnir, fikirlərini şifahi və yazılı şəkildə ifadə etməyi öyrənirlər.

Şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkküründün formalaşmasında Azərbaycan dili fənni böyük əhəmiyyətə malikdir. Hər hansı bir fikir, anlayış və problemli situasiya ətrafında müzakirə və araşdırma aparan, müxtəlif üslublarda olan mətnləri oxuyan şagirdlərdə fikir yürütmə, müqayisə etmə, fərqləndirmə, analiz etmə, yenisini yaratma, dəyərləndirmə və digər bacarıqlar formalaşır.

Ümumtəhsil məktəblərinin təlim digər dillərdə olan bölmələrinin 7-ci sinfi üçün hazırlanmış Azərbaycan dili dərsliyi müvafiq fənn üzrə məzmun standartları əsas götürülərək hazırlanmışdır.

Dərslikdə müxtəlif üslublarda (bədii, publisistik, rəsmi-işgüzar, qismən elmi) mətnlər 4 bölmədə cəmləşmişdir. Bölmənin adına uyğun olaraq məzmun baxımından qruplaşdırılmış mətnlər əsasında məzmun standartlarının reallaşdırılması üçün müxtəlif tapşırıqlar qoyulmuşdur. Bu tapşırıqlar təkcə məzmunu mənimsəməyə xidmət etmir, eyni zamanda, şagirdlərdə şüurlu və ifadəli oxu bacarıqlarının formalaşmasına, zəruri dil qaydalarının öyrənilməsinə, onların lüğət ehtiyatının zənginləşdirilməsinə, öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə etməyə istiqamətləndirmiş olur.

Mətn üzərində iş aparmaq üçün dərslikdə aşağıdakı ardıcıllıq gözlənilmişdir:

- Mətnin orfoqrafiya və orfoepiyası üzərində iş aparılır;
- Mətnin oxusu (müxtəlif üsullarla) təşkil edilir (Oxu orfoqrafiya və orfoepiya tapşırıqlarından əvvəl və ya sonra da icra edilə bilər. Bu, müəllimin qurduğu dərsdən asılıdır);
- Mətnin məzmun və ideyası üzərində iş aparılır;
- Mətnin lüğət tərkibi üzərində iş aparılır;
- Mətnlə bağlı qrammatik tapşırıqlar, qrammatik qaydaların tətbiqi üçün çalışmalar verilir.
- Yazı məzmun xəttinin tələblərini icra etmək üçün mövzu, mətnin ideyası, toplanılmış məlumat və s. ilə bağlı şagirdlərə inşa, esse, hekayə yazmaq, təqdimat hazırlamaq, rəsm işi çəkmək və s. təqdim olunur.

Qeyd. Rabitəli mətnlər, təqdimatlar hazırlamaq üçün dərslikdə şagirdlərə müxtəlif planlar təqdim olunmuş və istiqamətlər verilmişdir. Qeyd etmək lazımdır ki, verilən planlar nümunədir. Müəllim mövzu əsasında plan tərtib etməkdə, yaxud planın tərtib edilməsini şagirdlərə tapşırmaqda sərbəstdir.

Müxtəlif mövzularla bağlı araşdırma aparılması, sorğunun keçirilməsi 5 və 6-cı sinif dərsliklərində təqdim olunduğu kimi, 7-ci sinifdə də diqqətdə saxlanılmışdır. Belə ki bu proses şagirdlərdə sual tərtibetmə, təqdimetmə, toplanılan məlumatın ümumiləşdirilməsi və s. kimi bacarıqları formalaşdırır, onlara problemlərin həllində daha çevik qərar verməyə və fikir yürütməyə imkan verir. Müasir şagirdlərdə isə bu bacarıqların formalaşdırılması mütləqdir. Əvvəlki siniflərdə şagirdlərlə bu istiqamətdə fəaliyyət təşkil edilmişsə, mövzu ilə bağlı sorğuların keçirilməsi onlar üçün çətinlik

LAKHD

törətməyəcəkdir. Savadlı şəxslərin – jurnalistlərin, müxbirlərin və digər peşə sahiblərinin yetişdirilməsi cəmiyyət üçün ən böyük qazancdır. Prosesə valideynlərin, məktəb psixoloqlarının və pedaqoji heyətin digər müvafiq əməkdaşlarının cəlb edilməsi gözlənilən səmərəli nəticəni verməklə yanaşı, həm də məktəb-şagird-valideyn üçbucağının qurulmasında praktik əhəmiyyətə malikdir.

Araşdırmaların təşkili üçün müəllimin sinfə müxtəlif resurslar gətirməsi məqsədəmüvafiqdir. Texniki vasitələrin olduğu siniflərdə şagirdləri müəllim nəzarəti altında internetdən müvafiq materialların axtarışına yönəltmək olar.

Şagirdlərin özlərini qiymətləndirməsi, öz davranış və baxışları ilə yanaşı, doğulub böyüdüyü ailəyə, ətrafa, dostlarına, yaşıdlarının fikirlərinə, düşüncə tərzinə münasibət bildirməsi, onların və özünün fikirlərini təhlil etməsi, arqument gətirməsi, situasiyanı təhlil etməsi üçün də tapşırıqlar verilmişdir. Fərdi qaydada icrası daha məqsədəmüvafiq hesab edilən bu tapşırıqlar şagirdə sadə şəkildə həm özünü, həm də yaşıdlarını, ətraf mühiti təhlil və tədqiq etməyə imkan verir.

Dərslikdə müxtəlif illüstrasiya, rəsm işi və fotolardan istifadə olunmuşdur. Şagirdlərə şəkillər üzərində iş aparmaq əvvəlki sinifdə də təklif olunmuşdu. Bu, 7-ci sinifdə də davam etdirilir. Şəkillərin təhlili, mətnin məzmununa uyğunluğu, rəsm və ya foto olması, rəng çalarları, şəkillər vasitəsilə çatdırılan fikrin müəyyən edilməsi, şagirdin özünə mövzu ilə bağlı rəsm və ya fotonun çəkilməsinin tapşırılması onlarda təsviretmə, əlaqələndirmə, müqayisəetmə, yenisini yaratma kimi bacarıqların formalaşdırılmasına imkan yaradır.

Dərslik boyu bələdçi obrazlar *(onlar real fotolardır və dərsliyə daxil edilməsi üçün valideynlərlə razılaşdırılmışdır)* şagirdlərlə müzakirə aparacaq, onlara suallar verməklə mövzunun (mətnin) mahiyyətini anlamağa, tapşırıqları icra etməyə istiqamətləndirəcəkdir.

Dərslikdə şagirdlərə icra etmək üçün 4 layihə verilmişdir. Layihələrdə azərbaycançılıq ideologiyasının təbliği, vətənpərvərlik hissi, Vətənə hörmət və məhəbbət hissinin aşılanması, ətraf mühitə münasibət, Azərbaycanın flora və faunasının qorunması, sağlam və təhlükəsiz həyat, 44 günlük Vətən müharibəsi və qazanılan parlaq qələbə, ailə-məktəb münasibətlərinin düzgün qurulması və s. bu kimi məsələlər diqqətdə saxlanılmışdır.

6-cı sinifdə olduğu kimi, bu sinifdə də QR kodlardan istifadə edilmişdir. Müvafiq mövzularda şagirdləri əlavə tədqiqatlara, mövzu ilə bağlı əlavə məlumat almaq üçün internet resurslarına yönəltmək üçün QR kod (küar kod), animasiya və səsləndirmələrdən istifadə edilmişdir. Şagirdlər müəllimin tapşırığı əsasında və qurulan dərsdən asılı olaraq təlim prosesində və ya dərsdən sonra telefon vasitəsilə QR kodları skan etməklə müvafiq materiallarla tanış ola biləcəklər.

Dərsliyin sonunda lüğət verilmişdir. Bu lüğətdən istifadə etməklə şagirdlər oxuyacaqları mətnlərdə rast gəldikləri və mənası onlara tanış olmayan sözlərin ifadə etdiyi leksik mənanı müəyyən edə biləcəklər.

184-cü səhifədə istifadə olunmuş ədəbiyyat siyahısı verilmişdir.

LAYİHƏ

Dərsliyin komponentləri və strukturu

Azərbaycan dili dərslik komplektinə daxildir:

1. Dərslik

2. Müəllim üçün metodik vəsait

Dərslik 4 bölmədən ibarətdir:

I bölmə – **"Vətənim Azərbaycan"**

II bölmə – **"Biz Vətənin sabahıyıq"**

III bölmə – **"Sağlam və təhlükəsiz gələcək"**

IV bölmə – **"Ailədə ekologiya"**

I yarımildə I və II bölmə, II yarımildə III və IV bölmələrin tədrisi nəzərdə tutulmuşdur.

Hər bölmənin əvvəlində şagirdlərin bölmədə tanış olacaqları mətnlər və bələdçi obrazın özünü təqdim etməsi və görüləcək işlər barədə verdiyi ümumi məlumat vardır. Növbəti səhifədə layihənin adı, mövzuya uyğun şeir nümunələri və araşdırılacaq mövzular haqqında ümumi təsəvvür yaratmaq üçün müəyyən suallar verilir. Bu suallar şagirdlər tərəfindən cavablandırılır.

Bölmədəki mətnlər öyrənildikcə şagirdlərin mövzu ilə bağlı hansı məlumata malik olduqları öyrənilir, onların həmin mövzu ilə bağlı bilikləri dərinləşdirilir. Bölmənin sonunda şagirdlərin mövzu ilə bağlı fikirləri ümumiləşdirilir və yekunlaşdırılır. Şagirdlərin bölmə tədris edilməmişdən əvvəl söylədikləri fikirlərlə sonrakı fikirlərinin müqayisəsinin aparılması onların dünyagörüşündə, fikirlərində əmələ gələn dəyişikliyin və inkişafın müşahidə edilməsi baxımından əhəmiyyətlidir. Hər bölmənin sonunda şagird mövzu ilə bağlı bildiklərini yekunlaşdırır və fikirlərini ümumiləşdirir. Bu tipli qısamüddətli layihələr şagirdlərdə öyrənilən məlumatın emal edilməsi, sistemləşdirilməsi, yekunlaşdırılması və təqdim edilməsi kimi bacarıqlar formalaşdırır.

I bölmədəki ideyanın və məzmunun öyrənilməsi üçün, ilk növbədə, "Öncə Vətəndir!" ifadəsinin mahiyyəti üzərində iş aparılır. Bu ifadə ilə bağlı şagirdlərin fikirləri öyrənilir, lazım gələrsə, müəllim öz düşüncələrini şagirdlərin fikirlərinə əlavə edir və fikirlərin müqayisəli təhlilini aparır. Bu suala cavab vermək üçün şagirdlərə bölmədəki materiallarla tanış olmaq, mətnləri öyrəndikcə hər mətndən açar cümləni müəyyən etmək, bölmənin sonuna doğru fikir, mülahizə və düşüncələrini ümumiləşdirib vahid nəticəyə gəlmək tövsiyə edilir.

"Ailə və Vətən tərbiyəsi" mətni şagirdlərdə Vətən tərbiyəsinin formalaşdırılması üçün ilk addımların ailədən atılması fikrini formalaşdırır. Bu fikrin müəyyən edilməsi üçün dərslikdə tapşırıqlar verilsə də, müəllim əlavə suallar verməkdə sərbəstdir.

"Ailə və Vətən tərbiyəsi" mətninin davamı və orada ifadə edilən fikirlərin təsdiqi olaraq Səməd Vurğunun "Ananın öyüdü" şeirindən istifadə edilmişdir. Bu şeir, əslində, 1941–1945-ci illərdə baş vermiş İkinci Dünya müharibəsi illərində yazılsa da, məzmun baxımından aktualdır. Ana üçün övlad nə qədər əziz və qiymətli olsa da, Vətənin müdafiəsi daha vacibdir. Ananın döyüş qabağı övladına verdiyi öyüd və nəsihətlər Vətən və vətənpərvərlik tərbiyəsinin kökünün elə ailədən

LAYİHƏ

başlanması fikrini bir daha təsdiq edir. Bu səhifədə verilmiş QR vasitəsilə təqdim edilmiş şeir şagirdlərə dinlədilir, müharibəyə, qanlı döyüşlərə övlad yola salan ana ilə müharibədə olan övladının yolunu gözləyən ananın hissləri müqayisə edilir.

Şeirdən sonra AZƏRBAYCAN RESPUBLİKASINDA ANIM GÜNÜNÜN TƏSİS EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMInın verilməsi hadisələri müasir dövrlə əlaqələndirir.

"Bir qarış torpaq" mətni ilə 44 günlük Vətən müharibəsinə işarə edilir, prezidentin qətiyyətli addımları, onun komandanlığı altında ordumuzun qələbə çalması və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı şagirdlərin fikriləri və bildiyi məlumatlar soruşulur və onların fikirləri mətndə təsvir edilən hadisələrlə əlaqələndirilir. "Müəllim" şeiri Vətən müharibəsində qələmini süngüyə çevirən qəhrəman müəllimlərimizin şərəfinə dərsliyə salınmış, onlardan biri haqqında dərslik müəllifləri tərəfindən yazılmış hekayə təqdim olunmuş, şagirdlərə müvafiq tapşırıqlar verilmişdir. Bu mətnlər şagirdlərdə müzakirə edilən məsələlərlə bağlı fikir söyləmə, mühakimə yürütmə, münasibət bildirmə bacarığının formalaşdırılması baxımından əhəmiyyətlidir.

"İnamın qələbəsi" mətni peşəsindən asılı olmayaraq, bütün insanların müharibə dövründə öz xidmətlərini əsirgəməməsi, bəstəkarların yeni mahnılar yazması, musiqilər bəstələməsi, müğənnilərin mövzu ilə bağlı müxtəlif kliplər çəkdirməsinə işarə edir. "Dan ulduzu görünəndə" mətni müharibənin gedişi, qəhrəman oğullarımızla yanaşı, qızlarımızın da cəbhədəki fəaliyyəti, onların qorxmazlığı, cəsurluğu diqqətə çatdırılır. Bölmə qalib ölkəmizin əzəmətini tərənnüm edən Nəriman Həsənzadənin "Azərbaycan" və Nigar Həsənzadənin Şuşaya həsr edilmiş "Qayıdışın mübarək!" şeirləri ilə yekunlaşır. Hər mətndən çıxan açar cümlə növbəti mətndən sonra istiqamətləndirici taxta parçaları üzərində verilmişdir. Layihənin yekununda şagird həmin fikirləri birləşdirir və bölmə ilə bağlı vahid fikir formalaşdırır. Bu şeirlər vasitəsilə şagirdlərdə baş vermiş hadisələrə yekun münasibət bildirmə, əlaqələndirmə kimi bacarıqlar formalaşdırmaq mümkündür.

Bölmədə dinləmə mətnləri üzərində iş aparmaq üçün suallar verilmiş, dinləmə mətnləri isə MV-də cari planlaşdırma nümunələrinin tərkibində yer almışdır.

Layihənin "Öncə Vətəndir!" adlandırılması təsadüfi deyildir. Bu layihə 2022-ci il sentyabrın 27-də başlanmış və noyabrın 8-də zəfərlə başa çatmış Vətən müharibəsinə həsr olunmuşdur. Mətnlərdən sonra 4 məzmun xətti üzrə standartların reallaşdırılmasını təmin edən tapşırıqlar verilmişdir. Bölmədəki mətnlərə əsasən tərtib edilmiş sual və tapşırıqlar şagirdlərin yaş və qavrama səviyyələrinə uyğun tərtib edilmişdir. Layihənin yekunlaşdırılması bölmənin əvvəlində qarşıya qoyulan məqsədlərin sonlandırılması üçündür.

I bölmədə müəllimlərə iki Kiçik Summativ Qiymətləndirmə nümunəsi təqdim olunmuşdur.

II bölmə "Biz Vətənin sabahıyıq!" adlandırılmışdır. Bölmə məntiqi baxımından I bölmənin davamıdır. I bölmədə *"Nə üçün "Öncə Vətəndir"?"* sualına cavab tapan şagirdlər bu bölmədə artıq vətəndaşı olduğu ölkənin sabahı (yəni gələcəyi) olmaq istəyir. Bölmədə şagirdlərin araşdırma aparması üçün elə ilk dərsdən kifayət qədər istiqamət və plan verilmişdir. Bu bölmədə şagirdlər peşələr, onların tarixi və yaranması, ailə üzvlərinin peşəsi ilə bağlı araşdırmalar aparır, seçdiyi sahənin yaş səviyyəsinə uyğun şəkildə incəlikləri ilə tanış olurlar.

I bölmədə olduğu kimi, bu bölmədə də mətnlərin məntiqi ardıcıllığı, birinin digərinə başlanğıc verməsi diqqətdə saxlanılmışdır. *"Peşə nədir?", "Peşələr necə yaranıb?", "Ailəm və peşə", "Mən kim olmaq istəyirəm"* adlı sorğu, *"Planlaşdırma", "Diplomsuz mühəndis", "Balaca aşpaz", "Köhnə araba", "Sürücü", "Sərhədə gedən yol"* mətnləri şagirdlərdə peşələr haqqında müəyyən fikir formalaşdırır. Bu bölmədə məqsədli şəkildə sadə olduğu qədər də məsuliyyətli peşə sahələri haqqında məlumatı özündə əks etdirən mətnlər verilmişdir. Bu mətnlər vasitəsilə şagirdlərdə peşələrə maraq oyatmaq, onları düzgün istiqamətləndirmək tövsiyə edilir. Eyni prinsip və yanaşmanın gözləndiyi bu bölmədə şagird peşələr və onların qarşılıqlı əlaqəsi, hər bir

LAYİHƏ

sahənin vacibliyi və əhəmiyyəti ilə bağlı tədqiqat və araşdırma aparır, təkliflər verir, müzakirə olunan mövzularla bağlı mülahizələrini bildirir. Bu prosesə valideynlərin cəlb edilməsi, şagirdlərin bacarıqları üzrə istiqamətləndirilməsində birgəfəaliyyət səmərəli nəticələr verə bilər.

Müəllim I bölmə ilə əlaqə yaratmaqla müəllim və bəstəkarlıq peşələrini xatırlada və müvafiq suallar verə bilər.

I bölmədə olduğu kimi, burada da zəruri dil qaydaları, dil qaydalarını tətbiq etmək üçün çalışmalar, yazı tapşırıqları verilmişdir. Yazı məzmun xəttini reallaşdırmaq üçün II bölmədə mövzuya uyğun inşa, esse və hekayənin (4.1.1.), ərizənin yazılması (4.1.4.), əsas nitq hissələrinin yazılış qaydaları (4.1.3.) və s. ilə bağlı müvafiq tapşırıqlar yer almışdır. Yazılan hekayə, inşa və esselərin çox sadə, yığcam olması üçün şagirdə istiqamət və lazımi göstərişlər verilmişdir.

II bölmədə müəllimlərə iki Kiçik Summativ Qiymətləndirmə nümunəsi təqdim olunmuşdur.

III bölmə "Sağlam və təhlükəsiz gələcək" adlanır. 2 və 3-cü bölmələr arasında da sıx əlaqə vardır. Peşə seçib onun incəliklərinə dərindən bələd olan şəxs sağlam və təhlükəsiz həyatın təminatçısı olmalıdır. Eyni zamanda Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş təhlükəsiz həyat yaşamaq onun hüququdur. Şagirdlərə izah edilməlidir ki, bu hüquqlardan istifadə üçün hər bir vətəndaş öz vəzifələrini dəqiq və mükəmməl yerinə yetirməlidir. Bölmədə verilmiş mətnlər şagirdlərdə dürüstlük və düzgünlük, tapşırılan işi vaxtında yerinə yetirmək, yalan danışmamaq ("Yalan"); xeyirxahlıq və yaxşılıq etmək, etdiyi yaxşılıqlardan insanların bəhrələnməsi *(bu mətnin adlandırılması şagirdlərə tapşırılmışdır)*, hamının düzgün və səmərəli faydalana biləcəyi işlər görmək, əldə ediləndən düzgün və faydalı istifadə etmək ("Dinamit"); etibarlılıq, sədaqət, verilən tapşırığı dəqiq və məsuliyyətlə yerinə yetirmək, sınaqlardan və çətinliklərdən üzüağ çıxmaq ("Yol"); dostluq və qardaşlıq şəraitində dinc yanaşı yaşamaq ("İki kənd"); müharibələrdən, fəlakət törətməkdən uzaq olmaq ("Bizim planet") kimi xüsusiyyətləri formalaşdırmaq baxımından əhəmiyyətlidir.

Bu mətnlər vasitəsilə paxıllıq, rəqabət, qeybət, həsəd, kin, yalan danışmaq kimi mənfi xüsusiyyətlər pislənir. Mətnlərdən sonra verilmiş tapşırıqlar ideya və məzmunun açılmasına xidmət edir. Əvvəlki bölmələrdə olduğu kimi, burada da dinləmə, oxu, danışma və yazı məzmun xətlərini əlaqələndirmək üçün müvafiq tapşırıqlar işlənib-hazırlanmışdır. Bölmədə iki KSQ nümunəsi verilmişdir.

IV bölmə "Ailədə ekologiya" adlanır. Bu bölmə vasitəsilə şagirdlərə izah edilir ki, vətən tərbiyəsi, peşə seçimi tərbiyəsi kimi ekologiya tərbiyəsinin də əsası ailədə qoyulur. Layihənin "Planetimiz gələcəkdə" adlandırılarkən əvvəlki layihələr və onların mahiyyəti nəzərə alınmışdır. Belə ki Vətənini düşünən, onun layiqli vətəndaşı, mütəxəssisi olmaq istəyən şəxs sağlam və təhlükəsiz həyatı yaşamaq üçün planetin gələcəyini düşünməli, onun ekoloji təmiz saxlanmasının qayğısına qalmalıdır. Bölmədə verilmiş "Ekologiya ailədə" (araşdırma); "Sınmış budaq", "Seyranın göyərçinləri", "Təbiət özü özünü tənzimləyir", "Haqqın səsi" mətnləri şagirdlərdə təbiətə sevgi oyadır, onları ekologiyanı və təbiəti tullantılarla çirkləndirməməyə, təbiətin nizamını pozmamağa çağırır.

Digər bölmələrdə olduğu kimi, bu bölmə də layihənin yekunlaşdırılması ilə bitir, bu məqsədlə şagirdlərə müvafiq tapşırıqlar və istiqamətlər verilir.

Bu bölmədə də müəllimlər üçün iki KSQ nümunəsi təqdim edilmişdir.

Qeyd. KSQ-də tapşırıqların sayını artırmaq, onların formasını dəyişmək və analoqlarını hazırlamaqda müəllim sərbəstdir.

LAYİHƏ

Məzmun standartları və onların şərhi

Dinləmə

Dinləmə şifahi nitqin eşidilməsi və qavranılmasıdır. Şagird mövzu ilə bağlı müxtəlif mənbələrdən məlumatı dinləyir, lazım olan informasiyanı seçir, qeydlər aparır. Dinlədiyi mətndə əsas fikri, lazım olan faktları seçməyi bacarır, həmin fikir və faktlar ətrafında mülahizələr yürüdür.

Müəllim dərslikdə dinləmə mətnləri üzrə təqdim olunmuş sualların cavablandırılması üçün şagirdə mətni dinləyərkən diqqətli olmağı tövsiyə etməlidir.

Dinləmə mətnləri üzərində işləyərkən şagirdlər aşağıdakıları bacarmalıdır:

- dinlədiyi mətnin giriş hissəsini müəyyən edir;
- dinlədiyi mətnin əsas hissəsini müəyyən edir;
- dinlədiyi mətnin nəticə hissəsini müəyyən edir;
- dinlədiyi mətnin məzmununu izah edir;
- mətnin məzmununa münasibət bildirir;
- mətndəki əsas fikri müəyyən edir;
- mətndəki hadisələrə münasibət bildirir;
- mətndəki obrazlara münasibət bildirir;
- sözlərin düzgün tələffüzünə diqqət yetirir;
- mətnlə bağlı suallara cavab verir;
- dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir;
- mətndən lazım olan faktları seçir;
- mətndəki fakt və hadisələri fərqləndirir;
- mətndən açar sözləri seçir;
- mətndəki söz, ifadə və cümlələrin mənasını izah edir.

Danışma

Danışma nitq fəaliyyətidir. Şagirdlər müzakirə olunan mövzu ilə bağlı fikirlərini bildirir, müxtəlif fikirlərə münasibət bildirir, müzakirələrə qoşulur, nitqini qurur. Danışma həm dinləmə, həm də oxu mətnlərindən sonra həyata keçirilir.

Danışma bacarığı sinifdə müzakirələr zamanı formalaşır. Şagirdin fikir bildirməsi, fikirlərini ifadə etməsi üçün ona müəllim lazımi dəstəkləyici mühit yaratmalıdır.

Dərslikdə şagirdin müzakirə olunan mövzu ilə bağlı danışması, problemi müəyyənləşdirməsi və münasibət bildirməsi, müqayisələr aparması, təkliflər verməsi üçün kifayət qədər tapşırıq modelləri vardır.

LAYİHƏ

Danışmanı reallaşdırmaq üçün dərslikdə şəkillər və onlar üzərində işləmək üçün suallar verilmişdir. Müəllim uyğun bildiyi digər şəkillərdən də istifadə edə bilər.

Danışma zamanı şagirdlər aşağıdakıları bacarmalıdır:

- sait və samitləri düzgün tələffüz edir;
- sözləri düzgün vurğu ilə tələffüz edir.
- jest və mimikalardan nitqinə uyğun istifadə edir;
- nitqində temp və ritmdən istifadə edir.
- nitqində fasilədən istifadə edir.
- fakt və hadisələri seçə bilir;
- fakt və hadisələri fərqləndirə bilir;
- fikrini əsaslandırarkən faktlardan yerində istifadə edir;
- şəkilləri təsvir edir;
- şəkillər əsasında dialoq və mətn qurur;
- mövzu ilə bağlı fikirlərini bildirir;
- fikirlərini bildirmək üçün zəruri söz və ifadələrdən istifadə edir;
- mövzu ilə bağlı cümlə (cümlələr) qurur;
- müşahidə etdiyi əşya və hadisələri şifahi təsvir edir;
- cümlələr əsasında rabitəli mətn tərtib edir;
- çatdırmaq istədiyi əsas fikri müəyyən edir;
- əsas fikrə münasibət bildirir;
- obrazlara münasibət bildirir;
- hadisələrin sonluğunu fərqli təqdim etmək üçün təkliflər verir;
- dinlədiyi və ya oxuduğu mətnin məzmununu danışır.

OXU

Oxu müxtəlif üslubda olan mətnlərin şüurlu, düzgün və ifadəli oxusunun təşkil edilməsidir.

Oxu söz ehtiyatını artırmaqla yanaşı, şagirdlərin nitqini, özünüifadə bacarıqlarını *(şifahi və yazılı şəkildə)* inkişaf etdirir. Oxu düzgün, sürətli və ifadəli oxu vərdişləri formalaşdırır, fakt və hadisələri müəyyən etmək, onları qruplaşdırmaq, müqayisə etmək və s. üçün şərait yaradır. Oxu mətnləri üzərində tapşırıqlar oxudan əvvəl, oxu zamanı və oxudan sonra icra edilir.

Oxudan əvvəl şagird mətnin adına münasibət bildirir, onu adlandırır, mətndə nədən və ya kimdən danışılacağı barədə fikir yürüdür, mülahizələrini bildirir, mətnlə bağlı orfoqrafik və orfoepik tapşırıqları icra edir. Hadisələri proqnozlaşdırır, onların necə davam edəcəyi barədə öz mülahizələrini bildirir və s.

Oxu zamanı mətni düzgün, şüurlu, sürətli və ifadəli oxumağı bacarır, mətnə uyğun şəkillər əsasında danışır, şəklin məzmuna uyğunluğunu müəyyən edir, mətnlə bağlı sualları cavablandırır.

Oxudan sonra mətnin məzmununun hansı səviyyədə mənimsənildiyini (obrazlar, əsas fikir və s.) öyrənmək üçün sual və tapşırıqlar üzərində iş aparılır, mətnin sonuna yaradıcı yanaşılır.

LAYİHƏ

Oxu zamanı şagirdlər aşağıdakıları bacarmalıdır:

- Mətni intonasiya ilə oxuyur;
- Oxu zamanı intonasiyanın tələblərinə əməl edir;
- Oxu zamanı fasilə və tempi gözləyir;
- Oxu zamanı şəkilçilərin, sözlərin və cümlələrin tələffüzünə diqqət yetirir;
- Əsas nitq hissələrinin qrammatik mənasını izah edir;
- Əsas nitq hissələrinin nitqdə rolunu müəyyən edir;
- Mətnin tərkib hissələrini müəyyən edir;
- Mətnin tərkib hissələrinin əlaqələndirilməsinə diqqət yetirir;
- Mətnin tərkib hissələrinə müvafiq hadisələrə münasibət bildirir;
- Oxu zamanı cümlələrarası əlaqəni müəyyən edir;
- Oxu zamanı abzaslararası əlaqəni müəyyən edir.

Dərslikdə oxu üçün müxtəlif mətnlər verilmşdir. Mətnin oxusunu düzgün təşkil etmək vacibdir. Oxu eşitmə, görmə, tələffüz, təhlil və sözün mənasına əsaslanan bir prosesdir. Oxu şagirdlərin nitqini inkişaf etdirməklə yanaşı, onlarda hadisə və anlayışlar haqqında təsəvvür yaradır, onların lüğət ehtiyatını zənginləşdirir, fikirlərini şifahi və yazılı şəkildə ifadə etmək bacarığını artırır. Şüurlu, düzgün, sürətli və ifadəli oxu şagirdlərdə oxunmuş mətnin məzmununu müxtəlif formalarda – yığcam və geniş nəqletmə bacarığı formalaşdırır. Oxu zamanı məntiqi və tənqidi təfəkkürün inkişaf etdirilməsi üçün mətndə məntiqi əlaqələrin tapılması, əşya və hadisələrin müqayisəsi, obrazların xarakteristikası, ümumiləşdirmə və nəticələr üzərində iş aparılır.

Mətni oxuyarkən aşağıdakıları diqqətdə saxlamaq tövsiyə edilir:

- Mətnin adı və ona münasibət bildirilməsi;
- Mətnə yeni adın verilməsi və əsaslandırılması;
- Mətndəki problemin müəyyənləşdirilməsi;
- Mətndəki faktların seçilməsi;
- Mətndə ifadə olunan fikirlərə tənqidi yanaşma;
- Mətn əsasında suallar tərtib etmək;
- Müəllifin fikirlərinə və mövqeyinə münasibət bildirmək.

Diqqətli oxu məzmunun mənimsənilməsi üçün vacib faktordur. Oxunun müxtəlif modelləri vardır: səsli, səssiz, sürətli oxu, qeydlər götürməklə oxu, proqnozlaşdırılmış oxu, fasiləli oxu və s.

Səsli oxu

Səsli oxuda oxunan mətndəki sözlərin düzgün tələffüzü, sözlərin ifadə etdiyi mənanın şagirdlərə öyrədilməsi diqqətdə saxlanılır. Səsli oxu şagirdlərin oxu səviyyəsini müəyyənləşdirməklə yanaşı, onların nitq bacarıqlarını da inkişaf etdirir. Səsli oxunun ən əsas şərti sözlərin düzgün tələffüz edilməsinə diqqət yetirmək, şagirddə oxumağa həvəs yaratmaq və normal tempdə oxumasını təmin etməkdir. Səsli oxuda sürətli oxu deyil, intonasiya ilə oxu daha vacibdir.

Səsli oxunu müxtəlif üsullarla təşkil etmək olar.

1-ci üsul. Əvvəlcə müəllim səlis və aydın, hamının eşidəcəyi səs tonu ilə mətni oxuyur. Daha sonra məzmunun qavranma səviyyəsini öyrənmək üçün şagirdlərə sual və tapşırıqlar verir.

2-ci üsul. Müəllim şagirdləri qruplara ayırır və hər qrupdan bir şagirdə mətnin müəyyən hissəsini səsli oxumağı tapşırır və suallarla şagirdlərə müraciət edir.

3-cü üsul. Şagirdlər növbə ilə mətni oxuyur və müəllimin suallarını cavablandırırlar.

Dərslikdə verilmiş mətnlərin hər biri səsli oxudan istifadə edilməklə oxuna bilər.

LAYİHƏ

Qeydlər götürməklə oxu

Belə oxu şagirdlərdə fəallığı artırır, vacib məlumat, fikir və hadisələri yadda saxlamağa imkan verir. Səsli və səssiz oxu zamanı şagirdlərə oxunun məzmunu ilə bağlı qeydlər aparmaq təklif edilir. Şagirdlər iş vərəqlərinə oxuduqları mətndə əhəmiyyətli hesab etdikləri məqamları qeyd edirlər. Oxu bitdikdən sonra şagirdlərin qeydləri müzakirə edilir.

Bu oxu fərdi və ya cütlər şəklində icra edilə bilər.

Qeydlər götürməklə oxunu təşkil etmək üçün şagirdlərə aşağıdakı iş vərəqi təqdim edilə bilər:

Mətnin adı	Mətnin tipi *(nəzm və ya nəsr şəklində olması)*	Mətndə əhəmiyyətli hesab etdiyim			
		söz	söz birləşməsi	cümlə	abzas

“Ailə və Vətən tərbiyəsi”, “İnamın qələbəsi”, “Qayıdışın mübarək!”, “Bizim planet”, “Diplomsuz mühəndis”, “Təbiət özü özünü tənzimləyir” və s. mətnlərin oxusunu bu üsuldan istifadə etməklə təşkil etmək olar.

Proqnozlaşdırılmış oxu

Bu oxu modelindən şagirdləri daha da fəallaşdırmaq, müxtəlif yollarla onlarda mətnə qarşı maraq yaratmaq üçün istifadə edilir. Proqnozlaşdırılmış oxunu həyata keçirmək üçün bir neçə üsuldan istifadə etmək olar:

1-ci üsul. Şagirdlər mətnin müəyyən hissəsini oxuduqdan sonra müəllim şagirdlərə aşağıdakı formada iş vərəqi təqdim edir, mətndə baş verən və baş verə biləcək hadisələri yazmağı tapşırır. Şagirdlər I və II sütunu tamamlayırlar.

Mətndə baş verən hadisələr	Mətndə baş verəcək hadisələr	Hadisələrin nəticələnməsi
1.	1.	
2.	2.	
3.	3.	

• Müəllim mətnin davamını *(bir hissəsini)* oxuyur və şagirdlər mətndəki hadisələrin necə nəticələnəciyini üçüncü sütunda yazırlar.

2-ci üsul. Müəllim tərəfindən mətnin bir hissəsi səsli oxunur və mətndəki hadisələrin necə davam edəcəyi və nə ilə nəticələnəcəyi ilə bağlı suallar yazırlar. Sonra isə mətnin oxusu davam etdirilir və sualların cavabı mətndə tapıldıqca onların üstündən xətt çəkilir. Bütün suallara cavab tapılması şagirdin diqqətli dinləmə, hadisələri təxminetmə və ümumiləşdirmə bacarıqlarının olması deməkdir. Bu üsulla proqnozlaşdırılmış oxunu icra etmək üçün şagirdə aşağıdakı iş vərəqini təqdim etmək olar:

Hadisələrin necə davam edəcəyi ilə bağlı suallar	Hadisələrin nə ilə nəticələnəcəyi ilə bağlı suallar	Mətndə suallarıma cavab tapıldı.	Mətndə suallarıma cavab tapılmadı

LAYİHƏ

3. Müəllim mətni oxumazdan əvvəl mətnin adı, mətnə uyğun illüstrasiyalar, rəsmlər, fotolar və s. istifadə edərək şagirdlərə məzmunla bağlı fərziyyələr irəli sürməyi tapşırır. Müəyyən hissədən sonra oxunu dayandırır, *"Sizcə, hadisələrin ardı necə ola bilər?", "Mətnin davamında hadisələrin düşündüyünüz kimi baş verməsinin səbəbi nədir?"* kimi suallar verərək şagirdləri mətn üzərində düşünməyə istiqamətləndirir.

"Bir qarış torpaq", "Ananın öyüdü", "Köhnə araba", "Sərhədə gedən yol", "Təbiət özü özünü tənzimləyir", "İnamın qələbəsi", "Dan ulduzu görünəndə" və s. mətnlərin oxusunu bu üsuldan istifadə etməklə təşkil etmək olar.

Sual verməklə oxu

Müəllim şagirdlərə mətnin adına əsasən onun məzmunu, mətndə nədən danışılması ilə bağlı suallar hazırlamağı tapşırır. Bu, oxudan əvvəl, oxu zamanı və ya oxudan sonra icra edilə bilər. Bu, şagirdləri mətn üzərində düşünməyə təşviq edir. Sual verməklə oxu metodu iki formada hayata keçirilir:

1. Şagirdlər mətni oxuyarkən onlarda yaranan sualları yazır, sonra isə qruplara bölünərək həmin suallara cavab axtarırlar.

2. Şagirdlər oxuya başlamazdan əvvəl mətnin adına əsasən, oxu zamanı isə onlarda yaranan sualları lövhəyə yazırlar. Mətnə əsasən suallara cavab tapıldıqca onların üstündən xətt çəkirlər.

3. "Peşələr necə yaranıb?", "Planlaşdırma", "Sürücü", "Müəllim", "Sınmış budaq", "Haqqın səsi" və s. mətnlərin oxusunu bu üsuldan istifadə etməklə təşkil etmək olar.

Dərinləşdirilmiş oxu

Bu oxu zamanı bütün təfərrüatlara diqqət yetirilir və onlar təhlil edilir. Dərinləşdirilmiş oxu zamanı şagird mətni oxuyur və başa düşmədiyi yerləri aydınlaşdırmaqla yanaşı, mətndəki problem, hadisə və faktlara tənqidi münasibət bildirir, güclü və zəif məqamları tapır, fikir və qənaətləri müstəqil şərh edir.

"Seyranın göyərçinləri", "Ailə və Vətən tərbiyəsi", "Azərbaycan", "Salam, əsgər", "Haqqın səsi" və s. mətnlərin oxusunu bu üsuldan istifadə etməklə təşkil etmək olar.

İşarələyərək oxu

Bu oxuda əsas məqsəd şagirdlərə mövzunu anlamağa kömək edən açar sözləri müəyyənləşdirməyi və əsas hissələri seçməyi öyrətməkdir. Şagirdlər əsas hissələri mətn üzərində işarə edir, seçdikləri həmin hissələri öz cümlələri ilə ifadə edərək yeni mətn yaradırlar.

"Yalan", "Yol", "İki kənd", "Bizim planet" və s. mətnlərin oxusunu bu üsuldan istifadə etməklə təşkil etmək olar.

Müzakirəli oxu

Bu oxu modeli şagirdlərə mətnin mövzusu ilə bağlı biliklərini, fikir, hiss və düşüncələrini yoldaşları ilə paylaşmağa, qarşılıqlı fikir mübadiləsi aparmağa, müzakirə edilənlərə müxtəlif tərəflərindən baxmağa şərait yaradır. Mətni hissə-hissə və ya bütöv şəkildə oxunur, müzakirə bütün siniflə, yaxud qruplarla keçirilir. Müzakirənin sonunda isə ümumi fikirlərdən ibarət mətn tərtib olunur.

Müzakirədə bütün şagirdlərin iştirakı və bir-birlərinin fikrinə hörmətlə yanaşmanı təmin etmək lazımdır.

II bölmədə verilmiş mətnlərin oxusunda bu üsuldan istifadə etmək olar.

LAYİHƏ

Rollu oxu

Bu oxu şagirdlərə mətnin quruluşunu, dilini, obraz və personajların xarakterini anlamağa kömək edir. Şagirdlər məzmununda heç bir dəyişiklik etmədən mətni, yaxud mətni oxuduqdan sonra onu dialoq şəklində tərtib edirək rollar vasitəsilə təqdim edirlər.

"Ananın öyüdü", "Bir qarış torpaq", "İnamın qələbəsi", "Sərhədə gedən yol", "Yalan", "Yaşıl planet", "Sınmış budaq", "Seyranın göyərçinləri" mətnlərinin oxusunda bu üsuldan istifadə etmək olar.

Əzbərləmə

Əzbər şagirdlərin yaddaşını gücləndirir, lüğət tərkibini, ana dilindən düzgün, səlis və gözəl istifadə etməyi öyrədir. Şagirdlər yaş səviyyələrinə, ehtiyac və maraq dairələrinə uyğun mətnləri (şeirləri, yaxud şeirin müəyyən bir hissəsini, bir bəndini; kəlamları və s.) müəyyən müddət ərzində əzbərləyir və növbəti dərsdə təqdim edirlər.

QEYD. Əzbərləməkdə çətinlik çəkən şagirdi hər hansı bir materialı əzbərləməyə məcbur etmək olmaz.

Müqayisəli oxu

Müqayisə aparmaq şagirdlərin təfəkkür və bacarıqlarını inkişaf etdirir. Oxudan sonra müəllim şagirdlərdən əvvəl oxuduqları və ya öyrəndikləri mətnlərlə hazırkı mətnin oxşar cəhətlərini soruşur, onlara mətnləri məkan, zaman, obraz, mövzu, ideya, hadisə və personajlara görə müqayisə etməyi və onlar arasında əlaqə yaratmağı tapşırır. Şagirdlərə "Bu əsərin mövzusu ilə əvvəllər oxuduğunuz əsərin mövzusu arasında nə əlaqə var?", "Bu iki əsərin obrazları arasında hansı oxşarlıqlar (və ya fərq) var?" kimi suallarla müraciət edilir.

Əsərlərin müqayisəsini apararkən aşağıdakı iş vərəqindən istifadə etmək olar: *(2 və ya 3 əsərin müqayisəsinin aparılması müəllim tərəfindən müəyyənləşdirilir)*

	Müqayisə edilən mətnlər		
	"Diplomsuz mühəndis"	**"Balaca aşpaz"**	**"Köhnə araba"**
Oxşar cəhətləri	1. 2. 3.		
Fərqli cəhətləri	1. 2. 3.		

Müqayisə aparmaq üçün **Venn diaqramı**ndan da istifadə etmək olar.

Bilirəm, İstəyirəm bilim, Öyrəndim (BİBÖ)

BİBÖ informativ mətnlərlə işləmək üçündür. Şagirdlər mətni oxumamışdan əvvəl cədvəlin (səh. 15) I və II sütunlarını cavablandırırlar. Şagirdin aydınlaşdırmaq istədiyi suallar onun oxu məqsədini təşkil edir. Mətnlə tanış olduqdan sonra isə III sütuna fikirlər yazılır. II sütunda açıq qalmış suallara cavab tapmaq üçün müvafiq mənbə axtarmaq lazımdır.

Bilitəm	**İstəyirəm bilim**	**Öyrəndim**
1.		
2.		
...		

LAYİHƏ

“Dinamit”, “Təbiət özü özünü tənzimləyir”, “Peşələr necə yaranıb?”, “Planlaşdırma” mətnlərinin oxusunda bu üsuldan istifadə etmək olar. Şifahi müzakirələr zamanı şagirdlərin nitqinə, nitqin düzgün qurulmasına diqqət yetirmək azımdır.

Nitq mədəniyyəti nitqin müxtəlif şəraitində məzmun və məqsədə uyğun olaraq ədəbi dilin yazılı və şifahi formalarından, ifadəlilik vasitələrindən istifadə edə bilmə bacarığıdır. Aydınlıq, düzgünlük, sadəlik, dəqiqlik, yığcamlıq, zənginlik, təmizlik, ifadəlilik, orijinallıq və s. düzgün və mədəni nitqi şərtləndirən tələblərdir. Nitqinin aydın olması üçün şagirdlər mövzu ilə bağlı əlavə məlumata malik olmalıdırlar. Dərslikdə şagirdlərə bu məqsədlə mövzu ilə bağlı araşdırmalar aparmaq, məlumat toplamaq və sistemləşdirmək kimi tapşırıqlar verilmişdir. Ətraflı məlumata malik şagirdlər fikirlərini uyğun ifadə vasitələri seçməklə aydın, sadə, geniş, lazım gəldikdə isə yığcam, lakonik şəkildə təqdim etməyi bacarmalıdırlar. Sözləri düzgün tələffüz etmək, zəngin söz ehtiyatına malik olmaq, intonasiya, səs tonu, temp, ahəng də gözəl nitqin vacib tələblərindən hesab edilir.

Şagirdlərin nitqini formalaşdırmaq üçün daim diqqətdə saxlanmalı və onlara aşılanmalı məsələlər:

- Mövzu ətrafında əvvəlcə düşünmək, lazımi material və faktlar toplamaq;
- Toplanılan materialları sistemləşdirmək və ümumiləşdirmək;
- Söz və qrammatik formaları düzgün və aydın tələffüz etmək;
- Sözün mənasına bələd olmaq, ondan yerində və düzgün istifadə etmək;
- Cümlələri düzgün qurmaq;
- Məntiqi vurğulu sözlərə diqqət yetirmək;
- Məzmuna uyğun intonasiya seçmək;
- Mənası aydın olmayan sözləri izah etmək;
- Fikirlərini, gəldiyi nəticəni faktlar, nümunələr, arqumentlərlə əsaslandırmaq;
- Danışarkən məntiqi ardıcıllığa, cümlə və abzaslararası rabitəyə diqqət yeturmək;
- İstifadə etdiyi mənbəni (əsər, məqalə, radio və televiziya verilişləri və s.) göstərmək;
- Yoldaşları ilə əks əlaqə yaratmaq, müzakirələrdə dözümlü və səmimi olmaq, lazım gələrsə, əlavə şərhlər vermək

Göstərilənlərlə yanaşı, orfoqrafiya və durğu işarələrinə əməl edilməsi düzgün yazılı nitq mədəniyyətinin formalaşmasına yardımçı olacaqdır.

Əlbəttə, şifahi və yazılı nitqin formalaşması üçün yuxarıda göstərilənlər birdən-birə deyil, il ərzində şagirdlərlə mütəmadi aparılan düzgün işin nəticəsində tədricən meydana çıxacaqdır.

Yazı

Yazı vasitəsilə şagirdlər digər standartlar reallaşarkən əldə etdiyi, öyrəndiyi məlumatları müxtəlif mətn formaları şəklində təqdim edir, araşdırmaları, sorğuları və tədqiqatları əsasında təqdimatlar hazırlayır.

Yazı zamanı şagirdlər aşağıdakıları bacarmalıdır:

- sözləri düzgün yazır;
- sözlərin mənasına bələd olaraq onlardan düzgün istifadə edir;
- cümlələri qurur;
- cümlələr əsasında kiçik mətnlər tərtib edir;
- durğu işarələrindən düzgün istifadə edir;
- zəruri dil qaydalarını bilir;
- əsas və köməkçi nitq hissələrini fərqləndirir;

LAYİHƏ

- əsas və köməkçi nitq hissələrinin yazılış qaydasını bilir;
- əsas və köməkçi nitq hissələrindən yerinə görə düzgün istifadə edir;
- ərizə və tərcümeyi-hal yazır;
- mətn formalarını fərqləndirir;
- müxtəlif formalarda mətn hazırlayır;
- yazacağı fikirlər üçün forma müəyyən edir;
- mətn hazırlamaq üçün plan tərtib edir.

Bu bacarıqlara yiyələnən şagird sadə, yaş səviyyəsinə uyğun şəkildə müxtəlif formada mətn hazırlamağı, hadisələrə münasibət bildirməyi, obyekt, anlayış və hadisələri təsvir etməyi və s. bacarır.

Dərslikdə müxtəlif mətn formalarının, təqdimatların hazırlanması üçün plan və istiqamətlər verilmişdir.

Müəllim KSQ keçirərkən, ümumiləşdirici dərs zamanı, qurduğu dərsdən asılı olaraq ayda 2 dəfə imla yazdıra bilər. İmlanın müxtəlif növləri vardır. Bütün dərsi imlaya həsr etmək doğru olmazdı. Məsələn, lüğət üzrə imlaya 10 dəq kifayətdir. Söz sayını müəyyənləşdirməkdə müəllim sərbəstdir. Tədris ilinin əvvəlindən sonuna qədər söz sayı 15–30 aralığında dəyişə bilər. İmlaların yoxlanması üçün meyarlar əvvəlcədən müəyyənləşdirilməlidir.

Öyrədici imlalar. Bu imlaların mətnləri, əsasən, rabitəsiz və rabitəli mətnlərdən təşkil olunur. Öyrədici imlaların aşağıdakı növləri var:

Xəbərdarlıqlı imla. Xəbərdarlıqlı imlada səhvlərin qarşısını almaq üçün çətin sözlərin yazılışı haqqında şagirdlərə əvvəlcədən izahat verilir. Bu imla üçün ayrı-ayrı cümlələrdən ibarət olan və ya rabitəli mətn seçilir. Mətn əvvəlcədən təhlil olunur və cümlələrdə, yaxud bütün mətndə çətin sözlər izah edilir.

Xəbərdarlıqlı imla təxminən aşağıdakı qaydada aparılmalıdır:

✓ Müəllim cümləni oxuyaraq, çətin sözləri göstərir və onların düzgün yazılışını izah edir. Məs.: Kar və cingiltili samitlərin yazılışını öyrətmək üçün müəllim izah edir ki, bir çox sözlərin sonunda cingiltili samitlərin yazılmasına baxmayaraq, müəyyən hallarda onlar karlaşmış şəkildə tələffüz edilir: *kənd, qanad* bu kimi və s. sözlərdə "d" samiti [t] kimi; *ağac, pələng* sözlərinin sonunda "c", "g" samitləri isə [ç], [k] kimi tələffüz edilir.

✓ İmlanın mətni əvvəlcədən şagirdlərə verilir, onlar həmin mətnlə tanış olur, çətin qaydaları öyrənir, sonra sinifdə müəllimin diktəsi ilə *(mətnə baxmadan)* yazırlar.

✓ Xəbərdarlıqlı imlanı dərslikdəki çalışmalar üzərində də aparmaq olar. Belə halda yazıları müəllimin oxuyub təhlil etməsinə ehtiyac qalmır, çünki şagirdlər müəllimin diktəsi ilə yazıb qurtardıqdan sonra dərsliyi açıb yazdıqlarını yoxlayır, səhvlərini özləri tapıb düzəldirlər.

Komentarili imla. Bu imlada çətin orfoqramların təhlili yazı prosesində aparılır. Müəllim mətni diktə edir, müəyyən söz haqqında qaydanın izahını verir, yaxud şagirdlərdən biri izah edir.

Yaradıcı imla. Yaradıcı imlada yeni sözləri mənimsətmək və ya yazı qaydalarını möhkəmləndirmək üçün şagirdlərə sozlər verilir *(yaxud yazı lövhəsində yazılır)*, onlar həmin sözlərdən cümlələr düzəldib yazırlar.

Burada verilmiş sözlərə şagirdlər tərəfindən müstəqil olaraq əlavə sözlər artırılır. İmlanın "yaradıcı" tərəfi də buradan ortaya çıxır. Şagirdlərin səhv buraxmalarına yol verməmək üçün ya-

LAYİHƏ

radıcı imlanı təxminən aşağıdakı qaydada aparmaq tövsiyə edilir. Yaradıcı imla üçün lazım olan sözlər yazı taxtasında yazılır. Məsələn, müəllim taxtada orfoqramı eyni tipli olan bu sözləri yazır: ömür, əsil, əsir, sinif və s. Cümlələrə əlavə ediləcək sözlər qabaqca söylənilir, sonra isə onların yazı qaydası izah edilir. Bu hazırlıqdan sonra şagirdlərə müstəqil olaraq cümlə yazmağa icazə verilir. Yardımçı imladan ev tapşırıqları üçün də istifadə edilməlidir.

İzahlı imla. İzahlı imlanın mətni bütövlükdə yazdırılır, sonra şagirdlərə cümlə-cümlə oxutdurulur və qaydalara aid izahat tələb edilir. Bəzən mətnin hər bir cümləsi yazıldıqdan sonra da izahat tələb etmək olar.

Sərbəst imla. Müəllim sərbəst imlanı aparmaq üçün əvvəlcədən oxunmuş hekayə və ya təsviri əsərlərdən bitmiş bir parçanı ayırmalıdır. Bu mətnin həcmi təxminən 17–20 çap sətri qədər olmalıdır: müəllim həmin mətni 5–6 yerə ayıra bilər. Müəllim mətni bir dəfə bütöv, sonra isə qabaqcadan ayırmış olduğu kiçik parçalar üzrə bir-bir aramla oxuyur. Hər kiçik parçanın oxusu bitdikdə, müəllim fasilə edir və şagirdlərə həmin parçanı yazmalarını tapşırır. Bu qayda üzrə mətnin bütün qalan parçaları yazdırılır.

Şagirdlər həmin parçanı məzmuna xələl gətirməmək şərti ilə, öz sözləri, öz cümlələri ilə yazmağa çalışmalıdırlar.

Yazı bitdikdən sonra iki-üç dəqiqə ərzində şagirdlər öz yazılarını yoxlayır, səhvlərini düzəldir və yoxlamaq üçün dəftərlərini (iş vərəqlərini) müəllimə verirlər.

Sərbəst imlanın orta məktəbin V–VIII siniflərində aparılması tövsiyə edilir. Bu yazı növünü səmərəli təşkil etdikdə:

1) şagirdlərin orfoqrafiya və durğu işarələrinə aid bilikləri möhkəmlənir;
2) onların şüurunda plan düzəltmək vərdişləri dərinləşir;
3) onlara başqasının fikrini düzgün ifadə etmək üçün istiqamət və bacarıq verilir;
4) şagirdlərdə cümlənin üslubu üzərində çalışmaq vərdişləri möhkəmlənir.

Bu yazı növü daha çox nitqin inkişafı üçün əhmiyyətli olub, şagirdləri ifadə yazıya hazırlayır.

Seçmə imla. Bu imla diktə edilən mətndən yalnız müəyyən sözləri yazmaq məqsədilə aparılır. Müəllim mətni cümlə-cümlə deyir, şsgirdlər isə müvafiq orfoqramlı sözləri seçib yazırlar.

“Özümü yoxlayıram” imlası. Bu imla növündə şagird yazı zamanı hansı sözdə hansı hərfin yazılışını yaxşı bilmirsə, onun altından işarə qoyur. İmlanı yazıb qurtardıqdan sonra həmin işarələrə baxıb, müvafiq sözləri ya lüğətdən, ya dərslikdən istifadə etməklə, ya da yoldaşlarından soruşmaqla yoxlayır. Səhvə yol veribsə, düzəliş aparır.

“Özümü yoxlayıram” prosesi ilə əlaqədar əməliyyatı təkcə imlada yox, ifadə, inşa yazılarda da aparmaq olar.

Yoxlama imla

Bu imlanın keçirilməsi müəllimdən xüsusi hazırlıq tələb edir. İmla mətni müəllimin özü tərəfindən seçilir. Mətn lazımi tələblərə cavab verməli, elmi, bədii, kütləvi əsərlərdən, qəzet, jurnal məqalələrindən seçil bilər. Mövzunun aktuallığı, yaş səviyyəsinə uyğunluğu diqqətdə saxlanmalıdır. İlk növbədə, məzmun tam anlaşıqlı olmalı, proqram materialı üzrə öyrənilmiş 5-6 söz yazılışı çətin olan söz işlənməlidir. Əgər mətndə lazımi sözlər yoxdursa, müəllim əlavə edə, yaxud qarşılığı ilə əvəz edə bilər.

LAYİHƏ

Yoxlama imla şagirdlərin imla yazacağı dövrəqədərki öyrəndikləri zəruri dil və durğu işarələri qaydalarını əhatə etməlidir. İmla yazdırarkən müəllim şagirdləri mətnin məzmunu ilə tanış etmək üçün əvvəlcə onu bütöv şəkildə ifadəli oxumalıdır. Sonra mətn cümlə-cümlə diktə olunur. Əvvəlcə tələffüz qaydalarına ciddi şəkildə riayət etməklə hər cümlə bütöv şəkildə, sonra isə hissələrə bölünərək diktə edilir. Sözləri hecalarla demək olmaz. Mətnin tələffüz qaydalarına uyğun oxunması şagirdlərin fikrən fəallığına səbəb olur. Belə ki onlar qaydaları yada salmaqla yazdıqları yazı onları daha diqqətli olmağa, şüurlu şəkildə öyrənməyə vadar edir.

Yoxlama imla mətnlərinin diktəsində şagirdlərin bilik və vərdişləri ciddi şəkildə nəzərə alınmalıdır.

Dil qaydaları

Dərslikdə zəruri dil qaydaları 4 bölmədə təqdim olunmuşdur.

Dil qaydaları 4.1.3. standartı əsas götürülərək verilmiş və bölmələr üzrə paylanmışdır. Dil qaydaları təqdim edilərkən sözlərin orfoepiyası, orfoqrafiyası, əsas və köməkçi nitq hissələrinin mahiyyəti və yazılış qaydaları, cümlələrin sonunda və dialoqlarda, həmçinin *o, bu* əvəzliklərindən sonra durğu işarələrinin işlənməsi nəzərə alınmışdır.

Orfoepik tapşırıqlar dərslikdə mətnlərdən əvvəl verilmişdir. Mətnin oxusundan əvvəl müəllim həmin sözlərin tələffüzü üzərində iş aparır, tələffüz qaydalarını izah edir. Oxu zamanı həmin səslərin şagirdlər tərəfindən düzgün tələffüzü diqqətdə saxlanılır.

Orfoqrafik tapşırıqlar da orfoepik tapşırıqlar kimi, yerinə görə oxudan əvvəl və ya sonra, yaxud da oxu zamanı icra edilir. Müəllim qurduğu dərsdən asılı olaraq tapşırıqları müxtəlif üsullardan istifadə etməklə həyata keçirə bilər.

1. Mətnin oxusuna başlamazdan əvvəl təklif olunan sözlərin düzgün yazılışı üzərində iş aparır. 2-3 dəqiqə müddətində tapşırıqların icrası mümkündür.

2. Müəllim həmin sözləri lövhəyə yazır və düzgün yazılış şagirdlər tərəfindən müəyyənləşdirilir.

Dərslikdə fonetik hadisə kimi ahəng qanunu, ahəng qanununa tabe olan və tabe olmayan sözlər, sözə şəkilçi artırılarkən ahəng qanununun rolu haqqında məlumat verilmişdir.

Morfologiya bölməsindən ikihecalı sözlərdə saitin düşməsi, əvəzlik, o, bu əvəzliklərindən sonra vergülün işlədilməsi, feil və zərf; köməkçi nitq hissələri və onun növləri: qoşma, ədat, bağlayıcı və modal sözlər haqqında zəruri məlumat, həm də onların yazılış qaydaları verilmişdir. Sintaksis bölməsindən isə cümlələrdə durğu işarələrindən düzgün istifadə qaydaları və müvafiq tapşırıqlar təqdim olunur.

4.1.4. standartında reallaşdırılması nəzərdə tutulan tərcümeyi-halın yazılma qaydası I bölmədə; ərizənin yazılma qaydası II bölmədə verilmişdir.

LAYİHƏ

Ümumtəhsil məktəblərinin VII sinfi üçün Azərbaycan dili fənni üzrə məzmun standartları

VII sinfin sonunda şagird:

- dinlədiyi mətnin hissələrini müəyyənləşdirir;
- ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir;
- nitqini uyğun səs tonu ilə tənzimləyir;
- müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir;
- mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir;
- mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir,
- səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur;
- nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır;
- nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır.

Məzmun xətləri üzrə əsas və alt-standartlar

1. Dinləyib-anlama

Şagird:

1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.

1.1.1. Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir.

1.1.2. Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır.

2. Danışma

Şagird:

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.

2.1.1. Ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir.

2.1.2. Nitqini uyğun səs tonu ilə tənzimləyir.

2.1.3. Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir.

2.1.4. Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir.

3. Oxu

Şagird:

3.1. Mətni mənimsədiyini nümayiş etdirir.

3.1.1. Mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir.

3.1.2. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur.

3.1.3. Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir.

4. Yazı

Şagird:

4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.

4.1.1. Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır.

4.1.2. Cümlələr və abzaslar arasında əlaqələri gözləməklə mətn yazır.

4.1.3. Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır.

LAYİHƏ

Mövzuların saatlar üzrə bölgüsü

Dərslikdə verilmiş tədris materialları 34 həftə 68 saat üçün nəzərdə tutulmuşdur. Azərbaycan dili həftədə 2 saat tədris olunur.

İllik planlaşdırma nümunəsi

I bölmə. Vətənim Azərbaycan

	Standartlar	Mövzular	Saat	Tarix
1	1.1.2., 2.1.2., 2.1.3., 3.1.2.	Layİhə: “Öncə Vətəndir!”	1	
2	2.1.1., 4.1.2., 4.1.3.	Ailə və Vətən tərbiyəsi	1	
3	2.1.3., 3.1.2., 4.1.2.	Anım Günü	1	
4	2.1.1., 2.1.3., 3.1.2., 4.1.2.	Ananın öyüdü	1	
5	2.1.1., 2.1.3., 2.1.4., 4.1.3.	Ananın öyüdü	1	
6	2.1.3., 2.1.4., 4.1.2.	Bir qarış torpaq	1	
7	2.1.1., 3.1.3., 4.1.2.	Bir qarış torpaq	1	
8	2.1.2., 2.1.3., 3.1.2., 4.1.4	Müəllim	1	
9	4.1.1., 4.1.2.	Müəllim	1	
10		KSQ	1	
11	1.1.2., 2.1.1., 3.1.3.	İnamın qələbəsi	1	
12	2.1.3., 3.1.1., 4.1.1.	İnamın qələbəsi	1	
13	1.1.1., 2.1.3., 3.1.2.	Dan ulduzu görünəndə	1	
14	3.1.1., 4.1.2., 4.1.3.	Dan ulduzu görünəndə	1	
15	1.1.2., 3.1.1., 3.1.2., 3.1.3.	Azərbaycan	1	
16	1.1.1., 2.1.1., 2.1.3., 2.1.4., 3.1.2.	Qayıdışın mübarək!	1	
17	2.1.3., 2.1.4., 4.1.2.	Layihənin yekunlaşdırılması		
18		KSQ	1	

LAYİHƏ

II bölmə. Biz Vətənin sabahıyıq

	Standartlar	Mövzular	Saat	Tarix
1	1.1.2., 2.1.2., 2.1.3., 3.1.2.	Layihə: “Biz Vətənin sabahıyıq”	1	
2	1.1.2., 2.1.2., 2.1.3., 3.1.2.	Peşələr necə yaranıb?	1	
3	3.1.2., 4.1.1., 4.1.2., 4.1.3.	Ailəm və peşə	1	
4	2.1.1., 2.1.3., 3.1.2., 3.1.3.	Planlaşdırma	1	
5	2.1.1., 3.1.1., 4.1.3., 4.1.4.	Planlaşdırma	1	
6	1.1.2., 2.1.3., 3.1.2., 3.1.3.	Diplomsuz mühəndis	1	
7	4.1.1., 4.1.3.	Diplomsuz mühəndis	1	
8		KSQ	1	
9	1.1.2., 2.1.3., 3.1.2., 3.1.3.	Balaca aşpaz	1	
10	2.1.2., 2.1.3., 4.1.1.	Balaca aşpaz	1	
11	2.1.2., 2.1.4., 3.1.2., 3.1.3.	Köhnə araba	1	
12	2.1.1., 3.1.1., 4.1.2., 4.1.3.	Köhnə araba	1	
13	2.1.2., 2.1.4., 3.1.2., 3.1.3.	Sürücü	1	
14	1.1.1., 1.1.2., 2.1.2., 2.1.3., 4.1.1.	Sürücü	1	
15	2.1.2., 3.1.2., 3.1.3., 4.1.2.	Sərhədə gedən yol	1	
16	2.1.1., 2.1.3., 2.1..4., 3.1.1.	Sərhədə gedən yol	1	
17		KSQ	1	

LAYİHƏ

III bölmə. Sağlam və təhlükəsiz gələcək

	Standartlar	Mövzular	Saat	Tarix
1	2.1.1., 2.1.2., 2.1.3.	Layihə: “Sağlam və təhlükəsiz gələcək”	1	
2	1.1.2., 2.1.2., 2.1.3., 2.1.4.	Yalan	1	
3	2.1.3., 3.1.1., 4.1.3.	Yalan	1	
4	2.1.3., 2.1.4., 3.1.2., 4.1.3.	Mətn	1	
5	2.1.2., 2.1.3., 3.1.3.	Dinamit	1	
6	4.1.1., 4.1.2.	Dinamit	1	
7	1.1.2., 2.1.3., 3.1.1.	Yol	1	
8	2.1.3., 3.1.1., 4.1.2.	Yol	1	
9		KSQ	1	
10	2.1.3., 3.1.2., 4.1.2.	İki kənd	1	
11	1.1.2., 2.1.4., 3.1.3.	İki kənd	1	
12	4.1.1., 4.1.3.	İki kənd	1	
13	1.1.1., 1.1.2., 2.1.3.	Bizim planet	1	
14	2.1.1., 3.1.2.	Bizim planet	1	
15	2.1.3., 3.1.3., 4.1.1.	Bizim planet	1	
16	2.1.2., 2.1.3	Layihənin yekunu	1	
17		KSQ	1	

LAYİHƏ

IV bölmə. Ailədə ekologiya

	Standartlar	Mövzular	Saat	Tarix
1	2.1.3., 3.1.2., 4.1.2., 4.1.3.	Layihə: “Planetimiz gələcəkdə”	1	
2	1.1.2., 2.1.3., 2.1.4., 3.1.2.	Sınmış budaq	1	
3	2.1.1., 2.1.3., 2.1.4.	Sınmış budaq	1	
4	2.1.1., 2.1.3., 4.1.1., 4.1.3.	Sınmış budaq	1	
5	3.1.2., 3.1.3., 4.1.2.	Seyranın göyərçinləri	1	
6	2.1.3., 4.1.2., 4.1.3.	Seyranın göyərçinləri	1	
7		KSQ	1	
8	1.1.1., 1.1.2., 3.1.2., 4.1.2.	Təbiət özü özünü tənzimləyir	1	
9	2.1.3., 2.1.4., 4.1.1., 4.1.2., 4.1.3.	Təbiət özü özünü tənzimləyir	1	
10-11	2.1.3., 2.1.4., 4.1.1., 4.1.2., 4.1.3.	Yaşıl planet (hekayənin yazılması)	2	
12	1.1.2., 2.1.3., 3.1.2., 4.1.1.	Haqqın səsi	1	
13	2.1.2., 3.1.1., 4.1.3.	Haqqın səsi	1	
14	2.1.3., 2.1.4., 4.1.2.	Layihənin yekunu	1	
15	4.1.1., 4.1.2., 4.1.3.	Şəkil əsasında inşa		
16		KSQ	1	

LAYİHƏ

Qiymətləndirmə

Bildiyiniz kimi, məktəbdaxili qiymətləndirmənin 3 növü (diaqnostik, formativ, summativ) vardır. Məzmun standartlarına əsaslanan məktəbdaxili qiymətləndirmə şagirdin fəaliyyət və nailiyyətini izləyir, inkişafını təmin etməklə yanaşı, inkişaf dinamikasını izləməyə imkan verir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi tədrisin keyfiyyətinin artırılması üçün məqsədlər müəyyən edir, irəliləyişləri qiymətləndirir, nəticələr əsasında müqayisələr aparır.

Qiymətləndirmə prosesinin tətbiq edilməsinin səbəbi:

- Təlim nəticələrinin, standartların mənimsənilməsi səviyyəsini öyrənmək;
- Şagirdlərin təlimə marağını yüksəltmək;
- Şagirdlərin güclü və zəif cəhətlərini müəyyən etmək;
- Şagirdlərin nailiyyətini dəyərləndirmək;
- Şagirdlərin nəyə isə nail olduğuna əmin olmaq;
- Şagirdlərin gələcək uğurlarının maksimallaşdırılması.

Qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:

- məqsədəuyğunluq;
- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
- toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;
- qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- təlim fəaliyyətində qiymətləndirilmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

Diaqnostik qiymətləndirmə

Şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək müəllim üçün məktəblilərin potensial imkanlarını, meyil və maraqlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda, şagird bir ümumi təhsil müəssisəsindən digərinə köçürüldükdə, yəni sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır.

Müəllim qiymətləndirməyə diaqnostikadan başlamalıdır. Diaqnostik qiymətləndirmə tədris prosesini daha səmərəli və keyfiyyətli etmək, strategiyasını qurmaq üçün müəllimə imkan verir. Diaqnostik qiymətləndirmə keçirmək üçün müəllim seçdiyi standartlar əsasında təlim nəticələri, təlim nəticələri əsasında qiymətləndirmə meyarları müəyyənləşdirir, daha sonra qiymətləndirmə materialı hazırlayır.

LAYİHƏ

Nümunə:

Standartlar: 1.1.2., 4.1.2.

Dinlədiyi mətndəki əsas fakt və hadisələri qruplaşdırır.

Cümlələr və abzaslar arasındakı əlaqələri gözləməklə mətn yazır.

Təlim nəticələri:

Dinlədiyi mətndən faktları (hadisələri) seçərək qruplaşdırır.

Giriş, əsas hissə və nəticə hissəni əlaqələndirməklə mətn yazır. (Mövzudan asılı olaraq, giriş və əsas hissə, əsas hissə və nəticənin, giriş və nəticə hissənin əlaqələnməsinin müəyyən edərək mətn yazır.)

Qiymətləndirmə meyarları:

Əsas faktları (hadisəni) qruplaşdırma

Əlaqələri müəyyən etməklə mətn yazma

Dərslikdə bölmələrin əvvəlində verilən sual və tapşırıqlar diaqnostik xarakterlidir. Müəllim həmin tapşırıqlardan istifadə etməklə fərqli tapşırıqlar (analoqunu) hazırlaya bilər.

Diaqnostik qiymətləndirmənin nəticələri yalnız müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır, yekunlar barədə valideynlər, sinif rəhbəri və digər fənləri tədris edən müəllimlər məlumatlandırılır. O, formativ və summativ qiymətləndirmələr üçün zəmin rolunu oynayır.

Diaqnostik qiymətləndirmənin nəticələri təhlil olunur, şagird portfoliosunda saxlanılır.

Diaqnostik qiymətləndirmədə istifadə olunan üsul və vasitələrə nümunə

Üsul	Vasitə
Tapşırıqvermə	çalışma, sual, tapşırıq, şəkil üzərində iş və s.
Müşahidə	Müəllimin qeydiyyat vərəqi (yeni mövzu haqqında siniflə aparılan yoxlama zamanı müəyyən edilmiş meyarlarla bağlı müəllimin öyrənmək istədiklərinin qeydlər şəklində yazılması)

Formativ qiymətləndirmə

Formativ qiymətləndirmə şagirdlərin bilik və bacarıqlarındakı irəliləməni, geriləməni müşahidə etməyə, çatışmazlığı aradan qaldırmağa imkan verir. Müəllim formativ qiymətləndirməni

LAYİHƏ

həyata keçirmək üçün təlim məqsədlərini, daha sonra məqsədlər əsasında rubrikləri düzgün müəyyənləşdirməlidir. Rubriklər şagird fəaliyyətinin sözlü qiymətləndirməsidir.

Qiymətləndirmə apararkən aşağıdakılar diqqət mərkəzində saxlanmalıdır:

Nəyi qiymətləndiririk? (şagirdin bilik və bacarıqlarını);
Necə qiymətləndiririk? (müxtəlif üsul və vasitələrlə);
Kimi qiymətləndiririk? (şagirdi);

Qiymətləndirmənin nəticələri necə təhlil olunur? (cavablar yoxlanılır, təlim nəticələrinin şagirdlər tərəfindən reallaşma səviyyəsi təhlil edilir (düzgün cavabların sayı, çatışmazlıq, müəllimin üzərində işləməli olduğu problem, daha çox diqqət yetirilməli məqamlar və s.), nəticələr diaqramlar vasitəsilə göstərilir;

Qiymətləndirmənin nəticələri necə emal olunur? (xarakterik səhvlər qruplaşdırılır, şagirdlərlə müzakirə olunur, müvafiq izahlar verilir);

Qiymətləndirmənin nəticələri barədə kimə məlumat verilir? (sinif rəhbərinə, valideynlərə, şagirdlərə).

Bilik və bacarıqların qiymətləndirilməsində bütün şagirdlərin diqqətdə saxlanması vacibdir.

Formativ qiymətləndirmənin keçirilməsi üçün qiymətləndirmənin üsul və vasitələri düzgün seçilməlidir. Hazırlanan tapşırıqlar ölçülə bilən olmalıdır. Dərslikdə şagird bacarıqlarını ölçən müxtəlif tapşırıq modelləri vardır.

Tapşırıqlar şagirdlərdə dinlədiyi və oxuduğu mətnlərdə əsas fikri müəyyənləşdirmək, müxtəlif fikirlərlə bağlı mülahizələrini bildirmək, yeni sözlərin mənasını öyrənmək, sözləri cümlələrdə işlətmək, ad və əlamət bildirən sözləri müəyyən etmək, onları uyğunlaşdırmaq, fakt və hadisələri seçmək, sözləri düzgün tələffüz etmək, düzgün yazmaq, durğu işarələrindən düzgün və yerində istifadə etmək, məzmunu yaradıcı nəql etmək, mətnin sonluğuna yaradıcı yanaşmaq və s. bu kimi bacarıqları ölçməyə xidmət edir. Bu tip tapşırıqlar standartların ölçülməsini təmin edir.

Standartlardan irəli gələn tələblərə yiyələnmə prosesində müəllim şagirdlərdə müxtəlif fəaliyyətləri müşahidə edə bilər. Məsələn:

- Mühakimə yürütməkdə çətinlik çəkir.
- Mühakimələri mətndəki əsas fikri qismən (tam) əhatə edir.
- Əsas fikirlə bağlı sərbəst mühakimə yürüdə bilir.
- Fikirlərini müəllimin və yoldaşlarının verdiyi sualların köməyi ilə ifadə edir.
- Faktları dəqiq olmasa da, sərbəst fikir söyləyir.
- Fikirlərini dəqiq fakt və nümunələrlə əsaslandırır.

Formativ qiymətləndirməni həyata keçirən müəllimin aşağıda qeyd olunanları bilməsi məqsədəuyğundur:

- Fənn üzrə hər bir dərs müəyyən məzmun standartlarının reallaşdırılmasına xidmət edir.
- Hər dərsdə müəllim təlim prosesini şagirdlərin məzmun standartlarının tələblərinə uyğun bilik və bacarıqlara yiyələnməsinə yönəltməlidir.
- Şagirdlər fəaliyyətlərində potensial imkanları daxilində həmin bacarıqlara yiyələnmənin müxtəlif səviyyələrini nümayiş etdirə bilərlər.
- Müəllim əvvəlcədən hazırladığı qiymətləndirmə meyarları əsasında şagirdlərin müşahidə oluna biləcək fəaliyyət səviyyəsini zəif, orta, yüksək olmaqla qruplaşdırmalı və şagirdin adının qarşısında fəaliyyətinə uyğun müvafiq qeydlərini yazmalıdır.

Formativ qiymətləndirmə aparmaq üçün müəllim müxtəlif üsul və vasitələrdən istifadə edə bilər.

LAYİHƏ

Müşahidə vərəqinə nümunələr

Meyarlar							
Şagirdlərin soyadı və adı	Cümlələr arasında rabitə yaradır.	Mətn qurur.	Mətndəki əsas fikri müəyyən-ləşdirir.	Düzgün oxuyur.	Lüğətlə işləyə bilir.	Sözləri düzgün tələffüz edir.	Sözləri düzgün yazır.
Əliyeva Nərgiz	+	+	+	+	+	+	+
Əliyev Əli	+	+	–	–	+	–	–
Həsənov Ramil	–	–	–	–	+	–	–
Məmmədli Nigar	–	–	+	–	–	–	+

Seçilən standartlardan asılı olaraq qiymətləndirmə meyarları dəyişə bilər.

Formativ qiymətləndirmə gündəlik aparılır, nəticələr yarımilin sonunda ümumiləşdirilir və şagird portfoliosunda saxlanılır.

Formativ qiymətləndirmədə müəllim əvvəlcədən proqnozlaşdırmadığı və dərs prosesində müşahidə etdiyi fəaliyyətləri də uyğun ifadələrlə təsvir edə bilər.

Summativ qiymətləndirmə

Summativ qiymətləndirmə hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır. Summativ qiymətləndirmə aşağıdakı iki formada aparılır:

1. Hər bir fənn üzrə dərsliklərdə nəzərdə tutulmuş hər bölmənin daxilində və ya bölmənin sonunda keçirilən kiçik summativ qiymətləndirmə;
2. Hər yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmə.

Summativ qiymətləndirmələr hazırlanarkən müəllim bölmə ərzində, yaxud summativ keçirilənə qədər reallaşdırdığı standartlar əsasında sual və tapşırıqla hazırlamalı, 4 məzmun xəttinin tələbləri nəzərə alınmalıdır. KSQ-ə keçilməyən mövzuların, dərslikdə olmayan dil qaydalarına aud sual və tapşırıqların salınması yolverilməzdir.

Summativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr

- Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi;
- Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli;
- Şifahi sorğu üzrə qeydiyyat vərəqi;
- Test tapşırıqları;
- Tapşırıq, çalışma;
- Rəsmlər, hazırlanan məmulatlar və digər əl işləri.

LAYİHƏ

Şagirdin özünüqiymətləndirməsi

Qeyd edək ki, qiymətləndirməni təkcə müəllimlər aparmır. Şagirdlərin özləri tərəfindən də qrupun, cütün qiymətləndirməsi diqqətdə saxlanmalı vacib məsələlərdən biridir.

Şagirdlərin özlərini qiymətləndirməsi, təkcə öz davranış və baxışlarına deyil, doğulub böyüdüyü ailəyə, ətrafa, dostlarına, yaşıdlarına, münasibət bildirməsi, təhlil etməsi onlarda həm özünə, həm ətraf mühitə münasibətdə vacib bacarıqlar formalaşdırır. Dərslikdə bununla bağlı müxtəlif tapşırıqlar verilmişdir.

Fərdi qaydada icrası daha məqsədəmüvafiq olan bu tapşırıqlar şagirdə sadə şəkildə həm özünü, həm də yaşıdlarını, ətraf mühiti təhlil və tədqiq etməyə imkan verir.

Şagirdin özünüqiymətləndirmə vərəqi

Nümunə – 1

Şagirdin adı və soyadı: _____ Tarix:_____

Sinif: _____

Qabiliyyətlər	DƏRƏCƏLƏR		
	Həmişə	Bəzən	Heç vaxt
1. Başqalarının izahlarını və məsləhətlərini dinləyirəm.			
2. Təlimata əməl edirəm.			
3. Müzakirələrdə iştirak edirəm.			
4. Çalışmalarımı düzgün yerinə yetirirəm.			
5. Anlamadığım bölmələrə aid sual verirəm.			
6. Qrup yoldaşlarıma tapşırığın həllində kömək edirəm.			
7. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə edirəm.			
8. Tapşırığı yerinə yetirmək üçün müxtəlif materiallardan istifadə edirəm.			

LAYİHƏ

Nümunə – 2

Şagirdin adı və soyadı: _____ Tarix:_____ Sinif: _____

Öyrənmə sahələri	Müvəffəqiyyətlər	DƏRƏCƏLƏR		
		Bəli	Qismən	Xeyr
DİNLƏMƏ	Diqqətlə dinləyirəm.			
	Dinlədiklərimlə bağlı həyatdan nümunələr verirəm.			
	Dinlədiklərimi təxəyyülümdə canlandırıram.			
	Dinlədiklərimlə bağlı suallar verirəm və yönəldilən suallara cavab verirəm.			
DANIŞMA	Dinləyicilərə dəyər verdiyimi onlara hiss etdirirəm.			
	Bədən dilindən istifadə edirəm.			
	Etika qaydalarına və dəyərlərə uyğun danışıram.			
	Duyğu, düşüncə və xəyallarımı şifahi olaraq ifadə edirəm.			
	Rəvan danışıram.			
OXU	Oxu məqsədimi müəyyənləşdirirəm.			
	Açıq və anlaşılan bir şəkildə oxuyuram.			
	Oxuduğum mətnin əsas ideyasını müəyyənləşdirirəm.			
	Oxuduqlarımda nə, harada, nə zaman, necə, nə üçün və kim suallarına cavab axtarıram.			
	Başlıqdan çıxış edərək mətnin məzmununu təxmin edirəm.			
	Bilmədiyim sözlərin mənasını araşdırıram.			
	Mətnin növünü nəzərə alaraq oxuyuram.			
	Sərbəst oxuya diqqət verirəm.			
YAZI	Sözləri düzgün yazıram.			
	Cümlələri düzgün qururam.			
	Hadisələri başvermə ardıcıllığına görə yazıram.			
	Durğu işarələrindən yerinə görə düzgün istifadə edirəm.			
	Müşahidə etdiyim hadisələrdən yazımda istifadə edirəm			
	CƏMİ			

Qeyd. Müəllim bu qiymətləndirmə cədvəlindən istifadə etdiyi məzmun xəttlərinə uyğun olaraq müvafiq hissəni şagirdlərə təqdim edir.

LAYİHƏ

Qruplarda işin qiymətləndirilməsi

Qrupda işləmək bacarığını əhəmiyyətinə görə sıralama metodu ilə qiymətləndirmək olar: şagirdə hər bir qiymətləndirmə meyarına görə müvafiq bal verilə bilər.

Qrupda işləmək bacarığının qiymətləndirilməsi meyarı aşağıda cədvəllər şəklində göstərilib: Müəllim konkret vəziyyətdən asılı olaraq bəzi meyarlara əlavələr edə, yaxud onları dəyişdirə bilər.

Qrupun qiymətləndirmə vərəqi

Nümunə – 1

Qrupun adı: _____ Tarix:_____ Sinif: _____

Meyarlar	SƏVİYYƏLƏR				
	Heç vaxt	Nadir hallarda	Bəzən	Tez-tez	Həmişə
Qrup üzvlərinin hamısı fəaliyyətə qoşulur.					
Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edir.					
Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edirlər.					
Qrupda qarşılıqlı şəkildə müzakirələr aparılır.					
Qrup üzvləri qərarlarını bir-birlərinə bildirirlər.					
Qrup üzvləri iş bölgüsünə əməl edirlər.					
Qrup üzvləri əldə etdikləri məlumatları müzakirə edirlər.					
Qrup üzvləri bir-birlərinə etimad göstərirlər.					
Qrup üzvləri bir-birlərini istiqamətləndirirlər.					
Qrup üzvləri tərəfindən nəticələrin növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edilir.					
Qrupda ziddiyyətli fikirləri müzakirə edilir.					
Qrup üzvləri üzərində işlədikləri mövzu ilə bağlı ortaq fikrə gəlirlər.					
Qrup məhsuldar şəkildə işləyir.					
Qrup üzvləri birlikdə işləməkdən zövq alırlar.					

Şərhlər: _____

LAYİHƏ

Nümunə – 2

Təlimat: Qrupdakı hər bir şagirdin qiymətləndirilməsi

Qeyd: cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə edə bilərsiniz.

Şagirdin adı, soyadı	Tapşırığı icra edir	Başqalarını dinləyir	Məsuliyyəti bölüşür	Qrup yoldaşlarına kömək edir	Müzakirələrə qoşulur	Fikirlərini əsaslandırır	Fərqli fikirlərə hörmətlə yanaşır	Qrupdakı vəzifəsini icra edir	Vaxtdan səmərəli istifadə edir	Tapşırıqları yerinə yetirir	Təqdimat hazırlayır	Cəmi

Şərhlər:_____

Şagirdlərin qarşılıqlı qiymətləndirmə vərəqi

Nümunə

Qiymətləndirilən şagirdin adı, soyadı: _____

Qiymətləndirən şagirdin adı, soyadı: _____ Sinif: _____

Qrupumuzdakı şagirdlər	Həmişə			Layihənin əvvəlində			Layihənin sonunda			Heç vaxt		
	Mən	1. Dostum	2. Dostum	Mən	1. Dostum	2. Dostum	Mən	1. Dostum	2. Dostum	Mən	1. Dostum	2. Dostum
Müzakirələrdə fəal iştirak edir.												
Vəzifəsini vaxtında yerinə yetirir.												
Fərqli mənbələrdən məlumatlar toplayıb təqdim edir.												
Qrup yoldaşlarının fikrinə hörmət edir.												
Dostları ilə danışarkən etik qaydalara əməl edir.												
Resurslardan səmərəli istifadə edir.												
Materialları emal etməyi bacarır.												
Nəticələri müzakirə edərkən aydın danışır, danışılanları başa düşür.												

LAYİHƏ

Qrup təqdimatının qiymətləndirilməsi

Təqdimatlar qiymətləndirilərkən səsin imkanlarından, jestlərdən bacarıqla istifadə olunması, foto və videomaterialların nümayiş etdirilməsi və s. bu kimi amillər nəzərə alınır. Təqdimatın qiymətləndirilməsi üçün meyarların hazırlanması zamanı aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

✓ **biliklər:** faktlar, problemlər, anlayışlar, ideyalar;

✓ **əqli vərdişlər:** təhlil, qiymət, göstəricilərin sintezi, yəni məntiqlə düşünmək qabiliyyəti;

✓ **kommunikativ vərdişlər:** informasiyanı aydın şəkildə təqdim etmək bacarığı.

A) Qrupların təqdimatının dörd səviyyə üzrə qiymətləndirilməsi

Aşağıdakı cədvəldə şifahi təqdimatın qiymətləndirilməsinin dörd səviyyədən ibarət meyarları təklif olunur. Müəllimin istəyindən asılı olaraq bunlar dəyişdirilə və ya bunlara əlavələr edilə bilər.

Səviyyələr arasında fərqlər şagirdlərin öz biliklərini nümayiş etdirə bilməsindən, yəni onların nə dərəcədə səylə öyrənmələri, faktlardan və detallardan nə dərəcədə dürüst və yerində istifadə etməsi ilə izah olunur.

4-cü və **3-cü** səviyyələr: şagirdlər anlayışların, problemlərin, ideyaların tərifini verə və bunları izah edə bilir, faktlar arasında qarşılıqlı əlaqəni başa düşür, göstəricilərin qiymətləndirilməsi üçün əqli vərdişlərdən istifadə edirlər *(müqayisə, qarşıqoyma, səbəb-nəticə əlaqələri, başlıca amilin müəyyən olunması və s.)*. Təqdimat zamanı material aydın və dürüst təsvir edilir, nümunə və misallar öz yüksək keyfiyyəti, çıxarılan nəticələr öz məntiqi və savadlılığı ilə seçilir.

2-ci və **1-ci səviyyələr:** şagirdlər əsas anlayışları, problemləri izah edə bilmir, faktlar arasında qarşılıqlı əlaqələri yaxşı başa düşə bilmir, faktlardan yersiz istifadə edir, bəzən isə onlara diqqət yetirmirlər. Problemin mahiyyətini açmaqda, nəticələri savadlı və qısa ifadə etməkdə çətinlik çəkir, təqdimatın keçirilmə qaydalarına lazımi diqqət yetirmirlər.

Meyarlar	4 səviyyə	3 səviyyə	2 səviyyə	1 səviyyə
Əsas anlayışlar, problemlər, mövzular, ideyalar	Mükəmməl surətdə seçilir, dəqiq tərif və təsvirlər verilir.	Yaxşı seçilir, tərifi və təsviri verilir.	Seçilir, tərifi verilir və təsvir edilir.	Seçilmir.
Faktlar, informasiya	Mükəmməl seçilir.	Kiçik yanlışlıqlar var.	Səhvlər var.	Yoxdur və ya qeyri-dəqiqdir.
Problemə aid göstəricilərin toplanması	Məntiqlə seçir və hər şeyi təşkil edir.	Məntiqlə seçir və bir hissəsini təşkil edir.	Problem üzrə az göstərici tapır.	Mühüm göstəriciləri tapa bilmir.
Nəticə çıxarmaq bacarığı	Göstəricilərə əsaslanır.	Göstəricilərə əsaslanan məlumatlı nəticələr	Yarımçıq nəticələr	Nəticələr yoxdur və ya dəqiq deyil.
Təqdimat zamanı ideyaların irəli sürülməsi: fənn haqqında bilgilər və məntiqlə düşünmək bacarığı	Əla bilik və məntiq nümayiş etdirir.	Yaxşı bilik və məntiq nümayiş etdirir.	Müəyyən bilik və məntiq nümayiş etdirir.	Qeyri-dəqiq bilgilər nümayiş etdirir.
Təqdimatın təşkili	Əla	Yaxşı	Kafi	Qeyri-kafi

LAYİHƏ

Essenin qiymətləndirilməsi

Esseni qiymətləndirərkən müəllim aşağıdakı meyarlardan istifadə edə bilər:

- esse mövzusunun mahiyyətinin dərki və tam açılması;
- faktların və dəlillərin köməyi ilə şəxsi fikrin inandırıcı şəkildə əsaslandırılması;
- terminlərdən, faktlardan düzgün istifadə olunması;
- mülahizələrin aydınlığı və ziddiyyətlərin olmaması; fikrin ardıcıllığı.



Diskussiyanın qiymətləndirilməsi

Diskussiyanın qiymətləndirilməsi zamanı müəllim şagirdlərin öz baxışlarını təqdim etməsinə, dəlil və sübutların inandırıcı olmasına, polemika bacarıqlarına daha çox diqqət yetirməlidir.

Diskussiyaların qiymətləndirilməsinin 1-dən 5-dək müsbət ballara layiq görülə bilən bəzi parametrlərini təklif edirik:

LAYİHƏ

- dəlillərin inandırıcı olması;
- mənbələrdən istifadəetmə bacarığı;
- mülahizələrin məntiqliyi, ziddiyyətlərin olmaması;
- polemika bacarığı: sual vermək, diskussiya üzrə rəqibin dəlillərini zəiflədən əks dəlillər tapmaq məharəti.

Mənfi ballar (1-dən 5-dək) aşağıdakı parametrlərlə ölçülə bilər:

- mövzuya aid olmayan mülahizə;
- limitdən artıq vaxtdan istifadə;
- qrup üzvlərinə maneə törədilməməsi;
- qrup üzvlərinin fikirlərinə hörmətlə yanaşma.

Diskussiya iştirakçısının özünüqiymətləndirmə vərəqi

Nümunə

Adı, soyadı: _____ Tarix: _____

	heç vaxt 1	demək olar heç vaxt 2	bəzən 3	tez-tez 4	həmişə 5
Fəal iştirak edirdim.					
Tapşırıqları yerinə yetirirdim.					
Öz ideyalarını dəqiq izah edirdim.					
Başqalarını dinləyir və dəstəkləyirdim.					

Mən bugünkü diskussiyaya hazır gəlmişəm: ☐ HƏ ☐ YOX

Sinifdə tədris zamanı interaktiv öyrənmənin böyük əhəmiyyəti vardır. İnteraktiv öyrənmənin müxtəlf üsulları vardır.



LAYİHƏ

Bir-birini öyrətmək

Unutmayın ki, dərsə maraq göstərən şagirdlərin bir-birlərini öyrətmələrini istəmək önəmli nailiyyətlər əldə etməyin yoludur. Tədqiqatlarını auditoriyada həmyaşıdlarına anlaya biləcəyi bir yolla şifahi şəkildə izah etmək şagirdlərdən daha yüksək səviyyəli düşüncə tələb edir.

Bunun üçün şagirdlərə tədqiqat xarakterli tapşırıqlar vermək, tədqiqat zamanı əldə etdikləri məlumatları yoxlamağı öyrətmək lazımdır. Əgər şagirdlər bunu digərlərinə öyrədərlərsə, onda, həqiqətən, mövzunu mənimsəmişlər. Həmyaşıdları tərəfindən öyrədilmiş şagirdlərdən sinifdə nə öyrəndiklərini izah etmələrini istəmək və ya onların düzgün öyrədilməsini yoxlamaq üçün viktorina kimi qısa bir qiymətləndirmə tapşırığından istifadə etmək mümkündür.

Filmlər çəkmək

Smartfonlar və planşetlər kimi yeni texnologiyalar sinifdə filmləri çox əlçatan, sürətli və effektiv bir öyrənmə vasitəsinə çevirmişdir. Şagirdlərin mövzu ilə bağlı hər hansı bir hadisəni, əhvalatı, səhnələşməni, müzakirəni və ya debatı yaddaşa köçürə bilərlər ki, bu da onlara sonradan bu hadisənin yenidən canlandırılmasına imkan yaradar.

İdraki xəritələrin yaradılması

İdraki xəritə fərqli amillər arasında əlaqələri əyani şəkildə göstərən bir diaqramdır. Şagirdlər səhifənin ortasında əsas sualı, ideyanı və ya konsepsiyanı yazmaqla işə başlayırlar. Məsələn, *“Azərbaycan Respublikasının Vətən müharibəsində qələbəsinin səbəbləri”, “Səyahət mənə nə qazandırdı?”* və s. Daha sonra şagirdlər bu sualla bağlı bir sıra başqa səbəbləri və dəlilləri qeyd edirlər.

Afişaların yaradılması

Şagirdlər mətnin vizual görüntüsünü hazırlayırlar. Bu onların dərsin əsas məqamlarını nə qədər dərk etdiklərini yoxlamaq üçün çox faydalı bir yoldur. Əgər şagirdlər afişa yaratmağın şəxsi versiyasını təklif edirlərsə, deməli, belə dərs daha yaxşıdır. Məsələn; quşları qorumağın faydası, ekologiyanı qorumaq üçün təklif olunan yollar, yaşıllığın qorunması ilə bağlı plakat və s. hazırlamaq.

LAYİHƏ

Diaqramların, qrafiklərin hazırlanması

Əsas hadisələrin xronoloji ardıcıllıqla yerləşdirilməsi, bir hadisənin nə vaxt baş verdiyini, niyə baş verdiyini anlamaqda çox faydalı ola bilər. Müharibələr, siyasi nəzarətin artırılması və ya azalması, iqtisadi inkişafın təsiri kimi əsas məqamları qeyd etmək üçün fərqli rəng kodlaşmasından istifadə şagirdə dərsi başa düşməkdə əlavə bir dəstək ola bilər. Bu zaman diaqramlardan istifadə etmək olar.

Şagirdlərə tarixi dəyişiklik və inkişaf qanunauyğunluqlarını başa düşməkdə vizual cəhətdən kömək etmək üçün diaqramlara əlavələr kimi qrafiklərin yaradılması məqsədəmüvafiqdir. Qrafiklərdə xronoloji inkişafı, həmçinin əsas hadisələrin təsirini göstərmək olar. Məsələn, qrafikdə bir ölkədə immiqrasiyanı azalda və ya artıra biləcək müharibələrin və ya digər hadisələrin təsirini vermək olar.

Sinifdənxaric öyrənmə

Şagirdlər sinifdən kənarda da fəal şəkildə öyrənə bilərlər. Aktiv təlimin əsas hissəsi onlara öyrənmələri üçün daha çox məsuliyyətli olmağı aşılamaqdır. Tədqiqat layihəsi üçün muzeyə, sənət qalereyasına və ya maraqlı tarixi yerə səyahət etmələri tövsiyə edilə bilər. Onlar tarixi hadisəni xatırlayan bir ailə üzvündən müsahibə götürə və ya bu tədbirin özündə iştirak edə bilərlər. Şagirdlər ünsiyyət qurduqda və emosionallığa qapandıqda, öyrəndiklərində daha çox dəyər və aktuallıq görürlər. Tədrisə daha çox maraq göstərir və bağlanırlar.

LAYİHƏ

I

BÖLMƏ

VƏTƏNİM AZƏRBAYCAN

1. LAYİHƏ: “ÖNCƏ VƏTƏNDİR!”
2. AİLƏ VƏ VƏTƏN TƏRBİYƏSİ
3. ANANIN ÖYÜDÜ
4. BİR QARIŞ TORPAQ
5. MÜƏLLİM
6. İNAMIN QƏLƏBƏSİ
7. DAN ULDUZU GÖRÜNƏNDƏ
8. AZƏRBAYCAN
9. QAYIDIŞIN MÜBARƏK!

1-ci dərs

Layihə: “Öncə Vətəndir!”

Standartlar: 1.1.2., 2.1.2., 2.1.3., 3.1.2.

Təlim nəticələri:

Dinlədiyi mətndəki hadisələrə münasibət bildirir.
Danışan zaman səs tonunu nitqinə uyğunlaşdırır.
Müxtəlif fikirlərə münasibət bildirir.
Mətni intonasiyanın tələblərinə uyğun oxuyur.

İş forması: kollektiv, fərdi

İş üsulu: klaster, sual-cavab, strategiyalı və ya səsli oxu

1-ci addım. Bilik Günü ilə bağlı yığcam təqdimat edilir, şagirdlərin əvvəlki illərdə öyrəndikləri məlumatlar suallar vasitəsilə soruşulur. Şagirdlərin Vətən, cəmiyyət qarşısında nə kimi vəzifələri olduqları soruşulur, yığcam müzakirə aparılır.

Sonra diqqət dərsliyə – I bölməyə yönəldilir. Bölmənin adı ilə bağlı yığcam müzakirə təşkil edilir. İlk bölmənin nə üçün “Vətənim Azərbaycan” adlandırılması ilə bağlı şagirdlərin təxminləri soruşulur. Fikirlər lövhəyə yazılmaqla ən əhəmiyyətliləri və mövzunun mahiyyətinin açılmasına yardım edəcək fikirlər seçilir.

Şagirdlərə bu tədris ilində hazırlayacaqları layihələr haqqında qısa məlumat verilir.

İlk layihə – “Öncə Vətəndir!” layihəsi üzərində iş aparmaq üçün bir neçə yanaşmadan istifadə etmək olar.

1-ci üsul. https://www.youtube.com/watch?v=Aq0PMsckdB8 linkindən istifadə etməklə Ş.Əlizamanlının ifasında “Öncə Vətəndir!” mahnısı dinlədilir. Şagirdlərə mahnının və klipin məzmunu ilə bağlı suallar verilir: *“Dinlədiyiniz mahnı sizə hansı məlumatları ötürdü?”, “Hansı faktları müşahidə etdiniz?”, “Klip vasitəsilə hansı hadisələr təqdim olunur?”, “Mahnı nə üçün “Öncə Vətən” adlandırılır?”, “Mahnının sözləri sizdə hansı hissləri oyatdı?”, “Tale Vətən yazısı” dedikdə nə başa düşürsünüz?” “Vətən nə üçün vüqar hesab edilir?”* və s. Müəllif şagirdlərə mövzu ilə bağlı müxtəlif suallar verməkdə sərbəstdir.

Yığcam müzakirələrdən sonra diqqət layihəyə yönəldilir.

2-ci üsul. Klaster üsulundan istifadə etməklə lövhədə “Öncə Vətəndir!” ifadəsi yazılır. Şagirdlərin “Öncə Vətəndir!” cümləsinin ifadə etdiyi məna ilə bağlı fikirləri öyrənilir. Daha sonra diqqət dərslikdə verilmiş layihəyə yönəldilir.



3-cü üsul. Birbaşa diqqət layihəyə yönəldilir. Layihənin nə üçün “Öncə Vətəndir!” adlandırılması ilə bağlı müzakirələr təşkil edilir. Fikirlər yazılı şəkildə də ola bilər. Şagirdlərə iş vərəqi də təqdim edilə bilər.

2-ci addım. 8-ci səhifədə verilmiş *“Sizcə, layihə nə üçün “Öncə Vətəndir” adlandırılmışdır?”, ““Öncə Vətən” ifadəsi sizdə hansı təəssürat yaradır?”, “Layihəni icra etmək üçün nə etməlisiniz?”, “Vətəni qarış-qarış gəzmək üçün haradan başlamaq lazımdır?”* sualları üzərində iş aparılır.

LAYİHƏ

Sualları cavablandırarkən şagirdlərin müzakirələrdə dolğun fikirlər söyləməsinə, dinlədikləri fikirləri ümumiləşdirməsinə, danışan zaman səs tonuna, intonasiyaya, jest və mimikaların nitqi düzgün müşayiət etməsinə diqqət yetirmək lazımdır.

Suallara yazılı şəkildə cavab yazılması da məqsədəuyğundur.

3-cü addım. Dərslikdəki 8-9-cu səhifələrdə verilmiş şeirlər şagirdlərə oxudulur. Oxu zamanı intonasiya, ritm, ahəng diqqətdə saxlanılmalıdır. Düzgün və ifadəli oxu məzmunun qavranılması, əsas fikrin müəyyən edilməsi üçün vacibdir. 9-cu səhifədəki *"Siz hansı şeirlə dostlarınızın sırasına qoşulmaq istərdiniz?"* sualı üzərində iş aparılır. Şagirdlərin cavabları ümumiləşdirilir.

4-cü addım. Şagirdlərə *"Necə bilirsiniz, Vətən tərbiyəsi haradan başlanır?"* sualı ilə müraciət edilir. Cavablar dinlənilir və ümumiləşdirilir. Sualın müzakirəsinə 5-6 dəqiqəlik vaxt ayırmaq yetərlidir.

Sualı cavablandırmaq üçün iki üsuldan istifadə etmək olar:

1. Klasterdən istifadə etməklə
2. Cavabı hər bir şagirdə bir cümlə ilə yazılı şəkildə yazdırmaq. Şagird cavabı yazır, lakin müzakirə olunmur. Müzakirə "Ailə və Vətən tərbiyəsi" mətninin oxusundan sonra icra edilir.

5-ci addım. Mətni oxumazdan əvvəl orfoepiya, orfoqrafiya tapşırıqları icra edilir. Vurğu qrafasında verilmiş sözlər üzərində iş aparmaq mütləqdir. Qrafadakı sözlərin üzərində vurğu düzgün qoyulmuşdur. Vurğulu hecaların düzgün tələffüzü düzgün nitqin vacib şərtidir. Müəllim *"Sizcə, sözlərin üzərindəki vurğu düzgünmü qoyulmuşdur?"* sualı ilə şagirdlərə müraciət edə bilər.

6-cı addım. 12-ci səhifədəki "Ailə və Vətən tərbiyəsi" mətni oxudulur. Mətnin oxusu üçün oxunun müxtəlif növlərindən istifadə etmək olar. Strategiyalı yaxud dərinləşdirilmiş oxudan istifadə etmək olar. Şagirdə fəaliyyətinin özü tərəfindən təşkili üçün şərait yaradılır. Belə ki şagird mətni diqqətlə oxuyur, qeydlər götürür, oxuduqlarından nəticə çıxarır, lazımi sualı cavablandırmaq üçün əsas məsələlərə diqqət yetirir, suala yazdığı cavabla mətn əsasında gəldiyi qənaəti tutuşdurur. Ümumiləşmə aparılır.

Səsli oxudan da istifadə etmək olar. Şagirdlər mətni növbə ilə oxuyur və suallara cavab axtarırlar.

Müəllim oxunu təşkil etmək üçün uyğun bildiyi digər üsullardan da istifadə edə bilər.

7-ci addım. 12-ci tapşırıq icra üçün müəllim tərəfindən izah edilir. Şagirdlər həmin cümlələri əlaqələndirmək üçün 1990-cı il 20 Yanvar hadisələrindən, Qarabağın işğalı və işğaldan azad edilməsi, 44 günlük şanlı qələbədən, Prezindentin məqsədyönlü fəaliyyəti və s. istifadə edə bilərlər.

Evə tapşırıqlar şagirdlərin səviyyəsi nəzərə alınmaqla da verilə bilər:

- ✓ Ailə və Vətənlə bağlı atalar sözləri və ya bayatılar toplamaq;
- ✓ "Vətən nədir?" mövzusunda təqdimat hazırlamaq;
- ✓ "Azərbaycan vətənimdir", "Qalib Azərbaycan" mövzusunda rəsm əsəri çəkmək.

Müəllim evə mövzuya uyğun müvafiq tapşırıqlar verə bilər.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

2-ci dərs

Ailə və Vətən tərbiyəsi

Standartlar: 2.1.1., 4.1.2., 4.1.3.

Təlim nəticələri:

Sözlərdə ahəng qanununu bilir.

İnşa yazır.

Cümlələrdə durğu işarələrindən istifadəyə düzgün əməl edir.

İş forması: kollektiv, fərdi, qruplarla

İş üsulu: müzakirə, yazı

1-ci addım. "Ailə və Vətən tərbiyəsi" mətni üzərində iş aparmaq üçün məzmun xatırladılır. Bunun üçün müəllim müvafiq suallardan istifadə edə bilər: *"Mətndə nədən danışılır?", "Əsil vətəndaşlıq nədir?", "Mətndə xalqımız necə təqdim olunur?"* və s.

Daha sonra 1–3-cü tapşırıqlar üzərində iş aparılır.

2-ci addım. Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 4-5-ci tapşırıqlardan istifadə edilir. Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün şagirdlərə seçim imkanı vermək olar. Belə ki şagirdlər mətndə mənası onlar üçün aydın olmayan sözləri seçməklə lüğət vasitəsilə həmin sözlərin mənasını müəyyənləşdirə bilər. Bu, mətnin məzmununun daha yaxşı mənimsənilməsinə kömək etmiş olar. Lüğət üzərində iş aparmaq üçün iş vərəqindən istifadə etmək olar:

Söz	Təxmin edilən mənası	Yaxın mənalı söz	Əks mənalı söz	Sözün ifadə etdiyi məna

15-ci səhifədə verilmiş "Layihəni icra etmək üçün "Ana və Vətən tərbiyəsi" mətnindən nə öyrəndiniz?" sualı üzərində iş aparılır. Suala təxmini cavab (*Vətəni sevmək ailədə öyrədilir*) 21-ci səhifədə verilmişdir. Lakin şagirdlərin cavabları fərqli ola bilər. Qeyd etmək lazımdır ki, mətnlərin sonunda verilmiş taxta parçalarına yazılacaq cavab növbəti mətndən sonra verilir.

3-cü addım. 6-cı tapşırıq yerinə yetirilir. Müəllim *ahəng* və *ahəngdarlıq* sözlərinin mənasını müxtəlif nümunələrdən istifadə etməklə izah edir.

Daha sonra ahəng qanununun öyrədilməsi üçün motivasiya xarakterli 7-ci tapşırıq icra edilir. Tapşırığın şifahi və ya yazılı şəkildə icrası müəllimin qurduğu dərsdən asılıdır. Tapşırığa əsasən ahəngin incə və ya qalın saitlərin bir-birini izləməsindən yarandığı aydınlaşdırılır. Ahəng qanunu ilə bağlı qayda izah edilir.

4-cü addım. 8-11-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqlar müəllimin seçimi əsasında yazılı və ya şifahi şəkildə aparıla bilər. 11-ci tapşırıq digər tapşırıqlarla müqayisədə nisbətən çətindir. Bu tapşırıqda altından xətt çəkilmiş sözləri elə sinonimləri ilə əvəz etmək lazımdır ki, onlar ahəng qanununa tabe olsun.

əhali-camaat; qəhrəman-igid; sədaları-səsləri; antik-qədim; qalibiyyətlə-zəfərlə/uğurla; övlad-uşaq.

LAYİHƏ

5-ci addım. 13-cü tapşırıq üzərində iş aparılır. Dərslikdə verilmiş təlimat şagirdlərlə oxunur. İnşanın irihəcmli olması şərt deyildir. Əsas məqsəd şagirdin mövzu ilə bağlı fikirlərini ardıcıl şəkildə əlaqələndirə bilməsidir. Tapşırıq fərdi şəkildə icra edilir. Tapşırığın icrası üçün 15-20 dəq. yetərlidir.

Tapşırıq qrup şəklində də icra edilə bilər. 1-ci qrup "Vətən nədir?" sualına; 2-ci qrup "Ailədə vətənpərvərlik tərbiyəsi"; 3-cü qrup "Məktəbdə vətənpərvərlik tərbiyəsi" məsələsinə münasibət bildirə bilər.

6-cı addım. Qruplar hazırladıqları mətnin kiçik hissələrini oxuyurlar. Hər hissədə giriş, əsas və nəticə hissənin əlaqələndirilməsinə diqqət yetirilir. Lazım gələrsə, qrupların yazılarına düzəliş edilir. Daha sonra həmin hissələrin əlaqələndirilməsi üzərində iş aparılır.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

3-cü dərs Anım Günü

Standartlar: 2.1.3., 3.1.2., 4.1.2.

Təlim nəticələri:

Mövzu ilə bağlı müzakirələrdə iştirak edir.
Səs tonunu gözləməklə mətni oxuyur.
Mətn yazarkən tərkib hissələri düzgün əlaqələndirir.

İş forması: kollektiv, kiçik qruplarla

İş üsulu: müzakirə, sual-cavab, təqdimat hazırlama

1-ci addım. Müəllim dərsi başlamaq üçün müxtəlif üsullardan istifadə edə bilər.

➢ Şagirdlərə *"Anım günü dedikdə nə başa düşürsünüz?", "Hansı anım günlərinin adını çəkə bilərsiniz?", "Nə üçün 27 Sentyabr Anım Günü hesab edilir?"* sualları ilə müraciət edilir. Müəllim 2 üsuldan: klaster və ya anlayışın çıxarılması üsullarından istifadə etməklə bu sualların cavablandırılmasını təmin edə bilər.

➢ Müvafiq sənədli filmlərdən – https://www.youtube.com/watch?v=i6rjpiqCbu0, https://www.youtube.com/watch?v=KqwJA0KTD7A istifadə edə və suallar verə bilər.

➢ Sualın cavablandırılması üçün "Anım Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı"ndan istifadə edə bilər. Şagirdlərin kiçik yaşlarından yaş səviyyələrinə uyğun şəkildə yeri gəldikcə müvafiq qaydalar, qanunlar, sərəncam və ya fərmanlarla tanış edilməsi vacibdir. Bu onlarda qanunlarla tanış olma, qanunlara riayət etmə, qaydalara uyğun olaraq hərəkət etmə və tətbiqetmə bacarığı, həyat yolunu düzgün müəyyənetmə bacarıqları formalaşdırmış olacaqdır.

LAYİHƏ

2-ci addım. “Anım gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı” şagirdlərə oxudulur. Daha sonra sərəncamın məzmununu hansı səviyyədə mənimsəmələrini öyrənmək üçün suallarla şagirdlərə müraciət edilir:

- ✓ *Vətən müharibəsinin başlanmasını zəruri edən səbəblər hansılardır?*
- ✓ *Haqq və Şərəf işi dedikdə nə nəzərdə tutulur?*
- ✓ *Ordumuzun qalibiyyətini hansı səbəblər təmin etdi?*
- ✓ *Prezident İlham Əliyev nə üçün 27 sentyabr tarixini Anım Günü elan etmişdir?*

Müəllim əlavə suallar verməkdə sərbəstdir. Şagirdlərin cavabları ümumiləşdirilir və növbəti addıma keçid edilir.

3-cü addım. 16-cı səhifədəki sarı çərçivədəki tapşırıq icra edilir. Tapşırığın icrasına 10-15 dəq. yetərlidir. Burada məqsəd tədbirin ssenarisini tam hazırlatmaq deyil. Əsas məqsəd şagirdlərin mövzunu təqdim etmək üçün ən əlverişli məlumatlardan istifadə etmək və lazım olanı təqdim etmək üçün çevik qərar vermək bacarığıdır. Şagirdlər tədbirin ssenarisini hazırlamaq üçün plan da tərtib edə bilərlər.

Tapşırığın kiçik qruplarla icra edilməsi məqsədəmüvafiqdir.

4-cü addım. Qruplar tapşırığı təqdim edirlər. Fikirlər ümumiləşdirilir. Şagirdlərin işləri qiymətləndirilə də bilər. Qiymətləndirmənin müxtəlif növlərindən istifadə etmək olar.

5-ci addım. “Vətən bizik” adlı təqdimatın hazırlanması üçün dərslikdə 19-cu səhifədə şagirdlər üçün təlimat verilmişdir. Şagirdlər üçün çətinlik yaranarsa, müəllim onların görəcəkləri işin planlaşdırılmasında yardım edə bilər. Şagirdlərin fəaliyyəti səmərəli olsun deyə, müəllim qruplar arasında “Kim tez və daha maraqlı” oyunu təşkil edə bilər. Belə ki qruplar tapşırığı tez və qüsursuz yerinə yetirməli, işlərini təqdim etməlidirlər. Yazıların irihəcmli deyil, məzmunlu olması və abzaslararası, cümlələrarası, tərkib hissələr arası rabitənin gözlənilməsi daha vacibdir. Daha sonra “Vətən bizik” adlı təqdimatın hazırlanması üzərində iş gedir. Dərslikdəki plan üzərində iş aparılır.

Ehtiyac yaranarsa, sinifdə şagirdlər əlavə plan yaza və həmin plana uyğun təqdimat hazırlaya bilərlər. Təqdimatların qrup vasitəsilə hazırlanması işin daha tez, faydalı və məzmunlu olmasına yardım edəcəkdir. Qruplarda vəzifə bölgüsü (məlumatın toplanması, lazım olanların seçilməsi, slayd üçün dizaynın seçilməsi, məlumatın yerləşdirilməsi və s.) aparılması üçün şagirdlərə istiqamət verilir.

Qeyd. Qruplara təqdimat hazırlamaq üçün fərqli adlar da təqdim etmək olar. Adları şagirdlər özləri də düşünə bilərlər.

6-cı addım. Hazırlanmış təqdimat və yazı *(şəkil üzərində iş)* təqdim edilir. Yazılarda üslub səhvləri olarsa, onları düzəltməklə bağlı şagirdlərə istiqamət verilir. Müzakirələr aparılır, fikirlər ümumiləşdirilir və yekunlaşdırılır.

7-ci addım. Qrupların qiymətləndirilməsi aparılır və evə mövzu ilə bağlı inşa yazmaq tapşırılır. Tapşırıq evə verilərkən şagirdlərin icra səviyyəsi nəzərə alınmalıdır.

Qeyd. Dərsi müəllim fərqli şəkildə də qura bilər. Belə ki sinif 2 yerə bölünür, təqdimat və tədbirin planının, adının hazırlanması tapşırıqları qruplar arasında bölüşdürülür. Tapşırıqlar icra edildikdən sonra hər qrupun işi dinlənilir, müzakirə edilir, düzəlişə ehtiyac varsa, əlavələr edilir.

Qruplardan birinə təqdimat hazırlamaq, digərinə şəkil (səh. 17) üzərində inşa yazmaq da tapşırıla bilər. Bunun üçün şagirdlər təlimatlandırılır.

LAYİHƏ

4-cü dərs

Ananın öyüdü

Standartlar: 2.1.1., 2.1.3., 3.1.2., 4.1.2.

Təlim nəticələri:

Şəkilçiləri düzgün tələffüz edir.
Mövzu ilə bağlı müzakirələrdə iştirak edir.
Səs tonu və intonasiyanı gözləməklə şeiri oxuyur.
Mətn yazarkən tərkib hissələrini düzgün əlaqələndirir.

İş forması: kollektiv, böyük qruplarla, cütlərlə

İş üsulu: klaster, anlayışın çıxarılması**,** müzakirə, proqnozlaşdırılmış oxu

1-ci addım. Mövzunu tədris etmək üçün müəllim müxtəlif üsul və vasitələrdən istifadə edə bilər. Dərsliyə bu mətnin salınmasında məqsəd 44 günlük şanlı Vətən müharibəsinin tarixinə nəzər salmaqdır.

1. Müəllim şeirin adından istifadə edib *"Sizcə, şeirdə nədən danışılacaq"* sualı ilə şagirdlərə müraciət edə bilər. Şagirdlər tərəfindən verilən və diqqətçəkən cavablar lövhəyə yazıla bilər. Şagirdlərə suala bir cümlə ilə yazılı cavab yazmaq da tapşırıla bilər. Fikirlər ümumiləşdirilib şeirin oxusu təşkil edilir. Müzakirə və ümumiləşmə üçün 5-6 dəq. kifayətdir.

2. "İdraki xəritə" *(fərqli amillər arasında əlaqələri əyani şəkildə göstərən üsul)* yaratmaqla dərsə keçid edə bilərsiniz. Şagirdlər onlara təqdim olunan iş vərəqlərində əsas sual və konsepsiyanı yazırlar. Şagirdlərə *"Ananın öyüdü" dedikdə nə başa düşürsünüz?", "Ailə və Vətən tərbiyəsi" adı ilə "Ananın öyüdü" adı arasında bir oxşarlıq görürsünüzmü?"* sualları ilə müraciət etmək olar. Bu məqsədlə klaster üsulundan istifadə etmək olar.

3. https://www.youtube.com/watch?v=K3E2iJiZm4A linkindən istifadə etməklə müəllim Ş.Əli-zamanlının *"Vətən əmanəti" mahnısını səsləndirib "Mahnıda nədən danışılır?", "Nə üçün əsgər Vətən əmanəti, ocaq əmanəti hesab edilir?", "Vətən əmanəti dedikdə nə başa düşürsünüz?"* və s. suallarla şagirdə müraciət edə bilər.

4. https://www.youtube.com/watch?v=KqwJA0KTD7A linkindən istifadə etməklə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində uğurlarını nümayiş etdirə bilər.

5. Əvvəlki dərsdə şagirdlərin hazırladıqları "Vətən sevgisi necə yaranır?", "Vətən bizik" (*ad şərtidir*) inşasını oxutmaqla və suallar verməklə dərsə giriş etmək olar.

6. Şeirin rollar üzrə oxusu təşkil edilə bilər. Sonra şagirdlərə müvafiq suallar verilə bilər.

2-ci addım. Şeirin oxusu təşkil edilir. Müəllim qurduğu dərsə uyğun olaraq orfoqrafiya və orfoepiya tapşırıqlarını şeirin oxusundan əvvəl və ya oxu zamanı icra etdirə bilər. Orfoepiya tapşırıqları icra edilərkən şəkilçilərin tələffüzünə xüsusi diqqət yetirilir. Müəllim uyğun bildiyi halda şeirin oxusu zamanı müvafiq yerdə saxlayıb şagirdə suallarla müraciət edə bilər. Şeirin oxusundan sonra *"Belə bir hadisənin şahidi olmuşsunuzmu? Hansı hissləri keçirmişsiniz?"* suallarından istifadə edə bilər. Yəqin ki, şagirdlər 27 sentyabr 2020-ci il tarixdə başlanmış Vətən müharibəsi ilə bağlı fikirlər söyləyəcəklər. Müəllim suallar vasitəsilə şagirdləri istiqamətləndirə bilər.

3-cü addım. Dərslikdəki "Ananın öyüdü" şeirinə çəkilmiş şəklin üzərində iş aparılması və "Ananın öyüdü" mətninin məzmunu ilə əlaqələndirilməsi məqsədəmüvafiqdir. Şagirdlərə *"Şəkildə nə təsvir olunmuşdur?", "Şəklin mətnin məzmunu ilə əlaqəsi haqqında ilkin təxminlərinizi*

LAYİHƏ

deyin” sual və tapşırıqları ilə müraciət edilir. Bu, şagirdlərdə şifahi təsviretmə, əlaqələndirmə, məzmunla müqayisə edilmə və ümumiləşdirmə kimi bacarıqlar formalaşdıra bilər. Müəllim qurduğu dərsdən asılı olaraq, şəklin təsvirini yazılı şəkildə də icra etdirə bilər. 17-ci səhifədə verilmiş QR vasitəsilə şeir dinlədilir, hər iki ananın hissləri müqayisə edilir, həmin hisslərə əsasən müharibə, onun törətdiyi faciələr haqqında təsəvvür yaradılır.

4-cü addım. 18-ci tapşırıq icra edilir. Bu mərhələnin icrası üçün böyük qruplar iş formasından istifadə etmək olar. Bir qrupa “Ananın öyüdü” şeirinə çəkilmiş şəklin, digərinə 18-ci tapşırıq üzərində iş aparmaq tapşırılır. Tapşırığın icrasına 10 dəq. yetərlidir.

5-ci addım. Qrupların işi müzakirə edilir. Həm qrupların hazırladıqları yazılar, həm də yazıların şeirin məzmunu ilə əlaqələndirilməsi aparılır.

6-cı addım. Dərslikdəki 1-ci tapşırıq icra edilir. Bu məqsədlə klaster üsulundan istifadə etmək olar.

Müharibə haqqında təsəvvür yaratmaq üçün:

- müəllim müvafiq videodan, bədii, yaxud sənədli filmdən bir hissə nümayiş etdirə bilər;
- dərsə tarix müəllimi dəvət edə bilər;
- müharibəni əks etdirən hər hansı bir şəkil və ya rəsm əsəri nümayiş etdirə bilər;
- Məmməd Arazın “Müharibə olmasa” şeirini səsləndirib müvafiq suallar verə bilər.



Şeirin oxusu zamanı düzgün tələffüzü nəzərə almaq lazımdır.

Əridib silahları
Biz marten sobasında,
Körpü yarada billik
Yerlə Mars arasında, –
Müharibə olmasa!

Yer min illik barını
Bircə gündə yetirər,
Alim ayı, ulduzu
Dartıb yerə gətirər, –
Müharibə olmasa!

General gözündə də
Bu hissi duyur adam:
“Tullayıb çinlərimi
Bir kənddə sədr olaram, –
Müharibə olmasa!”

Bəşərin qapısından
Vaxtsız ölüm gen düşər,
İnsanın saçlarına
Yüz yaşında dən düşər, –
Müharibə olmasa!

Sevənlər aləmində
Nə qəm, nə həsrət olar,
Bəşərin gülləsi – söz,
Sözü – məhəbbət olar –
Müharibə olmasa!

LAYİHƏ

➢ **Nümunə suallar:**

- Şeirdə şairin hansı arzuları əks olunmuşdur?
- Şeirdən müharibə haqqında hansı məlumatı almaq olur?
- Şeirdə müharibə necə təqdim olunur?
- Şeirdən istifadə edərək təqdim olunanları "Əgər müharibə olsa, ..." cümləsini tamamlayın və müharibənin fəlakətlərini göstərin və s.

Müəllim müvafiq bildiyi sualları da şagirdlərə verə bilər. Daha sonra 2 və 3-cü tapşırıqlar kollektivlə icra edilir. Cavablar ümumiləşdirilir.

7-ci addım. 17-ci tapşırıq (səh. 21) evə verilir. Tapşırığın icra edilməsi üçün müəllim şagirdləri təlimatlandıra bilər.

- Şeiri bir daha diqqətlə oxumaq;
- Ümumi məzmunu mənimsəmək;
- Məzmun əsasında mətni nəsr şəklində yazmaq.

Aşağıdakı planı da şagirdlərə təqdim etmək olar.

PLAN:

➢ Hadisənin təsviri
➢ Ananın tövsiyələri
➢ Ananın arzuları
➢ Əsgərin təsviri
➢ Şairin hadisəyə münasibəti

Qeyd. Vaxt qalarsa, bu plan sinifdə şagirdlərlə birlikdə də tərtib edilə bilər. Müəllimin istiqamət və izahı ilə planı özü tərtib edən şagird üçün bu tapşırığı icra etmək daha asan olacaqdır.

8-ci addım. Şagirdlər müvafiq meyarlara uyğun olaraq qiymətləndirilir.

LAYİHƏ

5-ci dərs

Ananın öyüdü

Standartlar: 2.1.1., 2.1.3., 2.1.4., 4.1.3.

Təlim nəticələri:

Ahəng qanununun nə olduğunu bilir.
Mətnin məzmununu mənimsəmək üçün müzakirələrdə iştirak edir.
Mətn vasitəsilə çatdırılan əsas fikri müəyyən edir.
Sözləri düzgün yazır.

İş forması: kollektiv, fərdi

İş üsulu: söz assosiasiyası, müzakirə, müəllimin mühazirəsi

1-ci addım. Müəllim dərsə evə verdiyi tapşırığın yoxlanılması ilə başlaya bilər. Müəllimin seçimi əsasında şagirdlərdən bir neçəsinə hazırladığı mətn oxudulur, suallar vasitəsilə dərsə keçid edilir və dərslikdəki tapşırıqlar icra edilir.

2-ci addım. "Ananın öyüdü" şeirinin məzmunu üzərində işi davam etdirmək üçün dərslikdəki tapşırıqlar üzərində iş aparılır. Tapşırıqlar müəllimin seçimi və qurduğu dərsin əsasında cütlər və ya kiçik qruplar vasitəsilə yazılı və ya şifahi şəkildə aparıla bilər. Şagirdlər sualları cavablandırmaqda çətinlik çəkərlərsə, müəllim onlara istiqamət verə bilər.

4, 5, 6-cı tapşırıqlar üzərində iş aparılır.

4-cü tapşırıq

Ananın oğlundan tələbi	Ananın oğluna tövsiyəsi	Ananın oğlu ilə bağlı arzuları
• Düşmənin qarşısında mərd dayanması • Zəfər çalmaq üçün səy göstərməsi • Hər gün qələbə xəbərini verməsi	• Tüfəngini təmiz saxlaması • Döyüş atına yaxşı baxması • Ana öyüdünü dinləməsi	• Oğlunun uğur qazanması • Oğlunun qələbə xəbərini verməsi • Oğlunun zəfərlərinin sayının çox olması

5-ci tapşırığın icrasında şagirdlərin fikirləri fərqli ola bilər. Lakin müəllim izah etməlidir ki, şagirdlər tapşırığı mətnə istinad edərək icra etməlidirlər. Cavablar əsaslandırılmış olmalıdır.

LAYİHƏ

6-cı tapşırığın cavabı:

Şeirdə Vətən qəhrəmanlar, mübarizlər, igidlər, yenilməzlər yurdu kimi; Azərbaycan əsgəri gülləbatmaz və yenilməz; Azərbaycan ordusu topdağıtmaz və qüdrətli təqdim olunur.

7-ci tapşırığın cavabı:

"Ana yurdun bu namuslu. Bu qəhrəman oğlunu", "Görürəm ki, qəhrəmansan, sənə halaldır südüm", "Bizim ellər Koroğlular, Xətailər yurdudur" misralarında Azərbaycan əsgərinin mərdliyi, qəhrəmanlığı təqdim olunur.

8-ci tapşırıq

Oğluna verdiyi nəsihət, düşmən qarşısından qaçmaması, torpağın azadlığı, azadlıq uğrunda mübarizəyə çağırış, Vətənin qəhrəmanlarına dəyər verməsi və s. *(şagirdlərin fərqli cavabları ola bilər) ananın əsil vətəndaş olduğunun sübutudur.*

9-cu tapşırıq

Şeirin giriş hissəsi	Cavanın əsgər paltarı geyməsi, hadisənin yay fəslində baş verməsi, ananın övladını yola salmağa hazırlaşması
Şeirin əsas hissəsi	Ananın övladına tövsiyə, nəsihət və arzuları
Şeirin nəticə hissəsi	Lirik qəhrəmanın (şairin) hadisəyə münasibəti

3-cü addım. Şagirdlərin sözlərin ifadə etdiyi mənanı bilməsi, kontekstə uyğun mənasını bilməsi, yaxın və ya əks mənasını bilməsi üçün mətnin lüğət tərkibi üzərində iş aparmaq çox

LAYİHƏ

vacibdir. Dərslikdəki 10–13-cü tapşırıqlar bu məqsədlə verilmişdir. Şagirdlərin mənasını bilmədiyi digər sözlər üzərində iş aparmaq da mümkündür. Tapşırıqlar kollektiv və ya cütlər vasitəsilə icra oluna bilər.

10-cu tapşırıq
Anım sözü *anmaq* sözündəndir, mənası *xatırlama, yada salma, yad etmə* deməkdir.

11-ci tapşırıq

Gül – Oğlum, göz bəbəyim, sən ey ömür **çiçəyim**;

Nəsihət – Qulağında yaxşı qalsın mənim sənə **öyüdüm**;

Qəlb – Onun polad sinəsinə sığışmadı **ürəyi**;

Qalibiyyət – Sən də artır öz əlinlə **zəfərlərin** sayını;

Xəbər – Hər gün yeni bir zəfərlə gəlsin onun **sorağı**

Zaman – Payız **vaxtı** bağçamızın heyvaları dəyəndə;

Güc – Qılıncını çalan zaman **qüvvət** gəlsin qoluna;

İşıq – Günəş yaydı şöləsini Vətənin göylərindən.

4-cü addım. 15-ci tapşırıq kollektiv şəkildə icra olunur. Bu tapşırıq ahəng qanununun şagirdlərə öyrədilməsi üçün motivasiya xarakterlidir. Tapşırıqdan sonra ahəng qanunu şagirdlərə izah edilir, nümunələrlə əsaslandırılır.

5-ci addım. 15 və 16-cı tapşırıqlar icra edilir.

6-cı addım. 19-cu tapşırığın icrası üçün şagirdlər təlimatlandırılır. Dərslikdə tapşırığı icra etmək üçün müvafiq təlimat (səh. 21) verilmişdir. Şagirdlər mövzunu seçməkdə sərbəstdirlər.

7-ci addım. Şagirdlər inşa (esse) yazırlar. İnşanın həcmi dərslikdə verilmişdir. Şagirdlər tapşırığı sinifdə çatdırıb yekunlaşdıra bilməzlərsə, evdə davam etdirə bilərlər.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

6-cı dərs

Bir qarış torpaq

Standartlar: 2.1.3., 2.1.4., 4.1.2.

Təlim nəticələri:

Mətnin məzmununu mənimsəmək üçün müzakirələrdə iştirak edir.
Mətn vasitəsilə çatdırılan əsas fikri müəyyən edir.
Mətni məzmununa uyğun olaraq davam etdirir.

İş forması: kollektiv, böyük və ya kiçik qruplarla iş

İş üsulu: səssiz və səsli oxu, beyin həmləsi, müzakirə

1-ci addım. Mətni oxumamışdan əvvəl şagird 1-ci tapşırığın şərti ilə tanış edilir. Mətn təlimata uyğun olaraq hər bir şagird tərəfindən səssizcə oxunur.

Səssiz oxuda məqsəd şagirdlərə səlis və sürətli oxumağı öyrətməkdir.

Bu oxu sinifdə iki həftədən bir dəfə tətbiq edilə bilər. Şagirdlər hər hansı bir mətni və yaxud mövzu ilə bağlı özləri seçdikləri əsəri müəllimin verdiyi vaxt ərzində oxuyurlar. Müəllim özü də oxuya qoşulmaqla şagirdlərə nümunə olmalı və şagirdlərin başqalarına mane olmamasına, birbirinin diqqətini yayındırmamasına fikir verməlidir. Oxu bitdikdən sonra ümumi şəkildə və ya şagirdləri qruplara bölməklə mətnlə bağlı müzakirələr keçirilir. Müzakirə zamanı şagirdlərə "Nə üçün bu mətni (əsəri) seçdiniz?", "Əsərdə (mətndə) sizi maraqlandıran hansı məqamlar oldu?", "Mətnin adı məzmunu əks etdirirmi?" və s. kimi suallar verilməklə onların mətnlə bağlı fikirləri öyrənilir. Şagirdlər mətndə (əsərdə) onları maraqlandıran məqamları, başa düşmədikləri hissələri, mətni oxuyarkən onlarda yaranan hiss və duyğuları yazılı və ya şifahi şəkildə bildirə bilərlər.

Mətni oxuyarkən orfoqrafiya və orfoepiya tapşırıqları icra edilir. Mətnin dərsliyə salınmasında əsas məqsəd 44 günlük şanlı Vətən müharibəsinin tarixinə nəzər salmaq, şagirdləri bu mövzu ilə bağlı müzakirəyə istiqamətləndirməkdir. Müharibə dövründə Prezidentin göstərdiyi qətiyyət, qələbəyə yönəlik əzmkarlıq, müharibədən əvvəlki dövrdə yürütdüyü siyasət və məqsədyönlü fəaliyyət diqqətə çatdırılır və müzakirə təşkil edilir. Müzakirə mətnin səsli oxusundan sonra təşkil edilir.

2-ci addım. "Bir qarış torpaq" mətninin səsli oxusu üzərində iş aparılır. Mətnin oxusu rollar vasitəsilə də həyata keçirilə bilər. Əsas olan şagirdlərin mətni intonasiya ilə oxunmasına, intonasiyaya uyğun olaraq jest, mimika və emosiyaların mətni düzgün izləməsinə diqqət yetirməkdir. Mətnin oxusundan sonra yuxarıda göstərilən mövzuda müzakirə təşkil edilir və mətnlə əlaqələndirilir.

Qeyd. Müəllim dərsliyin 24-cü səhifəsində verilmiş "Biz bu Vətənin adıyıq" müzakirəsini də bu mərhələdə, yaxud "Bir qarış torpaq" mətnini oxunmamışdan əvvəl də təşkil edə bilər. Sonra mətnin oxusu üzərində iş aparılır. Oxudan sonra məzmun üzərində iş aparmaq üçün 9-cu tapşırıq yerinə yetirilir.

https://www.youtube.com/watch?v=n1gF0bgdoUU linkindən istifadə etməklə Faiq Ağayevin "Azərbaycan, odlar yurdum" mahnısını səsləndirmək və məzmununu mətnlə əlaqələndirmək olar.

3-cü addım. 2–6-cı və 8-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların kollektiv və ya cütlərlə icra edilməsi müəllimin qurduğu dərsdən asılıdır.

LAYİHƏ

4-cü addım. Tapşırıqlar icra edildikdən sonra 7 və 10-cu tapşırıqlar üzərində iş aparılır və şagirdlərin cavabları ümumiləşdirilir, nəticə çıxarılır.

5-ci addım. Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 11–13-cü tapşırıqlar icra edilir.

12-ci tapşırığın cavabı:
Açıq əlin baş barmağından çeçələ barmağına qədər olan məsafəyə qarış deyilir.

13-cü tapşırığın cavabı:
dözümlü – səbirsiz – təmkinli
kiçik – böyük – iri
susmaq – danışmaq – dinmək

6-cı addım. 21-ci tapşırıq icra edilir. Mətnin ardını yazmaq üçün şagirdlərlə birlikdə plan tərtib edilir. İlk növbədə, şagirdlərə "Siz mətnin ardını necə görmək istəyirsiniz?" sualı ilə müraciət edilir. Fikirlər lövhəyə də yazıla bilər. Həmin fikirlər əsasında plan tərtib edilir.

Mətnin ardının geniş deyil, yığcam yazılması məqsədəmüvafiqdir. Tapşırığın kiçik və ya kiçik qruplarla və şifahi şəkildə icrası da mümkündür.

7-ci addım. Tapşırıq yoxlanır, lazım gələrsə, yığcam müzakirəsi təşkil edilir, abzaslararası əlaqəyə diqqət yetirilir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

7-ci dərs Bir qarış torpaq

Standartlar: 2.1.1., 3.1.3., 4.1.2.

Təlim nəticələri:
Ahəng qanununa uyğun olaraq sözə şəkilçi artırır.
Mətndəki əsas nitq hissələrini seçib izah edir.
İnşa yazır.

İş forması: kollektiv, fərdi

İş üsulu: müəllimin mühazirəsi, müzakirə

1-ci addım. Dərsə dialoqun nə olduğunu, dialoqda hansı durğu işarələrindən istifadə etmək lazım gəldiyini soruşmaqla başlamaq olar. Sonra 14-cü tapşırıq icra edilir. Mətndən nümunələr seçilir, şagirdlər dialoqda müəllifin və şəxsin nitqini fərqləndirir, durğu işarələrinin düzgün işlənməsini əsaslandırırlar. Şagirdlər artıq 5-ci sinifdən dialoq və onun tərtibi məsələləri ilə tanışdırlar. Bu tapşırıq şagirdin əvvəlki biliklərini təkrar etmək xarakteri daşıyır.

2-ci addım. Daha sonra 15–16-cı tapşırıqlar icra edilir.

LAYİHƏ

15-ci tapşırıq şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək baxımından əhəmiyyətlidir.

Əvəzində qalan əhalimiz sağ qalar cümləsində *qalan* sözünü *digər*; əhalimiz sözünü *camaat*; *sağ qalar* ifadəsini *salamat olar* sözləri ilə əvəz etmək olar.

16-cı tapşırıq şagirdlərin əvvəlki illərdə öyrəndikləri qaydaları təkrarlaması baxımından əhəmiyyətlidir. D və E variantları sualın cavablarıdır.

3-cü addım. Sözün ahənginə uyğun olaraq şəkilçilərin artırılması düzgün yazılış qaydalarından biridir. 17-ci tapşırıq bu qaydanın öyrənilməsi üçün motivasiya xarakterlidir. Bu tapşırıq kollektiv şəkildə icra edilir. Müəllim qurduğu dərsə uyğun olaraq biliyini qiymətləndirmək istədiyi bir neçə şagirddən fərdi qaydada da dərsi soruşa bilər. Cavab verən şagird fikrini əsaslandırmağı bacarmalıdır.

4-cü addım. Müəllim ahəng qanununa uyğun olaraq sözə şəkilçilərin artırılması qaydasını şagirdlərə izah edir və izahını nümunələrlə əsaslandırır. Dərslikdə nümunələr verilmişdir. Şagirdlərin mövzunu mənimsəməsinin səviyyəsini öyrənmək məqsədilə onlara müxtəlif sözlər və şəkilçilər təqdim etməklə yoxlamaq olar. Dərslikdəki 18–20-ci tapşırıqlar icra edilir. Tapşırıqların fərdi qaydada icrası məqsədəmüvafiqdir. Bu, müəllimə şagirdlərin mövzunu hansı səviyyədə mənimsəmələri ilə bağlı məlumat verəcəkdir. Tapşırıqların cavabları yoxlanılır.

5-ci addım. 22-ci tapşırıq üzərində iş aparılır. Bu yazı şagirdlərin şəxsi fikirlərinə əsaslanır. Plan tərtib etməyə ehtiyac yoxdur. Bu yazının həcmi 20–25 cümlədən ibarət ola bilər. Sadəcə, şagirdlərə yazını yazarkən mətnə istinad etmələri ilə bağlı istiqamət verilir. Şagirdlər yazılarında 44 günlük Vətən müharibəsinin şanlı tarixinə müraciət edə bilər, keçmişlə bu gün arasında əlaqə yarada bilərlər.

Qeyd. Müəllim şagirdlərin səviyyəsini nəzərə almaqla onlara müxtəlif yazılar tapşıra bilər.

6-cı addım. Seçmə yolla şagirdlərin yazıları oxudulur, əgər səhvlər varsa, düzəldilir.

7-ci addım. Evə şagirdlərin səviyyəsi nəzərə alınmaqla mövzu ilə bağlı müxtəlif tapşırıqlar vermək olar.

- ✓ “Vətən müharibəsində tarixi qələbə” mövzusunda inşa və ya esse yazmaq;
- ✓ Qəhrəmanlıq tarixdən gəlir” mövzusunda təqdimat hazırlamaq;
- ✓ “Vətən müharibəsi” mövzusunda rəsm əsəri (*rəsm çəkməyi bacaran varsa*) çəkmək;
- ✓ “Vətən müharibəsinin qəhrəmanları” mövzusunda buklet və ya divar qəzeti hazırlamaq.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

8-ci dərs

Müəllim

Standartlar: 2.1.2., 2.1.3., 3.1.2., 4.1.4.

Təlim nəticələri:

Nitqini uyğun səs tonu ilə müşayiət edir.
Eşitdiyi fikirlərə münasibət bildirir.
Şeiri intonasiya ilə oxuyur.
Tərcümeyi-hal yazır.

İş forması: kollektiv, fərdi

İş üsulu: əqli hücum, müəllimin mühazirəsi, müzakirə

1-ci addım. Müəllim dərsə müxtəlif üsullardan və vasitələrdən istifadə etməklə başlaya bilər.

1. Dərsliyin 26-cı səhifəsində verilmiş obrazların dediyi sözlər oxunur, sonra atalar sözlərindən istifadə etməklə müzakirə aparılır.

2. Dərsliyin 26-cı səhifəsində verilmiş debatdan: "Müharibədə yalnız silah gücünə qalib gəlmək olar" istifadə etməklə dərsə başlamaq olar. Yığcam debatdan sonra digər tapşırıqları icra etmək olar.

3. Dərsliyin 26-cı səhifəsində verilmiş Amerika atalar sözündən: "Birləşmək başlanğıc, birliyi davam etdirmək inkişaf, birlikdə çalışmaq müvəffəqiyyətdir" istifadə etməklə başlamaq olar.

4. "Bizim Cəbiş müəllim" filmindən istifadə etməklə https://www.youtube.com/watch?v=4tw3HcdjHCA

5. Mövzu ilə bağlı dinləmə mətnindən (mahnı, şeir, hekayə və s.) istifadə edilə bilər.

Bu müzakirələrdə əsas məqsəd Vətən müharibəsində təkcə Azərbaycan ordusunun deyil, ordunun tərkibində düşmənə qarşı vuruşan digər ixtisas sahiblərinin, əsasən də, müəllimlərin fəaliyyətini ön plana çəkməkdir. Əvvəlki illərdə şagirdlər müəllimi daha çox öyrədən, istiqamətləndirən bir şəxs kimi dəyərləndirmişlər. Lakin bu dəfə onlar müəllimi həm də döyüşçü kimi qiymətləndirəcəklər. Dərslikdə bələdçi obrazların fikirləri oxunur, şagirdlərin bu fikirlərə münasibəti öyrənilir

2-ci addım. Yığcam müzakirələrdən sonra orfoqrafiya və orfoepiya tapşırıqlarının icrası nəzərə alınmaqla Bəxtiyar Vahabzadənin "Müəllim" şeirinin oxusu həyata keçirilir. Şeirin oxusu zamanı fasilələr nəzər alınmalıdır. Dərslikdə fasilələrə şeirin ilk bəndi nümunə kimi verilmişdir. Müəllim şagirdlərə fasilələrə düzgün riayət etmək üçün durğu işarələrinə, sözlərin hansı intonasiya ilə deyilməsinə, ritmə və s. diqqət yetirməsini tövsiyə edir.

Şeirin oxusundan sonra müəllim şagirdlərə *"Müəllim nə üçün bu gün və sabahı yaradan varlıq hesab edilir?", "Mənə şəkil verən, rəng verənimsən, mənim... yetirənimsən" dedikdə nə nəzərdə tutulur?"* və digər uyğun bildiyi suallarla müraciət edir.

Şeirin son 2 misrası *"Məktəbi hər şeydən üstün millətin, Hər yerdə, hər işdə zəfəri haqdır"* misraları üzərində iş aparılır. Dərs suallar vasitəsilə Vətən müharibəsi dövründə qələmini süngüyə çevirən müəllimlər haqqında müzakirəyə istiqamətləndirilir.

3-cü addım. 1–4-cü tapşırıqlar müəllimin seçdiyi forma və üsullar əsasında aparılır. 2 və 4-cü tapşırıqlar fərdi, 1 və 3-cü tapşırıqlar cütlər və ya kollektiv şəkildə icra edilə bilər. Cavablar yoxlanır, fikirlər ümumiləşdirilir.

LAYİHƏ

4-cü addım. 5–9-cu tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların cütlər vasitəsilə icrası məqsədəmüvafiqdir.

9-cu tapşırıq ahəng qanununun tətbiqi ilə yanaşı, həm də sözlərin düzgün və məqamında işlənməsini *(leksik normanın gözlənilməsi)* tələb edən tapşırıqdır.

Yaraşıqlı oğlan, uşaq; **gözəl** oğlan, tələbə, uşaq, yoldaş; **maraqlı** şeir, roman, söhbət, xüsusiyyət, hərəkət;

həyətdəki oğlan, uşaq, yoldaş, tələbə; **çalışqan** tələbə, uşaq, oğlan; **daxili** xüsusiyyət, zənginlik; **qorxaq** uşaq, oğlan; **qabaqcıl** tələbə.

Dərslikdə tapşırığı icra etmək üçün nümunə verilmişdir.

5-ci addım. Şagirdlərə "1-2 cümlədən istifadə etməklə özünüzü necə təqdim edə bilərsiniz?" sualı ilə müraciət edilir. 5-6 şagirdin cavabı dinlənildikdən sonra müəllim onlara tərcümeyi-hal, onun yazılış qaydası, bu sənəddə hansı məlumatların öz əksini tapması haqqında məlumat verir. Şagirdlər dərslikdə tərcümeyi-halla bağlı verilmiş məlumatla tanış edilir.

6-cı addım. Şagirdlərə öz tərcümeyi-hallarını yazmaq tapşırığı verilir. Yaxşı olar ki, bu tapşırığı icra etmək üçün şagirdlərə iş vərəqlərində təqdim edilsin. Şagirdlərin yazıları onların portfoliolarında saxlanıla bilər.

7-ci addım. Seçmə yolla şagirdlərin yazyazdığı tərcümeyi-hal oxudulur. Düzəlişlərə ehtiyac olarsa, şagirdlərə istiqamət verilir.

Hesab edin ki, sizdən özünüz haqqında ətraflı məlumat yazmağı istəyiblər. Bu halda siz tərcümeyi-hal yazmalısınız.

Tərcümeyi-hal əməli yazı növüdür. Bu yazı növündən işə qəbul edilərkən, rəhbər vəzifəyə irəli çəkilərkən, mükafat təqdim edilərkən istifadə olunur. Şəxs özü haqqında ətraflı məlumat verir.



Tərcümeyi-halda aşağıdakı məlumatlar göstərilir:

1. şəxsin adı, soyadı, atasının adı
2. şəxsin doğulduğu il, ay, gün
3. oxuduğu (işlədiyi) yerlər
4. faktlar (ailəsi, mükafatları, nailiyyətləri və s. haqqında)

- Tərcümeyi-hal şəxsin öz əli ilə yazılmalı və imzalanmalıdır.
- Sonda tərcümeyi-halın yazıldığı tarix (il, ay, gün) göstərilməlidir.

Tərcümeyi-hala nümunə

TƏRCÜMEYİ-HAL

Mən, Əliyeva Ləman Uğur qızı 2008-ci ildə Bakı şəhərində anadan olmuşam. 2014-cü ildə Bakı şəhərindəki 190 nömrəli məktəbin birinci sinfinə qəbul edilmişəm. — *şəxsin soyadı, adı, atasının adı; doğulduğu il, ay, gün*

Hazırda həmin məktəbin 7-ci sinfində oxuyuram. — *oxuduğu yer*

Anam – Əliyeva Lalə Qabil qızı bağça müəllimidir.
Atam – Əliyev Uğur İlkin oğlu sürücüdür.
Bacım – Əliyeva Röya Uğur qızı Pedaqoji Universitetin I kurs tələbəsidir.
Qardaşım – Əliyev Yusif Uğur oğlu 190 nömrəli məktəbin 11-ci sinif şagirdidir. — *ailəsi haqqında*

"Gənc rəssamlar" dərnəyinin üzvüyəm. 2019-cu ildə "Lütfi Zadə adına Məktəblilərarası V Məntiq Olimpiadası"nda iştirak etmiş, III dərəcəli diplomla təltif edilmişəm. — *nailiyyətləri haqqında*

İmza: Əliyeva Ləman — *imza*

15 oktyabr 2022-ci il — *tarix*

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

9-cu dərs

Müəllim

Standartlar: 4.1.1., 4.1.2.

Təlim nəticələri:

Topladığı məlumatları yazdığı mövzuya uyğun istifadə edir.

Mətn yazarkən abzaslar arasındakı əlaqəni gözləyir.

İş forması: kollektiv, fərdi (və ya qruplarla)

İş üsulu: əqli hücum, müəllimin mühazirəsi, müzakirə, səssiz oxu

1-ci addım. Müəllim dərsə müxtəlif üsullardan istifadə etməklə başlaya bilər.

1. https://www.youtube.com/watch?v=b03FHpedWl4 (Tarix yazan müəllimlər)

https://www.youtube.com/watch?v=cMVvZuLz-BA (“Qala” filmi) linklərində adı göstərilən filmlərin uyğun kadrlarından istifadə etməklə

2. Dərsliyin 28-ci səhifəsində verilmiş “Müəllim də bir qəhrəmandır” adlı müzakirə təşkil edilir. Əvvəlki dərsdə də mövzu ilə bağlı şagirdlərin fikirləri dinlənildiyi üçün müzakirəyə 10 dəq. vaxt kifayətdir.

3. Mübariz Tağıyevin “İrəli, igidlər, Vətən eşqinə” (https://www.youtube.com/watch?v=7wReUCvF1I8) mahnısından istifadə etməklə

4. Texniki imkanlar yoxdursa, şagirdlərə *“Şəhid-müəllimlər haqqında nə bilirsiniz?”, “Hansı şəhid-müəllimləri tanıyırsınız?”* kimi suallarla müraciət edə bilər.

Seçdiyi variantdan asılı olaraq müəllim sinfinin səviyyəsini nəzərə almaqla dərsini qura bilər.

2-ci addım. Şagirdlərin diqqəti dərslikdəki 10-cu tapşırığa (səh. 30) yönəldilir. Şagirdlər “Qəhrəman müəllimlər” (essenin adı şagirdlərin seçimi və yazacaqları mövzudan asılı olaraq dəyişdirilə bilər) adı essenin yazılması üçün təlimatlandırılır və dərslikdə verilmiş plan, təlimat və istiqamətlə tanış edilir.

3-cü addım. Şagirdlər dərslikdə şəhid-müəllim Vidadi İsrafilov haqqında verilmiş mətnlə tanış olurlar. Bunun üçün səssiz oxu üsulundan istifadə etmək olar. Şagirdlər onlara nümunə kimi təqdim olunan mətnlə, onun strukturu və təqdimedilmə forması ilə tanış olurlar.

Qeyd. Ola bilər ki, sinifdə esse yazmaqda çətinlik çəkən şagirdlər olsun. Həmin şagirdlərə ayrıca istiqamət verilməli, lazım gələrsə, müəllim tərəfindən onlara hər hansı bir şəhid-müəllim haqqında yazı yazmaq üçün məlumat təqdim edilməlidir.

Müəllimin seçimi əsasında şagirdlər eyni mövzuda təqdimat da hazırlaya bilərlər. Bunun üçün texniki imkanlar lazımdır. Təqdimatın PowerPoint və ya şagirdlərin bildiyi hər hansı bir dizayn proqramında işləməsi, şəkillərin seçimi, lazımi məlumatın slaydlara yerləşdirilməsi sinfin və şagirdlərin seçimindən asılıdır.

Müəllim qruplar arasında bölgünü aşağıdakı şəkildə apara bilər:

I qrup – “Qəhrəman müəllimlər” (*konkret bir fərd də ola bilər*) adlı təqdimatın hazırlanması

II qrup – “Qəhrəman müəllimlər” adlı inşanın hazırlanması

III qrup –“Qəhrəman müəllimlər” adlı divar qəzetinin hazırlanması

LAYİHƏ

Qeyd. Esse, adətən, şəxsi fikir və münasibətə əsaslandığından fərdi qaydada icrası daha məqsədəuyğundur.

4-cü addım. Şagirdlərin qruplar və ya fərdi şəkildə tapşırığı işləməsi müəllimin seçimindən asılıdır. Qruplar şəklində hazırlanma zamana qənaət etmək baxımından əhəmiyyətlidir. Şagirdlər müəllimin təqdim etdiyi (daha obyektiv olsun deyə püşkatma əsasında da tapşırıqlar seçilə bilər) tapşırığı işləyirlər. Tapşırığın səmərəli icrası üçün qrup daxilində vəzifə bölgüsünün aparılması vacibdir.

5-ci addım. Hazırlanmış işlər təqdim edilir. Müzakirələr aparılır və mövzu ilə bağlı fikirlər ümumiləşdirilir. Yazıların tərkib hissələri arasındakı rabitəyə xüsusi diqqət yetirilir.

6-cı addım. Evə dərsliyin 31-ci səhifəsindəki ağ çərçivənin içərisindəki tapşırıq verilir. Faktların müəyyənləşdirilməsi şagirdlərə aşağı siniflərdən tanış olduğuna görə bu tapşırığı icra etmək onlar üçün çətinlik törətməyəcəkdir. Amma hər bir halda müəllim suallar vasitəsilə *("Fakt nədir?", "Fakt necə seçilir?")* şagirdlərə faktı (*Fakt reallıqda baş verənlər, hər hansı bir hadisə, əhvalat və ya dəqiq məlumatdır)* xatırlada bilər.

Mətn əsasında hansı faktları müəyyən etdiniz?

Faktlar əsasında azərbaycanlı müəllim, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı əsasında "Vətən uğrunda" medalı ilə təltif olunmuş Vidadi İsrafilov haqqında 7-8 cümlədən ibarət mətn tərtib edin.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

10-cu dərs

Kiçik Summativ Qiymətləndirmə

GÖZ AYDINLIĞI

(Səməd Vurğun)

Ay ellər, obalar, gözünüz aydın!
Düşmənin səfləri pozulur bu gün.
Bizim qoç igidlər nərə çəkdikcə
Zalımın məzarı qazılır bu gün.

Zaman öz hökmünü verəndən bəri
Açır camalını dağlar səhəri.
Dumandan sıyrılır Vətən göyləri
Dumanlar qatara düzülür bu gün.

Parlayır günəşi ana Vətənin,
Ulduzu qaralır pis Əhrimənin.
"Göyün allahıyam" deyən düşmənin
Ayağı yerlərdən üzülür bu gün.

Ordumuz yürüyüb ellər keçəndə,
Yadları ot kimi qırıb biçəndə,
Analar sevinib şərbət içəndə
Tarixə dastanlar yazılır bu gün.

1. Şeirdə nədən danışılır?

1. _____
2. _____

2. Bunlardan hansı şeirin mövzusudur?

1. Ordunun hünərini göstərmək
2. Düşmənin məğlub olması
3. Xeyirin şər üzərində qələbəsi
4. Zəfər və qələbənin tərənnnümü
5. Ədalətin təntənəsi

3. Aşağıdakı fikirlərdən birini seçib cavabınızı əsaslandırın.

1. Şeirə "Zəfərin dastanı" adı daha uyğundur, çünki _____

2. Şeirə "Göz aydınlığı" adı daha uyğundur, çünki _____

3. Şeirə hər iki ad uyğun gəlir, çünki _____

LAYİHƏ

4. Şeirdə tənqid və təbliğ olunan fikirləri seçib yazın.

Şeirdə təbliğ olunur:_____

Şeirdə tənqid olunur: _____

5. Fikirlərdən biri şeirdə yoxdur:

A) Şair ellərə gözaydınlığı verir.
B) Şeirdə düşmənlər zalım göstərilir.
C) Düşmən sıralarının pozulması şairi sevindirir.
D) Şeir 44 günlik Vətən müharibəsinin təntənəsini əks etdirir.
E) Şairin müharibəyə nifrəti açıq duyulur.

6. Mətnə əsasən hansı suallara cavab tapmaq olar?

A) Şairi sevindirən səbəblər hansılardır?
B) Düşmən nə üçün "Göyün allahı" hesab edilir?
C) Ana Vətənin günəşi nə üçün parıldayır?
D) Tarixə dastanların yazılmasına səbəb nədir?
E) Təbiət hadisələri şeirin məzmunu ilə necə əlaqələnir?

7. Şeirə əsasən "*Düşmən kimdir?*" sualına cavab yazın.

_____

_____

8. Şeirə əsasən demək olar:

1. *Müharibə* və *sülh* sözləri şeir üçün açar sözlər ola bilər.
2. Düşmən qaranlığın təmsilçisi Əhrimənə bənzədilir.
3. Düşmən məğlub olmasına baxmayaraq, güclü göstərilir.
4. Ordumuz müzəffər, əsgərlərimiz igid təqdim edilir.

9. Hər bir bənddə ifadə olunan fikri və onların əsasında ideyanı müəyyən edin.

LAYİHƏ

10. Atalar sözlərindən biri mətnin ideyasına uyğundur:

A) Birlikdən dirilik doğar.
B) Daş daşa söykənər, divar olar.
C) Vətənə arxa olmayan evinə dayaq olmaz.
D) Sülh hər şeyi təmin edən xoşbəxtlikdir.
E) Zalım məhv edilməyə məhkumdur.

11. Aşağıdakılardan hansı *Dumandan sıyrılır Vətən göyləri* misrasının ifadə etdiyi mənadır?

1. Adi təbiət hadisəsi qələmə alınmışdır.
2. Düşmənin məhv olmasına işarədir.
3. Müharibənin bitməsinə işarədir.

12. Kontekstə əsasən *səf* sözünün mənasını izah edin.

_____
_____

13. *Ordumuz, igidlər, pozulur, düşmənin* sözlərində vurğu hansı hecaya düşür?

14. Şeirlə bağlı fikirlərdən biri yanlışdır:

A) Şeirdə ancaq nəqli cümlələrdən istifadə edilmşdir.
B) Şeirin I bəndində müraciət bildirən sözlərdən istifadə edilmişdir.
C) Şeirdə isimlərdən daha çox istifadə edilmişdir.
D) Hər bəndin I misrasında işlənən sözlərin hamısı ahəng qanununa tabedir.
E) Şeirdə əvəzlikdən də istifadə olunmuşdur.

15. *İgidlər* və *dumandan* sözlərinə şəkilçilərin düzgün artırıldığını əsaslandırın.

LAYİHƏ

11-ci dərs

İnamın qələbəsi

Standartlar: 1.1.2., 2.1.1., 3.1.3.

Təlim nəticələri:

Mətndəki faktları seçir.
Şəkilçili sözləri düzgün tələffüz edir.
Mətnin tərkib hissələri arasındakı əlaqələri müəyyənləşdirir.

İş forması: kollektiv, cütlər

İş üsulu: fasiləli və ya seçmə oxu, beyin həmləsi, müzakirə

1-ci addım. "İnamın qələbəsi" mətni Ü.Hacıbəylinin opera yazmaq istəyindən, xalqını inkişaf etmiş ölkələrlə bir sırada görmək arzusundan danışılır. Yaxşı olar ki, müəllim bu mətn vasitəsilə "sahib olduğu peşədən asılı olmayaraq, bütün insanların xalqın rifahı üçün çalışması vətənin var olması deməkdir" fikrini təlqin etsin. Əvvəlki dərslərdə xalqın, vətənin çətin günündə müəllimlərin də mübarizəyə qoşulması ilə bağlı müzakirələr aparılmış, şagirdlərin fikirləri dinlənilmişdi.

Müəllim bu dərsdə də Vətən müharibəsinin gedişatı, qazanılan qələbələr və uğurlarda igid əsgərlərimizi qələbəyə ruhlandıran bəstəkar və müğənnilərimizin də olduğunu vurğulayır. Lazım gələrsə, həmin mahnıları və bəstələri

https://www.youtube.com/watch?v=Xm72H51kdtg ("Millətəm")

https://www.youtube.com/watch?v=Zt86AdjkqFw ("Türkün səsi")

https://www.youtube.com/watch?v=slnTQTZRRpw ("Atəş") və s. linklərindən istifadə etməklə səsləndirə bilər. Müəllim bu linklərdən istifadə edərsə, 9-cu tapşırıq icra edilə bilər.

https://www.youtube.com/watch?v=62gmR4rQKEA,

https://www.youtube.com/watch?v=ozHmoAlQ9ws linklərindən istifadə etməklə Ü.Hacıbəylinin "Koroğlu" operasından uvertüra dinlədilir və dərsliyin 32-ci səhifəsində verilmiş *"Uvertüra sizə nə təlqin edir?", "Musiqini dinləyərkən hansı hissləri keçirdiniz?"* suallarından istifadə edilir. Müəllim əlavə suallar da verə bilər.

Şagirdlərə *"Sizcə, Üzeyir Hacıbəyli "Koroğlu" operasını hansı zərurətdən yazmışdı?"* sualı ilə müraciət edilir. Şagirdlərin cavabları (*xalqın qəhrəman keçmişinə müraciət, azadlıq uğrunda mübarizləri tərənnüm etmək, yurd sevgisi, Vətən tarixini yaşatmaq, şanlı keçmişimizi musiqi ilə canlandırmaq* və s.) lövhəyə yazılır.

2-ci addım. Mətnin oxusu üzərində iş təşkil edilir. Oxu müəllimin seçimi əsasında fasiləli *(əsərin bir hissəsi oxunur, şagirdlərə əsərin davamında nələr olacağı ilə bağlı sual verilir (Məs.: "Üzeyir nə üçün fikrə getmişdi?")* oxu, proqnozlaşdırılmış *("Sizcə, mətndə nədən danışılacaq?", "Adına əsasən mətndə nədən danışılacağı barədə fikir yürüdün", "İnam qələbə çala bilərmi?"* və s. suallardan istifadə etməklə), seçmə oxu *(faktları, adları, soyadı və s. tapmaq üçün mətni cəld şəkildə nəzərdən keçirmək)* və ya rollu oxu üsulundan istifadə edilməklə həyata keçirilir.

LAYİHƏ

Qeydlər götürməklə oxu üsulundan da istifadə etmək olar. Bunun üçün şagirdlərə iş vərəqi də təqdim etmək olar. Bu üsul seçilərsə, 5-ci tapşırığın icrası da bu mərhələdə icra edilə bilər.

5-ci tapşırığın icrası üçün iş vərəqinə nümunə

Mətnin hissələri	Tərkib hissələrdə bəhs edilən məsələlər	Faktlar
Giriş hissə	Üzeyirin Şərqdə operanın olmaması ilə bağlı düşüncələri, dostu Əli ilə müzakirəsi	Üzeyirin Şərqdə operanın olmamasından narahatlığı
Əsas hissə	Şuşada "Məcnun Leylinin qəbri üstündə" hissəsinin tamaşaya qoyulması, Üzeyirin həmin tamaşanı yüksək qiymətləndirməsi, irəliyə doğru inkişafda xalqına arxalanması	Şuşada "Məcnun Leylinin qəbri üstündə" tamaşasının hazırlanması
Nəticə hissə	Xalqını çox sevən bir insanın xalqına xidmət etmək üçün qəti qərara gəlməsi	Üzeyirin opera yazmaq qərarına gəlməsi

Oxu zamanı orfoqarfiya və orfoepiya, həm də 1-ci tapşırığın icrası diqqətdə saxlanılır. Tapşırıqların icra zamanı (*oxudan əvvəl, oxu zamanı və ya oxudan sonra*) seçilən oxu üsulundan da asılıdır.

3-cü addım. Mətnin oxusundan sonra kollektiv şəkildə 2 və 3-cü tapşırıqlar üzərində iş aparılır. Şagirdlərin cavabları ümumiləşdirilir və https://www.youtube.com/watch?v=-DYS0EpsjOQ linkindən istifadə edilməklə Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası haqqında sənədli film nümayiş olunur. Film 10 dəqiqəlikdir. Müəllim filmə baxdıqca şagirdlərə qeydlər götürməyi, faktları seçməyi tapşırır. Qeydlər götürmək üçün şagirdlərə iş vərəqləri də təqdim etmək olar.

Videoya baxışdan sonra şagirdlərə suallar verilir. Suallar dərslikdə vardır. Müəllim əlavə suallar da verə bilər.

4-cü addım. 4, 6, 7 və 8-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların kollektiv şəkildə icrası məqsədəmüvafiqdir.

5-ci addım. 10–14-cü tapşırıqlar mətnin lüğət tərkibi üzərində iş aparmaq üçündür.

6-cı addım. Mövzu ilə bağlı fikirlər ümumiləşdirilir və dərslikdə müzakirə üçün verilmiş suallar (səh. 35) üzərində iş aparılır.

7-ci addım. 20-ci tapşırıq evə verilir. Tapşırığın icrası üçün dərslikdə müvafiq plan verilmişdir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

12-ci dərs

İnamın qələbəsi

Standartlar: 2.1.3., 3.1.1., 4.1.1.

Təlim nəticələri:

Müzakirə zamanı eşitdiklərinə münasibət bildirir.
Əsas nitq hissələrini fərqləndirir.
İkihecalı sözlərə şəkilçi artırılarkən kökdə baş verən dəyişikliyi əsaslandırır.

İş forması: kollektiv, fərdi

İş üsulu: müzakirə, müəllimin mühazirəsi, yazı

1-ci addım. Ev tapşırığı seçmə üsulla yoxlanılır. Şagirdlərin yazılarına müəllim və yoldaşları tərəfindən münasibət bildirilir.

2-ci addım. 15-ci tapşırıq üzərində iş aparılır. Bu tapşırıq "İkihecalı sözlərin kökündə saitin düşməsi" qaydasının öyrədilməsi üçün motivasiya xarakterlidir. Mətndə verilmiş *fikir* sözü üzərində iş aparılır, şagirdlərə qayda izah edilir.

3-cü addım. 16-cı tapşırıq üzərində iş aparılır. Tapşırığın yerin yetirilmə forması müəllimin seçimi əsasında ola bilər. Müəllim bir nəfəri lövhədə işlətməklə (*və ya lövhəni 3 hissəyə bölüb hər şagirdə bir sözü təqdim etməklə*), digər sözləri cütlərə təqdim etməklə izah etdiyi qaydanın mənimsənilmə səviyyəsini yoxlaya bilər.

4-cü addım. 17-ci tapşırıq üzərində iş aparılır. Tapşırıq şifahi şəkildə kollektiv tərəfindən icra edilir. Eyni sözün müxtəlif yazılış formalarına diqqət yetirilir, şagirdlərədn hansı nəticəyə gəldikləri soruşulur.

5-ci addım. 18 və 19-cu tapşırıqlar fərdi qaydada sinif dəftərlərində və ya iş vərəqlərində yazılır.

6-cı addım. Tapşırıqlar yoxlanılır və 21-ci tapşırıq evə verilir.

Qeyd. Əgər vaxt olarsa, 21-ci tapşırıq sinifdə icra edilə bilər.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

13-cü dərs

Dan ulduzu görünəndə

Standartlar: 1.1.1., 2.1.3., 3.1.2.

Təlim nəticələri:

Mətnin hissələrini müəyyənləşdirir.
Müzakirələrdəki fikirlərə münasibət bildirir.
Mətni düzgün və intonasiya ilə oxuyur.

İş forması: kollektiv, cütlərlə, fərdi

İş üsulu: sual verməklə oxu, proqnozlaşdırılmış oxu, müəllimin mühazirəsi

1-ci addım. Dinləmə mətni üzərində iş aparılır. "Həyəcanlı günlər" mətni şagirdlərə dinlədilir.

Xəstəxananın baş həkimi Qönçə xanım iti addımlarla dəhlizdən keçib öz otağına tərəf getdi. O, qapının qabağında növbətçi həkimlə qarşılaşdı. O, həyəcanla dedi:

– Qönçə xanım, uşağın vəziyyəti çox ağırdır, huşunu itirib.

Baş həkim xalatını geyinib tələsik kabinetdən çıxdı. Xəstəni ayrıca palataya qoymuşdular. Tibb bacısı və uşağın anası xəstənin yanında durmuşdular. Ana çox həyəcan keçirirdi.

Qönçə xanım onlarla salamlaşıb uşağın çarpayısının yanındakı stulda əyləşdi və sağ əli ilə uşağın nəbzini yoxladı. Onun hərarətini müəyyən etmək üçün əlini alnına qoydu. Uşağın hərarəti yüksək idi, nəbzi çox zəif vururdu. O, tibb bacısından uşağa hansı yardımın göstərildiyini soruşdu.

Növbətçi həkim xəstəyə göstərdiyi yardım haqqında məlumat verdi və əlavə etdi:

– Doktor, bağışlayın, gecə saat 12-də belə küləkli, soyuq havada sizi narahat etdim. Uşağın vəziyyəti bizi qorxudur. Belə vaxtlarda sizə böyük ehtiyac hiss edirik.

Baş həkim növbətçi həkimin sözünü tamamlamasına imkan vermədi:

– Nə danışırsınız? Siz çox düzgün hərəkət edibsiniz. Mən özün xahiş etmişəm ki, xəstəxanaya ağır xəstə gətirilərdə gecə yarısı olsa da, mənə xəbər edin.

Həkim bu sözləri deyib, üzünü tibb bacısına tutdu və göstəriş verdi:

– Xəstəyə təcili qan köçürülməlidir.

Səhər tezdən Qönçə xanım uşağın palatasına gəldi. Uşağın anası həkimi görəndə gülümsündü və dedi:

– Doktor, çox sağ olun, böyük əziyyət çəkdiniz. Deyəsən, oğlum bir balaca özünə gəlib, rahat yatır.

...Bir ay keçdi, uşaq tamamilə sağalmışdı. Onu evə buraxarkən sevimli həkiminə yaxınlaşdı və əlindəki gülü ona təqdim edib dedi:

– Çox sağ olun, doktor, mən sizi heç vaxt unutmaram. Siz çox əziyyət çəkdiniz. Sizə və xəstəxananın bütün işçilərinə minnətdarlığımı bildirirəm.

İllər keçdi. 14 yaşlı bu oğlan respublikanın tanınmış alimi oldu. Ancaq vədini unutmadı. Hər dəfə bayram günlərində xəstəxanaya gül dəstəsi göndərib onu həyata qaytaran sevimli həkimini və xəstəxananın işçilərini təbrik etməyi unutmadı.

LAYİHƏ

Müəllim dinləmə mətni üzərində 2 yolla iş apara bilər.
1. Mətn dinlənilir və onun tərkib hissələri üzərində iş aparılır.
2. Mətn dinlənilir və dərsliyin 38–39-cu səhifələrində verilmiş suallar üzərində iş aparılır.

Seçilən yol sinfin səviyyəsinə görə olmalıdır. Amma hər bir halda bütün şagirdlər dinlədikləri mətni tərkib hissələrinə ayırmağı bacarmalıdırlar. Əvvəlki illərdə onlar bu tapşırığı oxu mətnləri üzərində icra edirdilər. Dinləmə mətni üzərində bu işi icra etmək elə də çətinlik törətməyəcəkdir.

Dinləmə mətninin tərkib hissələrini müəyyənləşdirmək üçün şagirdlərə plan və ya iş vərəqi təqdim edilir.

İş vərəqinə nümunə

Mətnin tərkib hissələri	Tərkib hissələrinin işi	"Həyəcanlı günlər" mətni
Giriş hissə	Hər hansı bir hadisə haqqında ümumi məlumat verilir.	
Əsas hissə	*Hər hansı bir hadisə şərh edilir.*	
Nəticə hissə	*Fikir ümumiləşdirilir və yekunlaşdırılır.*	

Şagirdlər boş xanalarda lazımi qeydləri edirlər. Əgər sinifdə mənimsəmə səviyyəsi aşağı olan şagirdlər varsa, müəllim mətni bir neçə dəfə dinlətdirə bilər, yaxud həmin mətn yazılmış vərəqi onlara təqdim edə bilər. Müxtəlif formalarda uyğunlaşdırma tapşırıqları hazırlaya və şagirdlərə təqdim edə bilər.

1

Giriş hissə →	Bombardmana düşən Zemfiranın huşunu itirməsi
Əsas hissə →	Zemfiranın ümumi vəziyyəti və düşüncələri haqqında məlumat
Nəticə hissə →	Zemfiranın yaralı əsgərlərə kömək etməsi, təkrar bombardman və ağır yaralanma

2

Giriş hissə	Əsas hissə	Nəticə hissə
• Zemfiranın düşüncələri • Zemfiranın vəziyyəti	• Zemfiranın baş verən hadisələri xatırlamağa çalışması • Zemfiranın yaralı əsgərlərə kömək göstərməsi • əsgərlərin və tibbi hissənin bombardmana düşməsi	• Bombardmana düşən Zemfiranın huşunu itirməsi

Cavablar yoxlanılır, səhvlər varsa, şagirdləri bir daha mətnə diqqətlə baxmağa sövq edilir.

LAYİHƏ

2-ci addım. “Dan ulduzu görünəndə” mətninin oxusu təşkil edilir. Suallar verməklə oxu (*Müəllim şagirdlərə oxudan əvvəl və oxu zamanı mətnin məzmunu ilə bağlı suallar hazırlamağı tapşırır. Səsli və ya səssiz oxudan sonra şagirdlər mətni oxuyarkən onlarda yaranan sualları yazır, sonra isə qruplara bölünərək həmin suallara cavab axtarırlar.*), proqnozlaşdırılmış oxu və ya nəzərdən keçirməklə oxu (*mətni bir neçə dəqiqə diqqətlə nəzərdən keçirməklə məzmunla tanış olmaq*) üsulundan istifadə etmək olar. 1-ci tapşırıq icra edilir.

3-cü addım. Daha sonra dinləmə və oxu mətnlərindəki həkim obrazlarının xarakterləri və peşə məsuliyyətləri baxımından müqayisəsi aparılır. 2-ci tapşırıq cütlər vasitəsilə icra edilir. 2-ci tapşırığın icrası zamanı dinc və ya müharibə şəraitindən asılı olmayaraq, həkimin həmişə öz peşəsinə və vəzifəsinə sadiq olması fikri ön plana çəkilir.

Ola bilər ki, 2-ci tapşırığın icrası hansısa şagirdlər üçün çətinlik törətsin. Bu halda müəllim Venn diaqramı çəkilmiş iş vərəqlərini şagirdlərə təqdim edə bilər. Tapşırıqlar fərdi və ya cütlər şəklində icra edilə bilər.



4-cü addım. Mətnin məzmununun mənimsədilməsi üçün 3-6-cı tapşırıqlar üzərində iş aparılır. 3 və 4-cü tapşırıqların kollektiv şəkildə icrası məqsədəmüvafiqdir.

2-ci tapşırığın cavabı: *Zemfira həkim idi.*

Şagirdlərin onun həkim olmasını müəyyən etməsi üçün diqqəti mətnə və oradakı bir neçə cümləyə yönəldilir: *“Görəsən, xəstəxanaya yetiçə biləcəklərmi?”, “O, qarnından yaralanmış kapitanı qolundan tutub güclə aparırdı”, “Zemfira bir əsgərlə yaralıları daşıyır, maşınlarla yola salırdılar”, “Kiçik dərədə yerləşən tibb məntəqəsində gözündən yaralanmış yaşlı bir əsgər qalmışdı.*

Qeyd. Hadisələr müharibə dönəmində baş verir. Bu parça Süleyman Vəliyevin “Düyünlər” romanından götürülmüş və 1941–1945-ci illərdə baş vermiş İkinci Dünya müharibəsi dövründə baş vermiş hadisələri əks etdirir. Müəllim məqsədəuyğun hesab edərsə, şagirdlərə bu müharibə haqqında yığcam məlumat verə bilər və hadisələri 44 günlük Vətən müharibəsinin tarixi hadisələri ilə əlaqələndirə bilər.

3-cü tapşırıq
Tapşırıqdakı cümləni mətndə (səh 39) nömrələnmiş 3-cü cümlədən sonra artırmaq lazımdır.
Hər iki tapşırıqla bağlı fikirlər ümumiləşdirilir və növbəti tapşırıqların icrasına keçid edilir.

5-ci addım. 5, 6 və 9-cu tapşırıqlar üzərində iş aparılır.

5-ci tapşırığı icra etmək üçün dərslikdə sxem verilmişdir. Müəllim sinfinin səviyyəsinə uyğun olaraq tapşırığı mürəkkəbləşdirə bilər və icra etmək üçün şagirdə cədvəl çəkilmiş iş vərəqi təqdim edə bilər.

LAYİHƏ

Zemfiranın xarakterik xüsusiyyətləri	Fikri təsdiqləyən cümlə	Mətnə əsasən demək olar
güclü (mənən)	O, qarnından yaralanmış kapitanı qolundan tutub güclə aparırdı.	
mərd	Amma Zemfira yorğun olsa da, kapitanı atıb getməyi ağlına belə gətirmirdi.	
cəsur	O özünü ələ alıb zorla ayağa qalxdı, yaralını sürüməyə başladı.	Müharibənin dəhşəti onu qorxutmur.
peşəsinə və vəzifə borcuna sadiq	Zemfira bir əsgərlə yarlıları daşıyır, maşınlarla yola salırdılar. Xatırladı. Kiçik bir dərədə .... yaşlı bir əsgər qalmışdı.	
dözümlü	Necə olursa-olsun, durmaq lazımdır.	

Şagirdlərin də bu tapşırıqla bağlı fikirləri ola bilər.

İş vərəqlərinin şagird portfoliosunda saxlanması məqsədəmüvafiqdir. Bu, şagirdin irəliləyişini izləməyə imkan verir.

6-cı tapşırıq şagirdlərin təxəyyül və bacarığına əsaslanır.

6-cı addım. 7 və 8-ci tapşırıqlar üzərində iş aparılır. Bu tapşırıq fərdi qaydada müəllimin seçdiyi şagirdlər tərəfindən icra edilir. Bu tapşırıqlar oxu zamanı fasiləyə riayət edilməsi üçün motivasiya xarakterlidir.

7-ci addım. Müəllim oxu zamanı fasilə qaydaları haqqında şagirdlərə məlumat verir, nümunələrlə izah edir.

8-ci addım. 13-cü tapşırq evə verilir. Tapşırığın icrası üçün ilk növbədə, *nikbin* sözünün izahını vermək lazımdır. Daha sonra müəllim mətnə sonluq yazmaq üçün şagirdə istiqamət (mətnin üslubunu, dil xüsusiyyətlərini qorumaq) verə bilər. Həcm yığcam və məzmunlu olmalıdır. Yazı daha çox şagirdlərin təxəyyülünə əsaslandığı üçün yazılar fərqli olacaqdır.

9-cu addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

14-cü dərs

Dan ulduzu görünəndə

Standartlar: 3.1.1., 4.1.2., 4.1.3.

Təlim nəticələri:

Sözlərin qrammatik mənasını izah edir.
İnşa yazır .
Əvəzliyi izah edir.

İş forması: kollektiv, cütlərlə, fərdi

İş üsulu: klaster, müzakirə, müəllimin mühazirəsi, yazı

1-ci addım. Müəllim dərsə ev tapşırığının yoxlanması ilə başlaya bilər. Seçmə yolla ev tapşırığı kimi verilmiş mətn oxudulur. Hər dəfə ev tapşırığının eyni şagirdlərdən soruşulmamasına diqqət yetirmək lazımdır. Oxu zamanı şagirdlərin intonasiya və səs tonuna, cümlələrin düzgün quruluşuna diqqət yetirilir. Lazım gələrsə, yazıya düzəlişlər edilir. Şagirdlərin bir-birilərinin yazılarına münasibət bildirməsi də diqqət mərkəzində saxlanılmalıdır. Bu, şagirdlərdə digərinin fikirlərinə və müzakirələrdə münasibət bildirmə, ünsiyyət, qarşılıqlı dialoqa girmə, nitqini uyğun səs tonu ilə tənzimləmə kimi bacarıqların formalaşdırılmasına imkan verəcəkdir.

2-ci addım. Dərs 10-cu tapşırığın icrası ilə davam etdirilir. Bunun üçün lövhədə "dan ulduzu" ifadəsi yazılır, şaxələndirmə üsulundan istifadə etməklə şagirdlərin bu anlayışla bağlı fikirlərini öyrənilir.

https://www.youtube.com/watch?v=554slBrNSPM
https://www.youtube.com/watch?v=S6PmPQfgWWc
https://www.youtube.com/watch?v=CWf0_sdJOJI linklərindən istifadə etməklə dan ulduzu haqqında şagirdlərdə təsəvvür yaradıla bilər.

Şagirdlərə "*Sizcə, dan ulduzu ifadəsi mətn üçün aşar söz ola bilərmi? Niyə?*" sualları ilə müraciət edilir. Cavablar ümumiləşdirilməndən sonra şagirdlərin mətn üçün hansı söz və ifadələri təklif etdikləri soruşulur. Şagirdlərin fikirləri mətnlə əlaqələndirilir, mətndən fikri təsdiqləyən cümlələr seçilir.

3-cü addım. 11-13-cü tapşırıqlar mətnin lüğət tərkibi üzərində iş aparmaq üçündür. Tapşırıqların cütlərlə icrası məqsədəmüvafiqdir.

LAYİHƏ

4-cü addım. 14, 15-ci tapşırıqlar üzərində iş aparılır. Bu tapşırıqlar əvəzlik və onun nitqdə rolunu müəyyən etmək üçün praktik və motivasiya xarakterlidir. Tapşırıqlar şifahi şəkildə icra edilir və daha sonra müəllim əvəzliklə bağlı izahat verir. Əvəzlik haqqında məlumat dərsliyin 42-ci səhifəsində verilmişdir.

5-ci addım. Şagirdlərin əvəzliklə bağlı biliklərin mənimsəmə səviyyəsini yoxlamaq üçün 16 və 17-ci tapşırıqlar üzərində iş aparılır. Şagirlərin tapşırıqları fərdi qaydada icra etməsi məqsədəmüvafiqdir. Müəllim sinfinin səviyyəsini nəzərə almaqla şagirdlərə kiçik mətn parçaları təqdim edə və həmin mətndən əvəzliklərin seçilməsini tapşıra bilər. Yaxud da şagirdlərin indiyə qədər öyrəndiyi əsas nitq hissələrinin müəyyən edilməsi ilə bağlı tapşırığın yazıldığı iş vərəqləri təqdim edə bilər.

İş vərəqinə nümunə:

Mətn	İsim	Sifət	Say	Əvəzlik

Tapşırıqların cütlərlə icrası vaxta qənaət baxımından daha məqsədəmüvafiqdir.

6-cı addım. 19-cu tapşırıq üzərində iş aparılır. Tapşırığın icrası üçün dərslikdə təlimat və istiqamət verilmişdir. Şagirdlər materialla tanış edilir və yazıya istiqamətləndirilir. İlk növbədə, tapşırığın şərti icra edilir, yəni şagirdlərlə birlikdə obyekt (*məsələn; Vətən, səma, günəş, sülh, müharibə və s.*) və ya hadisə (*müharibənin bitməsi, sülhün bağlanması, əsgərlərin müharibə meydanında cəsurluğu* və s.) müəyyənləşdirilir. Dərslikdə də bu tapşırığın icrası ilə bağlı müxtəlif sözlər təqdim edilmişdir. Tapşırığın həcmi sinfin səviyyəsi və şagirdlərin bacarıqları nəzərə alınmaqla müəllim tərəfindən müəyyənləşdirilir. Tapşırığın icrasına 10-12 dəq. vaxt kifayətdir.

7-ci addım. Seçmə yolla yazılar yoxlanır və qiymətləndirlir. Müəllim qiymətləndirmə üçün aşağıdakı cədvəldən istifadə edə bilər:

Meyarlar	Tam	Qismən	Zəif
Yazının mahiyyəti açılmışdır.			
Məzmun ada uyğundur.			
Faktlar, atalar sözləri (əgər varsa) inandırıcıdır.			
Fikirlər əsaslandırılmışdır.			
Tərkib hissələr arasında əlaqə gözlənilmişdir.			

8-ci addım. Dərsin gedişinin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

Qeyd. Növbəti dərsdə “Azərbaycan – dünənim, bu günüm, sabahım” adlı təqdimat hazırlamaq üçün şagirdlərə material toplanması tapşırılır. Dərsliyin 45-ci səhifəsində plan vardır.

LAYİHƏ

15-ci dərs

Azərbaycan

Standartlar: 1.1.2., 3.1.1., 3.1.2., 3.1.3.

Təlim nəticələri:

Dinlədiyi mətndə hadisələrə münasibət bildirir.
Şeirdən əvəzlikləri seçir və izah edir.
Səs tonu və fasiləni gözləməklə şeiri oxuyur.
Oxuduğu və dinlədiyi mətnlər arasında əlaqəni müəyyən edir.

İş forması: kollektiv, cütlərlə

İş üsulu: müzakirə, əqli hücum

1-ci addım. Müəllim dərsə iki üsuldan istifadə etməklə başlaya bilər.

1-ci üsul. "Azərbaycan" şeirinin intonasiyalı oxusu təşkil edilir. Şeirin hər bəndinin bir şagirdə oxudulması tövsiyə edilir. Oxusu zəif olan şagirdlər xüsusi diqqətdə saxlanılır. Oxu zamanı şeirin bəndlərinə əsasən şagirdlərə suallar (*Azərbaycan niyə od ürəkli, od nəfəsli hesab edilir?", "Azərbaycan hansı savaşlardan üzüağ çıxmışdır?", "Hansı misralar Azərbaycanın dostpərvər olduğunu sübut edir?"*və s.) vermək olar. Müəllimin seçimi əsasında orfoqrafiya və orfoepiya tapşırıqlarının oxudan əvvəl və ya sonra icrası diqqətdə saxlanılır. Sonra https://www.youtube.com/watch?v=4GvRp0E8-c0 linkindən istifadə etməklə şeirə yazılmış musiqi şagirdlərə dinlədilir.

2-ci üsul. Şagirdlərə, ilk növbədə, "Azərbaycan" mahnısı dinlədilir, sonra şeirin intonasiyalı oxusu təşkil edilir.

Texniki imkanlar yoxdursa, müəllim Azərbaycan və ya vətənlə bağlı hər hansı bir şeiri səsləndirə bilər.

Nəriman Həsənzadənin "Azərbaycan" şeirindən istifadə etmək olar. Hər iki şeirdə ifadə olunan fikirlərlə bağlı müzakirə təşkil etmək olar.

Sən əbədi bir ocaqsan, Azərbaycan!
Yaşadıqca yanacaqsan, Azərbaycan!
Beşiyin bir ana qoynu,
Doğma, isti bir qucaqsan, Azərbaycan!
Ruhum mənim, laylam mənim, Azərbaycan!
Bu dünyada dünyam mənim, Azərbaycan!
Bu dağ mənim, o dağ mənim vətənimdi,
Tüstülənən ocaq mənim vətənimdi.
Sərhəd-sərhəd bölübdülər,
Bölünməyən torpaq mənim vətənimdi.
Sən mənimsən, mən də sənin, Azərbaycan!
Övladıyıq bir vətənin, Azərbaycan!
Zaman! Səs ver, bu günlərin harayına,
Xan Arazın, Ana Kürün harayına.
Biz çatmasaq, kim çatacaq
Qaçqınların, köçkünlərin harayına?!
Sən arxasan, sən dayaqsan, Azərbaycan!
"Qalx"! – deyəndə, qalxacaqsan, Azərbaycan!

LAYİHƏ

Gəmilərin göy Xəzərdə üzər keçər,
Şahinlərin səmalarda süzər keçər.
Körpülərin, binaların
paytaxtımı yollar boyu bəzər keçər.
Keçmək olmaz amma səndən, Azərbaycan!
İşıq alır dünya səndən, Azərbaycan!
Bir nəğməsən, oxuyuram bu torpaqda,
“Can!” – dedikcə can duyuram bu torpaqda –
Ey ilhamlı səhərlərim,
Sən ki varsan, mən də varam bu torpaqda.
Yellənəcək bayrağımız, Azərbaycan!..
Müqəddəsdi torpağımız, Azərbaycan!..

2-ci addım. 1 və 2-ci tapşırıqlar üzərində iş aparılır. Əgər mahnı dinlədilməzsə, şeirlər üzərindən icra edilmək üçün tapşırıqlarda müvafiq dəyişiklik edilə bilər. Fikirlər ümumiləşdirilir və məzmun üzərində iş aparmaq üçün növbəti tapşırıqlara keçid edilir.

3-cü addım. Məzmun üzərində iş aparmaq üçün 3-8-ci suallardan istifadə olunur. Tapşırıqların kollektiv və ya cütlər şəklində icrası məqsədəmüvafiqdir. Lakin müəllim qurduğu dərsdən asılı olaraq iş formasını seçməkdə sərbəstdir.

4-cü addım. 9-11-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların cütlərlə işlənməsi tövsiyə edilir. Bu, şagirdlərdə müzakirə, ümumi rəyə gəlmək və təqdim etmək bacarığının formalaşmasına şərait yaratmış olacaqdır.

10-cu tapşığın cavabı C bəndidir.

11-ci tapşırqda sıranı yaxınmənalı sözlərlə tamamlamaq lazımdır.

Müəllim şeirdən lazım bildiyi və şagirdlər üçün mənası anlaşılmayan sözləri seçməklə üzərində iş aparıla bilər.

5-ci addım. 12-ci tapşırıq üzərində iş aparılır. Tapşırığın icrası müəllimin seçimi əsasında böyük və ya kiçik qruplarla iş formasından istifadə etməklə təşkil edilə bilər. Bu vaxta qənaət etmək baxımından məqsədəmüvafiqdir, həm də şagirdlərdə komandada işləmə, əməkdaşlıq etmə, vahid rəyə gəlmə və ümumiləşdirmə bacarıqları formalaşdırmış olacaqdır. Tapşırığın icrası üçün 10-15 dəq. kifayətdir. Təqdimat sinfin səviyyə və bacarıqları nəzərə alınmaqla müxtəlif şəkildə (slaydlar, vatman kağızı, A3 və ya A4 vərəqlərində və s.) həyata keçirilə bilər.

6-cı addım. Təqdimatlar dinlənilir, müzakirələr nəticəsində ümumiləşmələr aparılır. Şagirdlərin gəldiyi nəticə əvvəlki dərsdə öyrəndikləri “Azərbaycan” şeiri ilə əlaqələndirilir. Şagirdlərin hazırda Azərbaycanda gedən quruculuq işləri, iqtisadi inkişaf və s. ilə bağlı müzakirələrə cəlb edilməsi tövsiyə edilir. Müəllim bu məqsədlə müvafiq suallardan istifadə edə bilər.

7-ci addım. Dərsin gedişinin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

16-cı dərs

Qayıdışın mübarək!

Standartlar: 1.1.1., 2.1.1., 2.1.3, 2.1.4., 3.1.2.

Təlim nəticələri:

Dinlədiyi mətnin tərkib hissələrini müəyyən edir.
Nitqində şəkilçiləri düzgün tələffüz edir.
Müzakirələrdə eşitdiyi fikirləri ümumiləşdirir.
Mətnləri məzmun baxımından müqayisə edir.
Fasiləni gözləməklə və səs tonunu gözləməklə mətnləri oxuyur.

İş forması: kollektiv, fərdi

İş üsulu: proqnozlaşdırılmış oxu, beyin həmləsi

1-ci addım. İlk növbədə, şeirin adına münasibət bildirmək üçün *"Qayıdış dedikdə nə başa düşürsünüz?", "Qayıdışın mübarək!" şeirində, sizcə, nədən danışılacaq?!", "Sizcə, şeirin obyekti hansı şəhərdir?"* və müəllimin uyğun bildiyi digər suallarla şagirdlərə müraciət edilir və şeirin oxusunun təşkil edilməsi üçün hazırlıq görülür.

Dərsə giriş kimi müəllif N. Həsənzadənin ifasında şeiri şagirdlərə dinlətməklə də başlamaq olar. Mətnin tərkib hissələrinin müəyyən edilməsi üzərində iş aparılır. Bu məqsədlə müəllim şagirdlərə şeiri dinləyən zaman qeydlər götürməyi təklif edir. Şeirdə nədən danışıldığını bilmək üçün diqqət *30 il və Şuşa* ifadələrinə yönəldilir.

Tapşırığı icra etmək üçün şagirdlərə iş vərəqi təqdim edilə bilər.

İş vərəqinə nümunə:

Mətnin tərkib hissələri	Tərkib hissələrdə danışılır	"Qayıdışın mübarək" şeirində tərkib hissələrdə təqdim olunur
Giriş hissə	Hər hansı bir hadisə (anlayış) haqqında məlumat verilir.	1992-ci ildə torpaqlarımızın işğalı ilə başlayan ayrılıq həsrəti
Əsas hissə	Hər hansı bir hadisə şərh edilir.	İşğal dövründə xalqın iztirabı, igid əsgərlərimizin torpaqların azad esilməsin üçün apardığı mübarizə
Nəticə	Fikir ümumiləşdirilir və nəticə təqdim edilir.	Torpaqların işğaldan azad edilməsi, Şuşaya qayıdış

Qeyd. Cədvəlin 1 və 2-ci hissəsi olduğu kimi şagirdə təqdim edilir. 3-cü hissəsi *("Qayıdışın mübarək" şeirində tərkib hissələrdə təqdim olunur)* şagirdlər tərəfindən doldurulur.

2-ci addım. Şeirin oxusu təşkil edilir. Oxu zamanı intonasiya və onun tələbləri diqqətdə saxlanılır. https://www.youtube.com/watch?v=lUYdVbjd3G4 linkindən istifadə etməklə Faiq Ağayevin "Sən qalibsən" mahnısını səsləndirmək və şeirin məzmunu ilə əlaqələndirmək olar. Mahnı qalib xalqın, dövlətin təntənəsini təqdim edir.

Texniki imkanlar yoxdursa, Nəriman Həsənzadənin şeirindən istifadə etmək olar.

LAYİHƏ

Hər millətin, hər torpağın öz adı var, öz ünvanı,
Yağılara baş əyməyib Azərbaycan qəhrəmanı.
Vahid Vətən himnimizdi Şəhidlərin axan qanı,
Nəsillərə yadigardı, zaman yazdı bu dastanı.
Millətlərə hürriyyətdi, istiqlaldı şüarımız,
Azadlığı, səadəti qorumaqdı qərarımız.
Respublikam – ana torpaq, qədim Odalar diyarımız!
Yaşadıqca – vətənimiz, ölsək – şəhid məzarımız.
Üç rəngdədi bayrağımız, qalxan bayraq enən deyil,
Mərd oğullar dar ayaqda öz andından dönən deyil.
O vətən ki, tapdalanır ayaq altda, vətən deyil,
O torpaqda bağ becərsən, ot göyərib bitən deyil.
Ana Kürün, Xan Arazın böyümüşük laylasına,
Sərvətimiz ayna tutub göy Xəzərin aynasına.
Dünya baxsın – tarix olmuş Azərbaycan dünyasına,
Mübarizə zinət verir ömrün-günün mənasına.

3-cü addım. Şeirin məzmunu üzərində iş aparmaq üçün 1-4-cü suallardan istifadə edilir. Müəllim əlavə suallar da verə bilər. Şeir şagirdlərdə vətənpərvərlik ruhunun formalaşdırılması baxımından əhəmiyyətlidir.

4-cü addım. 45-ci səhifədə verilmiş "Salam, əsgər" mətni şagirdlərə oxudulur. Mətni bitkin hissələrə bölüb şagirdlərə təqdim etməklə oxudulur. Mətndən sonra verilmiş tapşırıq və sual *("Məktubun yazılma səbəblərini göstərin", "Mətndə Azərbaycan əsgəri necə təqdim edilir?")* üzərində iş aparılır. Mətnlərin müqayisəsi, əsas ideyanın müəyyənləşdirilməsi üçün müzakirələr təşkil edilir. Vətən müharibəsində qazanılan qələbə haqqında müəllim şagirdlərin bildiklərini öyrənir. Fikirlər ümumiləşdirilir və nəticə çıxarılır.

20 Yanvar hadisələrinin xatırladılması, bu faciənin 2020-ci ildə tarixi qələbəmizinn qazanılmasında ilk addım olduğunu, torpaqlarımızın işğal edilməsinə qarşı etiraz əlaməti olaraq 1988-ci ildən başlayaraq milli azadlıq hərəkatınınn başlanması, bu yolda canını fəda edən, şəhidlik zirvəsinə ucalan oğullarımızın xatırlanması mütləqdir.

5-ci addım. Müəllim növbəti dərsə hazırlıq məqsədilə şagirdlərə dərs ilinin əvvəlində onlara təqdim olunan layihənin yekunlaşdırılması üçün "Öncə Vətəndir!" adlı hekayənin yazılacağı ilə bağlı məlumat verir. Bölmədəki mətnləri, bölmə boyu hər mətndən çıxan açar cümləni təkrarlamağı, əlavə məlumat toplamağı tapşırır. Dərsliyin 47-ci səhifəsində hekayə yazmaqla plan və təlimat verilmişdir. Şagirdlər bu materiallarla tanış edilir, onlara müvafiq tövsiyələr verilir, hekayəni yazmaqla bağlı istiqamət üzrə iş aparılır. Əgər sinif çox hazırlıqlıdırsa, müəllim onları kiçik qruplara bölür və qruplara müvafiq tapşırıqlar verilir.

Müəllim tapşırıq verərkən sinfinin səviyyəsini nəzərə almalıdır. Əgər çətinlik çəkən şagirdlər varsa, mövzu ilə bağlı onlara esse, təqdimat, buklet, divar qəzeti hazırlamağı, hətta rəsm və ya foto çəkməyi tapşıra bilər. Tapşırıqlar üçün iş forması müəllim tərəfindən seçilir.

6-cı addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

17-ci dərs Layihənin yekunlaşdırılması

Standartlar: 2.1.3, 2.1.4., 4.1.2.

Təlim nəticələri:

Müzakirələrdə eşitdiyi fikirləri ümumiləşdirir.
Atalar sözlərindən istifadə edir.
Hekayə (esse) yazır.

İş forması: fərdi (və ya kiçik qruplarla)

İş üsulu: beyin həmləsi, yazı

1-ci addım. Dərsi pozitiv notlarla da başlamaq olar. https://www.youtube.com/watch?v=PszyQ6Ljte8 linkindən istifadə etməklə "Cənnətim Qarabağ" mahnısının musiqisi səsləndirilir. Mahnının sözləri şagirdlərə paylanır.

Musiqisi Cahangir Cahangirovun,
sözləri Rəfiq Zəkanındır.

Sən ellərin, könüllərin,
Ülvi diyarısan
Şirin canın, Azərbaycanın,
Bir əbədi baharısan...

Nəqərat:
Cənnətim Qarabağ,
Zinətim Qarabağ!
Nəğmələr gülüstanısan,
Sevgi dastanısan!

II
Quşlar uçar, güllər açar,
Mavi qucağında.
Hara baxsan, zövq alacaqsan,
Sənin İsa bulağında.

Nəqərat:

Texniki imknalar yoxdursa, bu telefon vasitəsilə də həyata keçirilə bilər.

Daha sonra müəllim 46-cı səhifədə verilmiş suallar üzərində iş aparır. Şagirdlərin fikirləri ümumiləşdirilir.

2-ci addım. Əvvəlki dərsdə 1-ci tapşırığın (səh. 49) icrası ilə bağlı izahat verilmişdi. Müəllim hekayə yazmaq üçün şagirdləri bir daha təlimatlandırır. Əvvəlki illərdə də bu, şagirdlərə öyrədildiyi üçün tapşırığın icrası elə də çətinlik törətməyəcək.

Hekayə yazmaq üçün müəllim iki yanaşmadan istifadə edə bilər.

LAYİHƏ

1. Sinif vahid hekayə yazır. I qrup mətnin giriş hissəsini; II qrup əsas hissəsini; III qrup nəticə hissəsini yazır.

2. Hər qrupa yığcam bir hekayə yazmaq tapşırılır.

Təqdimat, divar qəzeti də bu yanaşmalardan uyğun olanını seçməklə hazırlana bilər.

3-cü addım. Şagirdlər tapşırığı yazmağa sövq edilir. Qruplarda vəzifə bölgüsünün aparılması tövsiyə edilir. Şagirdlər dərslikdə verilmiş təlimat və plana uyğun işləyirlər. Hekayənin yazılması üçün 25-30 dəq. yetərlidir. Bu, kiçik qruplarla icra edilsə, göstərilən müddət kifayət edəcəkdir.

4-cü addım. Qruplar tapşırığı təqdim edirlər. Müəllim məzmuna, mətnin tərkib hissələrində təsvir edilənlərin, cümlələrin üslubi cəhətdən düzgünlüyünə, eyni zamanda, şagirdlərin düzgün intonasiyasına, düzgün tələffüzə diqqət yetirir. Lazım gələrsə, istiqamət verir.

5-ci addım. Tərkib hissələr arasında əlaqələndirici cümlələrin yazılması üzərində iş aparılır. Bu, şagirdlərdə cümlələr və abzaslar arasında əlaqə yaratmaq bacarığının formalaşması baxımından çox vacibdir.

6-cı addım. Qiymətləndirilmə təlim nəticələrinə uyğun aparılır.

18-ci dərs Kiçik Summativ Qiymətləndirməyə nümunə

Müəllim summativ qiymətləndirilmənin keçirilməsini aşağıdakı kimi təşkil edə bilər:

1. Meyarlar müəyyənləşdirməklə imla (*lüğət üzrə, öyrədici, "özümü yoxlayıram" imlası, yoxlama imla və s.*) və ifadə yazdırmaqla;
2. Mətn üzərində iş aparmaqla
3. Dinləmə mətni üzrə
4. İfadə yazdırmaqla

Lüğət üzrə imla.

Müəllim bölmə ərzində hər mətnin əvvəlində **orfoqrafiya** qrafasında verilmiş sözləri şagirdlərə yazdırır. Sözlərin sayı 15-20 aralığında ola bilər. Texniki imkanlar varsa, yazı bitdikdən sonra həmin sözlərin düzgü yazılışının olduğu slayd şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər yazılarını yoxlayır və müəllimə nəticələri haqqında məlumat verirlər.

Öyrədici imla.

Əsasən, rabitəli və rabitəsiz mətnlərdən ibarət olur. Müəllim bu imlanın uyğun bildiyi növündən istifadə edə bilər.

Müəllim imla yazıları yoxladıqdan sonra səhvləri qruplaşdırır:

1. Orfoqrafik səhvlər
2. Durğu işarələri səhvi

Qeyd. Kalliqrafiya qaydalarına diqqət yetirilməsi məqsədəmüvafiqdir.

LAYİHƏ

İlk növbədə, yazıların müsbət tərəfləri (səliqəli, səhvsiz) sadalanır. Daha sonra imla yazılarda buraxılmış səhvlər şagirdlərin diqqətinə çatdırılır, müzakirələr aparılır.

İmla yazının aşağıdakı meyarlar üzrə qiymətləndirilməsi məqsədəmüvafiqdir:

1. Sözdə saitləri düzgün yazır.
1.1. e və ə hərflərini
1.2. u və ü hərflərini
1.3 ö və o hərflərini

2. Sözdə samitləri düzgün yazır:
2.1. x və h hərflərini
2.2. söz ortasında q, ğ, x hərflərini
2.3. söz sonunda q və k hərflərini
2.4. söz əvvəlində c və ç hərflərini

3. Sözlərə şəkilçiləri düzgün artırır.
3.1. Sözlərə şəkilçi artırarkən ahəng qanununun tələblərini nəzərə alır.
3.2. Sözləri əlaqələndirmək üçün şəkilçilərdən düzgün istifadə edir.

4. Sözləri sətirdən sətrə düzgün keçirir.

5. Cümlə sonunda durğu işarələrindən düzgün istifadə edir.
5.1. Sadalanan sözlərdə vergül işarəsindən istifadə edir.
5.2. Dırnaq işarəsindən istifadə edir.
5.3. Cümlənin sonunda müvafiq durğu işarəsindən istifadə edir.

6. Abzasların yerini müəyyən edir.
6.1. Abzaslarda sözlərin düzgün işlənməsinə diqqət yetirir. *(Bəzən şagirdlər imla yazıda bu və ya digər*
6.2. Abzaslarda cümlələrin ardıcıllığına riayət edir. *(Bəzən şagirdlər imla yazıda cümləni buraxırlar.)*
6.3. Cümlədə sözlərin ardıcıllığına riayət edir. *(Bəzən şagirdlər imla yazıda cümlədəki sözlərdən birini və ya ikisini buraxırlar.)*

Müəllim uyğun bildiyi meyarları əlavə edə bilər. Bu onun seçdiyi mətndən asılıdır

Müəllim KSQ-ni keçirmək üçün ifadə yazı planlaşdırırsa, mətn 3 dəfə oxunur, şagirdlər mətni yazır və yazılar müəyyən edilmiş meyarlar əsasında yoxlanılır.

Müəllim başqa üsuldan da istifadə edə bilər. “Sədaqətli dostlar” mətninin bir hissəsi və mətnin ardını yazmaq üçün müvafiq plan iş vərəqlərində şagirdlərə təqdim olunur. Şagirdlər mətni tamamladıqdan sonra mətnin qalan hissəsi müəllim tərəfindən oxunur. Şagirdlər müəllimin oxuduğu hissə ilə öz yazılarını tutuşdururlar.

Müəllim mətnə əsasən suallar tərtib etməklə də onu şagirdlərə təqdim edə bilər və KSQ-ni keçirə bilər.

LAYİHƏ

İfadə mətninə nümunə:

SƏDAQƏTLİ DOSTLAR

Tısbaga, Kəsəyən və Qarga dost olaraq bir bağda toplaşırlar. Birlikdə yaşayan dostlar dərd, qəmin nə olduğunu bilmir, bir-birinə arxa olaraq sakit, şən bir həyat yaşayırdılar. Səhərlər ov dalınca gedən dostlar axşam yenə bir yerə yığılır, gördüklərini və eşitdiklərini bir-birilərinə danışırdılar. Beləcə, onlar bir müddət rahat və xoşbəxt yaşadılar. Bir gün yenə dostlar şirin söhbətdə ikən bir Ahu (*ceyran)* onlara yaxınlaşdı.

Ahu onlarla bir yerdə qalmağa qərar verdi. Lakn bir gün Ahu qayıtmadı. Dostları xeyli narahat oldu: "Birdən Ahu ovçunun toruna düşər". Onlar Qarğaya göyə qalxmağı və ondan bir xəbər gətirməyi xahiş etdilər.

Göyə qalxan Qarğa Ahunun, həqiqətən, ovçunun toruna düşdüyünü, əl-ayağının bağlandığını, çarəsiz vəziyyətdə ətrafa baxdığını gördü. Qarğa tez dostlarının yanına qayıdıb əhvalatı onlara danışdı. Dostlar çox kədərləndilər. Birdən Kəsəyən (siçan) dedi:

– Mənim ağlıma bir fikir gəlib. Gəl sən məni qanadının üstünə al və həmin yerə apar.

Qarğa qanadlarına güc verib Kəsəyəni Ahunun tora düşdüyü yerə çatdırdı. Dostlar Ahunu tordan xilas etdilər. Qaçmağa hazırlaşırdılar ki, Tısbağanın yaxınlaşdığını gördülər. Tısbağaya dedilər:

– Bu nə işdir, sən tutmusan? Bura niyə gəlmisən? Səndən nə kömək olacaq? Axı sən qaça bilmirsən. Ovçu gəlsə, nə edək? Sənin ovçu əlinə keçməyin bizə dərd olar.

Tısbağa dedi:

– Sizin başınız bəlada ikən mən necə rahat otura bilərdim?! Sizdən kənarda necə qala bilərdim? Dost dosta kömək olmalıdır. Tanrı dostunu tək qoyana qəzəb etsin. Eybi yox, mən tora düşərəmsə belə, üç dostumun azad gəzməsi xoşdur.

Onlar söhbəti tamam etməmiş zalım ovçunun gəldiyini gördülər. Dostlar çarəsiz şəkildə Tısbağanı qoyub qaçmağa məcbur oldular. Ovçu gəlib yetişdi. Torların iplərini kəsilmiş, Ahunun qaçdığını gördü. Diqqətlə ətrafa baxdı, gizlənməyə çalışan Tısbağadan başqa, heç nə görmədi.

1. Verilmiş plan əsasında mətnin ardını davam etdirin.

- Ovçunun Tısbağanı tutması
- Qarğanın hadisənin şahidi olması və dostlarına xəbər verməsi
- Kəsəyənin tədbiri:
  - Ahuya verdiyi tapşırıq;
  - Kəsəyənin görəcəyi iş;
  - Qarğanın görəcəyi iş
- Dostların birliyi

LAYİHƏ

Mətnin ardını təqdim edirik:

Əlinə heç nə keçməyən ovçu hirslənib Tısbağanı torbaya saldı. Torbanı çiyninə atıb yorğun köpəklər kimi asta-asta getməyə başladı.

Ovçu getməkdə olsun, sizə dostlardan xəbər verək. Qarğa göydə uçur, ovçunun hərəkətlərini izləyirdi. Daha sonra uçub Tısbağanın başına gələnləri dostlarına danışdı.

Kəsəyən yenə tədbir tökdü. Ahuya dedi:

– Rahat oturmaq vaxtı deyil. Sən özünü axsaq göstər. Ovçunun keçdiyi yerlərdə axsaya-axsaya gəz. Ovçu torbanı yerə atıb səni tutmaqla məşğul olacaq. O zaman mən torbanı dişlərimlə didərəm, tısbağanı azad edərəm. Qarğa qarıldayanda bil ki, mən dostumuzu xilas etmişəm. Biz uzaqlaşana qədər sən ovçunun başını qat. Sonra sən də bizim yanımıza gəl.

Dostlar yenidən bir yerə toplaşdılar.

KSQ-ni bu formada da apara bilər.

Mətn aşağıdakı meyarlar üzrə yoxlana bilər:

- Hadisələrin sonluğunu yaza bilir.
- Abzaslararası əlaqəni gözləyir.
- Cümlələri düzgün qurur.
- Cümlələri düzgün əlaqələndirir.
- Hadisələrin ardıcıllığını təmin edir.
- Maraqlı sonluq təqdim edir.
- Atalar sözlərdən, hikmətli fikirlərdən mətnin hissələrinə uyğun istifadə edir.
- Sözləri düzgün yazır.
- Sözlərdən düzgün və yerində istifadə edir.
- Şəkilçilərdən düzgün istifadə edir.
- Dialoqda durğu işarələrinə düzgün əməl edir.

KSQ dinləmə mətni üzərindən aparılarsa, əsas diqqət 1.1.1. (Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir) və 1.1.2. (Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır) standartlarının reallaşmasına yönəldilməlidir.

LAYİHƏ

II
BÖLMƏ

BİZ VƏTƏNİN SABAHIYIQ

1. LAYİHƏ: “BİZ VƏTƏNİN SABAHIYIQ”
2. PEŞƏLƏR NECƏ YARANIB?
3. AİLƏM VƏ PEŞƏ
4. PLANLAŞDIRMA
5. DİPLOMSUZ MÜHƏNDİS
6. BALACA AŞPAZ
7. KÖHNƏ ARABA
8. SÜRÜCÜ
9. SƏRHƏDƏ GEDƏN YOL

LAYİHƏ

1-ci dərs

Layihə: “Biz Vətənin sabahıyıq”

Standartlar: 1.1.2., 2.1.2., 2.1.3., 3.1.2.

Təlim nəticələri:

Dinlədiyi mətndəki hadisələrə münasibət bildirir.
Danışan zaman səs tonunu nitqinə uyğunlaşdırır.
Müxtəlif fikirlərə münasibət bildirir.
Şeirləri intonasiyanın tələblərinə uyğun oxuyur.

İş forması: kollektiv, fərdi

İş üsulu: klaster, sual-cavab, əqli hücum, söz assosiasiyası

1-ci addım. Bölmənin təqdimində əsas məqsəd şagirdləri peşə yönümü istiqamətində hazırlamaqdır. Şagirdlərin müxtəlif peşələr, onların xüsusiyyətləri haqqında məlumatlandırılması peşə seçimində şagirdlərə yardımçı olacaqdır.

KLASTER üsulundan istifadə etməklə lövhədə “Biz Vətənin sabahıyıq!” ifadəsi yazılır. Şagirdlərin bu ifadə ilə bağlı fikirləri öyrənilir.



Daha sonra diqqət dərslikdə verilmiş layihəyə və layihəni icra etmək üçün verilən tapşırıqlara yönəldilir. Layihənin nə üçün “Biz Vətənin sabahıyıq!” adlandırılması ilə bağlı müzakirələr təşkil edilir. Daha sonra *“Vətənin sabahı” dedikdə nə başa düşürsünüz?”, “Vətənin sabahı olmaq üçün nə etmək lazımdır?”* sualları ilə şagirdlərə müraciət edilir. Müəllim “Vətənin sabahı olmaq üçün layiqli vətəndaş, yaxşı mütəxəssis, peşəsini yaxşı bilən və tətbiq edən” kimi cavabların alınmasına çalışmalıdır.

Sualları cavablandırarkən şagirdlərin müzakirələrdə dolğun fikirlər söyləməsinə, dinlədikləri fikirləri ümumiləşdirməsinə, danışan zaman səs tonuna, intonasiyaya, jest və mimikaların nitqi düzgün müşayiət etməsinə diqqət yetirmək lazımdır.

Suallara yazılı şəkildə cavablandırılması da məqsədəuyğundur.

2-ci addım. Dərslikdəki 50-51-ci səhifələrdə verilmiş şeirlər şagirdlərə oxudulur. Oxu zamanı intonasiya, ritm, ahəng, fasilə diqqətdə saxlanılmalıdır. Düzgün və ifadəli oxu məzmunun qavranılması, əsas fikrin müəyyən edilməsi üçün vacibdir.

LAYİHƏ

https://www.youtube.com/watch?v=NyvbotUau_w linkindəki “Hansı peşəni seçim?” videosüjetindən istifadə etmək olar.

9-cu səhifədəki *“Dostlarınızın seçimlərinə münasibət bildirin. Onlar nə üçün bu peşələri seçmişlər?”, “Siz gələcəkdə hansı peşənin sahibi olmaq istərdiniz?”, “Bu peşənin üstünlükləri, çətinliyi və faydaları haqqında məlumatlısınızmı?” və s.* suallar üzərində iş aparılır. Şagirdlərin cavabları ümumiləşdirilir.

3-cü addım. “Biz Vətənin sabahıyıq” adlı layihənin icrası üçün dərsliyin 54-cü səhifəsində verilmiş istiqamətlər üzərində iş aparılır. Bölmədəki mətnləri oxuduqca göstərilən 7 addım üzrə iş aparılması şagirdlərin diqqətinə çatdırılır. Çəhrayı çərçivədə (səh. 54) verilmiş sualların üzərində şifahi və ya yazılı şəkildə iş aparılması müəllimin qurduğu dərsdən asılıdır. Yazılı şəkildə olduqda şagirdlərin ilk və son fikirləri arasında müqayisə aparmaq, şagirdlərin dünyagörüş və fikirlərində əmələ gələn dəyişikliyi, inkişafı izləmək mümkündür.

4-cü addım. Dərsliyin 55-ci səhifəsində verilmiş “Seçdiyim peşə və ona münasibət”lə bağlı təlimat üzərində iş aparılır. Bu tapşırıq təkcə peşə seçərkən deyil, digər işlər və fəaliyyətlər icra edəkən də böyüklərlə məsləhətləşmək, atılacaq addımlarla bağlı onların nəsihət və tövsiyələrini dinləmək, lazımi qərarlar vermək kimi vərdişlərin aşılanması baxımından əhəmiyyətlidir. Həmin səhifədə verilmiş plan şagirdlərin növbəti dərslərdə təqdimat hazırlaması üçündür.

5-ci addım. 56-57-ci səhifələrdə verilmiş “Peşə nədir” başlıqlı tapşırıqlar üzərində iş aparılır. Söz assosiasiyası üsülundan istifadə etmək tövsiyə edilir. Müəllim peşə anlayışı ilə bağlı şagirdlərin bildiklərini öyrənmək məqsədilə onu lövhədə yazır. Şagirdlərə bu anlayışla bağlı bildiklərini söyləmək üçün 1-2 dəq. vaxt verilir. Müəllim fərziyyələri dərhal yazıya alır və oradan lazımi, uyğun fikirlər seçilir.

Daha sonra diqqət dərslikdə verilmiş cavaba yönəldilir. Natamam cümlələrin tamamlanması üzərində iş aparılır. Şagirdlərə bildirilir ki, cümlələri tamamlamaq üçün valideyn və müəlliminin verə biləcəkləri cavabları təxmin etsinlər. Şagirdə aşağıdakı iş vərəqini təqdim etmək və onlara 1 və 2-ci cümləni tamamlamağı tapşırmaq olar:

Cümlə	A. Müəllimin verə biləcəyi cavab	B. Valideynlərimin verə biləcəyi cavab	C. Mənim cavabım
1. Peşə elə bir sahədir ki, ...			
2. Yəqin ki, hansısa bir peşəyə sahib olmaq üçün...			
3. Əgər bu gün “Mən kim olacağam?” sualı üzərində düşünsəniz, tədricən seçdiyiniz sahənin incəliklərinə bələd olsanız, ...			

6-cı addım. 4-cü çərçivədəki yazı oxudulur. Sonra şagirdlərə *“Sizcə, nə üçün müəllim şagirdlərə “Düzgün peşə seçimindən sizin və vətənin taleyi asılıdır” deyir? Siz bu fikirlə razısınızmı?”* sualları ilə müraciət edilir. Şagirdlərin cavabları dinlənilir və ümumiləşdirilir. Müzakirələrə

LAYİHƏ

geniş yer vermək lazım deyil. Onların yığcam və cavabların konkret olmasına çalışmaq lazımdır. Bu, şagirdlərdə eşitdiyi fikirləri dərhal anlamaq, analiz etmək və çevik cavab vermək bacarıqları formalaşdırmaq baxımından əhəmiyyətlidir.

https://www.youtube.com/watch?v=4ryq-i-K8YU ("Müxtəlif peşələri tanıyaq") linkindəki süjetə baxış keçirmək və müzakirə təşkil etmək olar.

7-ci addım. 5-ci çərçivədəki (səh.57) yazının tamamlanması üçün iş vərəqindəki 3-cü sütun (C) tamamlanır.

8-ci addım. İş vərəqi tamamlandıqdan sonra müəllimin şagirdlərin A sütununda yazdıqları fikirlərlə tanış olması məqəsdəmüvafiqdir. Bu, müəllimlə şagird arasındakı ünsiyyətin qurulma, tədris prosesində müəllimin söylədiklərini qavrama, anlama və mənimsəmə səviyyəsini yoxlamaq baxımından əhəmiyyətlidir. Müəllim öz fikirləri ilə şagirdlərinin fikirlərini tutuşdursa, üst-üstə düşən məqamları müqayisə etməsi daha yaxşıdır.

Valideynlər tərəfindən verilmiş təxminlərlə bağlı fikirlərin tutuşdurulması evə tapşırıq kimi verilir və nəticəsi növbəti dərsdə müzakirə edilir.

2-ci dərs Peşələr necə yaranıb?

Standartlar: 1.1.2., 2.1.2., 2.1.3., 3.1.2.

Təlim nəticələri:

Dinlədiyi mətndəki faktları seçir.
Danışan zaman səs tonunu nitqinə uyğunlaşdırır.
Müxtəlif fikirlərə münasibət bildirir.
Mətnləri düzgün oxuyur.

İş forması: kollektiv, kiçik qruplarla, cütlərlə

İş üsulu: əqli hücum, söz assosiasiyası (və ya karusel)

1-ci addım. Müəllim dərsə başlamaq üçün müxtəlif üsullardan istifadə edə bilər.

1-ci üsul

https://www.youtube.com/watch?v=hmZR1suy7eY linkindən istifadə etməklə "Peşələr necə yaranıb?" video-süjetinə baxış keçirilir və müzakirələr təşkil edilir, sonra dərslikdəki materiallar üzərində iş aparılır.

2-ci üsul

Texniki imkanlar yoxdursa, dərs 56-cı səhifədəki materiallar üzərində işin təşkil edilməsi ilə başlaya bilər.

3-cü üsul.

Müəllim söz assosiasiyası və ya karusel üsullarından uyğun olanını istifadə etməklə dərsə başlaya bilər.

LAYİHƏ

Söz assosiasiyası seçilərsə, lövhədə “Peşələr necə yaranıb?” cümləsi və şagirdlərin təxminləri yazılır. Şagirdlərə bu sualın yazıldığı iş vərəqi də təqdim etmək olar.

Karusel üsulu seçilərsə, sinif kiçk qruplara bölünür, vatman kağızında (A3 də olar) *“Peşələr necə yaranıb?”, “Sizcə, ilk peşələr hansılardır?”, “Peşələrin yaranmasına nə səbəb olmuşdur?”* cümlələri yazılır və cavablandırılması üçün qruplara təqdim edilir.

Müəllim üçün: *Dünyanın ən qədim peşələrinin ovçuluq, dərzilik, qəssablıq, rəssamlıq, musiqiçi, fermer və ustalıq olmasına dair tarixi faktlar var.*

Cavablandırıldıqca kağızlar qrupdan qrupa ötürülür. Beləliklə, hər bir sual qruplar tərəfindən cavablandırılmış olur (hər sualın 3 cavabı olur).

Tarix fənnindən bu mövzuları keçdikləri üçün sualları cavablandırmaq şagirdlər üçün çətinlik yaratmayacaqdır. Şagirdlərə ibtidai icma quruluşunu xatırlatmaq kifayətdir.

2-ci addım. Qruplar işlərini təqdim edirlər. Cavablar ümumiləşdirilir və növbəti mərhələyə keçid edilir. Şagirdlərə *“Sizcə, qədim peşələrdən hansı müasir dövrə qədər gəlib çıxmışdır?” , “Hazırda istifadə olunan bu peşələrdən hansılar öz aktuallığını itirməyib?* sualları ilə müraciət edilir. Suallar şifahi və ya yazılı şəkildə cavablandırıla bilər. Cavablar dəqiq olmaya bilər. Bu suallar şagirdlərin öyrədiləcək mövzu ilə bağlı ilkin fikirlərini öyrənmək üçündür. Tapşırığın cütlər vasitəsilə icrası məqsədəmüvafiqdir.

Yazılı cavablandırılma üçün iş vərəqi nümunəsi təqdim edirik:



Bu, nümunədir. Şagirdlərin fərqli fikirləri ola bilər. Tapşırıq üçün 3-4 dəq. yetərlidir. Müəllim şagirdlərin cavablarını müzakirə etmir. Bu, dərsin sonunda, şagirdlərin əvvəlki və sonrakı fikirlərini tutuşdurması və nəticə çıxarması üçün son mərhələyə saxlanır.

3-cü addım. Dərslikdəki 1-ci tapşırıq (səh. 56) üzərində iş aparılır. Tapşırığın kiçik qruplar və ya cütlərlə aparılması tövsiyə edilir. Üsulun seçilməsi sinifdəki şagird sayından asılıdır. Natamam mətnlər qruplar arasında bölüşdürülür. Tapşırıq üzərində iş aparılır. Tapşırığın icrası üçün 10-15 dəq. yetərlidir. Vaxt bölgüsündə sinfin səviyyəsini nəzərə almaq olar.

LAYİHƏ

MƏTNLƏR:

A. Ovçuluq dünyanın ən qədim peşələrindən biridir. Çünki insanlar həyatda yaşamaq üçün bu işlə məşğul olublar. Bunu icra etmək üçün müxtəlif alətlər düzəldilmişdir. Bir müddət sonra isə bu işlə xüsusi şəxslər məşğul olmağa başlamış və beləliklə, ən qədim peşələrdən olan ovçuluq formalaşmışdır.

Nöqtələrin yerinə yazılacaq sözü müəyyən etmək üçün müəllim şagirdlərin diqqətini mətndə açar cümlələrə yönəldə bilər və suallar verə bilər: *"Sizcə, müxtəlif alətləri qədim insanlar nə üçün düzəldirdilər?", "Qədim insan yaşamaq üçün nə edə bilərdi?"*

B. Qədimdə insanların paltarsız gəzməsi. soyuq havalarda qorunmaq kimi zərurətlər dərzilik peşəsinin inkişafına səbəb olub. Bu məqsədlə insanlar təbiətin onlara verdiyi nemətlərdən: yarpaqlardan, bitkilərdən, heyvan dərilərindən istifadə ediblər. 500 min il əvvələ aid geyim nümunələrinin Afrikadan tapılması bu peşənin qədimliyini göstərir.

"Müasir dövrdə bu sənət necə inkişaf etmişdir" sualına şagird *dərzilik, modelyerlik kimi sahələrə başlanğıc vermişdir* və s. kimi cavablar verə bilər.

C. Rəssamlıq qədim sənət növlərindən biridir. Mağara divarlarına çəkilmiş rəsmlər bu peşənin qədim tarixə malik olduğunu göstərir. Bunun ilk "yaradıcısı" neandertallar hesab olunur.

"Azərbaycanda bu sənətin ilk nümunələri haqqında nə bilirsiniz?", "Belə nümunələrə harada rast gəlmisiniz?" sualına Qobustan qayalıqları və Gəmiqaya təsvirlərini nümunə gösətrmək olar. https://www.youtube.com/watch?v=TFc-UgKwscU ("Qobustan"), https://www.youtube.com/watch?v=GzwNfB6VjJE ("Qədim Gəmiqaya təsvirləri") linklərindən istifadə etmək olar.

D. İnsanlar hələ qədim zamanlardan əkinçilik və maldarlıqla məşğul olublar. Onlar, əsasən, dənli bitkilər əkmiş, ovlanmış heyvanları əhliləşdirmiş və təsərrüfatda onlardan istifadə etmişlər. 13 min il əvvəl qədim Mesopotamiyada formalaşan bu peşə hazırda məşhur biznes sahəsinə çevrilib.

"Texniki vasitələrin inkişafı bu sahəyə, sizcə, hansı müsbət dəyişikliklər gətirmişdir?", "Fermerlərlə bağlı hansı məlumata maliksiniz?" suallarının cavablandırılması da məqsədəmüvafiqdir.

E. Dünyanın ən qədim peşələrindən biri tikintidir. Tarixi qədim olan bu sahənin qədim Mesopotamiyada yaranması söylənilir. Əvvəllər köçəri həyat tərzü sürən insanlar ilk dəfə bu bölgədə daimi tikililər inşa etməyə başlayıblar. Onlar tikinti materialı kimi budaq və ağac kötüklərindən istifadə ediblər.

"Tikinti peşəsinin quruculuq işlərində rolu necə izah edərdiniz?" sualını cavablandırarkən hazırda Qarabağda gedən quruculuq işləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahədəki fəaliyyəti barədə müzakirə aparmaq lazımdır. 59-cu səhifədəki müzakirə tapşırığı *("İşğaldan azad edilmiş torpaqlarımızda quruculuq işləri aparmaq üçün hansı peşə adamlarına ehtiyac vardır? Niyə belə hesab edirsiniz?")* üzərində iş aparılır.

Qeyd. Şagirdlərin sualları cavablandırarkən dərslikdəki mətnlərin məzmununun mahiyyətinin açılmasına xidmət edən şəkillərdən istifadə etməsi məqsədəmüvafiqdir.

LAYİHƏ

4-cü addım. Qruplar işlərini təqdim edirlər, müzakirələr təşkil edilir. Şagirdlərin əvvəl yazdıqları fikirlərlə tədqiqatdan sonrakı cavablarının tutuşdurulması təşkil edilir, fikirlərdə dəyişiklik olub-olmaması diqqətdə saxlanılır. Dərsliyin 59-cu səhifəsindəki 2-ci tapşırıq icra edilir. Tapşırıqdakı cavabların hamısı düzdür.

5-ci addım. 3-cü tapşırıq (səh. 60) üzərində iş aparılır. Xəritənin nümunəsi dərslikdə verilmişdir. Digər nümunənin hazırlanması evə tapşırıq kimi verilə bilər. 4 və 6-cı tapşırıqlar üzərində iş aparılır.

6-cı addım. Şagirdlərin cavabları dinlənilir, mövzu ümüumiləşdirilir. Şagirdlər bütün sahələrdə olduğu kimi, peşə və sənət sahələrinin də daim inkişafda olması, bir sahənin daha da inkişaf edib təkmilləşməsi, digərinin isə elm və texnikanın, cəmiyyətin inkişafı ilə əlaqədar olaraq tədricən sıradan çıxması, başqa sahələrə başlanğıc verməsi qənaətinə gəlirlər.

7-ci addım. Evə şagirdlərin səviyyəsi nəzərə alınmaqla mövzu ilə bağlı müxtəlif tapşırıqlar verilə bilər:

- 5-ci tapşırığın icrası (səh. 61)
- Hər hansı bir peşə ilə bağlı fikirlərini yazmaq
- Mövzu ilə bağlı təqdimat hazırlamaq
- Mövzu ilə bağlı şəkil çəkmək (rəsm nümunəsi)
- "Qədim peşələr" mövzunda divar qəzeti hazırlamaq
- Peşələrin adından, lazımi ləvazimatların adlarından istifadə etməklə krossvord hazırlamaq
- "Peşələr qədimdən bu günə" adlı xəritənin hazırlanması

Yaxşı olar ki, bu tapşırıqların hər biri müəllimin özü tərəfindən şagird bacarıqları nəzərə alınmaqla onlara təqdim edilsin. Bu materiallardan növbəti dərsdə həm də motivasiya məqsədilə istifadə edilə bilər.

Qeyd. Növbəti dərsdə "Ailəm və peşə" mövzusunda təqdimat hazırlamaq üçün şagirdlərə aşağıdakı plan üzrə məlumat toplamaq tapşırılır. Əgər mümkün olarsa, ailə şəkillərinin fotosunu da gətirməyi tapşırmaq olar.

PLAN:

- ✓ *Ailəm haqqında ümumi məlumat*
- ✓ *Valideynlərimin peşəsi haqqında ümumi məlumat*
- ✓ *Onların öz peşələrini seçmə səbəbi*
- ✓ *Onların peşələrinə olan marağı*
- ✓ *Valideynlərimin fiziki və mənəvi xüsusiyyətlərinin peşələrinə uyğunluğu*

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

3-cü dərs

Ailəm və peşə

Standartlar: 3.1.2, 4.1.1., 4.1.2., 4.1.3.

Təlim nəticələri:

Mətnləri düzgün oxuyur.
Nümunələr əsasında öz fikirlərini əsaslandırır.
Mətn hazırlayarkən cümlə və abzasları əlaqələndirir.
Mətni hazırlayarkən sözləri düzgün yazır.
Yazısında durğu işarələrindən düzgün və yerində istifadə edir.

İş forması: kollektiv, fərdi

İş üsulu: beyin həmləsi, yazı, səssiz oxu

1-ci addım. Ev tapşırığı seçmə yolla yoxlanır. Şagirdlərin fəaliyyəti qiymətləndirilir. Aşağıdakı qiymətləndirmə nümunəsindən istifadə etmək olar.

Şagirdin adı, soyadı _____

Mövzu	Təqdimat forması	Qiymətləndirmə meyarları
		➢ Mahiyyət tamdır. ☐ ➢ Yazı mövzunu tam əhatə etmişdir. ☐ ➢ Yazı qaydalarına əməl edilmişdir. ☐ ➢ Tərkib hissələr arasında əlaqə gözlənilmişdir. ☐ ➢ Cümlə və abzaslar arasında əlaqələr gözlənilmişdir. ☐

Qeyd. Bu meyarlar yazı (esse, inşa, təqdimat) üçündür. Digər əl işləri olarsa, meyarlar ona uyğun tərtib edilməlidir.

2-ci addım. Müəllim dərsin məqsədini şagirdlərə izah edir, görəcəyi işlər üçün istiqamət verilir. Şagirdlər təqdimat hazırlamaq üçün 62-ci səhifədəki 1 və 2-ci addımlarla tanış olurlar. Tapşırıqların fərdi qaydada icra ediləcəyi şagirdlərin diqqətinə çatdırılır.

Təqdimata nümunə:



3-cü addım. Şagirdlər "Ailəm və peşə" mövzusunda təqdimat hazırlamaq üçün dərslikdə nümunə kimi verilmiş təqdimat nümunəsi ilə (3, 4, 5, 6, 7) səssiz oxu üsulundan istifadə etməklə tanış olurlar.



LAYİHƏ

7

Məktəbli qardaşım Yusif gələcəkdə mühəndis olacaq.

Ailəmizdə müxtəlif peşələr var: dizayner, müəllim, mühəndis, mühasib, sərhədçi, həkim... Bu peşələrin hər biri vacib və əhəmiyyətlidir. Əsas odur ki, hər biri öz peşəsini sevir. Bir xüsusiyyəti də müəyyən etdim ki, onların xarakterləri seçdiyi peşəyə uyğun gəlir.

Mən kim olacağımı hələ müəyyənləşdirməmişəm....

4-cü addım. Şagirdlər təqdimat hazırlamaq üzərində işləyirlər. Təqdimat hazırlamaq üçün müəllim sinfin və şagirdlərin imkanlarını nəzər almalıdır. Bu təqdimat POWERPOINT proqramından, vatman kağızından, A3 və ya A4 vərəqlərindən istifadə etməklə hazırlana bilər. Şagirdlər məlumatı evdə topladıqlarına görə təqdimatı hazırlamaq çətinlik törətməyəcəkdir. Tapşırığın icrası üçün 15-20 dəq. kifayətdir.

5-ci addım. Seçmə yolla tapşırıqların icrası yoxlanır. Təbii ki, bir dərs müddətində hazırlanan təqdimatların hamısını yoxlamaq mümkün deyil. Müəllimin digər təqdimatları yoxlayıb növbəti dərsdə nəticələri şagirdlərə bildirməsi vacibdir. Bu, şagirdlərdə məsuliyyət hissi formalaşdıracaqdır. Müəllim dərsliyin 64-cü səhifəsində verilmiş müzakirə mövzusu ətrafında yığcam diskussiya təşkil edir və şagirdlərə *"Sizcə, Abdulla Şaiq bu aforizmlə bizə hansı fikri çatdırmaq istəyir?", "Siz onun fikirləri ilə razısınızmı? Niyə?", "Siz seçəcəyiniz sənəti müəyyənləşdirməkdə kimdən dəstək almaq istəyirsiniz?", "Öz potensialınıza bələdsinizmi?"* sualları ilə müraciət edir.

Müzakirə zamanı əldə edilən fikirlər şagirdlərin təqdimatları ilə əlaqələndirilir.

6-cı addım. Şagirdlərlə 66-67-ci səhifələrdə verilmiş "Mən kim olmaq istəyirəm" adlı sorğu keçirilir. Şagirdlər təqdimatlarını *"Mən hələ kim olacağımı müəyyənləşdirməmişəm"* cümləsi ilə bitirirlər. Bu, sorğunun keçirilməsi üçün sanki motivasiya xarakterlidir. Sorğunun cavablandırılması üçün 6-7 dəqiqə yetərlidir. Şagirdlər sorğularının nəticəsini dərsliyin 67-ci səhifəsində verilmiş cavablarla tutuşdururlar. Cavablar açıqlanır və şagirdlər öz nəticələrini bilirlər. *"Sizcə, nəticələr düzgündürmü?", "Nəticələr arzularınıza uyğundurmu?"* sualları ilə şagirdlərə müracit edilir.

Sorğunun cavabları:

Hansı hərf daha çox alındı?

A hərfi

Mühəndis, mühasib, iqtisadçı, hüquqşünas

B hərfi

Həkim, xilasedici, polis, idmançı

C hərfi

Tarixçi, yazıçı, tərcüməçi, jurnalist, sürücü

D hərfi

Yazıçı, musiqiçi, fotoqraf, konstruktor

E hərfi

Rəssam, aktyor, şair, astronom

7-ci addım. Dərsliyin 67-ci səhifəsindəki yuxarı hissədəki tapşırıqlar icra edilir. Evə 64-cü səhifədəki 1-ci tapşırıq verilir. Tapşırığı icra etmək üçün şagirdlərə izahat və həmin səhifədəki təlimatdan yararlanmaq tövsiyə edilir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

4-cü dərs

Planlaşdırma

Standartlar: 2.1.1., 2.1.3., 3.1.2, 3.1.3.

Təlim nəticələri:

Nitqini quran zaman tələffüz qaydalarına əməl edir.
Müzakirələrdə iştirak edir və fikirləri şərh edir.
Mətni düzgün oxuyur.
Nitqini qurarkən cümlələrarası rabitəni diqqətdə saxlayır.

İş forması: kollektiv, fərdi

İş üsulu: proqnozlaşdırılmış oxu, müzakirə

1-ci addım. Müəllim dərsə bələdçi obrazların sözlərinin (*1. Uğurun ilkin şərti məqsədi düzgün müəyyənləşdirməkdir. 2. İkinci əsas şərt məqsədə çatmaq üçün aydın fəaliyyət planı hazırlamaqdır. Bu bütün sahələrdə belədir.*) oxusu ilə başlaya və fikirlər ətrafında müzakirə təşkil edə bilər.

Klaster üsulundan *(yaxud anlayışın çıxrılması)* üsulundan istifadə etməklə dərsi davam etdirə bilər.



Şagirdlərin fikirləri ümumiləşdirilir və növbəti mərhələyə keçid edilir.

2-ci addım. Dərslikdəki mətnin oxusu təşkil edilir. Oxu zamanı orfoepiya və *"Mətni oxuyarkən mötərizədəki sözlərdən uyğun olanını seçin"* tapşırığı üzərində iş aparılır.

1-ci abzasın oxusundan sonra dərslikdəki *"Sizcə, insan ancaq düşünməklə məqsədlərinə çata bilərmi?", "Uğur əldə etmək üçün nə etmək lazımdır?"* sualları ətrafında müzakirə təşkil edilir. II abzasın oxusu təşkil edilir.

3-cü addım. Şagirdlərə *"Sizcə, pillələri qalxmaq üçün insana nə lazımdır?"* sualı verilir, sxemi tamamlamaq və şərh etmək tapşırılır.

LAYİHƏ

Pillələrdə ardıcıllıq belə olmalıdır (Şagirdlərin cavabları fərqli ola bilər. Müəllimin vəzifəsi şagirdi düzgün yöndə istiqamətləndirməkdir.



Mühit dedikdə xarici və daxili təsir amilləri nəzərdə tutulur. Məqsədə çatmaq üçün mühiti öyrənmək lazımdır.

Məqsədi olan insan zəif və üstün cəhətlərini də araşdırmalıdır. Zəif cəhətləri islah etmək, üstün cəhətləri daha da təkmilləşdirmək lazımdır.

4-cü addım. 1-3-cü tapşırıqlar üzərində iş aparılır.

1-ci tapşırığın (səh. 70) icrası zamanı aşağıdakı fikirlərin səsləndirilməsi mümkündür:

Mən belə qərara gəldim ki, :

- *İlk növbədə, məqsədlərimi düzgün müəyyənləşdirəcəyəm.*
- *Bu gün mən maksimum çalışmağımı tələb edən məqsədləri müəyyənləşdirəcəyəm.*
- *Məqsədimə çatmaq üçün müxtəlif alternativ yollar müəyyənləşdirəcəyəm.*
- *Qarşıma çıxacaq problemləri (asan və ya çətin) diqqətdə saxlayacağam.*
- *Problemin həlli yollarını araşdıracağam.*
- *Məqsədimə çatmaq üçün addımımı planlı şəkildə atacağam* və s.

Məqsədimə çatmaq üçün zəif və üstün cəhətlərimi, potensial imkanlarımı tədqiq edəcəyəm.

Tapşırığın fərdi şəkildə və yazılı icrası məqsədmüvafiqdir.

2-ci tapşırqda verilmiş suala şagirdlərin müxtəlif və fərqli yanaşmaları ola bilər. 3-cü tapşırıq da fərdi qaydada icra edilir.



Tapşırıqlar yoxlanır, uğur, planlaşdırma, planlı fəaliyyət və s. ilə bağlı şagirdlərin fikirləri ümumiləşdirilir.

5-ci addım. Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 4-7-ci tapşırıqlardan istifadə olunur.

5-ci tapşırığın şərtinə görə sözlər sinonimlik və yaxınmənalılıq baxımından qruplaşdırılmalıdır.

6-cı addım. Evə 15-ci tapşırıq verilir. Ehtiyac yaranarsa, müəllim izahat verir.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

5-ci dərs Planlaşdırma

Standartlar: 2.1.1., 3.1.1., 4.1.3., 4.1.4.

Təlim nəticələri:

Sözə şəkilçi artırarkən ahəng qanununun tələblərinə əməl edir.
Mətndən əsas nitq hissələrini seçir və izah edir.
Ərizə yazarkən sözlərin düzgün yazılış qaydalarına əməl edir.
Ərizə yazır.

İş forması: kollektiv, fərdi

İş üsulu: müzakirə, müəllimin mühazirəsi, klaster

1-ci addım. Dərs ev tapşırığının yoxlanması ilə başlayır. Müəllim şagirdləri fəallaşdırmaq üçün *"Kimin tərtib etdiyi plan daha məqsədyönlüdür?"* başlığı altında yarış da təşkil edə bilər. Şagirdlərin bir-birini qiymətləndirməsi daha yaxşı olar. Bunun üçün vəsaitin əvvəlində verilmiş qiymətləndirmə nümunələrindən istifadə etmək olar. Müəllim özü də qiymətləndirmə nümunəsi hazırlamaqda sərbəstdir. Tapşırıqlar yoxlanıb müzakirələr və fikirlər ümumiləşdirildikdən sonra növbəti mərhələyə keçid edilir.

2-ci addım. Şagirdlərə *"Təsəvvür edin ki, seçdiyiniz peşəyə yiyələnmisiniz. İşə düzəlmək üçün siz idarənin rəhbərinin adına nə isə yazmalısınız. Sizcə, bu nə ola bilər?", yaxud "Siz nə yazmalısınız?"* sualı ilə müraciət edilir.

Müəllim ərizənin yazılmasını şagirdlərə öyrətmək üçün klaster üsulundan da istifadə edə bilər. Lövhədə aşağıdakı sxem çəkilir və şagirdlərə suallarla (*"Sizcə, sual işarələrinin yerində nə yazıla bilər?"*, *"Ərizə haqqında nə bilirsiniz?*) müraciət edilir.



Şagirdlərdən alınan cavablar *(cavablar yanlış da ola bilər)* ümumiləşdirilir.

3-cü addım. Müəllim ərizə, onun strukturu, yazılma səbəbləri haqqında məlumat verir. Daha sonra şagirdlər dərslikdə ərizə ilə bağlı verilmiş məlumatla tanış edilirlər. Müəllim lövhədə ərizə nümunəsi də yaza bilər.

LAYİHƏ

4-cü addım. Şagirdlərə ərizə yazdırılır. Müəllim şagirdlərə ərizə yazmaq üçün mövzular *(dərnəyə üzv olmaq, üzrlü səbəbdən dərsdə iştirak etməməyə görə və s.)* Ərizə nümunəsi hazırlamaq üçün evə də tapşırıq verilə bilər. Şagirdlərə ərizə yazdırmaq üçün hazır şablon da verilə bilər.

5-ci addım. Şagirdlərin yazılarına ümumi baxış keçirilir. Şagirdlərə *"Yazdığınız ərizədə xüsusi isimlər hansılardır?", "Sizcə, ərizəyə müraciət bildirən söz artıtmaq olarmı?"* sualları ilə müraciət edilir. Cavablardan sonra kollektiv şəkildə 8-11-ci tapşırıqlar üzərində iş aparılır.

11-ci tapşırığın cavabı:

plan (arzu, niyyət) tutmaq, *uğur (müvəffəqiyyət)* qazanmaq, *məqsədə (zirvəyə, insana)* çatmaq, *irəliyə* (ürəyindən) keçmək

6-cı addım. 12 və 14-cü tapşırıqlar fərdi qaydada icra edilir. 14-cü tapşırıqdan sonra mətnin altında verilmiş 1 və 2-ci suallar üzərində iş aparılır. Suallara alınan cavab "Planlaşdırma" mətni ilə əlaqələndirilir, uğurlu fəaliyyət üçün düzgün planın tərtib edilməsi şagirdlərin diqqətinə çatdırılır.

7-ci addım. Evə tapşırıq verilir.

- 13-cü tapşırıq (səh. 71)
- "Güllü nənəgildə bir gün" mətninin planını tərtib etmək (14-cü tapşırığa əsasən)

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

6-cı dərs Diplomsuz mühəndis

Standartlar: 1.1.2., 2.1.3., 3.1.2., 3.1.3

Təlim nəticələri:

Baxdığı süjetdə fakt və hadisələri müəyyən edib qruplaşdırır.
Müxtəlif fikirlərə münasibət bildirir.
Mətni səs tonunu gözləməklə oxuyur.
Abzasları əlaqələndirir.

İş forması: kollektiv, fərdi

İş üsulu: müzakirə, BİBÖ, beyin həmləsi, səssiz oxu

1-ci addım. Müəllim dərsə müxtəlif üsullardan istifadə etməklə başlaya bilər.

1. https://www.youtube.com/watch?v=iS2nmScaXHE ("Mücahidlər – Murtuza Muxtarov"), https://www.youtube.com/watch?v=3faKbeN4cGY 3.50 dəq-dən ("Ölməz Murtuza" (sənədli film, 2017) linklərini nümayiş etdirib süjetlər əsasında müvafiq suallar verməklə

2. *BİBÖ cədvəlindən istifadə etməklə*. Şagirdlərin xeyriyyəçi Murtuza Muxtarovla bağlı bildikləri cəvəlin "Bilirəm" hissəsinə qeyd olunur. Öyrənmək istədikləri cədvəlin II qrafasına yazılır. II qrafa tədris prosesində və ya tədqiqatın müzakirəsi mərhələsində tamamlanır.

3. *Klasterdən və ya anlayışın çıxarılması üsulundan istifadə etməklə. Klaster* seçilərsə, mötərizədə "Murtuza Muxtarov" ifadəsi yazılır, ətrafında şagirdlərin onunla bağlı bildikləri qeyd olunur. *Anlayışın çıxarılması* üsulu seçilərsə, M.Muxtarovla bağlı müəllim tərəfindən elə fikirlər yazılır ki, şagirdlər onun kim olduğunu müəyyən edə bilsinlər.

Qeyd. Müəllim uyğun bildiyi digər məlumatları da əlavə edə bilər.

4. Azərbaycan xeyriyyəçiləri və onların fəaliyyəti ilə bağlı hansı məlumatlara malik olmalarını soruşmaqla

5. Birbaşa diqqət mətnin adına yönləndirilir, *""Diplomsuz mühəndis" dedikdə nə başa düşürsünüz?"* sualı ilə şagirdlərə müraciət edilir. Şagirdlərin cavabları qeyd olunur. Sual yazılı şəkildə də cavablandırıla bilər.

2-ci addım. Şagirdlərə *"Səs tonu nədir?"* sualı ilə müraciət edilir. Onların təxminləri ümumiləşdirilir. Şifahi nitq və ya oxu zamanı səs tonuna riayət edilməsi barədə məlumat verilir.

Səs tonu nədir?

Hər dilin özünəməxsus intonasiyası var və onun düzgün mənimsənilməsi dilin öyrənilməsinin ən mühüm şərtlərindən biridir.

Siz nitqinizdə, adətən, hər hansı bir mövzuya münasibət bildirir, öz fikirlərinizi irəli sürür, əlavələr etmiş olursunuz. Fikrin yığcam, sözlər və cümlələrin ardıcıl və rabitəli olması, eyni fikrin dəfələrlə təkrar edilməməsi, sözlərin düzgün tələffüzü nitqin gözəl olmasının vacib şərtlərindən biridir.

Vacib şərtlərdən biri də söz və cümlələrin aydın, hamının eşidə biləcəyi səs tonu ilə tələffüz edilməsidir.

Biz nitqimizdə nəqli cümlələrdən çox istifadə edirik. Belə cümlələrin əvvəlində səs tonu yüksək olur. Müəyyən sözlərdən sonra isə kiçik fasilə ` edilir. Cümlənin sonunda səs tonu alçalır.

Sübh çağı idi. // Zahidin anası ` sobanı yandırıb ` evdən çıxdı. // O ` tələsirdi.

Nöqtədə səs tonu aşağı enir.

LAYİHƏ

3-cü addım. Mətnin oxusu üzərində iş təşkil edilir. Dərslikdəki 1-ci tapşırığın (səh. 74) icrası üçün şagirdlərə mətni səssiz oxumaq və qeydlər götürmək təklif edilir. Tapşırığın cütlər vasitəsilə icrası məqsədəmüvafiqdir.

Abzasların ardıcıllığı: 1, 5, 3, 4, 2, 6.

Daha sonra mətn intonasiyanın tələbləri nəzərə alınmaqla təkrar oxunur.

Orfoqrafiya və orfoepiya tapşırıqları üzərində iş müəllimin qurduğu dərsdən asılı olaraq oxudan əvvəl və ya sonra, yaxud oxu zamanı icra edilir. Əgər motivasiyada istifadə olunmayıbsa, oxudan əvvəl *""Diplomsuz mühəndis" dedikdə nə başa düşürsünüz?"* sualı ilə şagirdlərə müraciət edilir.

2-ci tapşırıq (səh. 74) kollektiv şəkildə icra edilir. Dərslikdə verimiş hissə 1-ci abzasdan sonra yerləşdirilməlidir.

Mətnin oxusundan sonra 73-cü səhifədə verilmiş videoya baxış keçirilir və suallar üzərində iş aparılır.

4-cü addım. Mətnin oxusundan sonra şagirdlərə mətni davam etdirmək tapşırılır.

Qeyd.

- Əgər texniki imkanlar varsa, şagirdlər internet səhifələrindən M.Muxtarovun xeyriyyəçilik fəaliyyəti ilə məlumat toplayıb 5–7 cümlə ilə mətnin sonluğuna əlavə edə bilərlər.
- Əgər belə imkanlar yoxdursa, təqdim olunmuş mətn şagirdlər üçün oxunur, şagirdlər yadlarında qalanlar əsasında mətni davam etdirirlər.

Mətnə nümunə *(müəllim başqa mənbədən istifadə edə biər):*

*M.Muxtarov xeyriyyəçi kimi bizə əzəmətli binalar miras qoymuş*dur. *Bakı şəhəri və onun ətraf kəndlərində, Rusiyanın şəhərlərində, Avropanın bəzi ölkələrində indiyədək hifz olunan bir çox binalar onun adı ilə bağlıdır. 1910-cu ildə Əmircan kəndində tikdirdiyi, Muxtarov məscidi kimi tanınan tikili öz memarlıq quruluşu və əzəməti ilə göz oxşayır. Memar Zivər bəy Əhmədbəyovun rəhbərliyi ilə tikilən bu məscid Azərbaycan memarlığının ən gözəl incilərindən biri kimi UNESCO-nun qorunan tarixi abidələr siyahısına salınmışdır.*

1913-cü ildə Şimali QRES-də Şüvəlanda Mayak, Abşeronda 17 bina, Əmircan kəndində məktəb, Mərdəkanın Pirhəsən adlanan yerində Axund Mirzə Abu Turabın qəbri üstündə günbəz, Vladiqafqaz şəhərində məscid, Kislovodskda, Rusiyanın başqa şəhərlərində, Avropada, İtaliyanın Florensiya şəhərində mövcüd olan gözəl, yaraşıqlı binalar, Bakıdakı "Səadət" sarayı M.Muxtarovun maddi vəsaiti ilə tikilmişdir. O, Bakının, demək olar ki, bütün xeyriyyə cəmiyyətlərində yaxından iştirak edir və maddi köməyini əsirgəmirdi. Qərbi Avropa mədəniyyətinin pərəstişkarı idi. Bakıda "Tərəqqi" adlı qəzet nəşr etdirir, *məktəblər tikdirirdi. M.Muxtarov xeyirxah və mehriban bir insan, ciddi sahibkar kimi tanınırdı.*

5-ci addım. 3-8-ci tapşırıqlar mətnin məzmunu üzərində iş aparmaq üçün nəzərdə tutulmuşdur. 7-ci sualın cavabı C; 8-ci sualın cavabı B bəndidir. Şagirdlərin cavabları ümumiləşdirilir.

LAYİHƏ

Məzmun üzərində iş apararkən müəllim peşə seçimində öz imkan və bacarıqlarını nəzərə almağı şagirdlərə tövsiyə edir. Tapşırıqların kolektiv şəkildə icrası məqsədəmüvafiqdir.

6-cı addım. 9-11-ci tapşırıqlar lüğət tərkibi üzərində iş aparmaq üçündür. 9-ci tapşırığın cavabı C-dir. 10-cu tapşırığı icrası zamanı müəllim şagirdlərə *-çı*[4] şəkilçisinin, əsasən, peşə-sənət mənalı sözlər əmələ gətirdiyini, lakin bu halın həmişə mümkün olmadığını izah edir. Məsələn, *yalan, xəbər, ərizə, şikayət* sözlərinə *-çı*[4] şəkilçisi artırılsa da, bu şəkilçilər peşə mənalı sözlər yarada bilmir.

7-ci addım. Evə mövzu ilə bağlı tapşırıq verilərkən şagirdlərin yaş səviyyəsi və onların icraetmə bacarıqlarını nəzərə almaq lazımdır. Mövzu ilə bağlı müxtəlif tapşırıqlar verilə bilər.

- 5-ci tapşrıq (səh. 74) mənimsəmə səviyyəsi müxtəlif olan hər bir şagird tərəfindən icra edilə bilər.
- Murtuza Muxtarov haqqında təqdimat hazırlamaq
- "Azərbaycan xeyriyyəçiləri" mövzusunda inşa yazmaq
- "Azərbaycan xeyriyyəçilərinin xeyriyyə fəaliyyətləri" mövzusunda buklet və ya divar qəzeti hazırlamaq.
- "Peşə: diqqət və məsuliyyət" mövzusunda təqdimat hazırlamaq
- Tapşırıq 18 (səh. 77). "Diqqətin möcüzəsi" adlı esse yazmaq. Tapşırığın icrası üçün dərslikdə plan və yazının həcmi verilmişdir.

PLAN:

- Diqqətin nə olduğunu öyrənin.
- Diqqət hansı "möcüzə"lər yarada bilər?
- Fikrinizi əsaslandırmaq üçün mətnə istinad edin.
- Rast gəldiyiniz hadisələrdən istifadə edə bilərsiniz.
- Yekun nəticə

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

7-ci dərs Diplomsuz mühəndis

Standartlar: 4.1.1., 4.1.3.

Təlim nəticələri:

Əvəzliklərin işlənməsi ilə bağlı fikirlərini əsaslandırır.

O, bu əvəzliklərindən sonra vergülün işlənmə qaydasını bilir.

İş forması: kollektiv, fərdi

İş üsulu: müzakirə, sual-cavab, müəllimin mühazirəsi, yazı

LAYİHƏ

1-ci addım. Dərsin ev tapşırıqlarının yoxlanması ilə başlaması məqsədəmüvafiqdir. Tapşırıqlar yoxlanır, şagirdlər qiymətləndirilir.

2-ci addım. Müəllim əsas nitq hissələri, onların xüsusiyyətləri, növləri, cümlədə rolu ilə bağlı suallar verilir. Şagirdlərin cavabları ümumiləşdirilir, 12-ci tapşırıq kollektiv şəkildə icra edilir. Müəllim mövzu ilə bağlı şagirdlərə müxtəlif tapşırıqlar təqdm edə bilər.

Məs:

- Verilmiş mətndən (*mətn seçməkdə müəllim sərbəstdir*) isimləri (ümumi, xüsusi, tək və ya cəm)seçin.
- Cümlələrdən əlamət (*və ya keyfiyyət*) bildirən sifətləri seçin.
- Altından xətt çəkilmiş sözlərə ahəng qanununa uyğun şəkilçilər artırın.
- Altından xətt çəkilmiş sözləri müvafiq əvəzliklərlə əvəz edin. və s.

Bu tipli tapşırıqlar həm əvvəlki biliklərin təkrarı, həm də yeni mövzuya keçid etmək üçün əlverişlidir.

3-cü addım. 13-cü tapşırıq kollektiv şəkildə icra edilir. "Diplomsuz mühəndis" mətninəm təkrar baxış keçirilir, müvafiq cümlələr seçilir, *o, bu* əvəzliklərindən sonra durğu işarələrinin işlənib-işlənməməsinə diqqət yetirilir. Müəllim *"Sizcə, nə üçün o əvəzliyindən sonra vergül qoyulmuşdur (qoyulmamışdır)?"* sualı ilə şagirdlərə müraciət edir. Şagirddə müəyyən təsəvvür formalaşdırmaq üçün *o, bu* əvəzliklərinə sual verməyi təklif edir. Cavabların doğru və yanlışlığı ilə bağlı məqsədli şəkildə izahat verilmir, şagirdlərin özlərinin müəyyən nəticəyə gəlməsi üçün şərait yaradılır.

4-cü addım. Şagirdlərə *"O, bu əvəzliklərindən sonra vergülün işlənməsi"* ilə bağlı qayda izah edilir, izahlar müvafiq nümunələrlə əsaslandırılır. Daha sonra şagirdlərə əvvəl verdikləri cavabın düzgün olub-olmaması ilə bağlı sualla müraciət edilir. Yanlıqlıq varsa, təkrar izahat verilir.

5-ci addım. 14–16-cı tapşırıqlar tətbiq xarakterlidir. Tapşırıqların fərdi qaydada müstəqil şəkildə icrasının təşkili tövsiyə edilir. Şagirdlərin mövzunu mənimsəmə səviyyələri yoxlanır. Ehtiyac yaranarsa, səhvlərə yol verən şagird lövhəyə çağırılır, sadə nümunələr verməklə mövzu təkrar izah edilir.

6-cı addım. 17-ci tapşırıq evə verilir.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

8-ci dərs Kiçik Summativ Qiymətləndirmə

Qeyd. Müəllim bu mətni ifadə şəklində də yazdıra bilər.

BÜLBÜL

Vuruşma qurtaranda kəndə bir dəstə düşmən daxil oldu. Evlərin qapı və pəncərələri yanmışdı. Kənd boş və səssiz idi. Lakin haradansa səsi gələn bülbülün cəh-cəhi yay gününün səssizliyini pozurdu. Bir dəqiqəliyə cəh-cəh ara verdi. Sonra yenidən başladı.

Əsgərlərin və zabitin gözləri dörd oldu. Onlar ətrafdakı kolluqlara, aşağı sallanan ağcaqayın budaqlarının altına nəzər saldılar. Arxın kənarında oturmuş balaca bir oğlan gördülər. O, ağac parçasını yonur, nəsə düzəldirdi. Zabit oğlanı səslədi:

– Ey oğlan, buraya gəl.

Oğlan bıçağı cəld cibinə qoydu, üstündəki yonqarları çırpdı və zabitin yanına gəldi. Zabit dedi:

– Göstər görüm!

Oğlan ağzından kiçik bir şey çıxarıb zabitə uzatdı. Zabit başını yırğaladı:

– Ustalıqla düzəldilmişdir, oğlan, ustalıqla. Belə fit verməyi sənə kim öyrətmişdir?

– Mən özüm öyrənmişəm. Hələ ququ quşu kimi oxumağı da bacarıram.

Zabit soruşdu:

– Sən kənddə tək qalmısan?

– Necə yəni tək? Burada sərçə də, qarğa da çoxdur. Bülbül isə təkcə mənəm.

– Ey avara, səndən söz soruşuram, burada adam var, ya yox?

– Adammı? Müharibə başlayandan burada adam yoxdur. Atışma başlayan və kənd yanan kimi hamı qaçdı.

Zabit oğlanın ağılsız olduğunu fikirləşdi. Ondan soruşdu:

– Sən dağa gedən yolu tanıyırsanmı?

– Tanıyıram.

– Bizi oraya apar. Düz aparsan, bu alışqanı sənə verəcəyəm. Ora aparmasan, başını üzəcəyəm. Anladınmı?

Dəstə yola düşdü. Oğlan gah bülbül, gah da ququ quşu kimi oxuyurdu. O yeridikcə əlləri ilə yolun üstünə əyilən budaqları dartır, daşları ayağı ilə vururdu. Meşə getdikcə sıxlaşırdı. Əyri-üyrü yol sıx bitən cavan ağcaqayınların arası ilə burulurdu. Zabit oğlandan soruşdu:

– Bəs buralarda üzə çıxan yoxdurmu?

Oğlan cavab verdi:

– Göbələkmi deyirsiniz? Yox, burada yalnız meşə göbələkləri çıxır.

Zabit uşaqdan söz ala bilməyəcəyini görüb susdu.

Meşənin uzaq bir yerində əsgərlər tüfənklərini ağaca söykəyib uzanmışdılar. Onlardan biri başını qaldırdı, üzünü quşun səsi gələn tərəfə çevirib dedi:

– Eşidirsinizmi? Bülbül!

Bülbül cəh-cəhindən sonra iki dəfə ququ quşunun səsini eşidib əlavə etdi:

– İki də pulemyot.

Komandir tüfəngini əlinə alıb dedi:

– Öhdələrindən gələrik, ayağa durun!

Bir neçə dəqiqədən sonra ağacların arxasından düşmən dəstəsi göründü. Onlar açıq talaya çıxdılar. Birdən oğlanın fitinə qalın meşədən əks cavab gəldi. Oğlan tez dayandı, cəld dönüb me-

LAYİHƏ

şəyə cumdu. Güllələrin səsi meşədəki sakitliyi pozdu, zabit əlini heç tapancaya uzada bilmədi. Avtomatlardan atılan güllələr onları yerə sərdi.

O biri gün həmin oğlan yenə yandırılmış kəndin kənarındakı arxın üstündə oturub nəsə yonurdu. O, hərdən yola baxır, elə bil kimi isə gözləyirdi.

1. Mətnə əsasən demək olar:
   A) Hadisələr dinc dövrdə baş verir.
   B) Meşədəki döyüşçülər quş səsləri ilə düşmənin sayını müəyyən edirlər.
   C) Quş səsləri yalnız əsgər sayına aid idi.
   D) Zabit çox ağıllı idi.
   E) Oğlan meşədəki əsgərlərin yanına qaçır.

2. Mətnin hansı hissəsində oğlanın səs siqnallarından istifadə etməsi göstərilir?
   1. Giriş hissə 2. Əsas hissə 3. Nəticə

3. Oğlana aid olan fikir hansıdır?
   1. Oğlan meşədəki döyüşçülərin rabitəçisi idi.
   2. Ququ quşu səsini bülbül səsindən yaxşı çıxarırdı.
   3. Cəsur idi.
   4. Xarakter baxımından laqeyd idi.
   5. Fərasəti nəticəsində tapşırığın öhdəsindən gəlir.

4. Mətnə əsasən oğlanın ağıllı olduğunu təsdiqləyən 3 fakt yazın.
   1. _____
   2. _____
   3. _____

5. Fikirlərdən biri mətnin nəticə hissəsinə aiddir:
   A) Meşədəki əsgərlərin düşmənin sayını bilməsi
   B) Zabitin oğlanı sorğu-sual etməsi
   C) Oğlanın ağıllı cavabları qarşısında zabitin susması
   D) Oğlanın zabitin suallarına qəsdən yanlış cavab verməsi.
   E) Oğlanın təkrar vəzifəsinə qayıtması

6. Cədvəli hadisələrin başvermə səbəblərinə görə tamamlayın.

Hadisə	Səbəb
1. Evlərin qapı və pəncərələri yanmışdı. Kənd boş və səssiz idi.	
2. Oğlan kənddə tək idi.	

LAYİHƏ

3. Komandir tüfəngini əlinə alıb dedi: – Öhdələrindən gələrik, ayağa durun!	
4. Oğlan tez dayandı, cəld dönüb meşəyə cumdu.	
5. O biri gün həmin oğlan yenə yandırılmış kəndin kənarındakı arxın üstündə oturub nəsə yonurdu. O, hərdən yola baxır, elə bil kimi isə gözləyirdi.	

7. Cümlələri mətnin hansı hissəsinə və cümləsindən sonra artırmaq olar?

Bülbül cəh-cəhi getdikcə ucalırdı. Onun səsini ilk olaraq eşidən əsgər yerindəcə cəh-cəh səslərini saymağa başladı:

– Otuz iki düşmən əsgəri!

1. Giriş hissə, *"Bir dəqiqəliyə cəh-cəh ara verdi. Sonra yenidən başladı"* cümləsindən sonra
2. Əsas hissə, *"Eşidirsinizmi? Bülbül!"* cümləsindən sonra
3. Nəticə hissə, *"Onlar açıq talaya çıxdılar"* cümləsindən sonra

8. Mətnə əsasən cədvəli tamamlayın.

Mətndə əsas obraz (və ya obrazlar)	Mətn hansı xüsusiyyətləri tərbiyə edir?	Mətndə ifadə olunan əsas fikir hansıdır?
• ... • ...	• ... • ...	• ...

9. Hansı suala mətndə cavab tapmaq olar?

A) Zabit nə üçün əvvəlcə oğlanın adını soruşmur?
B) Oğlan quş səslərini çıxarmağı kimdən öyrənmişdir?
C) Oğlan nə üçün boş kənddə oturmuşdu?
D) Komandir oğlana nə dedi?
E) Oğlana təkrar boş kənddə oturmağı kim əmr edir?

10. Bunlardan biri mətnin ideyası ola bilər:

A) Müharibə insan fəlakətidir.
B) Vətən sevgisi kiçikdən böyüyə hər kəsin qəlbində ən müqəddəs işdir.
C) İgidlik yaşa baxmır.
D) Planlı fəaliyyət uğurun ən vacib şərtidir.
E) Yaxşı komandan qələbə deməkdir.

LAYİHƏ

11. Uyğunluğu müəyyənləşdirin.

1. əsgər	→	a. Hərbi hissə və ya birləşmənin başçısı
2. zabit	→	b. sıravi hərbi qulluqçu
3. komandir	→	c. orduda komanda heyətinə mənsub şəxs

1._____ 2._____ 3._____

12. Sözlərin düzgün və ya səhv yazılışını müəyyən edin.

Sözlər	Yazılış düzdür	Yazılış səhvdir
tüfənklərini		
dəstə		
avtomatlardan		
bıçaqı		

13. Bunlardan biri *tala* sözünün izahıdır:

A) çoxlu ağac bitmiş yer
B) qumluq, susuz düzənlik
C) yaşıl ot bitmiş sahə
D) susuz və bitkisiz geniş çöl
E) meşədə açıq sahə

14. Sual işarələrinin yerinə əksmənalı sözlər yazın.

düşmən → ?

Cəld → ?

az → ?

kiçik → ?

LAYİHƏ

15. Sual işarəsinin yerində nə yazılmalıdır?

16. *"O, ağac parçasını yonur, nəsə düzəldirdi"* cümləsində *o* əvəzliyindən sonra vergülün işlənmə səbəbini yazın.

_____
_____

17. Əyri-üyrü *yol sıx bitən cavan ağcaqayınların arası ilə burulurdu* cümləsində altından xətt çəkilmiş sözün yazılışı ilə bağlı hökmlərdən birini seçib, fikrinizi əsaslandırın.



18. *" Ey oğlan, buraya gəl"* cümləsində oğlan sözündən sonra nə üçün vergül qoyulmuşdur?

_____
_____

19. Mətndə altından xətt çəkilmiş cümlələrdə işlənən sözləri cədvələ əsasən qruplaşdırın.

İsimlər	Sifətlər	Saylar	Əvəzliklər

20. Mətnin sonluğunu 5-6 cümlə ilə tamamlayın. Verilmiş plandan istifadə edin.

Plan.

- Müharibənin bitməsi
- Oğlanın qəhrəmanlığının mükafatlandırılması

LAYİHƏ

9-cu dərs

Balaca aşpaz

Standartlar: 1.1.2., 2.1.3., 3.1.2., 3.1.3.

Təlim nəticələri:

Mətndəki faktları seçir.
Dinlədiyi fikirlərə münasibət bildirir.
Mətni intonasiya ilə oxuyur.
Abzaslar arasındakı əlaqələri müəyyən edir.

İş forması: kollektiv, cütlər, fərdi

İş üsulu: müzakirə, sillogizm, BİBÖ *(seçilən üsul müəllimin qurduğu dərsdən asılıdır)*

1-ci addım. Müəllim dərsə müxtəlif yanaşmalardan istifadə etməklə başlaya bilər.

1. Lövhədə *aşpaz* və *aşbaz* sözləri yazılır.

aşpaz	*aşbaz*

Şagirdlərdən təqdim olunan sözlərlə bağlı nə bildikləri soruşulur. 10-cu tapşırıq və burada verilmiş şəkillər şagirdlərin fikirlərinə yardım edə bilər. Ola bilər ki, şagirdlər bu sözləri izah etməkdə çətinlik çəksinlər. Müəllim şagirdlərə istiqamət verə bilər:

Aşpaz yemək bişirən adama, aşbaz aşı *(plovu)* çox sevən adama deyilir.

2. Şagirdlərə *"Aşpaz dedikdə nə başa düşürsünüz?", "Aşpaz kimdir?"* sualları ilə müraciət edilir. Şagirdlərin cavabları lövhədə də yazıla bilər.

3. Müəllim klaster və ya anlayışın çıxarılması üsulundan da istifadə edə bilər.

4. Dərsliyin 81-ci səhifəsində verilmiş 10-cu tapşırığın icrası ilə

5. BİBÖ cədvəlindən istifadə etməklə

6. Sillogizm qurmaqla

Qeyd. Sillogizm qurarkən mövzu, anlayış, hadisə və s. ilə bağlı hökm verilir, nəticədə həmin 2 hökm əsasında ümumi fikir söylənilir.

Sillogizmə nümunə:

1. Aşpazlıq yemək bişirən insanların fəaliyyətidir.
2. Aşpazlıq ən qədim peşələrdən biridir.

Nəticə: Aşpazlıq qədim tarixə malik olub, insanların yemək bişirmə fəaliyyətini ümumiləşdirən peşədir.

LAYİHƏ

7. Müvafiq dinləmə mətnindən istifadə etməklə

Dinləmə mətninə nümunə:

Aşpazlıq yeməklərin hazırlanması ilə məşğul olan insanların fəaliyyətidir. Bu ən qədim peşələrdən biri hesab edilir. Cənubi Afrikada ocaq yerlərində tapılan sümük və bitki qalıqları qədim insanların hələ milyon illər əvvəl yemək bişirdiklərini deməyə əsas verir. Arxeoloji tapıntıların arasında Avropa və Orta Şərqdə qədim ocaqlar, yer "sobaları", yandırılmış heyvan sümükləri və çaxmaqdaşları vardır. Antropoloqların fikrincə, yemək bişirmək təxminən 250 min il əvvəl, ocaqların yaranması ilə başlayıb.

Aşpazlığa aid məlum ilk kitab e.ə. 40-cı ildə romalı Aspi tərəfindən yazılmışdır. İmperatorlar Avqust və Tiberinin dövründə yaşamış baş aşpaz Apitsinin rəhbərlik etdiyi ilk aşpazlıq məktəbləri təşkil edilmişdir.

Yunanlarda Girit adasında təxminən e.ə. 2600-cü ildə ilk aşpazlar meydana çıxır. Şübhəsiz ki, Qədim Misir, Finikiya, Sumerlərdə hökmdarlar və zadəganlar üçün yemək hazırlayan xüsusi adamlar olmuşdur. Hökmdarların zəhərlənmə riski yüksək olduğundan yalnız yüksək nüfuz sahibi olan insanlar mətbəxə buraxılırdı.

Tədricən müxtəlif ölkələrdə müxtəlif üsullarla yemək bişirmək yayılır və artıq hər kəs özü üçün də sadə yeməklər hazırlaya bilirdi. Yemək bişirmə bacarığı nəsildən nəslə ötürülür, yeni vərdişlər yaranırdı. Orta əsrlərin sonunda mətbəxi daha da inkişaf etdirən çox sayda şərq ədviyyatı ortaya çıxır. Bu baxımdan İtaliya, xüsusən də onun cənub hissəsi və Siciliya birinci yeri tututr. Deyilənə görə, Almaniyada aşpaz məhkəmədəki dörd vacib şəxsdən biri idi. Fransada isə yalnız nəcib insanlar aşpaz ola bilərdi.

Yemək bişirən zaman onun içinə tük düşməsin deyə aşpazın ağ papaq geyinməsi 18-ci əsrdə İngiltərə kralı II Georqun istəyi və təklifi ilə həyata keçirilmişdir. Bu gün bu papağı geyinmək dünyanın bir çox ölkələrində tələb olunur.

Deyirlər ki, ən yaxşı aşpazlar kişilərdir. Onlar bütün proseslərə və incəliklərə daha dərindən baxırlar. Əllərinin istiliyinin qadınlara nisbətən 2 dərəcə aşağı olması da onların dadlı yemək bişirməsinə yardımçı olur. Bu səbəbdən Yaponiyada qadınlar suşi və desert hazırlaya bilmirlər.

Oktyabrın 20-i kulinariya mütəxəssislərinin peşə bayramıdır. Aşpazlar Günü 2004-cü ildə Ümumdünya Kulinariya Cəmiyyətləri Birliyi tərəfindən təsis edilmişdir.

https://az.healthy-food-near-me.com/interesting-historical-facts-about-the-profession-of-a-cook/ əsasında

2-ci addım. Şagirdlərə "Aşpaz olmaq üçün nə etmək lazımdır?" sualı ilə müraciət edilir. Texniki imkanlar varsa, https://www.youtube.com/watch?v=WzUun9r0yyU linkindən (*Aşpaz olmaq üçün nə etmək lazımdır?)* istifadə etməklə şagirdlərdə bu peşə və peşə bacarıqları haqqında müəyyən təsəvvür yaratmaq mümkündür.

3-cü addım. Dərslikdəki "Balaca aşpaz" mətninin oxusu təşkil edilir. Oxu işinin təşkili zamanı orfoqrafiya və orfoepiya tapşırıqlarının icrası diqqətdə saxlanılır. Onun oxudan əvvəl, sonra və ya oxu zamanı icra edilməsi müəllimin qurduğu dərsdən, seçdiyi forma və üsuldan asılıdır.

LAYİHƏ

Mətnin oxusu zamanı müəllim müvafiq bildiyi yerdə şagirdlərə suallarla müraciət edə bilər. Mətnin oxusu bitdikdən sonra *"Əgər mənə "Nə üçün məhz aşpazlıq sənətini seçdin?" sualını versəniz, onda deyərəm ki, ...", "Sizcə, Ləman bu suala necə cavab verəcək?", "Bəs təcrübəli aşpaz bu suala necə cavab verər?"* sualları ilə müraciət edilir. Cavablar ümüumiləşdirilir və növbəti mərhələyə keçid edilir.

4-cü addım. Şagirdlərə "Aşpaz olmaq istərdinizmi?" sualı ilə müraciət edilir. Şagirdlərin cavablarından asılı olaraq dərsin gedişi dəyişə bilər. Yəni ola bilər ki, sinifdə aşpaz olmaq istəməyən olsun. Bu halda şagirdlərin ümumi maraq dairəsini, həmin peşə ilə bağlı fikirlərini öyrənmək lazımdır.

https://www.youtube.com/watch?v=9Vb5zkoUDIQ (Təhsil TV: Peşə məktəbinin yetirmələri) linkindən istifadə etməklə şagirdlərdə bu peşəyə maraq oyatmaq olar.

5-ci addım. 1–5-ci tapşırıqlar üzərində iş aparılır. 5-ci tapşırığın fərdi qaydada şagirdlər tərəfindən icrası məqsədəmüvafiqdir. Tapşırıq 3-4 cümlə ilə tamamlana bilər.

6-cı addım. Dərliyin 80-ci səhifəsindəki "Aşpazın səhvi yüzlərlə insana ziyan vura bilər" mövzusunda yığcam müzakirə təşkil edilir. Şagirdlərin fikirləri əvvəlki mövzularla əlaqələndirilir, yekun qərar qəbul edilir: *Hansı sahədə çalışmasından asılı olmayaraq, insan peşəsinə məsuliyyətlə yanaşmalıdır.*

7-ci addım. Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 6-9-cu tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların icrasının cütlər vasitəsilə təşkili məqsədəmüvafiqdir.

8-ci tapşırıq
Dadlı-ləzzətli, asan-sadə-yüngül (yerindən asılı olaraq)

9-cu tapşırıq
Çay, qəhvə, dərman bitkisi və s. dəmləmək.

8-ci addım. Evə verilən tapşırıqlar şagirdlərin səviyyəsi nəzərə alınmaqla onların arasında bölüşdürülür.

- 7-ci tapşırığın (səh. 80) nümunəsindən istifadə etməklə sxemlər yaratmaq
- "Mən aşpaz olacağam" adlı buklet, təqdimat və s. hazırlamaq
- "Mən balaca aşpazam" adlı televeriliş hazırlamaq üçün material toplamaq və suallar hazırlamaq
- "Nə üçün aşpaz olmaq istəməzdim?" mövzusunda mətn hazırlamaq
- Mövzu ilə bağlı rəsm və ya foto-albom hazırlamaq
- Müxtəlif ölkələrin mətbəxi ilə bağlı təqdimat hazırlamaq (yunan, italiya, gürcü və s)

Qeyd. Müəllim uyğun bildiyi hər hansı bir tapşırığı əlavə edə bilər.

Bu tapşırıqlar növbəti dərsdə "Mən balaca aşpazam" adlı televeriliş hazırlanması üçün material bazası olacaqdır. Yaxşı olar ki, növbəti dərsə hazırlıq məqsədilə televerilişin aparılması üçün aparıcı və iştirakçılar seçilsin, onlara istiqamət və tapşırıqlar verilsin. TV kanallarında mövzu ilə əlaqədar müvafiq verilişlərə baxılması tapşırılır.

LAYİHƏ

10-cu dərs “Balaca aşpaz”

Standartlar: 2.1.2., 2.1.3., 4.1.1.

Təlim nəticələri:

Danışan zaman nitqini səs tonu ilə tənzimləyir.
Müzakirələrdəki fikirlərə münasibət bildirir.
Nitq hissələri arasındakı əlaqəni əsaslandırır.

İş forması: kollektiv, fərdi

İş üsulu: televeriliş, müzakirə

1-ci addım. Müəllim dərsə 2 üsuldan istifadə etməklə başlaya bilər.

1. Müəllim “əşya ilə şəxs arasında mənsubluq” ilə bağlı qaydasını izah etmək üçün 11-ci və 12-ci tapşırıqların icrasını təşkil edir. Tapşırıqların cütlər vasitəsilə icrası məqsədəmüvafiqdir. Şagirdlərin cavabları ümumiləşdirildikdən sonra qaydanın izahını verir və dərsi davam etdirir. Sonra ev tapşırıqlarını yoxlayır və 15-ci tapşırığın icrasını təşkil edir.

2. Müəllim ev tapşırıqlarını yoxlayır, “əşya ilə şəxs arasında mənsubluq” ilə bağlı qaydanın izahı ilə dərsi davam etdirir və 15-ci tapşırığın icrasını təşkil edir.

2-ci addım. Şagirdlər isim və əvəzlik nitq hissələri ilə tanış olduqları üçün onların arasındakı qanunauyğunluğu mənimsəmək onlar üçün elə də çətinlik törətməyəcəkdir. Qaydanın izahından sonra 14-cü tapşırıq fərdi qaydada icra olunur.

3-cü addım. 15-ci tapşırıq üzərində iş aparılır. Dərslikdə verilmiş istiqamət və plan üzərində iş aparılır. Ev tapşırıqlarından istifadə etmək üçün şagirdlərə müvafiq təlimatlar verilir.

4-cü addım. Şagirdlərə verilişin təqdiminə hazırlaşmaq üçün 5 dəq. vaxt verilir. Şagirdlərdə çeviklik və operativlik bacarıqları formalaşdırmaq üçün bu yanaşma əlverişlidir. Şagirdlər öz aralarında görəcəkləri işləri, sualları və s. müəyyən edirlər. Yaxşı olar ki, şagirdlərdən münsiflər heyəti də təşkil edilsin, qiymətləndirmə meyarları müəyyən edilsin. Qiymətləndirmə meyarları dərslikdə verilmiş istiqamət və plan əsasında müəyyən edilə bilər.

Məs:

- *Televeriliş müəyyən edilmiş müddətdə tamamlandı.*
- *Aparıcının nitqi səlis və aydın idi.*
- *Səs tonuna riayət edildi.*
- *Suallar məzmuna uyğun idi.*
- *Verilən cavablar dolğun və məzmunlu idi.*
- *Həm aparıcı, həm iştirakçılar mövzu il bağlı məlumatlı idi.*
- *Aparıcı auditoriyanı maraqlandıra bildi.* və s.

Televerilişin aparılması üçün 20-25 dəq. müddət müəyyən edilir.

5-ci addım. 16-cı tapşırıq üzərində iş aparılır.

6-cı addım. Qiymətləndirmə aparılır. Qiymətləndirmənin müəllim və münsiflər heyəti tərəfindən aparılması məqsədəmüvafiqdir.

7-ci addım. Evə 13 və 17-ci tapşırıqlar verilir.

LAYİHƏ

11-ci dərs

Köhnə araba

Standartlar: 2.1.2., 2.1.4., 3.1.2., 3.1.3.

Təlim nəticələri:

Müzakirələrdə səs tonuna riayət edir.
Mətnin hissələrini əlaqələndirir.
Mətni intonasiya ilə oxuyur.
Abzaslar arasındakı əlaqəni müəyyən edir.

İş forması: kollektiv, fərdi

İş üsulu: auksion, proqnozlaşdırılmış oxu, müzakirə

1-ci addım. Ev tapşırığı yoxlanır və şagirdlərin aşpazlıq, süfrə mədəniyyəti və aşpazlıqla bağlı fikirləri ümumiləşdirilir. Ev tapşırıqları qiymətləndirilir.

2-ci addım. Şagirdlərə "Uğur nədir?" sualı ilə müraciət edilir. Auksion üsulundan istifadə edilməsi məqsədəmüvafiqdir. Şagirdlər növbə ilə anlayış haqqında fikirlər söyləyir. Sonuncu təklifi verən qalib sayılır. Daha sonra

"*Uğur haqqında danışarkən, ilk növbədə, ağlınıza kim və nə gəlir?*" sualı ilə şagirdlərə müraciət edilir.

Con Kennedinin "Bizə elə insanlar lazımdır ki, heç vaxt mövcud olmayan şeyləri belə xəyal edə bilsin" cümləsi lövhədə yazılır və sitatın ifadə etdiyi məna ilə bağlı müzakirə təşkil edilir.

3-cü addım. "Köhnə araba" mətninin oxusu təşkil edilir. Oxu zamanı orfoqrafiya tapşırığının icrası mütləqdir. Orfoepiya tapşırığı oxudan əvvəl və ya sonra, yaxud oxu zamanı icra edilə bilər. Mətnin oxusu zamanı şagirdlərin intonasiya, ritm, ahəng, səs tonu, emosiyalar diqqətdə saxlanılır. Lazım gələrsə, düzəliş edilir.

Mətnin bir hissəsi oxunduqdan sonra *"Necə düşünürsünüz, xarab popkorn arabası Dennisin həyatını dəyişəcəkdimi?", "Sizcə, bu dəyişiklik necə baş verəcəkdi?"* sualları ilə müraciət edilir. Şagirdlərin fikirləri dinlənilir, məqsədyönlü şəkildə münasibət bildirilmir. Şagirdlərin fikirləri lövhədə yazıla bilər. Sonra müəllim mətnin həmin hissəsini oxuyur, şagirdlər verdikləri cavabla müəllimin oxuduğu hissəni *(Çox əlləşib vuruşduqdan, üzərində aylarla çalışdıqdan sonra Dennis arabanı işlək vəziyyətə gətirə bildi. O bu arabasında popkorn hazırlayaraq doğma şəhərində keçirilən əlamətdar tədbirlərdə satmağa başladı. Çox keçmədi ki, o daha yeni bir popkorn arabası da aldı. Bir müddət sonra onun artıq bir neçə popkorn arabası var.)* müqayisə edirlər. Üst-üstə düşən cavablar şagirdlərin məntiqinin yoxlanması baxımından vacibdir.

Bu mətn vasitəsilə şagirdlərin insanın hər bir vəziyyətdən çıxış yolu tapa bilməsi, öz həyatını qurması və düzgün fəaliyyət nəticəsində uğur qazanması fikri aşılanır. Müəllim Cəfər Cabbarlının "Oqtay Eloğlu" əsərinin yığcam məzmununu danışmaqla əsərin baş qəhrəmanı Oqtayın ona vəd edilən gözəl və dəbdəbəli həyatdan imtina edərək Azərbaycan milli teatrının yaradılması uğrunda apardığı mübarizədən, istəyinə nail olmasından danışa bilər.

4-cü addım. Sonra mətnin ardı oxunur. Miluoki şəhəri haqqında verilmiş məlumat mətnlə əlaqələndirilir. Sonra 1-ci tapşırıq şifahi şəkildə yerinə yetirilir. 1 və 4-cü bəndlər cümləni tamamlayır. Şagirdlərə *"Sizcə, Denis Kopselin uğur əldə etməsinin səbəbi nə idi?"* sualı ilə müraciət edilir. Daha sonra 2-ci tapşırıq icra edilir.

LAYİHƏ

5-ci addım. 3-6-cı tapşırıqlar üzərində iş aparılır. 3-cü sualın cavablandırılması üçün aparılan müzakirədə şagirdlər bu qənaətə gəlməlidirlər ki, diqqət, zəhmət, məqsədyönlü hədəflər və planlı fəaliyyət uğur əldə etmək üçün vacib xüsusiyyətlərdir. 4-cü sual sadə peşələrlə yanaşı, həmin peşənin sahiblərinə hörmət və qayğı ilə yanaşmaq, onların zəhmətini dəyərləndirmək kimi mənəvi xüsusiyyətlərin tərbiyə edilməsi baxımından əhəmiyyətlidir. Aydındır ki, bütün şagirdlərin elmi bilikləri dərindən öyrənmək bacarıqları yoxdur. Lakin onları kiçik yaşlarından bacarıqlarına uyğun sahəyə yönəltmək valideynlər qədər müəllimin də öhdəsinə düşür.

6-cı addım. Şagirdlərin fikirləri ümumiləşdirilir, fərdi qaydada 5 və 6-cı tapşırıqlar (səh. 88) üzərində iş təşkil edilir.

7-ci addım. 14-cü tapşırıq (səh. 89) evə verilir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

12-ci dərs Köhnə araba

Standartlar: 2.1.1., 3.1.1., 4.1.2., 4.1.3.

Təlim nəticələri:

Fikirlərini izah edərkən tələffüz qaydalarına riayət edir.
Feil nitq hissəsini izah edir.
Mətn yazarkən abzaslararası əlaəqni gözləyir.
Durğu işarələrindən düzgün istifadə edir.

İş forması: kollektiv, cütlər

İş üsulu: müzakirə, müəllimin mühazirəsi, sillogizm

1-ci addım. Ev tapşığı seçmə yolla yoxlanılır və şagirdlərin təqdimatları qiymətləndirilir.

2-ci addım. "Köhnə araba" mətninin lüğət tərkibi üzərində iş aparmaq üçün 7-9-cu tapşırıqlar yerinə yetirilir. Tapşırıqların cütlər vasitəsilə icrası məqsədəmüvafiqdir. Tapşırıqları işləmək üçün şagirdlərə iş vərəqləri də verilə bilər.

İş vərəqlərinə nümunə:

Tapşırıq 7

Cümlədəki işarələnmiş sözü əvəz etmək olar:	*Qırıq* sözü ilə	*İncik* sözü ilə	Niyə belə hesab edirsiniz?
Bir gün o, çox köhnə, **sınıq,** antikvar bir popkorn arabasına rast gəldi.			

LAYİHƏ

Tapşırıq 8

Araba	*Fayton*
…	…

3-cü addım. 9-10-cu tapşırıqlar üzərində iş aparılır. 9-cu tapşırıq durğu işarələri ilə bağlı əvvəlki illərin materialını təkrarlamaq məqsədilə verilmişdir. 10-cu tapşırıq feil nitq hissəsinin və onun cümlədə rolunu müəyyənləşdirmək məqsədilə hazırlanmışdır.

4-cü addım. Müəllim feil nitq hissəsi ilə bağlı şagirdlərin hansı biliklərə malik olduğunu soruşur. Bunun üçün sinfin səviyyəsini nəzərə almaqla klasterdən, yaxud sillogizmdən istifadə edə bilər. Müəllim qaydanı (dərslik, səh. 84) izah edir, izahlarını nümunələrlə əsaslandırır.

Sinfin səviyyəsi imkan verərsə, müəllim nitqimizdə feilin işlənmədiyi və bitkin fikrin ifadə edildiyi cümlələrin olduğu haqqında da məlumat verir. Məsələn, *Səhərdir, Ağıllıdır,* bəzi sual cümlələrinin cavabı olaraq *Bəli (hə), Xeyr (yox), suala cavab verməyən Lazımdır, Bəsdir, Mümkündür* cümlələrini misal göstərə bilər.

5-ci addım. 12-ci tapşırıq üzərində iş aparılır. Tapşırığın fərdi qaydada icrası məqsədəuyğundur. Tapşırıq icradan sonra yoxlanır, səhvlər varsa, düzəliş edilir, izah verilir. Daha sonra tapşırığın ikinci şərti

(Bu mətnlə "Köhnə araba" mətni arasında məzmun baxımından hansı oxşarlıq vardır?) üzərində iş aparılır. Tapşırıq, əslində, şagirdlərin təxəyyülünü işə salmaq, yeni ixtiralar etməyə həvəsləndirmək baxımından əhəmiyyətlidir.

6-cı addım. 13-cü tapşırıq üzərində iş aparılır. Tapşırığın sinifdə yoxlanması vaxt baxımından mümkün olmasa, dərsdən sonra yoxlanması və şagirdlərə yazıların nəticələrinin bildirilməsi vacibdir. Müəllim bu məqsədlə meyarlar da hazırlaya bilər.

- Həcm uyğundur.
- Məzmun plana uyğundur.
- Məzmun mahiyyəti açır.
- Sözlər düzgün yazılmışdır.
- Durğu işarələrindən düzgün və yerində istifadə edilmişdir.
- Cümlələr və abzaslararası əlaəq gözlənilmişdir.
- Təsvirlər dolğundur.
- Yazının tərkib hissələri arasında əlaqə gözlənilmişdir.
- Fikirlərini ümumiləşdirə bilir.
- Fikirlərini təsdiqləmək üçün nümunələrdən istifadə edir və s.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

13-cü dərs

Sürücü

Standartlar: 2.1.2., 2.1.4., 3.1.2., 3.1.3.

Təlim nəticələri:

Müzakirələrdə səs tonuna riayət edir.
Mətnin hissələrini əlaqələndirir.
Mətni intonasiya ilə oxuyur.
Abzaslar arasındakı əlaqəni müəyyən edir.

İş forması: kollektiv, fərdi, cütlər

İş üsulu: auksion, müzakirə

1-ci addım. Müəllim dərsə müxtəlif üsullardan istifadə etməklə başlaya bilər.

1. Şagirdlərə *"Sürücülük nədir?"* sualı ilə müraciət edilir. Cavablar ümumiləşdirilir, şagirdlərə ikinci sual, *"Sürücü kimdir?"* sualı ilə müraciət edilir. Auksion və ya söz assosiasiyası üsulundan istifadə etmək olar.

2. Obrazların dərslikdə verilmiş sözlərini (*mavi çərçivə və ağ dairədə*) səhnələşdirməklə dərsə başlaya bilər. Sual verənlər özlərini jurnalist kimi təqdim edə bilər. Çərçivələrdəki suallar cavablandırılır. Sualları yazılı şəkildə cavablandırmaq üçün iş vərəqlərində də təqdim etmək olar.

Şagirdlərin cavablarına mətnin oxusundan sonra diqqət yetirilir və mətnlə əlaqələndirilir.

3. Karusel üsulundan istifadə etməklə. Vərəqlərdə *"Sürücü kimdir?", "İctimai nəqliyyatı idarə edən sürücülərdə* təhlükəsizliyin *təmin edilməsi* üçün *hansı xüsusiyyətlət olmalıdır?", "Sürücü maşını idarə etmək üçün hansı keyfiyyətlərə malik olmalıdır?"*sualları yazılır.

4. Mətnin oxusu təşkil edilir və suallar üzərində iş aparılır.

2-ci addım. "Sürücü" mətninin oxusu təşkil edilir. Orfoepiya tapşırığı oxudan əvvəl və ya sonra, yaxud oxu zamanı icra edilə bilər. Bu, müəllimin qurduğu dərsdən asılıdır. Oxu zamanı oxuya verilən tələblər diqqətdə saxlanmalıdır. Oxu zamanı müəllim mətnin müəyyn bir hissəsində oxunu saxlatdırıb müvafiq suallarla şagirdə müraciət edə bilər.

3-cü addım. Mətnin oxusundan sonra 89-cu səhifədəki tapşırıqlar üzəridə iş aparılır. "Şəkli təsvir edin" tapşırığını cütlər şəklində icra etmək vaxta qənaət baxımından və birgə çalışmaq baxımından daha əlverişlidir. Bunun üçün şagirdlərə 5-6 dəq. vaxt vermək kifayətdir. 4-5 cümlə yetərlidir. Tapşırığın yazılı və ya şifahi şəkildə icrası müəllimin qurduğu dərsdən asılıdır. Şagirdlərin cavabları oxutdurulur (və ya dinlənilir), mətnin müvafiq hissəsi ilə əlaqələndirilir. Şagirdlərin yazacağı cümlələr 89-cu səhifədə, 2-ci abzasın 3-cü cümləsindən *(Avtobus sıldırımın böyüründə salınmış yolda idi)* sonraya uyğun olmalıdır.

4-cü addım. Yol nişanları ilə bağlı tapşırıq icra edilir. Bura xəbərdarlıq nişanlarından *təhlükəli döngə, sərt eniş, sərt yoxuş, sürüşkən yol, nahamar yol, yolun daralması, daş uçqunu* uyğundur.

LAYİHƏ

təhlükəli döngə

sərt eniş

sərt yoxuş

sürüşkən yol

nahamar yol

yolun daralması

daş uçqunu

Bu dərsdə texnologiya fənnini tədris edən müəllimin köməyi il dərslikdəki təsvirin maketini hazırlamaq, yol nişanlarını müvafiq yerlərdə düzmək əyaniliyin təminidir.

Maketi əvvəlcədən şagirdlərin özlərinə də hazırlatdırmaq olar.

5-ci addım. 1-8-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqlar müəllimin seçimi əsasında fərdi və ya cütlər vasitəsilə aparılır.

6-cı addım. 9-10-cu tapşırıqlar üzərində iş aparılır. 9-cu tapşırıq daha çox şagirdlərin fərdi fikirlərinə əsaslanır.

10-cu tapşırıq daha çox dəyərləndirmə xarakterlidir. Şagird mətnə əsasən mənəvi dəyərləri müəyyən edir: *insan zəhmətinə hörmət, zəhməti dəyərləndirmə, məsuliyyət, insan qayğı, özünə tənqidi yanaşma, öyrənmə həvəsi, peşəsinin vurğunu, peşəkarlıq, ehtiyatlılıq, diqqətlilik, cavabdehlik, başqasının işinə hörmətlə yanaşmaq, fəaliyyəti müsbət qiymətləndirmək, tələbkarlıq, bacarıq, qayğıkeşlik, inamvə s.*

Müzakirələr nəticəsində bu fikir əldə edilir ki, peşəsindən asılı olmayaraq hər bir insan öz işinə məsulıiyyətlə yanaşmalı, peşəsini sevməlidir. İnsana önun zəhmətinə, işinə görə dəyərləndirmək hər birimizin borcudur və s.

7-ci addım. 17-ci tapşırıq evə verilir. Müəllim mövzu ilə bağlı digər tapşırıqlar verməkdə sərbəstdir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

14-cü dərs

Sürücü

Standartlar: 1.1.1., 1.1.2., 2.1.2., 2.1.3, 4.1.1.

Təlim nəticələri:

Mətnin tərkib hissələrini müəyyən edir.
Mətndəki hadisələri müəyyən edir.
Danışan zaman səs tonununa diqqət yetirir.
Fikirlərə münasibət bildirir.
Oxuduqları əsasında fikirlərini əsaslandırır.

İş forması: kollektiv, fərdi

İş üsulu: müzakirə, müəllimin mühazirəsi

1-ci addım. Müəllim dərsə 2 yanaşmadan istifadə etməklə başlaya bilər.

1. Dinləmə mətnindən istifadə etməklə
2. Ev tapşırıqlarını yoxlayıb onları qiymətləndirmək və sonra dinləmə mətni üzərində iş apar-maqla

Seçdiyi yanaşmadan asılı olaraq müəllim dərsini istədiyi kimi qura bilər.

Dinləmə mətni:

Sürücü gələcək fəaliyyətini təmin etmək üçün nəqliyyat vasitələrini, yəni avtomobil, avto-bus, tramvay, və yük maşınlarını peşəkar idarə etmək üçün müvafiq ixtisasa yiyələnən şəxsdir. İstənilən sürücünün vəzifələrinə insanların və ya malların daşınması daxildir. Bu vəzifədə çalışmaq üçün sürücü yol hərəkəti qaydalarını hərtərəfli öyrənməli, avtomobildə əmələ gələn nasazlıqları vaxtında və dərhal müəyyən etməli, aradan qaldırmaq üçün avtomobil qurğusunun texnologiyasını başa düşməlidir.

Müasir və böyük şəhərlərdə avtomobillərin sayının hər gün sürətlə artması ilə əlaqədar olaraq əmək bazarında sürücü peşəsinə tələbat da sürətlə artır. Ancaq bu gün bir çoxlarının sürücülük vəsiqəsinin olmasına baxmayaraq, hər kəs mükəmməl sürücülük bacarıqları ilə öyünə bilməz.

Sürücülüyün özünəməxsus xüsusiyyət və özəllikləri var. Bu peşə sənayenin hər bir sahəsinə tələb olunur. Müəssisənin istiqamətindən asılı olaraq onlar yük və ya sərnişin daşınması ilə məşğul olurlar: təcili yardım maşınlarını, yük maşınlarını, şəhər nəqliyyatını idarə edir, uzaq yerlərə gedirlər.

Sürücü hansı keyfiyyətlərə malik olmalıdır?

Ömrünü nəqliyyat idarə etməyə, həmçinin insanların və yüklərin daşınmasına həsr etmək qərarına gələn şəxs:

- sabit psixikaya və iradəyə malik olmalı;
- istənilən vəziyyətdə qəzəbini və hisslərini idarə etməli;
- sürətli reaksiyaya və diqqətə malik olmalı;
- öz hərəkətlərini dəqiq şəkildə əlaqələndirməli, diqqəti vaxtında cəmləşdirməyi bacarmalıdır.

LAYİHƏ

Ali təhsil aldıqdan sonra birbaşa sürücülükdən nəqliyyat proseslərinin idarə edilməsinə keçə bilər:

- yüklərin və sərnişinlərin daşınması üçün yeni marşrutlar hazırlamaq;
- tıxacların qarşısını almaq üçün yeni modellər təqdim etmək;
- nəqliyyat vasitələrinin işini idarə etmək;
- sürücülük təlimçisi kimi çalışmaq;
- avtoekspert olmaq;
- hərəkətin təhlükəsizliyini koordinasya etmək;
- nəqliyyat müfəttişliyində və ya yol polisində işləmək.

Sürücü əvvəlcədən nəqliyyat vasitəsinin texniki cəhətdən sazlığını yoxlamalı, yol hərəkəti şəraitini, nəqliyyat vasitəsinin və yükün xüsusiyyətlərini nəzərə almalıdır. O, sürdüyü nəqliyyatı onun üçün müəyyən edilmiş sürətlə idarə etməlidir. Hərəkət zolağının dəyişməsi, dönmə, ötmə, hərəkətə başlama və dayanma ilə bağlı manevrlər edərkən xarici işıq siqnallarının köməyindən istifadə etməlidir. İşıq siqnalları olmadıqda və ya nasaz olduqda isə o, əl işarələri ilə digər hərəkət iştirakçılarını xəbərdar etməlidir.

Avtomobildə hərəkət edərkən kəməri bağlamalı, sərnişinlərin də kəməri bağlamasını təmin etməli, motosikletdə isə motoşlemi düymələməli və sərnişinlərin də motoşlemi düymələməsini təmin etməlidir.

Alkoqol, narkotik və digər maddələrdən istifadə etməməli, diqqəti və çevikliyi azaldan dərman vasitələrinin təsiri altında, xəstə və yorğun vəziyyətdə nəqliyyat vasitəsini idarə etməməlidir. Sürdüyü nəqliyyat vasitəsini onu idarə etmək hüququ olmayan şəxsə verməməlidir.

Nəqliyyat vasitəsini idarə edən sürücü yolda su, yaxud palçıq olduqda sürəti zəiflədərək piyadalara, binalara və başqa nəqliyyat vasitələrini çirkləndirməməyə çalışmalıdır. Hərəkətdə olan nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının görünməsi üçün onun təmiz saxlanılması vacibdir. Yol hərəkətinin ən müdafiəsiz iştirakçılarının – uşaqların, əlillərin, velosipedçilərin və qocaların təhlükəsiz hərəkətini təmin etmək üçün mümkün olan bütün tədbirləri görməlidir.

Nəqliyyat vasitəsini qapıları bağlanmamış vəziyyətdə yerindən tərpətmək və ya onun hərəkəti zamanı qapıları açmaq, idarə etməkdən diqqəti yayındıra biləcək söhbətdə iştirak etmək, nəqliyyat vasitəsinin hərəkəti zamanı telefonu əldə saxlamaqla ondan istifadə etmək, hərəkət zamanı sükanı əlindən buraxmaq olmaz.

Göründüyü kimi, sürücülük peşəsi daha çox diqqət, peşəkarlıq və məsuliyyət tələb edən sahədir.

Qeyd. Müəllim sinfinin səviyyəsini nəzərə almaqla fərqli mətn seçə bilər və seçdiyi mətnə uyğun olaraq suallar tərtib edə bilər.

Şagirdlərin cavablarını yoxlamaq üçün müəllim əvvəlcədən həmin sualların cavablarını təqdimat şəklində hazırlaya bilər. Onlar işlərini bitirdikdən sonra müəllim cavabları nümayiş etdirməklə şagirdlərin yazılarını özləri tərəfindən yoxlamasına şərait yarada bilər. Səhvlər olarsa, müəllim tərəfindən izah verilir.

3, 4, 6-cı suallar şagirdlərin şəxsi fikirlərinə əsaslanır.

5-ci sualın cavabı B; 7-ci sualın cavabı: 1 b, c, e, g; 2 a, d, f-dir.

2-ci addım. Müəllim sürücülüklə bağlı oxu və dinləmə mətnlərinin məzmun baxımından müqayisəsini aparır və şagirdlərə suallarla müraciət edir: *“Mətnlər arasında hansı oxşar cəhətləri gördünüz?”, “Mətnlər arasında fərqi müşahidə edə bildinizmi?, Həmin fərqlər hansılardır?”* və s.

LAYİHƏ

Aşağıdakı tapşırıq nümunələrindən istifadə etmək mümkündür:

1. Səbəb-nəticə əlaqələrini tamamlayın.

Səbəb	Nəticə
1. Avtomobildə nasazlıq olarsa,	...
2. ...	sinir sisteminə mənfi təsir göstərir.
3. ...	...

2. Sualı cavablandırın.

3. Oxuduğunuz mətnlə dinlədiyiniz mətnlər arasında məzmun baxımdan oxşar və fərqli tərəfləri müəyyən edin.



4. Sxemi tamamlayın.



3-cü addım. Mətnlərin lüğət tərkibi üzərində iş aparılır. 12 və 13-cü tapşırıqlar yerinə yetirilir. Oxu və dinləmə mətnlərinin lüğət tərkibi üzərində iş aparmaq üçün müəllim müxtəlif suallar tərtib edə bilər.

LAYİHƏ

4-cü addım. Mətnin dil xüsusiyyətləri üzərində iş aparmaq üçün 14 və 15-ci tapşırıqlar üzərində iş aparılır. Müəllim bu mövzuya qədər tədris edilmiş qrammatik qaydalarla bağlı müxtəlif suallar və tapşırıqlar hazırlaya bilər. Bu məqsədlə həm oxu, həm də dinləmə mətnlərindən istifadə edə bilər.

5-ci addım. Əvvəlki dərslərdə nəqli cümlələrin intonasiyası ilə bağlı şagirdlərə izahat verilmişdi. "Sürücü" mətnində nida cümlələr işləndiyi üçün nida cümlələrinin tələffüzünün şagirdlərə izah edilməsi məqsədəmüvafiqdir.

Müəllim şagirdlərə izah edir ki, intonasiya həm səs tonunun qalxması və enməsi, həm də səsin müxtəlif çalarlar üzrə dəyişməsi ilə də xarakterizə olunur. Səsin rəngarəngliyi nida intonasiyasını əmələ gətirir. Nida cümləsi *sevinc, istək, həvəs, arzu, inam, inamsızlıq, həsrət, qorxu, nifrət, qəm, kədər, etinasızlıq* və s. kimi hissi halları ifadə edir. Bu, nida cümləsini digər cümlə növlərindən fərqləndirir.

Eyni bir cümləni və ya ifadəni intonasiyanın köməyi ilə müxtəlif məzmunda işlədə bilirik. Nida intonasiyası nitqə gözəl ahəng, bəzən də tamamilə yeni məzmun gətirir.

Məsələn; "Mətni diqqətlə oxuyun" cümləsi intonasiyadan asılı olaraq müxtəlif mənalar ifadə edə bilər. Bu cümlə nəzakət və nəvaziş, çox alçaq intonasiya və səs tembri ilə söylənilərsə, dinləyici bundan razı qalar. Əksinə, bu cümlə uca və kəskin intonasiya ilə tələffüz edilərsə, müraciət edilən özünü təhqir olunmuş hesab edə bilər. Burada digər hallar da mümkündür. Nida cümlələri aşağıdakı üsullarla yaranır:

1. Bu cümlələr yalnız intonasiya vasitəsilə düzəlir. Məsələn, *Vətən torpağı işğaldan azad edildi! Yaşasın Azərbaycan!* və s.

2. Bəzi cümlələr isə *ay, oy, aha, vay* və s. nidaların köməyi ilə əmələ gəlir. Məsələn; *Ay nə gözəl güllərdir!, Aha vaxtında gələcəyəm* və s.

6-cı addım. Müəllim uyğun nümunələrdən *(müvafiq mətn parçaları və cümlələr)* istifadə etməklə şagirdlərin biliklərini möhkəmləndirə bilər.

7-ci addım. Müəllim ev tapşırıqlarını yoxlayır və qiymətləndirir.

8-ci addım. Təlim nəticələrinə uyğun qiymətləndirmə aparılır.

LAYİHƏ

15-ci dərs Sərhədə gedən yol

Standartlar: 2.1.2., 3.1.2., 3.1.3.,4.1.2.

Təlim nəticələri:

Nitqinə uyğun səs tonu seçir.
Səs tonunu gözləməklə mətni oxuyur.
Abzaslar arasındakı əlaqələri müəyyənləşdirir.
Hekayənin ardını yazır.

İş forması: kollektiv, fərdi

İş üsulu: proqnozlaşdırılmış oxu, klaster, sillogizm

1-ci addım. Müəllim dərsə müxtəlif üsullardan istifadə etməklə başlaya bilər.

1. https://www.youtube.com/watch?v=2qasDchkqG0 (“Sərhədçi”) linkindən istifadə etməklə.

Qurduğu dərsdən asılı olaraq videonu tam şəkildə; mətnə uyğun olaraq 14-cü dəqiqədən başlayaraq nümayiş etdirə bilər və şagirdlərə müvafiq suallarla müraciət edə bilər: *“Süjetdə nəyi müşahidə etdiniz?”, “Sərhədçilər tapşırığın öhdəsindən necə gəlirlər?”, “Sərhəd niyə pozula bilər?” və s.*

2. https://www.youtube.com/watch?v=Mr8PfPddpOs linkindəndəki Elnarə Xəlilovanın ifasında “Sərhədçilik” mahnısından istifadə etməklə

3. https://www.youtube.com/watch?v=yKA9xJx-NKg Nərmin Kərimbəyovanın ifasında “Qələbənin yolları” mahnısından

4. Müəllimin özü tərəfindən “Azərbaycan sərhədi və ya sərhədçiləri” mövzusunda hazırlanmış təqdimatın təqdimi ilə

5. Texniki imkanlar yoxdursa, sərhədçilik və sərhəd xidməti haqqında müəllim tərəfindən izahat verilməklə

6. Mətnin adını səsləndirdikdən sonra 1-ci tapşırıq üzərində iş aparılır. Cavablar ümumiləşdirildikdən sonra 2-ci suallar üzərində iş aparılır və daha sonra mətnin oxusu təşkil edilir.

7. “Sərhəd nədir?” sualı əsasında klaster, söz assosiasiyası və ya anlayışın çıxarılması üsulundan istifadə etməklə

8. Sillogizmdən istifadə etməklə

2-ci addım. Mətnin oxusu təşkil edilir. Müəllim qurduğu dərsdən asılı olaraq, proqnozlaşdırılmış, fasiləli, qeydlər götürməklə oxu və s. növlərindən istifadə edə bilər. Orfoqrafik və orfoepik tapşırıqlar yerinə uyğun istifadə edilir. Seçdiyi oxu növündən asılı olaraq şagirdlərə *“Sizcə, mətndə nədən danışılacaq?”, “Uşaqlar necə hərəkət edəcək?”, “Yad adamlarla necə rəftar ediləcək?”, “Uşaqlar yolu düzgün göstərəcəkmi?, “Sizcə, onlar yad adamlar barədə məlumatı əvvəlcə kimə çatdıracaqlar?”* və digər suallar verilir. Oxu zamanı abzaslararası əlaqələr diqqətdə saxlanılır.

3-cü addım. 3-5-ci suallar üzərində iş aparılır. Tapşırıqların fərdi qaydada aparılması daha məqsədəuyğundur. 4-cü tapşırıq cütlər vasitəsilə icra edilə bilər.

4-cü addım. 13-cü tapşırığın icrası təşkil edilir. Şagirdlər, ilk növbədə, dərslikdə verilmiş planla tanış edilir. Müəllim şagirdlərlə birlikdə plana əlavələr edə, yaxud fərqli plan tərtib edə bilərlər.

LAYİHƏ

5-ci addım. Şagirdlər hekayənin ardını yazırlar. Tapşırığın qruplar şəklində icrası tövsiyə edilir. Tapşırığın icrasına 10-15 dəq. yetərlidir.

6-cı addım. Tapşırıqlar yoxlanılır. Şagirdlərin fikirləri dəyərləndirilir. Abzaslararası əlaqə diqqətdə saxlanılır. Yazının oxusu zamanı şagirdlərin düzgün tələffüzü, səs tonu, jest və mimikaları, digər həmkarlarının fikirlərinə hörmətlə yanaşması və münasibət bildirməsi diqqətdə saxlanılır.

7-ci addım. Şagirdlərin səviyyəsi nəzərə alınmaqla evə tapşırıq verilir:

- Azərbaycan sərhədçiləri haqqında məlumat toplamaq
- "Azərbaycan sərhəd xidməti" mövzusunda təqdimat hazırlamaq
- "Azərbaycan sərhədçisi" mövzusunda rəsm əsəri
- "Sərhədçi olacağam" mövsusunda inşa və ya esse yazmaq
- "Sərhəd. O nədir?" mövzusunda divar qəzeti hazırlamaq

8-ci addım. Təlim nəticələrinə uyğun olaraq qiymətləndirmə aparılır.

16-cı dərs Sərhədə gedən yol

Standartlar: 2.1.1., 2.1.3.,2.1.4., 3.1.1.

Təlim nəticələri:

Nitq zamanı sözləri və şəkilçiləri düzgün tələffüz edir.
Müzakirədəki fikirlərə münasibət bildirir.
Müxtəlif nümunələri mövzu ilə əlaqələndirir.
Mətndəki zərfləri müəyyən edir.

İş forması: kollektiv, fərdi

İş üsulu: diskussiya, müəllimin mühazirəsi

1-ci addım. Müəllim dərsə ev tapşırıqlarının yoxlanması ilə başlayır. Şagirdlərin hazırladıqları yoxlanır və qiymətləndirilir. Müəllim maşahidə vərəqlərindən istifadə etməklə qiymətləndirməni özü də apara bilər, şagirdlərin bir-birini qiymətləndirməsini təşkil də edə bilər. Qiymətləndirmə üçün meyarlar əvvəlcədən tərtib edilməlidir.

2-ci addım. Müəllim https://www.youtube.com/watch?v=OlWs4tMFDnI linkindən istifadə etməklə "Sərhədçilər marşı"nı səsləndirir və şagirdlərə mövzu ilə bağlı suallar verir. Şagirdlərin cavabları ümumiləşdirilir.

https://www.youtube.com/watch?v=taVFCfEhFDc linkindəki materialdan da istifadə etmək olar.

LAYİHƏ

3-cü addım. “Əgər mən sərhədçi olsa idim...” mövzusunda diskussiya təşkil edilir. Diskussiyanın gedişini asanlaşdırmaq üçün şagirdlərin əvvəlki dərsdə sərhədçi və sərhədçiliklə bağlı bildikləri suallar vasitəsilə xatırladılır: *“Sərhədçi kimdir?”, “Sərhədçinin vəzifəsi nədir?”, “Azərbaycan sərhədçilərindən kimləri tanıyırsınız?”*

Diskussiya üçün 15-20 dəq. yetərlidir.

4-cü addım. 6-9-cu tapşırıqlar üzərində iş aparılır. 6-cı tapşırıq *sərhədçi* sözünə görə; 7-ci tapşırıq antonim və sinonimliyə görə tamamlanır. Mətndəki *qiyamət* sözü *“yaxşı, əla”* mənasında işlənmişdir. Həmin sözlər çoxluq, bolluq,müsibət, fəlakət, bəla, məhşər günü mənalarında da işlənə bilər. (Azərbaycan dilinin izahlı lüğəti, III cild, səh. 165)

5-ci addım. Müəllim “Sərhədə gedən yol” mətnindən ixtiyari kiçik abzas və ya 1-2 cümlə seçir, cümlədə işlənən sözləri qrammatik mənasına görə qruplaşdırır. Daha sonra zərf nitq hissəsinin öyrədilməsi üçün motivasiya xarakterli 10-cu tapşırıq icra edilir. Tapşırığın icrası daha asan olsun deyə müəllif lövhədə aşağıda təklif olunan birləşmələri yazır və altından xətt çəkilmiş sözlərin fərqləndirilməsini təklif edir.

yaxşı söz – yaxşı danışmaq
cəld davranış – cəld tərpənmək
pis görüntü – pis görünmək

Müəllim şagirdlərə izah edir ki, əlamət və ya keyfiyyət bildirən eyni sözlər isimlərə aid olduqda isim, hərəkət bildirən sözlərə, yəni feillərə aid olduqda zərf nitq hissəsi hesab edilir. 10-cu tapşırıq icra edilir.

Qeyd. Müəllim nümunələrin sayını artıra bilər, şagirdlərə də belə nümunələr yaratmağa sövq edə bilər.

6-cı addım. Şagirdlərə zərflə bağlı qayda izah edilir, nümunələrlə əsaslandırılır.

11 və 12-ci tapşırıqlar icra edilir. Tapşırıqların fərdi qaydada icrası məqsədəmüvafiqdir. Bu, müəllimə şagirdlərin mövzunu hansı səviyyədə mənimsəməsini yoxlamağa imkan verir.

7-ci addım. Evə 14-cü tapşırıq verilir. Dərslikdə tapşırığın icrası üçün plan verilmişdir. Eyni zamanda, növbəti dərsdə şagirdlərə dialoqun tərtib edilməsi ilə bağlı qaydaları təkrar etməyi tapşırır.

8-ci addım. Təlim nəticələrinə uyğun olaraq qiymətləndirmə aparılır.

LAYİHƏ

17-ci dərs

Kiçik Summativ Qiymətləndirmə N°2

Bu summativi qiymətləndirmək üçün bölmənin yekununda verilmiş tapşırığı, dialoq tərtib etməyi tövsiyə edirik.

Şagirdlər aşağı siniflərdən dialoq tərtib etməyi, mətnin tərkib hissələrini müəyyən etməyi, cümlələr və abzaslar arasında rabitə yaratmağı öyrənmişlər. Ona görə də müəllimin təqdim etdiyi mövzularda dialoq hazırlamaq çətin olmayacaq. Dərslikdə dialoq hazırlamaq üçün şagirdlərə adlar təklif olunmuşdur. Müəllim tərəfindən də adlar təklif edilə bilər.

1-ci addım. Şagirdlər 96-97-ci səhifələrdə verilmiş matreiallarla tanış olur, suallar cavablandırırlar. Şagirdlər dialoqu tərtib etmək üçün dərslikdə verilmiş planla tanış olurlar.

2-ci addım. Şagirdlər dialoq yazmağa sövq edilir. Tapşırıq fərdi qaydada icra edilir. Şagirdlərin tapşırığı lazımi səviyyədə icra etmələri üçün öncədən qiymətləndirmə meyarları ilə tanış edilməsi məqsədəmüvafiqdir. Şagirdlərə dialoqun yığcam və məzmunlu hazırlanması üçün istiqamət verilir.

3-cü addım. Şagirdlər dialoq hazırlayırlar. 25-30 dəq. vaxt verilir.

4-cü addım. Yazılar yoxlanmaq üçün toplanır. Nəticələr növbəti dərsdə elan olunur.

Qeyd. Əgər sinfin səviyyəsi tapşırığı bu şəkildə icra etməyə imkan vermirsə, müəllim bölməyə müvafiq mətn seçməklə, dərslikdəki tapşırıq nümunələrindən istifadə etməklə və onların analoqlarını hazırlamaqla KSQ-nin keçirilməsini təşkil edə bilər.

LAYİHƏ

III
BÖLMƏ

SAĞLAM VƏ TƏHLÜKƏSİZ GƏLƏCƏK

1. LAYİHƏ: “SAĞLAM VƏ TƏHLÜKƏSİZ GƏLƏCƏK”
2. YALAN
3. MƏTN
4. DİNAMİT
5. YOL
6. İKİ KƏND
7. BİZİM PLANET

1-ci dərs

Sağlam və təhlükəsiz gələcək

Standartlar: 2.1.1., 2.1.2.; 2.1.3.

Təlim nəticələri:

Nitqini qurarkən şəkilçiləri düzgün tələffüz edir.
Danışan zaman səs tonunu nitqinə uyğunlaşdırır.
Müzakirə zamanı müxtəlif fikirlərə münasibət bildirir.

İş forması: kollektiv, fərdi

İş üsulu: beyin həmləsi, sual-cavab, klaster

1-ci addım. Müəllim şagirdlərin diqqətini, ilk növbədə, layihənin adına cəlb edir. Daha sonra isə şagirdlərə suallarla müraciət edir: *Sizcə, "Sağlamlıq və təhlükəsizlik" dedikdə nəyi və ya hansı amilləri qeyd edə bilərik? Bu iki amil bir-birilə əlaqəlidirmi? Bunlardan biri olmasa nə baş verə bilər? Gələcəyimizin firavan olması üçün hansı addımları atmaq lazımdır?* Şagirdlərin fikirləri dinlənilir.



Şagirdlərə iş vərəqlərində şağıdakı nümunə verilə bilər, Yaxud üçbucaq lövhədə çəkilir, şagirdlərə istiqamətləndirici suallar verilir .

Şagird üçbucağın təpələrində *sağlam qidalanma, fiziki hərəkət, idmanla məşğul olmaq, ətraf aləmin təmizliyi* və s. cavablar verə bilərlər.

2-ci addım. Sonra müəllim şagirdlərə "Sağlamlıq üçbucağı" yaratmağı, bu üçbucağın təpələrində hansı vacib amillərin olmasını qeyd etməyi tapşırır. Bu tapşırıq həm cütlərlə, həm də qrup şəklində həyata keçirilə bilər. Tapşırığın yerinə yetirilməsi yazılı şəkildə reallaşdırıla bilər. Sonra şagirdlərin qeydləri dinlənilir və müzakirə təşkil edilərək ümumiləşdirilir.

Müəllimə kömək: Sağlamlığın təmin edilməsi, adətən, üç amilin – fiziki, əqli və sosial rifahın müxtəlif kombinasiyası şəklində həyata keçirilir və bunların hamısı birlikdə "sağlamlıq üçbucağı" adlanır. Fiziki sağlamlıq insanların sağlam bədənə malik olması deməkdir. Onu qorumaq üçün müntəzəm fiziki fəaliyyətlə məşğul olmaq (idman), düzgün qidalanmaq və normal istirahət etmək lazımdır. Əgər insanlar normal qidalanarsa, həyat səviyyələri artarsa, və keyfiyyətli səhiyyə xidməti ilə təmin olunarlarsa onların bədənləri fiziki cəhətdən sağlam olacaqdır. Əqli sağlamlıq insanların koqnitiv və emosional rifahı və əqli pozğunluqlarının olmaması anlamına gəlir. ÜST-ün tərifinə görə, əqli sağlamlıq "insanların öz bacarıqlarını dərk etməsi, həyatda baş verən streslərə müqavimət göstərməsi, məhsuldar olaraq fəaliyyət göstərməsi və öz cəmiyyətinə töhvə vermək bacarığının olması" kimi xarakterizə edilir. Sosial rifah insanların normal şəkildə yaşaması üçün tələb olunan şəraitin və vasitələrin lazımı şəkildə mövcud olmasıdır. Sosial ünsürlərə insanların yoxsulluq dərəcəsi, keyfiyyətli təhsil alması, səmərəli və təmiz ətraf mühitdə yaşaması və insanlarla münasibəti daxildir.

3-cü addım. Müəllim şagirlərin dərslikdəki bələdçi obrazlarının ünvanladığı sualların cavablandırılması, orada qeyd olunan şeir bəndlərinin ideyalarına münasibət bildirmələri üçün müzakirə təşkil edir. Şagirdlərin cavabları əsaslandırılmalı, nümunələr əsasında, real həyatla əlaqə-

LAYİHƏ

ləndirilməlidir. Səslənən cavablar lövhədə qeyd edilməli və ya nümunə cədvəl əsasında həyata keçirilməlidir.

Nümunə cədvəl

Sual	Cavab
Sağlam həyat nədir?	
Sağlam yaşamaq üçün nə etmək lazımdır?	
Təhlükəsizlik nədir?	
Təhlükəsizliyin təmin edilməsində rolum nədir?	
Sağlam və təhlükəsiz həyat üçün nə etməliyəm?	

4-cü addım. Lövhənin orta hissəsində klaster üsulundan istifadə edərək layihənin adı "Sağlam və təhlükəsiz gələcək"qeyd edilir və ətrafında *ailəmdə, məktəbimdə, yaşadığım yerdə, ölkəmdə, dünyamızda* sözləri yazılır. Hər sözün altında və ya yanında şagirdlərin ümumiləşdirilmiş cavabları qeyd edilir.

5-ci addım. Dərsin sonunda müzakirə olunan bütün fikirləri ümumiləşdirərək bu nəticəyə gəlinməlidir ki, insanların sağlam və təhlükəsiz həyat yaşaması üçün ən başlıca amillərdən biri insan bədəninin, əqlinin və yaşadığı mühitin sağlam olmasıdır. İnsan sağlamlığı heç bir başqa dəyərlərlə müqayisə edilməyən bir nemətdir. Bunun üçün onun təhlükəsizliyi, qorunması və saxlanılması tək fərdlər tərəfindən deyil, hökumət, müxtəlif təşkilatlar və digər qurumlar tərəfindən də həyata keçirilir. Yaşadığımız cəmiyyətdə sağlamlığı təmin etmək üçün, ilk növbədə, özümüzdən və öz ətrafımızdan başlamalıyıq.

Sosial məsuliyyət hissi duymaq hər bir vətəndaşın borcudur. Biz üzərimizə düşən borcu indidən yerinə yetirməyə başlasaq, gələcəkdə daha səmərəli, təhlükəsiz və sağlam şəkildə yaşaya bilərik. Gələcək nəsil isə bizim düzgün davranışlarımıza baxmaqla dünyanı yaşamaq üçün daha sağlam və təhlükəsiz mühitlə təmin edəcəkdir.

6-cı addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

2-ci dərs Yalan

Standartlar: 1.1.2., 2.1.2., 2.1.3., 2.1.4.

Təlim nəticələri:

Dinlədiyi mətndə fakt və hadisələri seçir.
Uyğun səs tonundan istifadə edir.
Müzakirə zamanı fikirlərə münasibət bildirir.
Mövzuya uyğun olan nümunələrdən istifadə edir.

İş forması: kollektiv, fərdi

İş üsulu: klaster (anlayışın çıxarılması), sual-cavab, müzakirə

1-ci addım. Müəllim dərsə müxtəlif üsul, yaxud yanaşmalardan istifadə etməklə başlaya bilər.

1. "Yalançı çoban" mətninin oxusu ilə.
   Mətnin oxusundan sonra müəllim şagirdlərə *"Yalan nədir?", "Yalan hansı fəlakətlərə səbəb ola bilər?"* sualları ilə müraciət edə bilər.
2. Klaster və ya anlayışın çıxarılması üsulundan istifadə etməklə
3. "Ögey ana" filmindən müvafiq kadr (İsmayılın dərslərini oxumaması və atasına yalan danışması)
4. Dinləmə mətnindən istifadə etməklə
5. https://www.youtube.com/watch?v=Yuh7n-_7P-0, https://www.youtube.com/watch?v=mja-4Tc0Y0w linklərindən istifadə etməklə

"Yalançı çoban" mətninin oxusundan sonra oradakı obrazlar müzakirə olunur. Yalan danışmağın fəsadları haqqında şagirdlərin fikirləri dinlənilir. Şagirdlər mövzu ilə əlaqəli həyatda qarşılaşdıqları hadisələr haqqında da danışa bilərlər.

Yalançı çoban

Ucqar dağ kəndində bir çoban yaşayırdı. O, hər gün səhər kənd camaatının qoyun-quzusunu yığıb otarmağa aparırdı.

Bir gün çoban həmişəki kimi sürünü otarırdı. O, çox darıxırdı. Ətrafda kəlmə kəsməyə bir adam yox idi. Qoyunlarla da danışa bilmirdi. Axırda çoban qərara gəldi ki, kənd camaatı ilə zarafat etsin. Kəndin yaxınlığındakı təpənin üstünə çıxıb var gücü ilə qışqırdı:

– Ay camaat, köməyə gəlin! Sürüyə canavar girib!

Kəndlilər onun səsini eşitdilər. Kimisi əlinə yaba, kimisi də balta alıb otlağa tərəf qaçdı. Gəlib gördülər ki, canavar-zad yoxdur. Çoban çomağını əlinə alıb: "Aldatdım, aldatdım", – deyə-deyə oynamağa başladı.

Adamlar başlarını bulayıb narazı halda kəndə qayıtdılar.

Aradan bir neçə gün keçdi. Bir gün axşamüstü yenə təpənin başından çobanın səsi gəldi:

– Ay aman, imdad! Canavar qoyunu apardı!

Adamlar yenə də əllərinə keçəni götürüb təpənin o tayına qaçdılar. Çoban yenə gülə-gülə onları lağa qoydu.

LAYİHƏ

Bir müddət də keçdi. Günlərin bir günü çoban yenə qoyunları otarırdı. Birdən meşədən üç canavar çıxıb sürüyə hücum etdi. Başladılar əllərinə keçən qoyun-quzunu parçalamağa. Çoban gördü ki, canavarlarla bacarmayacaq. Kəndə tərəf qaçıb qışqırmağa başladı:

– Ay camaat, qoymayın! Canavar sürünü qırıb qurtardı!

Kənd camaatı həyət-bacada öz işi ilə məşğul idi. Adamlar səs gələn tərəfə baxdılar. Ancaq heç kim yerindən tərpənmədi. Onlar artıq çobana inanmırdılar. Beləcə, canavarlar sürünün axırına çıxdı.

2-ci addım. Dərslikdə verilmiş dinləmə mətni (“Məsuliyyət” (Şagird “Məsuliyyət hissi”, “Doğruluq” və s. adlandıra bilər.)) səsləndirilir. Mətni müəllim və ya şagirdlərdən biri səsləndirə bilər. Dinləmə mətnlərinin səsləndirilməsi zamanı intonasiya qaydalarına əməl olunmalıdır. Mətnin oxusundan sonra dərslikdə verilmiş suallar cavablandırılır.

Dinləmə mətni

Məktəbdə dərs qurtardı. Altıncı sinif şagirdləri kitablarını yığışdırıb evlərinə getdilər. Fikrətlə Rasim bir-birinə qoşulub şəhər bağının içi ilə evlərinə tərəf yollandılar. Fikrət evlərinin qapısına çatıb, ayrılmaq istəyəndə Rasim ona dedi:

– Fikrət, bu gün riyaziyyat kitabını mənə ver, tapşırığımı həll edib, axşam qaytararam.

Fikrət təəccüblə Rasimdən soruşdu:

– Sənin öz kitabın hanı?

Rasim Fikrətə bildirdi ki, kiçik bacısı kitabın üç vərəqini cırıb. Bu gün müəllimin verdiyi misallar həmin səhifələrdə idi.

Fikrət bir az duruxdu, sonra başını qaldırıb dedi:

– Axı mən də axşam misal həll edəcəyəm.

Rasim yoldaşını inandırdı ki, tapşırığı həll edən kimi kitabı gətirib ona çatdırar.

Fikrət daha bir söz demədi. O, çantasından kitabı çıxarıb Rasimə verdi və sağollaşıb həyətlərinə girdi.

Rasim evə gəlib nahar edəndən sonra riyaziyyat kitabını açdı və müəllimin tapşırdığı misalları həll etməyə başladı. Rasimin başı dərsə elə qarışmışdı ki, bayırda güclü yağış başladığından xəbər tutmadı. Birdən Rasim göy gurultusu eşidib pəncərənin qabağına gəldi və həyətə baxdı. Çöldə elə bil böyük bir çay axırdı.

Yağış axşama kimi kəsmədi. Rasimin kefi pozulmuşdu. O, Fikrətin yanında yalançı olmaq istəmirdi. Rasim plaşını geyinib kitabı götürdü və nənəsinə dedi:

– Nənəcan, mən bu saat qayıdıram.

Nənəsi məəttəl qaldı:

– Ay bala, bu yağışda hara gedirsən?

– Yoldaşımın kitabını qaytarmalıyam.

Nənəsi qapını örtdü və onu buraxmaq istəmədi.

– Sən nə danışırsan? Bu tufanda hara gedirsən? Otur evdə, yoldaşına kitabı sabah apararsan.

Rasim nənəsinə dedi:

– Yox, nənəcan, söz vermişəm, gərək kitabı mütləq ona çatdıram.

Rasim küçəyə çıxdı. Şiddətli yağış yağıdı. O, suyun içi ilə qaçmağa başladı. Rasim Fikrətgilə çatanda təpədən dırnağa qədər islanmışdı.

Dərslikdə verilmiş dinləmə mətninə aid olan sualların cavabları:

1. Mətnin adını şagird “Məsuliyyət hissi”, “Doğruluq” və s. adlandıra bilər. Müxtəlif fikirlər səsləndirilə bilər.

LAYİHƏ

2. Fikrət: məsuliyyətli, əliaçıq, dostcanlı, qayğıkeş və s.
Rasim: məsuliyyətli, dürüst, qorxmaz, cəsarətli və s.
3. Şagirdlərin fikirləri müxtəlif ola bilər. Cavablar əsaslandırılmış olmalıdır.
4. Ev tapşırığını hazırlaya bilməzdi, narahatlıq keçirərdi, inamsızlıq yaranardı, dostluq əlaqələri pozulardı və s. kimi cavablar səsləndirilə bilər.
5. C)
6. D)
7. Xahiş edirəm, zəhmət olmasa, təşəkkür edirəm, çox sağ ol və s.
8. İnsanın dost, yoldaş və cəmiyyət qarşısında məsuliyyət hissini dərk etməsi.
9. C)
10. Şagirdlər sonluğu səsləndirməkdə sərbəstdirlər. Fikirlər əsaslandırılmış olmalıdır.

3-cü addım. Müəllim "Yalançı çoban" və "Məsuliyyət" mətnlərinin obrazların müqayisəsinin müzakirəsini təşkil edir. Lövhədə aşağıdakı cədvəli çəkərək şagirdlərin fikirlərini qeyd edə bilər.

Obrazın adı	Müsbət cəhəti	Mənfi cəhəti	Mənim münasibətim
Çoban			
Kənd camaatı			
Fikrət			
Rüstəm			
Nənə			

Müəllim bu tapşırığı fərdi və ya cütlərlə həyata keçirə bilər. Tapşırıq tamamlanandan sonra ümumiləşdirilir. Əgər müəllim "Yalançı çoban" mətnindən istifadə edərsə, aşağıdakı iş vərəqindən istifadə edə bilər.

Obrazın adı	Müsbət cəhəti	Mənfi cəhəti	Mənim münasibətim
Çoban			
Kənd camaatı			

3-cü addım. Şagirdlər dərsliyin 100-cü səhifəsində verilmiş "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tanış olurlar.

4-cü addım. Dərslikdəki "Yalan" mətninin oxusu təşkil edilir. Oxunu təşkil etmək üçün proqnozlaşdırılmış, fasiləli və suallar verməklə oxu üsullarından istifadə etmək olar. Oxu zamanı intonasiya və səs tonu diqqətdə saxlanılır. Mətn dərslikdə verilmiş suallara qədər oxunur. Daha sonra sualların müzakirəsi təşkil edilir: *Sizcə, hadisələr necə davam edəcək?, Aydın nənəsinə kömək edə biləcəkmi?, Nənəyə başqa kim yardım edə bilər?, Sizcə, Aydın nə edəcək?, Belə hadisə ilə qarşılaşsa idiniz, siz nə edərdiniz?, İlk olaraq, hansı addımı atardınız?* Şagirdlərin fikirləri dinlənilir. Yanğın təhlükəsizliyinə aid qaydalar xatırladılır və müzakirə olunur.

Sonra mətnin müəyyən hissəsində (Əgər o, qızıb partlasa idi, ...) müəllim oxunu dayandırır və şagirdlərə suallar müraciət edir: *Sizcə, nə baş verə bilər? Şagirdlər fərziyələrini söyləyirlər. Fikirlər müzakirə edilmir, yalnız lövhədə qeydlər aparıla bilər.*

LAYİHƏ

Mətnin oxusu sona kimi təşkil edilir və şagirdlərin əvvəl söylədikləri fikirlərin uyğunluğu müzakirə edilir. *Müəllim Sizcə, nənə nə üçün özünü danlayırdı?, Sizin fikrinizcə, əsil günahkar kimdir?, Niyə belə düşünürsünüz?* kimi suallarla müraciət edir və müzakirə təşkil olunur. Şagirdlər fikirlərini əsaslandırmalıdırlar. Şagirdlərə "*Sizcə, Aydın qanunun hansı maddəsini pozmuşdur?"* sualı ilə müraciət edilir.

5-ci addım. Hər üç mətnin məzmunu ilə bağlı aparılan müzakirədən sonra müəllim şagirdlərə aşağıdakı sxemi tamamlamağı tapşıra bilər.

Yalan və onun fəsadları	
"Yalançı" çoban mətnində	"Yalan" mətnində

6-cı addım. Şagirdlərin cavabları müzakirə edilir, ümumiləşdirilir və bu nəticəyə gəlinir ki, yalan hər bir halda fəlakət törədir, hətta insanlar arasında münasibətlərin pozulmasına səbəb olur.

7-ci addım. Dərsliyin 105-ci səhifəsində verilmiş şəkil əsasında mətn tərtib etmək ev tapşırığı kimi verilir. 23-cü tapşırığın da evə verilməsi məqsədəmüvafiqdir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun olaraq dərs boyu aparılır.

LAYİHƏ

3-cü dərs Yalan

Standartlar: 2.1.3., 3.1.1., 4.1.3.

Təlim nəticələri:

Müzakirə zamanı fikirlərə münasibət bildirir.
Əsas və köməkçi nitq hissələrinin qrammatik mənasını izah edir.
Nitq hissələri və durğu işarələrindən düzgün istifadə edir.

İş forması: kollektiv, fərdi

İş üsulu: proqnozlaşdırılmış və ya fasiləli oxu, müzakirə, müəllimin mühazirəsi

1-ci addım. Müəllim şagirdlərin diqqətini mətnin adına yönəldərək soruşur: *Sizcə, mətnin başlığı mətndə danışılacaq hadisə haqqında məlumat verə bilirmi?, Başlıqdan nə anlaya bildiniz?* Müəllim dərsə "Yalan" mətninin məzmununu soruşmaqla başlaya bilər. Hadisələr xatırladılır, məzmuna müvafiq suallar verilir.

Daha sonra diqqət mətndəki şəklə cəlb edilir. Şagirdlərin fikirləri dinlənilir.

2-ci addım. Müəllim 1 və 2-ci tapşırıqlar üzərində iş aparır. Bu tapşırıqlar kollektiv şəkildə icra edilə bilər. Şagirdlər səsləndirdikləri cavablara uyğun olaraq mətndən həmin fikri təsdiq edən cümləni də səsləndirmələri məqsədəuyğundur. Müəllim 3, 4, 5, 6 və 7-ci tapşırıqların yerinə yetirilməsi üçün cütlər və ya kiçik qruplar iş formalarından istifadə edə bilər.

Bəzi tapşırıqların cavabları:

4. C)

5. D)

7. Rasim məsuliyyətli, diqqətli, qorxmaz, dostluqla sədaqətli bir oğlandır. və s.

Aydın unutqan, məsuliyyətsiz, yalançı, tənbəl bir oğlandır. və s.

3-cü addım. Dərslikdə (səh. 105) bələdçinin səsləndirdiyi suallara şagirdlərin münasibəti soruşulur. Bu dərsdə psixoloqun iştirakı da vacibdir. Bu tapşırığın verilməsində məqsəd şagirdləri yalan danışmaqdan çəkindirməkdir.

4-cü addım. Daha sonra 8, 9, 10, 11, 12, 13-cü tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar şifahi olaraq həyata keçirilə bilər. Şagirdlərin fikirləri dinlənilir və ümumiləşdirilir. Səhvlər üzərində iş aparılır. Bu tapşırıqlar müəllimin seçimi əsasında fərdlər və ya cütlər şəklində aparıla bilər.

5-ci addım. 14, 16-cı tapşırıqlar üzərində iş aparılır. Bu tapşırıqlar şagirdlərin əvvəlki illərdə öyrəndikləri qrammatik qaydaların təkrarlanması üçündür. Şagirdlər əsas nitq hissələri və onların xüsusiyyətlərini bir daha xatırlayır və praktik əhəmiyyətini yada salırlar.

6-cı addım. 17-ci tapşırıq icra edilir. Bu tapşırıq köməkçi nitq hissələrinin öyrədilməsi üçün motivasiya xarakterlidir. Tapşırığın icrasından sonra köməkçi nitq hissələri şagirdlərə izah edilir.

7-ci addım. 18 və 21-ci tapşırıqlar üzərində iş aparılır.

8-ci addım. 22-ci tapşırıq evə verilir və qiymətləndirmə aparılır.

LAYİHƏ

4-cü dərs

Mətn

Standartlar: 2.1.3., 2.1.4., 3.1.2., 4.1.3.

Təlim nəticələri:

Müzakirə zamanı fikirlərə münasibət bildirir.
Mətnin hissələrini müəyyənləşdirir.
Oxu zamanı səs tonundan, tempdən və fasilədən düzgün istifadə edir.
Əsas və köməkçi nitq hissələrindən düzgün istifadə edir.

İş forması: kollektiv, fərdi, kiçik qrup

İş üsulu: klaster, müzakirəli oxu, sorğu-sual

1-ci addım. Müəllim dərsə ev tapşırığının yoxlanılması ilə başlaya bilər. Ev tapşırığı seçmə yolla aparıla bilər. Şagirdlərin fikirləri dinlənilir və ümumiləşdirilir. Daha sonra müəllim lövhədə *xeyirxahlıq* ifadəsini yazır və klaster üsulundan istifadə edərək şagirdlərin fikirlərini həmin sözün ətrafında qeyd edir. Sonra müəllim *Sizcə, xeyirxahlıq nədir?, Xeyirxahlıq etmisinizmi?,* Nə üçün yaxşı işlər görmək *lazımdır?, Yaxşılıq etmək, xeyirxah olmaq insana nə verə bilər?, Nə zamansa etdiyiniz xeyirxahlıq sizə geri qayıdıbmı?* sualları ilə şagirdlərə müraciət edir. Şagirdlərə sualların yazıldığı iş vərəqləri də verilə bilər. Şagirdlərin cavabları dinlənilir.

2-ci addım. Dərslikdəki mətnin oxusu təşkil edilir. Oxu zamanı orfoqrafiya və orfoepiya tapşırıqları və vurğu diqqətdə saxlanılır, səhvlər üzərində iş aparılır. Oxu bitdikdən sonra mətn üçün ad müəyyənləşdirilir. Mətnə "Xeyirxahlıq", "Namlum xeyirxah", "Xeyirxah" kimi adlar verilə bilər. Mətnin başlığı ideyasına uyğun olmalıdır. Şagirdlərin yol verdiyi səhvlər üzərində iş aparılır. Oxu zamanı 2-ci, oxudan sonra 1-ci tapşırığın icrası məqsədəmüvafiqdir

Mətnin oxusundan sonra bələdçi obrazın şagirdlərə ünvanlanan sualları əsasında müzakirə təşkil edilir.

Sizcə,
xeyirxahlıq nədir?

Xeyirxahlıq etmisinizmi?

Nə üçün yaxşı işlər görmək lazımdır?

Nə zamansa etdiyiniz xeyirxahlıq sizə geri qayıdıbmı?

Fikirlərinizi bölüşmək istərdinizmi?



LAYİHƏ

3-cü addım. Daha sonra dərslikdə verilmiş 3,5 və 6-cı tapşırıqlar yerinə yetirilir. 4-cü tapşırığı isə şagirdlər ya şifahi, ya da rəsm çəkərək reallaşdıra bilərlər. Bu tapşırıqlar kiçik qruplar formasında da həyata keçirilə bilər. Şagirdlərin cavabları dinlənilir, müzakirələr təşkil edilir. Səslənən fikirlər əsaslandırılmış olmalıdır.

4-cü addım. Yuxarıdakı tapşırıqların müzakirəsindən sonra 7, 8, 9 və 10-cu tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar şifahi şəkildə həyata keçirilir. Daha sonra 11-ci tapşırıq yazılı formada reallaşdırılır. Bu tapşırıq fərdi olaraq həll edilir. Seçmə yolla tapşırıqlar yoxlanılır və səhvlər üzərində iş aparılır.

11-ci tapşırığın icrası dərketmə səviyyəsi yüksək olan şagirdlər üçün nəzərdə tutulmuşdur.

5-ci addım. Dərslikdə verilmiş 12, 13, 14, 15, 16 və 17-ci çalışmalar kollektiv formada şifahi olaraq həyata keçirilir. Şagirdlər fikirlərini səsləndirərkən əsaslandırmalı, mətnə istinad etməlidirlər. Bəzi tapşırıqların cavabları:

12. səhv söz – qardaşlar
    uyğun söz – onlar, uşaqlar
14. suqabı
15. meşəbəyi

6-cı addım. Səh. 113-də verilmiş 18-ci tapşırıq yazılı şəkildə yerinə yetirilir. 19-cu tapşırıq evə verilir.

7-ci addım. Dərs boyu səslənən fikirlərin, həyata keçirilən tapşırıqların müzakirələrinin ümumiləşdirilməsindən sonra bu nəticəyə gəlinməlidir ki, xeyirxahlıq bir dəyərdir. Xeyirxahlıq digərinə hörmətimizi, qayğımızı, sevgimizi, diqqətimizi göstərə biləcəyimiz bir yoldur. Xeyirxahlıq gündəlik fəaliyyətimizdə əks olunmalı və əməllərimizdə əks olunmalıdır. İnsanlara, cəmiyyətə, təbiətə qarşı xeyirxah olmalı, hər zaman əlimizdən gələn yaxşılıqları etməliyik. Çünki xeyirxahlıq, yaxşılıq heç vaxt unudulmur. Xeyirxah iş, xeyirxah əməl insanı daim ucaldır, onu yaşadığı cəmiyyətin ən ləyaqətli üzvünə çevirir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə əsasən aparılır.

5-ci dərs Dinamit

Standartlar: 2.1.2., 2.1.3., 3.1.3.

Təlim nəticələri:

Nitqində uyğun səs tonundan istifadə edir.
Müzakirə zamanı fikirlərə münasibət bildirir.
Mətnin abzasları arasında əlaqələri müəyyənləşdirir.

İş forması: kollektiv, fərdi, cütlərlə

İş üsulu: proqnozlaşdırılmış oxu, ikihissəli gündəlik, diskussiya

LAYİHƏ

1-ci addım. Müəllim dərsə aşağıdakı linklərdən istifadə edərək şagirdlərə iki filmdən fraqmentlər göstərməklə başlaya bilər. Müvafiq fraqmentlər göstərildikdən sonra həmin epizodlardakı hadisələr müzakirə olunur.

https://www.youtube.com/watch?v=zXDobgrMdqo – (57-ci dəqiqədən 60-cı dəqiqəyə qədər) "Uzaq sahillərdə "

https://www.youtube.com/watch?v=dlLIs5JGa9c – (1:03 dəqiqədən 1:06-cı dəqiqəyə qədər və 1:16-cı dəqiqələr) "Ögey ana"

Şagirdlər filmlərə baxdıqdan sonra fikir mübadiləsi aparırlar. Flimlər arasındakı oxşar və fərqli cəhətlər müəyyənləşdirilir. Müqayisə üçün Venn diaqramından istifadə etmək olar. Müəllim mövzu ilə bağlı başqa məlumatlardan da istifadə edə bilər.

2-ci addım. Müəllim şagirdlərə suallarla müraciət edir: "*Sizcə, dinamit nədir?*", "*Dinamit hansı məqsədlərlə istifadə oluna bilər?*", "*Dinamitin hansı fəsadları ola bilər?*", "*Sizcə, hər bir ixtiranın mənfi və müsbət nəticələri ola bilər?*", "*Yeni ixtiralar cəmiyyətin inkişafına necə təsir edir?*" Suallar ətrafında müzakirələr təşkil olunur və şagirdlərin cavabları ümumiləşdirilir.

3-cü addım. Sonra dərslikdəki "Dinamit" mətnin ifadəli və düzgün oxusu təşkil edilir. Orfoqrafiya, orfoepiya və vurğuya diqqət yetirilir. Müəllim sinfin səviyyəsini nəzərə alaraq oxu strateqiyasını seçməkdə sərbəstdir.

4-cü addım. Mətnin oxusu zamanı 1-ci tapşırıqdakı qeydlər nəzərə alınmalı və həyata keçirilməlidir. Tapşırıqla bağlı şagirdlərin fikirləri dinlənilir və səhvlər üzərində iş aparılır.

Qeyd: Müəllim qurduğu dərsdən asılı olaraq 1-ci tapşırığı mətnin oxusundan əvvəl və ya sonra icra edə bilər. Abzasların ardıcıllığı: 3, 1, 4, 2, 5

5-ci addım. Sonra ikihissəli gündəlik üsulundan istifadə edilərək mətn üzərində iş aparılır. Bu proses fərdi və ya cütlərlə həyata keçirilə bilər. Şagirdlər cədvəl əsasında qeydlərini aparırlar.

Mətndə bəyəndiyim / bəyənmədiyim hadisə	**Bəyənməyimin / bəyənməməyimin səbəbi**

6-cı addım. Daha sonra dərslikdə verilmiş 2-4, 6-cı tapşırıqlar üzərində iş aparılır. 2-4-cü tapşırıqlar kollektiv, 6-cı tapşırıq isə şagirdlərin fərdi qaydada fikirlərini bildirməsilə həyata keçirilir. Tapşırıqlar əsasında müzakirə təşkil edilir və şagirdlərin fikirləri dinlənilir.

5-ci tapşırıq xüsusi müzakirə tələb edir. Çünki şagirdlər burada Nobeli həm insan, həm alim, həm də dağıntılara səbəb olan bir insan kimi qiymətləndirəcəklər. Bu tapşırığı icra edərkən şagirdlərin fikirlərini dinləmək, onlara aşılamaq lazımdır ki, insan və onun yaraqtdığı hər bir şey özü ilə yanaşı cəmiyyətin də rifahına xidmət etməlidir. Ola bilər ki, şagirdlərdə fərqli fikirlər olsun. Lakin müəllim əsaslandırılmış fikirlərlə şagirdlərini düzgün istiqamətləndirməlidir.

İnkişafını dəyişdirməklə yanaşı, həm də cəmiyyətin inkişafını və tərəqqisini təmin etmişdir. Lakin bu kəşf və ixtiralardan insanlar yalnız xeyirxah məqsədlərlə istifadə etməlidirlər. Şagirdlər fikirlərini mətndən və ya həyatdan nümunələr göstərməklə əsaslandırılmış şəkildə ifadə etməlidirlər.

7-ci addım. Dərsin ümumiləşdirilməsi aparılaraq belə bir nəticə əldə olunur ki, kəşflər və ixtiralar həyatın gedişatını dəyişdirməklə yanaşı, cəmiyyətin inkişafını, tərəqqisini təmin edir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

6-cı dərs Dinamit

Standartlar: 4.1.1., 4.1.2.

Təlim nəticələri:

Nümunələrdən istifadə edərək fikirlərini əsaslandırır.

Cümlələr arasında əlaqələri gözləməklə kiçikhəcmli inşa yazır.

İş forması: kollektiv, fərdi, cütlərlə

İş üsulu: müzakirə, sorğu-sual, yazı

1-ci addım. Müəllim seçmə yolla ev tapşırığını yoxlaya və ümumiləşmə aparmaqla dərsə başlaya bilər. Daha sonra dərslikdə verilmiş 7-ci tapşırığın yerinə yetirilməsi şagirdlərə tapşırılır. Verilmiş sxem ətrafında müzakirə təşkil olunur, tapşırıq icra edilir və şagirdlərin fikirləri dinlənilir.

7-ci tapşırığın cavabı:

1. Müxtəlif elm sahələrində yenilik edən adamlar üçün
2. bəşəriyyətə xeyir verən insanlar üçün
3. sülhü təbliğ edən adamlar üçün
5. ədəbiyyat sahəsində yeniliklərə imza atan şəxslər üçün

2-ci addım. Müəllim dərslikdə verilmiş 8 və 9-cu tapşırıqları şifahi olaraq cavablandırılmasını təşkil edir.

Cavablar:

8. D) 9. a2 b1 c3

3-cü addım. Daha sonra 11,12,13 və 14-cü tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar həm şifahi, həm də yazılı olaraq həyata keçirilə bilər. Seçmə yolla cavablar yoxlanılır və səhvlər üzərində iş aparılır.

Cavablar:

11. ittifaq – 1. ayrı-ayrı şəxslərin, qrupların, cəmiyyətin və s. birləşməsi; 2. Birlikdə hərəkət etmək;

ittiham – birinə qarşı irəli sürülən günah, təqsir

12. fond – yaradıcı xadimlərə maddi yardım göstərən təşkilat, idarə
13. təsis etmək – əsasını, təməlini qoyma

təyin etmək – 1. müəyyən etmək; 2. vəzifə tapşırmaq

tətbiq etmək – həyata keçirmək

14. irəli sürmək – 1. Anar mövzu ilə bağlı fikrini irəli sürdü. 2. Tankçı düşməni məhv etmək üçün tankı xeyli irəli sürdü.

4-cü addım. Müəllim kiçikhəcmli inşa yazmaq üçün şagirdlərə dərslikdəki mövzunu və planı təqdim edir. Plan əsasında şagirdlər inşa yazını həyata keçirirlər. Bu tapşırığın həlli üçün 20 dəqiqə kifayət edər.

5-ci addım. Daha sonra seçmə yolla yazılan inşalar səsləndirilir, üst-üstə düşən, fərqli fikirlər müzakirə edilir və ümumiləşdirilir.

LAYİHƏ

6-cı addım. Daha sonra dərslikdə bələdçinin verdiyi suallar şifahi olaraq cavablandırılır. Cavablar müzakirə edilir. Dərsin sonunda bu nəticəyə gəlinməlidir ki: İxtira etməyi yalnız nə sənət, nə də elm kimi başa düşmək lazımdır. Bu əqli əmək olub, müəyyən problemi aşkar edib onun həllinin göstərilməsindən ibarətdir. Hər bir insan ixtiraçı ola bilər. Burada ideyaya malik olub, onu həyata keçirmək iradəsinə sahib olmaq lazımdır. Əsas məqam olur ki, ixtiralar dövlətə, cəmiyyətə, dünyaya xeyir verməli, inkişafı təmin etməli, müsbət nəticələrin olmasına gətirib çıxarmalıdır.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

7-ci dərs Yol

Standartlar: 1.1.2., 2.1.3., 3.1.1.

Təlim nəticələri:

Fakt və hadisələri müəyyənləşdirir.
Müzakirə zamanı fikirlərə münasibət bildirir.
Əsas və köməkçi nitq hissələrini izah edir.

İş forması: kollektiv, fərdi, cütlərlə

İş üsulu: proqnozlaşdırılmış oxu, müzakirə

1-ci addım. Müəllim dərsə müxtəlif üsullardan istifadə etməklə başlaya bilər.

1. Yolun çəkilməsi ilə bağlı hər hansı bir sənədli film nümayiş etdirə bilər, müvafiq suallar (*"Yol nədir?", "Yol mədəniyyət hesab edilə bilərmi? Fikrinizi necə əsaslandırarsınız?"* və s.) verməklə mətnin oxusunu təşkil edə bilər.

2. "Ögey ana" filmindən atanın yol çəkilməsi ilə bağlı oğlu İsmayıla verdiyi izahatın olduğu kadrlar nümayiş etdirməklə şagirdlərə müvafiq suallar verməklə dərsi təşkil edə bilər.

3. Sinkveyn üsulundan istifadə etməklə

Obyekt	**Obyektin əlamə-tini bildirən iki söz**	**Obyektə uyğun feil (3-4)**	**Obyekt haqqında bir cümlə (ob-yektə münasibəti ifadə edən cümlə)**	**Obyekti ümumiləş-dirən fikir (isim)**
Yol	Geniş, rahat	Çəkilir, uzadılır, asfaltlanır. və s.	Yol rahatlıq və mədəniyyətdir.	Gediş-gəliş və nəqliyyatın işləməsi üçün zolaq şəkilli yer

4. Karusel üsulundan istifadə etməklə (sinfin səviyyəsi imkan verirsə) *"Yol nədir?", "Yol nə üçün çəkilr?", "Yol nə üçün mədəniyyət hesab edilir?", "Yol harada çəkilir?", "Yol haradan çəkilir?"* və s. suallardan istifadə edə bilər.

5. Klaster və ya anlayışın çıxarılması üsullarından uyğun olanından istfadə etməklə

LAYİHƏ

6. Necə düşünürsünüz, yol insanların iradəsini və daxili aləminin təmizliyini, alicənablığını yoxlamaq üçün bir vasitə ola bilərmi? sualından istifadə etməklə

7. Birbaşa "Yol" mətninin oxusunu təşkil etmək üçün proqnozlaşdırılmış oxudan istifadə etməklə.

2-ci addım. Seçdiyi üsuldan asılı olaraq müəəlim dərsini sinfinin səviyyəsinə uyğun qura bilər. Dərslikdə verilmiş *"Sizcə, mətndə nədən danışılacaq?", "Yol dedikdə ilk anda nə düşünürsünüz?"* sualları ilə şagirdlərə müraciət edilir, cavablar dinlənilir və müzakirə edilmir. Şagirdlər fikirlərini qeyd edə də bilər.

3-cü addım. Mətnin oxusu təşkil edilir. Oxu üçün rollu oxu üsulundan istifadə etmək tövsiyə olunur. Mətnin oxusundan sonra şagirdlərə 119-cu səhifədə verilmiş *"Fikirləriniz düzgün oldumu?, Hansı hadisə sizin üçün yeni oldu?,* Mətnin *"Yol" adlandırılması ilə razısınızmı?"* sualları ilə şagirdlərə müraciət edilir. Oxudan əvvəl və oxudan sonrakı fikirlər tutuşdurulur.

4-cü addım. Dərslikdə QR kodda verilmiş filmdən bir hissə nümayiş etdirilir, video əsasında suallar cavablandırılır və müzakirə edilir.

5-ci addım. Mətnin məzmunu üzərində iş aparmaq və müzakirələri yekunlaşdırmaq üçün 1-6-cı tapşırıqlar üzərində iş aparılır. Tapşırıqlar müəllimin seçimi və qurduğu dərsdən asılı olaraq müxtəlif formalardan uyğun olanı seçilməklə aparılır.

6-cı addım. Müəllim əsərin ideyasının, əsas fikrinin müəyyənləşdirməsi üçün aşağıda nümunə kimi verilmiş iş vərəqini şagirdlərə təqdim edə bilər.

"Yol" mətni	
Əsərdə əsas fikir	Əsas fikrin açılmasına xidmət edən hadisə, söz, cümlə və s.

7-ci addım. 7-ci tapşırıq üzərində iş aparılır. "Yol" mətni ilə 118-ci səhifədə verilmiş (şərti olaraq "Xeyirxahlıq" adlandıraq) mətnin məzmun baxımından müqayisəsi aparılır.

8-ci addım. Şagirdlərin dərs boyu səsləndirdikləri fikirlər ümumiləşdirilir və bu nəticəyə gəlinir ki, hər bir xalqın mədəniyyəti yoldan başlayır. Yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, inkişaf etdirilməsi dövlətin qarşısında duran vacib məsələlərdən biridir və bu istiqamətdə də işlər aparılır. Gözəl yollar insanların həyatını asanlaşdırır. Elə yollar da vardır ki, hər bir insan özü yaradır. Bu yollar yaxşılıq etməklə, mərhəmət, qayğı göstərməklə, özündən sonra gələnlər üçün firavan həyat yaratmaqla salınır.

9-cu addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

8-ci dərs

Yol

Standartlar: 2.1.3., 3.1.1., 4.1.2.

Təlim nəticələri:

Müzakirə zamanı fikirlərə münasibət bildirir.
Əsas nitq hissələrini fərqləndirir.
Esse yazır.

İş forması: kollektiv, fərdi, cütlərlə

İş üsulu: müzakirə, sual-cavab, yazı

1-ci addım. Dərs 121-ci səhifədə verilmiş "Yoldan ən gözəl keçən ... insandır" fikrinin müzakirəsi ilə başlanır. Prezidentin rəhbərliyi altında Qarabağda gedən quruculuq işlərindən, ilk növbədə, yol çəkilməsindən başlaması ilə bağlı fəaliyyəti haqqında danışılır.

https://www.youtube.com/watch?v=VB3rM1uDJLA, https://www.youtube.com/watch?v=vsDKkKg59xQ https://www.youtube.com/watch?v=mi2-EAVnL4g linklərindən istifadə etmək olar.

Müzakirələr yekunlaşdırılır və fikirlər ümumiləşdirilir.

2-ci addım. Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 8-10-cu tapşırıqlar üzərində iş aparılır. Lüğət üzərində iş və mövzu ilə bağlı şifahi müzakirələr dolğun aparılmalıdır ki, şagirdlər 18-ci tapşırığı ("Vətənpərvər prezidentim" mövzusunda inşa) icra etməkdə çətinlik çəkməsinlər.

3-cü addım. 11-13-cü tapşırıqlar üzərində iş aparılır. 13-cü tapşırıq qoşmaların öyrədilməsi üçün motivasiya xarakterlidir. Tapşırıqların kollektivlə yerinə yetirilməsi məqsədəmüvafiqdir.

4-cü addım. Qoşmalar haqqında şagirdlərə izahat verilir, nümunələrlə əsaslandırır. 14-15-ci tapşırıqlar üzərində iş aparılır.

5-ci addım. Şagird qoşmanın nə olduğunu tam anlayandan sonra onların yazılış qaydası haqqında izahat verilir. 16-17-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların yazılı şəkildə icrası məqsədəmüvafiqdir.

6-cı addım. 18-ci tapşırıq evə verilir. Tapşırığı yerinə yetirmək üçün dərslikdə verilmiş təlimat və istiqamət şagirdlərin diqqətinə çatdırılır.

Evə mövzu ilə bağlı təqdimat, buklet hazırlamaq, bacarığı olan varsa, videosüjet də hazırlamaq tapşırıla bilər.

Qeyd: Müəllim 18-ci tapşrığı sinifdə də icra etdirə bilər. Bunun üçün hər hansı 2 mövzunu birləşdirib bir saatda tədris etməklə inşanın yazdırılmasına ayrıca saat müəyyən edə bilər.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

9-cu dərs

Kiçik Summativ Qiymətləndirmə

Darçın ağacı həmişəyaşıl xoşqoxulu bitki növüdür. Darçının vətəni Cənubi və Cənub-Şərqi Asiyadır. O bəşəriyyət tarixində istifadə edilən ən qədim ədviyyatlardan biridir. Onun miladdan 3000 il əvvəl çinlilər təfindən istifadə edildiyi məlumdur. Hazırda darçının 4 ən məşhur növü vardır. Bunlar Seylon, Çin, Malabar və Sinnamon darçın ağaclarıdır. Bu darçınlar içərisində Seylon darçını daha qiymətlidir.

Darçın demək olar ki, bütün ədviyyatlar içərisində ən güclü antioksidantdır. Onun qabığı və ya tozu kalium, kalsium, maqnezium, lif və dəmirlə çox zəngindir. Tərkibindəki efir yağları həmçinin mikrob əleyhinə təsirə malikdir.

Darçın ədviyyat şəklində olduğu kimi təbabətdə də məşhurdur. Onun həm tozundan, həm qurudulmuş çubuğundan, həm də efir yağından çox istifadə edilir. O soyuqdəymənin aradan qaldırılmasına, şəkərin sorulmasına, qanda xalesterinin aşağı salınmasına, həzm sisteminin yaxşılaşmasına, qara ciyərin, böyrəyin və öd kisəsinin işinin stimullaşmasına, sinir sisteminin güclənməsinə, əhvali-ruhiyyənin yüksəlməsinə müsbət təsir göstərir.

Darçın və balın qarışığı bir çox xəstəliyi sağaldan çox qiymətli müalicəvi vasitədir. Hələ qədim zamanlarda həkimlər əsas müalicə məqsədilə balın içərisinə darçın əlavə edib yüksək təsirə malik dərmanlar hazırlayırdılar. Bu dərmanlar ürək-damar xəstəliklərində, orqanizmdəki yaşlanma ilə bağlı dəyişiklərin rahatlıqla keçirilməsində yardım edirdi.

Xoş ətri olan darçın kulinariyada da əvəzsiz rol oynayır. Belə ki ədviyyat və ya ətirverici kimi desertlərin, şokoladların, qənd və bir çox yeməyin bişirilməsində istifadə olunur.

1. Mətn vasitəsilə çatdırılan əsas fikri yazın.

_____

_____

2. Mətnin ideyasına uyğun atalar sözü yazın.

_____

_____

3. Mətnə əsasən hansı suala cavab tapmaq olmaz?

A) Darçın ağacı müalicəvi təsirə malikdir.
B) Ədviyyat olaraq darçın çox ətirlidir.
C) Darçının müxtəlif növləri var.
D) Darçının qiyməti qızıl qiymətinə bərabərdir.
E) Darçın ağacı həmişəyaşıl bitki növüdür.

4. Darçın bitkisinin hansı xəstəliklərə müsbət təsiri vardır?

_____

_____

LAYİHƏ

5. Mətnlə bağlı fikirlərdən biri səhvdir:
A) Mətndə bitkidən danışılır.
B) Mətndə diqqət darçın bitkisinin faydalarına yönəldilir.
C) Mətndə əsas diqqət bitkinin qiymətinə yönəldilir.
D) Mətndə darçının qiymətli bitki olduğundan danışılır.
E) Darçın ağacı dünyanın hər bir yerində bitir.

6. Mətndə altından xətt çəkilmiş sözü hansı ifadə ilə əvəz etsək, cümlənin mənası dəyişməz?
A) keyfiyyətli B) dəyərli C) varlı
D) əhəmiyyətli E) effektli

7. Mətndə çərçivəyə alınmış hissədə işlənmiş sözləri aşağıdakı kimi qruplaşdırın.

Əsas nitq hissəsi	Köməkçi nitq hissəsi	Çünki

8. Kontekstə əsasən *yüksək* sözünün mənası hansı cümlədə doğrudur?
A) Kəndin yolu yüksək işıq dirəkləri ilə işıqlandırılmışdır.
B) Azər idman yarışlarında yüksək nəticə əldə etmişdir.
C) Şəhəri bir-birinin ardınca düzülmüş yüksək binalar bəzəyirdi.
D) Yüksəklikdə uçan qartal ovunu asanlıqla görür.
E) Qəhrəman əsgərlər Azərbaycan bayrağını yüksəklərə qaldırdı.

9. Mətndən köməkçi nitq hissələrini seçib yazın.
_____
_____

10. *Yağ* sözünü müxtəlif mənalarda cümlədə işlədin və hansı nitq hissəsinə aid olduğunu qeyd edin.

11. **Bəşəriyyət** sözünün düzgün tələffüzü hansıdır?
A) bəşəriyyət B) bəşəriyəd C) bəşəriyət
D) bəşəriyyəd

LAYİHƏ

12. Cədvəli mətnə əsasən tamamlayın.

Mətndə istifadə olunan fikir	Təsdiq edən cümlə
1. Qədim ədviyyat növü	Onun miladdan 3000 il əvvəl çinlilər təfindən istifadə edildiyi məlumdur.
2. Daha qiymətli növ	

13. Sözlərin yazılışına diqqət yetirin. Hansı səhvdir?
A) zəngin
B) mikrob
C) kulinariya
D) qara ciyər
E) böyrəy

14. Mətndən verilmiş sifətlərə uyğun isimləri seçib yazın.

xoşqoxulu _____

qədim _____

məşhur _____

15. Mətnin sonluğunu tamamlamaq üçün 2-3 cümlə yazın.

_____

_____

LAYİHƏ

10-cu dərs

İki kənd

Standartlar: 2.1.3., 3.1.2., 4.1.2.

Təlim nəticələri:

Müzakirə zamanı fikirlərə münasibət bildirir.
Səs tonunu və fasiləni gözləməklə mətni oxuyur.
Cümlələr və abzaslar arasındakı əlaqəni gözləməklə kiçik mətn yazır.

İş forması: kollektiv, fərdi

İş üsulu: proqnozlaşdırılmış oxu, müzakirə, yazı

1-ci addım. Müəllim Nizami Gəncəvinin kəlamı ilə dərsə başlaya bilər.

Bir olsa yoldaşın, dostun əməli,
Daşdan su çıxardar onların əli.
Nifaq olan yerdə fəlakət də var,
Səadət günəşi birlikdən doğar.

Sonra şagirdlərin diqqətini mövzunun adına yönəldir və suallarla müraciət edir: *Sizcə, Nizami Gəncəvinin aforizmi ilə mətnin başlığını əlaqələndirmək olarmı? Bu misralarda hansı fikirlər ifadə olunmuşdur? Sizcə, mətndə nədən danışılacaq? Dərslikdəki şəkil mətnin məzmunundan xəbər verirmi?* Şagirdlərin cavabları dinlənilir.

2-ci addım. Daha sonra mətnin oxusu intonasiya qaydalarına uyğun təşkil edilir. Mətnin orfoqrafiya və orfoepiyası üzərində iş müəllimin seçimindən asılı olaraq həm oxudan əvvəl, həm də oxu zamanı aparıla bilər.

3-cü addım. Mətnin oxusu bitdikdən sonra şagirdlərin oxudan əvvəl səsləndirdikləri fikirlər müzakirə və müqayisə edilir. Üst-üstə düşən fikirlər ümumiləşdirilir. Daha sonra bələdçi obrazının səsləndirdiyi sualın cavablandırılması həyata keçirilir. Şagirdlər mövzu ilə əlaqəli həyatda qarşılaşdıqları hadisəni də səsləndirərək fikirlərini əsaslandıra bilərlər.

4-cü addım. Dərslikdə verilmiş 1 və 2-ci tapşırıqların yerinə yetirilməsini həyata keçirilir. Verilmiş sxemə uyğun müzakirə təşkil edilir və şagirdlərin fikirləri dinlənilir. Sxem əsasında hər iki kəndin təhlili aparılır. Hər iki tapşırığın yerinə yetirilməsi istiqamətində fikir mübadiləsi aparılır.

5-ci addım. Daha sonra 3, 4 və 5-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar əsasında da müzakirə təşkil edilir və şagirdlərin cavabları dinlənilir. Səslənən fikirlərin əsaslandırılmış olmasına diqqət yetirilməlidir. Şagirdlərin cavabları ümumiləşdirilir. Ümumiləşdirmənin nəticəsi olaraq bu fikrə gəlinməlidir ki, əməkdaşlıqla, birlik və bərabərliklə, dostluqla, mehribanlıqla daha gözəl, xoşbəxt, firavan günlərin əldə olunmasına çalışmaq lazımdır.

6-cı addım. Müəllim şagirdlərə dərslikdə mövzu ilə əlaqəli verilmiş şəkli 10-15 cümlə ilə təsvir etmələrini və müvafiq abzasa əlavə etmələrini tapşırır. Bu tapşırıq yazılı şəkildə həyata keçirilir. Seçmə yolla tapşırığın yoxlanılması aparıla bilər.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

11-ci dərs

İki kənd

Standartlar: 1.1.2., 2.1.4., 3.1.3.

Təlim nəticələri:
Dinlədiyi mətndə fakt və hadisələri qruplaşdırır.
Mətnin hissələrinə uyğun müvafiq nümunələrdən istifadə edir.
Əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir.

İş forması: kollektiv, fərdi

İş üsulu: söz assosiasiyası, müzakirə, sual-cavab

1-ci addım. Müəllim lövhədə "tənhalıq" sözünü yazır və şagirdlərə suallarla müraciət edir: *Sizcə, tənhalıq dedikdə nə başa düşülür? Tənhalıq hansı səbəblərə görə yarana bilər? İnsanlar tənha qalarlarsa nə baş verə bilər? Hansı çətinliklərlə qarşılaşa bilərlər?* Şagirdlərin fikirləri lövhədə "tənhalıq" ifadəsinin ətrafında yazılır. Lakin hələ səslənən fikirlər müzakirə olunmur.

2-ci addım. Sonra dinləmə mətni səsləndirilir. Mətnin səsləndirilməsi müəllimin və ya hər hansı bir şagirdin vasitəsilə həyata keçirilə bilər. Təqdim olunan mətnlərin seçimində müəllim sərbəstdir.

Dinləmə mətni: 1.
Talada ayrı bitib qürrələnirdi söyüd:
– Mən hamıdan güclüyəm, dünyada nə dərdim var.
Hərdənbir də verirdi başqalarına öyüd:
– Yerə dərin kök vurun, sizi yıxar tufanlar.
Bu vaxt bərk külək əsdi, söyüdün səsin kəsdi.
Bütün qalan ağaclar baş-başa verdi bu vaxt,
Sınmadılar, amma ki söyüd məhv oldu bivaxt.

Dinləmə mətni 2:
Qamış olmamaq üçün başqa bitkilərə tay,
Boyunu uzadırdı qarış-qarış, ay ba ay.
Bir vədə baxıb gördü hamıdan yüksəkdədir,
Kiçicik külək belə onu tir-tir titrədir.
Bunu görüb keçirdi fikrindən bu hikməti: –
Cəmdən ayrı düşənin acı olar qisməti.

3-cü addım. Daha sonra müəllim şagirdlərə suallarla müraciət edir və cavabların əsaslandırılmış olaraq səsləndirilməsini xahiş edir.

LAYİHƏ

Sizcə, söyüd nə üçün məhv olur? Buradakı söyüd və digər ağacları insanlara bənzətsək, hansı nəticəyə gələrik? "Cəmiyyətdən ayrı düşən şəxs yaşaya bilməz" ifadəsi ilə razısınızmı? Niyə? Şagirdlərin fikirləri dinlənilir və ümumiləşdirilir.

4-cü addım. Müəllim söyüd ağacının yuxarı kənd ilə müqayisə edilməsini şagirdlərə tapşırır. Şagirdlər müqayisəni apararaq bu nəticəyə gəlməlidirlər ki, hər iki situasiyada məhv olmaq, yox olmaq təhlükəsi yaranır.

5-ci addım. Dərslikdə verilmiş 6, 7, 8 və 9-cu tapşırıqlar yerinə yetirilir. 8 və 9-cu tapşırıqlar yazılı şəkildə yerinə yetirilə bilər.

Cavablar:

8. birləşmək – ayrılmaq
   sağlamlıq – xəstəlik
   azalmaq – çoxalmaq
   həyat – ölüm
9. mənbə – yeraltı suların çıxdığı yer
   məskən – kiminsə və ya nəyinsə olduğu yer
   mənsəb – çayın dənizə, gölə və ya başqa çaya töküldüyü yer
   sakin – bir yerdə yurd salıb yaşayanlar

6-cı addım. Sonra "Dostluq və səmimiyyət təhlükəsiz həyatın başlanğıcır" mövzusu ətrafında müzakirə təşkil olunur. Şagirdlərin fikirləri dinlənilir və umumiləşdirmə aparılaraq nəticəyə gəlinir ki, həyatla mübarizənin ən yaxşı formaları cəmiyyətin ümumi fikrində öz əksini tapır. İnsan heç vaxt unutmamalıdır ki, cəmdən ayrı düşənin qisməti acı olar. Çalışmaq lazımdır ki, cəmiyyətin daimi fəaliyyətdə olan bir üzvünə çevrilib irəliyə doğru can atasan.

7-ci addım. 17-ci tapşırıq evə verilə bilər. Tapşırığın həlli üçün dərslikdə istiqamət verilmişdir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

12-ci dərs

İki kənd

Standartlar: 4.1.1., 4.1.3.

Təlim nəticələri:

Nümunələrdən istifadə etməklə fikrini əsaslandırır.

Köməkçi nitq hissələrinin yazılışı və durğu işarələri qaydalarına əməl edir.

İş forması: kollektiv, fərdi, cütlərlə, kiçik qruplarla

İş üsulu: müzakirə, yazı

1-ci addım. Müəllim dərsə ev tapşırığının yoxlanılması ilə başlayır. Şagirdlər yazdıqları fikirləri əsaslandıraraq səsləndirirlər və qiymətləndirilmə həyata keçirir.

2-ci addım. Dərslikdə verilmiş "Bağlayıcılar" və "Bağlayıcılarda durğu işarələrinin işlənməsi" qaydaları şagirdlərə izah edilir. Müxtəlif kiçikhəcmli mətnlər üzərində qaydaların mənimsənilməsi istiqamətində işlər aparılması məqsədəuyğundur.

Nümunə 1.

Hökmdarın başmağı

Belə rəvayət edirlər ki, böyük bir məmləkətə başçılıq edən bir hökmdar var imiş. Bir gün hökmdar qərara gəlir ki, piyada uzun bir səfərə çıxsın. Belə də edir. Məmləkətini qarışbaqarış gəzir. Geri qayıtdıqdan sonra görür ki, daş-qalaqlı yolda gəzməkdən ayağı şişib və o saat belə bir qərar çıxarır ki, ölkəsinin bütün yolları dəri ilə döşədilsin. Lakin vəzirlərindən biri ona bundan daha gözəl və faydalı məsləhət verir. Hökmdara tövsiyə edir ki, bütün məmləkəti dəriyə bürüməkdənsə, sadəcə ayağına geyindiyi çarığın altına dəri tikmək daha məqsədəuyğundur. Çünki dünyada xoşbəxt yaşamaq istəyirsənsə, bir dəfəyə bütün dünyanı dəyişmək mümkün deyil. Sən gərək dəyişikliyə birinci özündən başlayasan ki, sonra dünyanı dəyişməklə məşğul olasan.

Nümunə 2.

Bir dəfə mən qayalara gəzməyə çıxmışdım. Mən əzilib parçalanmış, eybəcər və qorxunc hala düşmüş qayalara baxaraq, onları bu şəkilə gətirən qüvvənin sirri haqqında düşünürdüm:

– Gör dənizdə nə böyük qüvvə var ki, belə sərt daşları bu kökə sala bilmişdir?!

Bu qayalar dənizin sahilə yolunu kəsmişdilər, ona görə də, dəniz bu qayaları döyəcləyirdi. O, qayalara gah çırpınır, gah da sakitləşmək və yenidən güc toplamaq üçün geriyə çəkilirdi. Amma azadlığı üçün daima cəhd edəcəyinə əmin idi. O, fikirləşirdi ki, axır-əvvəl bu qayalar ona tab gətirməyib yolundan çəkiləcəklər.

3-cü addım. Dərslikdəki 10 və 11-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar fərdi şəkildə reallaşdırılmalıdır.

4-cü addım. Daha sonra müəllim 12, 13, 14 və 15-ci tapşırıqların icrası üçün şagirdləri kiçik qruplara və ya cütlərə ayırmalıdır. Hazırlanmış tapşırıqlar müzakirə olunaraq səhvlər üzərində iş aparılmalıdır.

LAYİHƏ

5-ci addım. Dərslikdə verimiş 16-cı tapşırıq kiçik qruplarda icra edilməli və tapşırığın müzakirəsi zamanı mövzu genişləndirilməlidir. Müəllimin mövzu haqqında şagirdlərə daha ətraflı məlumatlar verməsi məqsədəuyğundur.

6-cı addım. Əgər mövzunun genişləndirilməsi üçün müddət imkan verməsə tapşırıq evə verilə bilər. Bu zaman əlbəttə ki, bu tapşırığın icrası fərdi olaraq həyata keçirilməlidir.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

13-cü dərs Bizim planet

Standartlar: 1.1.1., 1.1.2., 2.1.3.

Təlim nəticələri:
Mətnin hissələrini müəyyənləşdirir.
Mətndə əsas fakt və hadisələri seçir.
Müzakirədə fikirlərə münasibət bildirir.

İş forması: kollektiv, fərdi

İş üsulu: beyin həmləsi, müzakirə, sual-cavab

1-ci addım. Müəllim əvvəlki dərslərdə keçirilən "Yalan" mətnində baş vermiş hadisəni və onun nəticələrini şagirdlərə xatırladır. Daha sonra sualla şagirdlərə müraciət edir: *Necə bilirsiniz, diqqətsizlik və laqeydlik ucbatından baş vermiş yanğın dövlətə, xalqa ziyan vura bilərmi? Siz belə hadisə ilə qarşılaşmısınızmı? Əgər qarşılaşsa idiniz nə addım atardınız?* Şagirdlərin cavabları dinlənilir və ümumiləşdirmə aparılır.

2-ci addım. Sonra müəllim dinləmə mətnini səsləndirir. Dinləmə mətnini müəllim özü və ya şagirdlərdən birinin köməyi ilə səsləndirə bilər. Mətni səsləndirərkən səs tonuna və intonasiya qaydalarına düzgün əməl olunmalıdır.

Dinləmə mətni

Taxıl zəmisi

Sünbül əkilmiş böyük bir tarladan təxminən iyirmi kilometr aralıda kimsə ehtiyatsızlıq edib siqaret kötüyü tullamışdı. Axşamdan əsən xəfif külək siqaret kötüyünü bol məhsullu taxıl zəmilərinə tərəf gətirdi. Çox keçmədən böyük bir alov əmələ gəldi.

Arif traktorun arxasında əyləşərək öz sahəsini nəzərdən keçirirdi. Onun briqadası yaxşı işləmişdi, yalnız min hektara yaxın biçilməmiş sahə qalmışdı. Həmin sahəni də iki gündən sonra biçməli idilər. Birdən Arif başını qaldırdı və yaxınlaşmaqda olan alovu gördü. Elə bu zaman sahənin o biri başında başqa bir traktor göründü. Bu traktorçu Bəxtiyar idi. O, sahəni şumlayıb geri qayıdırdı. Təcrübəli traktorçular yaxşı başa düşürdülər ki, alov böyük təhlükəyə səbəb ola bilər. Yaxındakı taxıl zəmiləri od tutub alışa bilər. İndi bir dəqiqə belə itirmədən bol məhsullu taxıl zəmilərini alovdan, yanğından xilas etmək lazım idi. Bu sahədə hər ikisinin ən yaxın dostu olan Qədirin yetişdirdiyi məhsul idi.

LAYİHƏ

Yaxınlaşan alovun qarşısını kəsmək üçün şırım açmaq lazım idi.

Arif və Bəxtiyar bir göz qırpımında traktorlara qalxıb onları işə saldılar. Sağ tərəfdən az qala alov göyə qalxır, sol tərəfdən isə külək dalğalanırdı. Sünbüllər sanki küləyin xəfif dalğaları altında pıçıldaşırdılar. Küləyin gətirdiyi alov qıvrıla-qıvrıla hərəkət edir, burula-burula tarlanın o başına, taxıl zəmisinə yaxınlaşırdı. Onlar traktorlarla sağ və sol tərəfdən hərəkət edərək şırım açırdılar. Açılan şırım yaxınlaşan alovun yolunu kəsirdi.

Şumlanmış sahəyə təxminən yüz metr qalmış Arifin paltarı alışdı. O, tez iki əli ilə yanan paltarını söndürməyə başladı. Bu zaman alov lap traktorun üstünə qalxdı. Bəxtiyar tez alovu söndürdü.

Arif tez pencəyini çıxardı. Onun bütün əl barmaqları yanmışdı. Ayaq üstə dayana bilməyib tez özünü torpağın üstünə atdı. Traktor artıq şumlanmış sahəyə çatmışdı. Bunu görən Arif sakitləşdi. Çünki alovun yolu kəsilmişdi, taxıl zəmisi alışıb yanmaq təhlükəsindən xilas olmuşdu. Bəxtiyar da alovdan xəsarət almışdı. Onun da əlləri və üzü yanmışdı. Buna baxmayaraq dostunun yanına gəlib ona kömək etmək istədi. Lakin taqəti qalmamışdı. O da şumlanmış torpağın üstünə üzü üstə düşdü. Arif Bəxtiyarın yıxıldığını görüb onun yanına sürünə-sürünə yaxınlaşdı. Dostunun başını dizləri üstə qoyub üfüqə qədər qapqara yanmış çölə baxdı.

Xəstəxanada düz üç gün gecə və gündüz onların həyatı uğrunda mübarizə getdi. Aldıqları ciddi xəsarətlərə baxmayaraq onlar ucsuz-bucaqsız taxıl zəmisini və bol məhsulu xilas etdiklərinə görə çox sevinirdilər.

3-cü addım. Mətnin səsləndirilməsi zamanı müəllim proqnozlaşdırılmış oxu növündən də istifadə edə bilər. Belə ki uyğun bildiyi yerdə mətnin səslənməsini saxlayaraq sonrakı hadisələrin necə baş verəcəyini şagirdlərdən soruşa bilər. Şagirdlərin cavabları dinlənilməli, lakin məqsədyönlü olaraq müzakirə olunmamalıdır. Mətnin tam oxusundan sonra səslənən fikirlərin mətnlə uyğunluğu müzakirə edilə bilər.

4-cü addım. Daha sonra dərslikdə dinləmə mətninə aid tapşırıqların yerinə yetirilməsi təşkil edilməlidir. Əvvəlcə 1,2 və 3-cü tapşırıqlar şifahi olaraq icra edilməlidir. Bu tapşırıqlar kollektiv şəkildə yerinə yetirilməlidir.

Cavablar:

1. B
2. (1)
3. C

5-ci addım. Sonra 4, 5 və 6-cı tapşırıqlar yazılı şəkildə yerinə yetirilə bilər. Bu üç tapşırığın kiçik qruplarla həyata keçirilməsi məqsədəuyğundur. Hər qrup müvafiq tapşırıqlar əsasında fikir mübadiləsi aparıb hazırladıqları cavabları təqdim etməlidirlər. Təqdim olunan cavablar əsaslandırılmış olmalıdır.

6-cı addım. Dərslikdə olan 7,8,9 və 10-cu tapşırıqların da icrası həyata keçirilir. Bu tapşırıqlar yazılı və ya şifahi olaraq yerinə yetirilə bilər. Bu müəllimin seçiminə uyğun olacaq. Dinləmə mətninə uyğun tapşırıqların cavabları, şagirdlərin səsləndirdikləri fikirlər müzakirə olunur və ümumiləşdirilir.

7-ci addım. Ümumiləşdirmədən sonra bu nəticəyə gəlinməlidir ki, yanğınlar müxtəlif səbəblərdən; siqaret çəkmə zamanı ehtiyatsızlıqdan, nəqliyyat vasitələrinin sistemlərinin, mexanizmlərinin və hissələrinin nasazlığından, yüksək gərginlikli elektrik xəttinin qırılmasından, ocaqdan düşən qığılcımdan, kombaynlarda və digər texnikalarda yaranan qığılcımlardan baş verə bilir. İnsanların ehtiyatsızlıqları nəticəsində dövlətin maddi sərvətləri məhv ola bilir. Buna

LAYİHƏ

görə də hər birimiz bu maddi sərvətlərimizi qorumalı və bu sərvətlərin inkişafını, artımını həyata keçirməliyik. İnsanlar vətənini, torpağını qorumalı, insanları sevməli, onlara qayğı ilə yanaşmalı, hər zaman yaxşılıq etməyi bacarmalıdır.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

14-cü dərs Bizim planet

Standartlar: 2.1.1., 3.1.2.

Təlim nəticələri:
Sözləri düzgün tələffüz edir.
Səs tonu, temp və fasiləni gözləməklə şeiri ifadəli oxuyur.

İş forması: kollektiv, fərdi

İş üsulu: beyin həmləsi, müzakirə, sual-cavab

1-ci addım. Müəllim dərsə aşağıdakı linklərin təqdimatı ilə başlaya bilər. (Yer planeti haqqında məlumat)

https://azescience.org/gb/yer-kuresi-haqqinda-video/
https://www.youtube.com/watch?v=fVOLZKIgBdU

Linklərə baxışdan sonra müəllim şagirdlərə suallarla müraciət edə bilər: *Sizcə, bizim planeti digər planetlərdən fərqləndirən əsas amil hansıdır? Siz videoya baxarkən hansı hissləri yaşadınız? Niyə?* Səslənən fikirlər dinlənilir.

2-ci addım. Şagirdlərin diqqəti dərslikdəki "Bizim planet" şeirinə yönəldilir. Şeirin oxusu təşkil edilir. Şeirin oxusu zamanı intonasiya qaydalarına əməl olunmalıdır. Orfoepiya və orfoqrafiyaya aid olan məsələlər diqqətdə saxlanılmalı və yerində istifadə olunmalıdır.

3-cü addım. Daha sonra müəllim şeiri şərti olaraq 2 hissəyə bölünməsini və hər hissədə nədən danışıldığını şagirdlərə tapşırıq olaraq verir. Şagirdlər həmin tapşırığın cavabını şeirə istinadən cavablandırmalıdırlar. Fikirlərinə düşündüklərini də əlavə edə bilərlər. Lakin hər bir fikir əsaslandırılmalıdır.

4-cü addım. Dərslikdə verilmiş 7, 8 və 9-cu tapşırıqların icrası həyata keçirilir. Bu tapşırıqlar kollektiv və ya fərdi olaraq şifahi şəkildə reallaşdırıla bilər. Tapşırıq seçmə yolla yoxlanılmalı və müzakirə edilməlidir.

5-ci addım. Sonra 10, 11, 12, 13 və 14-cü tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar yazılı olaraq icra edilir. Bəzi tapşırıqların icrası zamanı izahlı lüğətdən istifadə edilməlidir. Tapşırıqlar yoxlanılır və səhvlər üzərində iş aparılır.

6-cı addım. 19-cu tapşırıq evə verilir.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

15-ci dərs

Bizim planet

Standartlar: 2.1.3., 3.1.3., 4.1.1.

Təlim nəticələri:

Müzakirə zamanı müxtəlif fikirlərə münasibət bildirir.
Əsas və köməkçi nitq hissələrini müəyyənləşdirir.
Nümunələrdən istifadə edərək fikirlərini əsaslandırır.

İş forması: kollektiv, fərdi

İş üsulu: müzakirə, sual-cavab

1-ci addım. Müəllim dərsə ev tapşırığının yoxlanılması ilə başlaya bilər. Şagirdlər hazırladıqları təqdimatı nümayiş edib, yaranan sualları cavablandırmalıdırlar. Təqdimatların müzakirəsi təşkil edilməli və qiymətləndirilməlidir.

2-ci addım. Daha sonra müəllim dərslikdə verilmiş "Sağlam həyat tərzi üçün təhlükə törədən mənbələr və çıxış yolları nədir?" müzakirə mövzusunu həyata keçirməyə başlayır. Mövzunun müzakirəsi şagirdlərin hazırladıqları təqdimatlar əsasında da təşkil edilə bilər. Belə ki təqdimatlarda verilmiş təhlükələrdən çıxış yolları və həlli yolları araşdırılmalıdır. Həmin təqdimatların üzərində işlərin aparılması məqsədəuyğundur.

3-cü addım. Təqdimatlarda qeyd olunmayan təklükələr haqqında müəllim də məlumat verə və ya şagirdlərin tapması üçün istiqamətləndirə bilər. Planetimiz və sağlam həyatımız üçün olan təhlükələr haqqında video linklərin nümayişindən də istifadə olunmalıdır.

4-cü addım. Daha sonra dərslikdə verilmiş 1, 2, 3, 4, 5 və 6-cı tapşırıqlar yerinə yetirilir. Tapşırıqlar şifahi və ya bəziləri yazılı şəkildə icra edilə bilər. Bu müəllimin seçimindən asılıdır. Tapşırıqların yoxlanılması seçmə yolla həyata keçirilir və qiymətləndirilməsi aparılır.

5-ci addım. Sonra 15, 16, 17 və 18-ci tapşırıqlar reallaşdırılır. Bu tapşırıqlar fərdi olaraq yazılı şəkildə icra edilir və yoxlanılır. Səhvlər üzərində iş aparılır.

6-cı addım. Dərs boyu səslənən fikirlər, aparılan müzakirələrin ümumiləşdirilməsi edilərək bu nəticəyə gəlinir ki, biz insanlar bilirik ki, bizim yaşadığımız dünya çox gözəldir. O həm də əsrarəngiz və maraqlıdır. Biz zəngin və füsunkar bitkilər aləmi, vəhşi heyvanlardan tutmuş ən xırda həşəratlara qədər saysız-hesabsız canlılar əhatəsindəyik. Bəli, Yer kürəsi adlandırdığımız planetin məzmunu da bizi əhatə edən təbiətin harmoniyasıdır. Dünyamızın sabahı və gələcəyi bu tarazlıqdan asılıdır. Bu tarazlığın pozulması bizi də, dünyamızı da məhv edə bilər. Ona görə də biz insanlar təbiətə qayğı və məhəbbətlə yanaşmalı, planetimizi qorumalıyıq. O bizim evimizdir.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

16-cı dərs

Layihənin yekunu

Standartlar: 2.1.2., 2.1.3.

Təlim nəticələri:
Nitqini uyğun səs tonu ilə tənzimləyir.
Müzakirə zamanı müxtəlif fikirlərə münasibət bildirir.

İş forması: kollektiv, fərdi

İş üsulu: əqli hücum, təqdimat

1-ci addım. Müəllim bölmənin əvvəlində təqdim olunan layihənin başlığını şagirdlərin yadına salır. (“Sağlam və təhlükəsiz gələcək”) Şagirdlərin bölmə ilə bağlı fikirlərini, bu bölmə ərzində nə öyrəndiklərini suallar vasitəsilə soruşur.

2-ci addım. Şagirdlərin diqqəti dərslikdə verilmiş (səh.136) sualların cavablandırılmasına yönəldilir. Bu suallar şagirdin özünü necə tanımasına istiqamətləndirilmişdir. O, bölmə boyu əldə etdiyi, qazandığı biliklər əsasında özünü tanıyaraq, inkişafını dəyərləndirərək cavablandırmalıdır. Daha sonra yazılan cavablar müzakirə edilməlidir.

3-cü addım. Sonra dərslikdə qeyd edilmiş bir alimin fikri əsasında müzakirə təşkil olunur. Fikrə aid sualların cavablandırılması həyata keçirilir. Şagirdlərin müzakirə zamanı səsləndirdikləri fikirlər əsaslandırılmalıdır. Şagirdlər qarşılaşdıqları hadisələrə istinadən də fikir səsləndirə bilərlər.

4-cü addım. Daha sonra müəllim şagirdləri böyük qruplara ayıraraq “Sağlam və təhlükəsiz Azərbaycan üçün” adlı jurnalın yaradılmasını tapşırır. Burada bölmə boyu oxuduqları, dinlədikləri mətnlərdən nəticə çıxararaq fikirlərini, arzularını, ideyalarını qeyd etməyi vurğulayır.

5-ci addım. Jurnalın hazırlanmasında müxtəlif rubliklərin, şəkillərin yer almasının vacibliyi qeyd edilir və faydalı materiallarla zənginləşdirilməsi tövsiyə edilir.

6-cı addım. Hazırlanmış jurnalın mövzusunun aktuallığını nəzərə alaraq həm sinifdə, həm də məktəbdə təqdimatı təşkil oluna bilər. Bu şagirdlərdə məsuliyyəti, özünəinamı, özgüvənini artıra bilər.

7-ci addım. Bölmə ərzində hər mövzunun sonunda əldə olunan dəyərlər bir daha səsləndirilir və bu dəyərlərin qorunması, nəsildən-nəslə ötürülməsi bizim başlıca amalımız və vəzifəmiz olduğu bir daha vurğulanır. Bu yolda düzgün atılacaq addımlar hər zaman bizi inkişafa, tərəqqiyə və təhlükəsizliyə aparacaqdır.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

Kiçik summativ qiymətləndirmə – 2

Qədim zamanlarda bir padşah yaşayırdı. Onun üç oğlu var idi. Oğullarından biri onun yerinə taxta keçməli idi. Padşah seçim etməkdə çətinliy çəkirdi. Oğullarının üçü də ağılı və cəsarətdi idi. O, çox düşündükdən sonra müdriy bir qocadan məsləhət aldı.

Günlərin bir günü padşah oğullarını çağırdı və hər birinə bir kisə toxum verib dedi:

– Oğullarım, mən uzaq səfərə çıxıram, üç il sonra qayıdacağam. Mən qayıdanda toxumları qaytararsınız. Kim toxumları yaxşı saxlasa, mənim yerimə taxta o çıxacaq.

Böyük oğul fikirləşdi: "Yaxşısı budur, mən toxumları sandığa qoyum. Sandığın ağzına da qıfıl vurum ki, toxumları heç kim oğurlamasın". Ortancıl oğul: "Atam qayıdanda təzə toxum alaram, atama qaytararam", – deyə toxumları satdı. Kiçik oğul isə toxumları sarayın bağçasında əkdi. Bir müddətdən sonra toxumlardan rəngbərəng çiçəklər açdı.

Ay dolandı, il keçdi, vaxt tamam oldu. Padşah səfərdən qayıtdı. Birinci oğul sandığı açdı və orada gizlətdiyi toxumları atasına verdi. Padşah toxumlara baxıb dedi:

– Bunlar mənim verdiyim toxumlar deyil. Onlar çürüyüb. Bu toxumlarda zərrə qədər həyat yoxdur!

İkinci oğul bazardan təzə toxum alıb atasına verdi. Padşah toxumları görən kimi təəssüfləndi:

– Bunlar da mənim verdiyim toxumlar deyil. Ancaq sən böyük qardaşından yaxşı fikirləşmişsən.

Padşah qəm dəryasına qərq olmuşdu: "Əgər kiçik oğlum da qardaşları kimi ümidimi doğrultmasa, onda məndən sonra taxta kim çıxacaq?" Elə bu vaxt üçüncü oğul ona yaxınlaşdı. Atasını sarayın bağçasına apardı. Burada gül gülü çağırırdı, bülbül bülbülü. Kiçik oğul dedi:

– Ata, bu çiçəkləri sənin verdiyin toxumlardan becərmişəm. Bir azdan çiçəklər toxum tökəcək. Mən də onları sənə geri qaytaracam.

Padşah bir söz deməsə də, çox sevinirdi.

Aşağıdakı sualları mətnə əsasən cavablandırın.

1. Müdrik adam padşaha nə məsləhət gördü?
   A) Ölkəni oğullarına tapşırıb səfərə getməyi
   B) Ölkəni böyük oğula verib səfərə getməyi
   C) Ən çox sevdiyi oğlunu padşah elan etməyi
   D) Oğullarına toxum verib onlardan necə istifadə edəcəklərini sınamağı

2. Mətndə hansı suala cavab yoxdur?
   A) Ortancıl oğul toxumu nə etdi?
   B) Padşah səfərə neçə illik getmişdir?
   C) Padşah hansı ölkəyə səfər etmişdir?
   D) Padşah nəyə məyus oldu?

LAYİHƏ

3. Mətndə altından xətt çəkilmiş cümləyə münasibət bildirin. Fikrinizi iki cümlə ilə ifadə edin.

_____

_____

4. Hansı hərəkət qardaşlardan birinə aiddir?

A) Dəyirmanda üyütdü.
B) Bağçada əkdi.
C) Hədiyyə verdi.
D) Toyuq-cücəyə yem etdi.

5. Cədvəli tamamlayın.

Səbəb	**Nəticə**
Böyük oğul toxumları sandıqda saxladı.	
	Padşah çox sevinirdi.
...	...
...	...

6. Mətnin ideyası hansı bənddə ifadə olunmuşdur?

A) Böyüyə qulaq asmaq faydalıdır.
B) Toxumu sandıqda saxlamaq olmaz.
C) Ağıllı insan o şəxsdir ki, hər bir tapşırığa yaradıcı yanaşır.
D) Hər bir oğul ata məsləhətinə qulaq asmalıdır.

7. Mətndə işlənmiş “qəm dəryasına qərq olmaq” ifadəsini hansı sözlə əvəz etsək cümlənin mənası dəyişməz.

A) qürurlanmaq
B) təsirlənmək
C) həvəslənmək
D) kədərlənmək

8. Mətndə hadisələrin düzgün ardıcıllığını müəyyən edin.

I. Padşah kiçik oğlunun xəbərinə sevindi.
II. Padşah oğullarına toxum verdi.
III. Padşah hansı oğlunun taxta çıxacağına qərar verə bilmirdi.
IV. Padşah müdrik adamla məsləhətləşdi.

A) I, II, III, IV
B) III, IV, II, I
C) II, III, I, IV
D) IV, I, II, III

LAYİHƏ

9. Mətndən beş köməkçi nitq hissəsini seçərək aşağıdakı sətirdə yazın.

_____

_____

10. Mətnin məzmununa əsasən uyğunluğu müəyyən edin.

1. böyük oğul	a. ağıllı
2. ortancıl oğul	b. məntiqsiz
3. kiçik oğul	c. hiyləgər

A) 1-b, 2-c, 3-a B) 1-a, 2-c, 3-b
C) 1-c, 2-b, 3-a D) 1-b, 2-a, 3-c

11. Mətnin sonluğunu təxəyyülünüzə uyğun iki cümlə ilə tamamlayın.

_____

_____

12. Mətndə çərçivədə verilmiş abzasda hansı sözlər düzgün yazılmayıb? Həmin sözləri müəyyənləşdirin və aşağıdakı sətirdə düzgün yazın.

_____

_____

13. Hansı başlıq mətnin ideyasına uyğundur?

A) Ədalətli seçim
B) Sarayın bağçası
C) Ağıllı oğullar
D) Qərarsız padşah

14. Aşağıdakı ifadələrin sinonimini qarşısında yazın.

cəsarətli – _____
fikirləşmək – _____
vaxt – _____
qoca – _____

15. Mətnin sonunda padşah nəyə görə sevindi?

A) Bağçaya qulluq edəcək adam tapmışdır.
B) Sarayın bağçası gözəlləşmişdi.
C) Oğlanları tapşırığın öhtəsindən məharətlə gəlmişdir.
D) Artıq ölkəni kimin idarə edəcəyini müəyyənləşdirə bilmişdir.

LAYİHƏ

IV BÖLMƏ

AİLƏDƏ EKOLOGİYA

1. LAYİHƏ: “PLANETİMİZ GƏLƏCƏKDƏ”
2. ARAŞDIRMA: EKOLOGİYA AİLƏDƏ
3. SINMIŞ BUDAQ
4. SEYRANIN GÖYƏRÇİNLƏRİ
5. TƏBİƏT ÖZÜ ÖZÜNÜ TƏNZİMLƏYİR
6. HEKAYƏ YAZMAQ: YAŞIL PLANET
7. HAQQIN SƏSİ

1-ci dərs

Layihə: Planetimiz gələcəkdə

Standartlar: 2.1.3., 3.1.2., 4.1.2., 4.1.3.

Təlim nəticələri:

Müxtəlif fikirləri ümumiləşdirmələ onlara münasibət bildirir.
Səs tonu və fasiləni gözləməklə mətni oxuyur.
Abzaslarası alaqəni gözləməklə mətn yazır.
Yazısında durğu işarələrindən düzgün istifadə edir.

İş forması: kollektiv, fərdi

İş üsulu: müzakirə, BİBÖ

1-ci addım. Müəllim şagirdləri IV bölmə ilə tanış edir, bölmədə öyrənəcəkləri materiallar haqqında yığcam şəkildə məlumatlandırır. Suallar da vermək mümükündür: *"Sizcə, bölmə niyə "Ailədə ekologiya adlandırılmışdır?", "Ailə və ekologiya arasında hansı bağlılıq vardır?"* və s. Şagirdlərin cavabları ümumiləşdirilir. Yaxşı olar ki, müəllim şagirdlərin fikirlərinə dərhal münasibət bildirməsin. Bölmədəki materiallarla tanış olduqdan sonra şagirdlər müəllimin köməyi ilə ailədə təkcə əxlaq tərbiyəsinin deyil, həm də ekoloji tərbiyənin əsasının qoyulduğu qənaətinə gəlirlər. Müəllimin verdiyi suallara şagirdlər yazılı cavablar da verə bilərlər. Bunun üçün müəllim yuxarıdakı sualların yazıldığı iş vərəqlərini şagirdlərə təqdim edə bilər. Bölmənin əvvəlində və sonunda eyni suallara yazılan cavablar həm şagirdlərin öz fikirlərindəki inkişafı görməsinə, həm də müəlimin bu prosesi izləməsinə imkan verə bilər. Mövzunun tədrisində müəllim BİBÖ üsulundan istifadə edə bilər.

2-ci addım. Müəllim şagirdləri "Planetimiz gələcəkdə" layihəsi və onun üzərində görüləcək işlərlə tanış edir. Layihənin nə üçün belə adlandırılması ilə bağlı şagirdlərin fikirlərini öyrənir. Daha sonra növbəti suallar üzərində *("Planetimiz dedikdə nə başa düşürsünüz?", "Yaşadığımız planetin gələcəyini necə təsəvvür edirsiniz?", "Hansı ekoloji problemlər haqqında məlumatlısınız?", "Ekoloji problemlər dedikdə nə nəzərdə tutulur?", "Ətraf mühitin hansı problemləri insanlar üçün təhlükəlidir?")* iş aparılır, şagirdlərin cavabları ümumiləşdirilir. Dərs elə qurulmalıdır ki, şagirdlərdə Yer kürəsində baş verən fəlakətlərin təbii və insanlar tərəfindən törədilən olması ilə bağlı suallar yaransın. Bunun üçün şagirdə aşağıdakı formada iş vərəqi təqdim etmək olar:

Təbii fəlakətlər	*Qarşısının alınması üçün təkliflər*	*İnsanlar tərəfindən törədilən fəlakətlər*	*Qarşısının alınması üçün təkliflər*
•	•	•	•
•	•	•	•

3-cü addım. 143-cü səhifədə verilmiş şeirlər oxunur, şeirdə ifadə olunan fikirlər haqqında yığcam müzakirələr təşkil edilir.

4-cü addım. 144-cü səhifədə ailədə ekoloji tərbiyənin şagirdlərdə formalaşdıracağı bacarıqlar *(evdə güllərə qulluq, dibçəklərə qulluq, ağacların suvarılması və s.)* şagirdlərin diqqətinə

LAYİHƏ

çatdırılır. Şagirdlərin bu fikirlərlə razı olub-olmadıqları, yaxud əlavə etmək istədikləri olarsa, daha yaxşı olar. 145-ci səhifədə yuxarı hissədə verilmiş suallar üzərində iş aparılır. Şagirdlərin cavablarının mövzu ilə bağlı əvvəldə öyrəndikləri ilə müqayisəsi aparılır. Şagirdlərə ətraf mühitin qorunmasında necə fəaliyyət göstərdikləri, hansı işləri gördükləri və yaxud görmək istədikləri işlər barədə suallar verilir.

5-ci addım. Dərsliyin 144-cü səhifəsində verilmiş sorğu keçirilir, nəticələr ümumiləşdirilir. Müzakirələr və sorğunun nəticələrinin ümumiləşdirilməsinin əsasında 145-ci səhifədəki natamam mətni tamamlamaq üçün iş aparılır. Yazılar yoxlanarkən sözlərin düzgün yazılışına, durğu işarələrindən düzgün istifadəyə diqqət yetirilir.

6-cı addım. Evə mövzu ilə bağlı müxtəlif tapşırıqlar verilə bilər:

- 142-143-cü səhifələrdə verilmiş şəkil əsasında inşa yazmaq
- Mövzu ilə bağlı rəsm çəkmək
- "Mən gələcəkdə ekoloq olacağam" mövzusunda təqdimat hazırlamaq (və ya inşa yazmaq)

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

2-ci dərs Sınmış budaq

Standartlar: 1.1.2., 2.1.3., 2.1.4.,3.1.2.

Təlim nəticələri:

Dinlədiyi mətnə əsasən faktları müəyyən edir.
Eşitdiyi fikirləri ümumiləşdirir.
Dinlədiyi və oxuduğu mətnləri əlaqələndirir.
Temp və fasiləni gözləməklə mətni oxuyur.

İş forması: kollektiv, kiçik qruplar, fərdi

İş üsulu: fasiləli oxu və ya proqnozlaşdırılmış oxu, müzakirə

1-ci addım. Müəllim dərsə müxtəlif üsullardan istifadə etməklə başlaya bilər. Seçilən üsul müəllimin qurduğu dərsdən asılıdır.

1. https://www.youtube.com/watch?v=pYhOGIAm4Ik ("Əsgər atası" filmindən. 1.07.15. dəq., əsgər atasının üzümlüyə tərəf sürülən tankın qarşısını kəsməsi) linkindən istifadə etməklə
2. https://www.youtube.com/watch?v=KCta99ahNog ("Ekologiyamızı qoruyaq") linkindən istifadə etməklə
3. https://www.youtube.com/watch?v=RIZeIj_P6uo ("Qlobal istiləşmə")
4. "Sınmış budaq" şeirinin oxusunu (və ya səsləndirməsini) təşkil etməklə
5. Ev tapşırıqlarının yoxlanması ilə

LAYİHƏ

Seçilən vasitədən asılı olaraq müəllim şagirdlərə mövzu ilə bağlı suallarla müraciət edir, fikirlərini ümumiləşdirir və onların diqqətini növbəti mərhələyə yönəldir.

2-ci addım. Dinləmə mətni üzərində iş aparılır. İ.Əfəndiyevin "Yasəmən ağacı" mətni oxunur, şagirdlərə dərslikdə 146-147-ci səhifələrdə verilmiş tapşırıqları icra etmək tapşırılır.

https://www.youtube.com/watch?v=BbFXvtJ8hJ8 linkindən istifadə etməklə İ.Əfəndiyevin "Yasəmən ağacı" hekayəsini səsləndirmək olar. Texniki imkanlar yoxdursa, müəllim mətni özü, yaxud sinifdə yaxşı oxu bacarığı olan şagird oxuya bilər.

Yasəmən ağacı

(İlyas Əfəndiyev)

Məktəbimizin bağçasındakı ağ, çəhrayı çiçəkli alça, armud, şaftalı və ərik ağacları arasında bu yasəmən ağacının qəribə bir gözəlliyi vardı. Kəndimizdə yasəmən olmazdı. Məktəbimizdəki yasəməni isə Aslan müəllim əkmişdi. O hər səhər əkdiyi bu ağacın yanına gələr, budaqları əyib salxım gülləri iylər və dayanıb ağacın gözəlliyinə tamaşa edərdi.

Aslan müəllim ucaboylu, qarabəniz, zəhmli bir adam idi. Alnında sərt qırışlar vardı. Lakin o, yasəmən ağacını seyr edərkən üzünün nə qədər incə, mehriban bir ifadə aldığını bircə görsəydiniz!..

Bir gün dərsdə mənimlə bir skamyada oturan yoldaşım Cəfər əyilib qulağıma pıçıldadı:

– Müəllimin yasəmən ağacında bir bülbül yuva salıb.

Bu sözü eşitcək səbirsizliklə dərsin qurtarmasını gözlədim. Zəng vurulan kimi Cəfərlə bərabər yasəmən ağacının yanına qaçdıq.

Cəfər düz deyirmiş: salxım-salxım sallanan güllər arasında çör-çöpdən və palçıqdan qayrılmış bir yuva gördüm. Mən düşünmədən birbaş ağaca dırmaşdım. Elə yuvaya yenicə çatmışdım ki, onun içindən pırıltı ilə bülbül uçdu. Ağacın gövdəsi ağırlığıma davam gətirməyib şaqqıltı ilə sındı. Mən yıxıldım, yuva da uçub töküldü.

Ətrafıma toplanmış uşaqlar çığır-bağır salmışdılar. Özümü toplayıb ayağa qalxdıqda Aslan müəllimin yanımda durduğunu gördüm. Kürəyimin arasından soyuq bir şey keçdi. Bu halı müşahidə edən uşaqlar da susdular. Aslan müəllim heykəl kimi qımıldanmadan qəddi qırılmış yasəmən ağacına baxırdı.

Bu zaman birdən bülbül qanadlarını başımız üzərindəki alma ağacının çiçəklərinə çırpıb həyəcanla səsləndi. Aslan müəllim başını qaldırıb kiçik bir budaq üzərində oturmuş bülbülə, onun uçmuş yuvasına və mənə baxdı.

Sonra o dinməzcə dönüb getdi.

Zəng vuruldu. Mən peşman olmuşdum. Mən Aslan müəllimdən məzəmmət və cəza gözləyirdim. Lakin o mənə nə bir söz deyir, nə də üzümə baxırdı. Bu isə mənin üçün hər şeydən ağır idi. Mən istəyirdim ki, o məni danlasın, cəza versin, lakin o susurdu.

Bir gün Aslan müəllim məndən keçən dərsi xəbər aldığı zaman onun baxışlarında elə soyuq bir ifadə hiss etdim ki, özümü saxlaya bilməyib cavab vermək əvəzinə ağladım.

O, əvvəlki kimi sakit və təmkinli bir səslə mənə: "Əyləş", – dedi və başqa bir şagirdi qaldırdı.

Mən ağlayırdım. O isə elə bil ki, bunu görmür, sakitcə dərsini keçirdi.

Zəng bayıra vurulanda Aslan müəllim işarə ilə məni çağırdı. Biz birlikdə bağçaya endik. Heç bir söz danışmadan yasəmən ağacının yanına gəldik. İndi onun yerində başı hamar kəsilmiş bir kötük qalmışdı. Mən gözlərimi endirdim.

Aslan müəllim bir neçə saniyə ağaca baxdıqdan sonra mənə tərəf döndü və:

- Biz dünyaya, onu daha da gözəlləşdirmək üçün gəlmişik, – dedi. – Biz onun gözəlliklərini məhv etmək üçün doğulmamışıq!

LAYİHƏ

Mən onun üzünə baxmadan:

- Məni bağışlayın, müəllim, – dedim.

Gələn bahar yasəmən ağacının kötüyündən yeni pöhrələr qalxdı. Mən indi həmin pöhrələrə sevə-sevə qulluq edir, onları qoruyuram.

Axı, doğrudan da, biz dünyanın gözəlliklərini məhv etmək üçün doğulmamışıq!..

3-cü addım. Şagirdlərin cavabları yoxlanır, səhvlər varsa, düzəlişlər edilir və şagirdlərə izahat verilir. Dinləmə mətni üzərində iş aparmaq üçün təklif olunan tapşırıq nümunəsndən də istifadə etmək olar:

✓ "Yasəmən ağacı" mətninin tərkib hissələri ilə bağlı hökmlərin düzgün olub-olmadığını müəyyən edin.

Giriş hissə	Əsas hissə	Nəticə	Düzdür / Səhvdir
a. Yasəmən ağacının qeyri-adi gözəlliyi	Aslan müəllim tərəfindən yasəmən ağacının əkilməsi	Şagirdin kobud hərəkətinə görə Aslan müəllimdən üzr istəməsi	
b. Yasəmən ağacının budağının qırılması	Cəfərin bülbül yuvası haqqında dostuna məlumat verməsi	Aslan müəllimin yasəmən ağacının gözəlliyindən zövq alması	
	Aslan müəllimin xarici görkəminin təsviri	Bülbül yuvasının dağılması	
		Ana bülbülün həyəcanı	

Dinlədiyi mətndə faktların ("Yasəmən ağacının yazda çiçəkləməsi", "Yasəmən ağacının çiçəklərinin gözəl ətrinin olması", "Yasəmənin kol deyik, ağac olaması", "Meyvə ağaclarının ağ-çəhrayı çiçəkli oması", "Yasəmən ağacının çiçəklərinin salxım şəklində olması") müəyyən edilməsi şagirdlərə tapşırılır

4-cü addım. "Sınmış budaq" şeirinin oxusu təşkil edilir. Orfoqrafiya və orfoepiya tapşırıqları üzərində iş müəllimin seçiminə əsasən oxunun müxtəlif mərhələsində aparıla bilər. Oxunun təşkili üçün müəllim oxunun proqnozlaşdırılmış, qeydlər götürməklə oxu və ya suallar verməklə oxu növlərindən istifadə edə bilər. Seçilən oxu üsulundan asılı olaraq müəlim iş forması müəyyən edə bilər.

5-ci addım. Şeirin oxusundan sonra mətnə çəkilmiş rəsm əsəri üzərində iş aparılır. Tapşırığın icrasına maksimum 10 dəq. vaxt verilir.

6-cı addım. Şinif kiçik qruplara bölünür və 1-4-cü tapşırıqlar üzərində iş aparılmaq üçün bölüşdürülür. İlk baxışdan tapşırıqlar sadə görünsə də, onları icra etmək üçün şeiri təkrar oxumaq lazımdır. Cavablar yoxlanır, şagirdlərin mövzu ilə bağlı fikirləri ümumiləşdirilir.

7-ci addım. Evə tapşırıq şagirdlərin yaş səviyyəsi nəzərə alınmaqla verilir.

- 5-cı tapşırıq (səh. 150)
- 6-cı tapşırıq (səh. 151)

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

3-cü dərs

Sınmış budaq

Standartlar: 2.1.1., 2.1.3., 2.1.4.

Təlim nəticələri:

Təlim nəticəsi
Sözləri və şəkilçiləri düzgün tələffüz edir.
Müzakirələrdə söylənən fikirlərə münasibət bildirir.
Fikirlərini əsaslandırmaq üçün müxtəlif nümunələrdən istifadə edir.

İş forması: böyük qruplar, kollektiv

İş üsulu: müzakirə, (və ya debat)

1-ci addım. Müəllim dərsə ev tapşırıqlarının yoxlanması ilə başlayır. Şagirdlərin bir qismindən 5, digər qismindən 6-cı tapşırıq soruşulur. Şagirdlərin fəaliyyəti qiymətləndirilir. Qiymətləndirmə nümunələri vəsaitin əvvəlində vardır.

2-ci addım. "Meşələr planetin ağ ciyəridir" mövzusunda müzakirə təşkil edilir. Müzakirədən əvvəl Nikola Tesla haqqında verilmiş kiçik mətn oxudulur və şagirdlərə suallarla müraciət edilir: *"Sizcə, Tesla böyük əmək sərf etdiyi ixtirasını niyə məhv edir?", "Bu onun hansı xüsusiyyətindən irəli gəlirdi?", "Əgər bu ixtira qalsa idi, sizcə, hansı fəakətlərə səbəb olardı?"* , *"Siz belə br ixira etsə idiniz, necə hərəkət edərdiniz?"* və s. Çalışmaq lazımdır ki, şagirdlərin cavabları müzakirəni aparmaq üçün lazımi istiqamətə yönləndirilsin. Müəllim bu məqsədlə əlavə suallar verməkdə sərbəstdir.

3-cü addım. https://www.youtube.com/watch?v=uSS_HlnjGag **("Azərbaycan meşələri")** https://www.youtube.com/watch?v=JqhdnhJZKX0 **("Məhv olan meşələr deyil, gələcəyimizdir")** linklərdəki materiallardan da istifadə etmək məqsədəuyğundur.

Müzakirə aparılır. Müzakirə zamanı şagirdlərin fikirlərini faktlarla əsaslandırması, nitqinə uyğun səs tonunu idarə etməsi, müvafiq jest və mimikalardan istifadə etməsi, sözləri düzgün tələffüz etməsi diqqətdə saxlanılır.

Şagirdlər bu qənaətə gəlirlər ki, planetin təhlükəsizliyini təmin etmək üçün meşələrin qorunması vacib amillərdən biridir. Çünki ağaclar, ümumiyyətlə, yaşıllıq estetik gözəllik aşılamaqla yanaşı, həm də insanların yaşaması üçün lazım olan oksigenin təminatçısıdır. Yaşıllıqla yanaşı, dəniz və çayların təmizliyinin qorunması, tullantılarla zibillənməməsi planetimizin təhlükələrdən qorunması üçün vacib və əhəmiyyətlidir. Planetimizin gələcəyi hər birimizin ona münasibətimizdən çox asılıdır.

Şagirdlər fikirlərini "Sınmış budaq" şeirində atanın sözlərinə münasibət bildirməklə də ifadə edə bilərlər.

4-cü addım. Şagirdlərin fikirləri ümumiləşdirilir. Müəllim şagirdlərə tövsiyə edir ki, ixtiralar etməkdən çəkinməyin. Lakin elə ixtiralar edin ki, onlar təbiətin və planetin məhvinə deyil, daha da inkişaf etməsinə səbəb olsun.

LAYİHƏ

5-ci addım. “Sınmış budaq” mətninin lüğət tərkibi üzərində iş aparmaq üçün 7-9-cu tapşırıqlar (səh. 152) icra edilir.

6-cı addım. 10 və 11-ci tapşırıqlar icra edilir. 10 və 11-ci tapşırıqlar vergül işarəsinin işlənməsi ilə bağlı əvvəlki qaydaların təkrar edilməsi üçündür. Tapşırıqların şifahi və ya yazılı şəkildə icrası müəllim tərəfindən müəyyən edilir.

7-ci addım. 16 və 17-ci tapşırıqlar evə verilir. 16-cı tapşırıq qrup şəklində də icra edilə bilər. Bacarığı olan şagirdlər klip də hazırlaya bilər.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

4-cü dərs Sınmış budaq

Standartlar: 2.1.1., 2.1.3., 4.1.1., 4.1.3.

Təlim nəticələri:

Danışan zaman sözləri və cümlələri düzün tələffüz edir.
Müzakirələrdə iştirak edir.
Yazılarında fikirlərini əsaslandırır.
Yazısında durğu işarələrindən düzgün istifadə edir.

İş forması: kollektiv, fərdi, cütlərlə

İş üsulu: müzakirə, müəllimin mühazirəsi, yazı

1-ci addım. Dərs ev tapşırıqlarının yoxlanması ilə başlanır. Müəllim seçmə yolla ev tapşırıqlarını yoxlayır, şagirdləri qiymətləndirir. Qrup tapşırığı olarsa, qrup qiymətləndirməsindən istifadə oluna bilər.

2-ci addım. Müəllim şagirdlərə 6-7 cümlədən ibarət yığcam mətn təqdim edir və mətndəki nitq hissələrini qruplaşdırmağı tapşırır.

Mətnlərə nümunə:

1. Salamlaşdıqdan sonra uşaqlar əyləşdilər. Müəllim diqqətlə sinfə baxdı. Birinci cərgədən axırıncı cərgəyə kimi hər uşağa ayrıca nəzər saldı. Sonra dərs ilinə başlamaları münasibətilə onları təbrik etdi.

2. Martın 21-də gecə-gündüz bərabərləşir. Həmin gün yaz girir. Qar əriməyə başlayır, torpaq üzə çıxır, hər tərəfdə sular aşıb-daşır. Ara verməyən yağışlardan sonra havalar istiləşir.

Tapşırığı icra etmək üçün aşağıdakı iş vərəqlərindən istifadə edə bilər:

LAYİHƏ

İş vərəqi 1

Əsas nitq hissələri	Köməkçi nitq hissələri

İş vərəqi 2

Əsas nitq hissələri	Köməkçi nitq hissələri	Əsaslandırma

Tapşırığı fərqli şəkildə də hazırlamaq mümkündür.

1. Şagirdlərə müxtəlif nit hissələrinə aid sözlər verilir və onları qruplaşdırmaq tapşırılır.
2. Şagirdlərə müxtəlif sözlər verilir və cədvəli tamamlamaq tapşırılır. Məsələn:
   • Nöqtələrin yerinə yazılacaq sözləri müəyyən edin və fikrinizi əsaslandırın.

....	....	....	...	...	....	....	....
çoxlu bir sıra on beş beş-altı	parta qız meşə ekologiya	görmək əylənmək istirahət etmək düşünmək	mən o bütün həmin	gözəl ağıllı maraqlı tərtəmiz	cəld hörmətlə ucadan bərkdən	və ilə amma ki	üçün ötrü -dək sarı

Müəllim suallar vasitəsilə şagirdlərin fikirlərini ümumiləşdirir.

3-cü addım. Dərslikdəki 12-ci tapşırıq (səh.152) icra edilir. Bu tapşırıq ədatların öyrədilməsi üçün motivasiya xarakterlidir. Şagirdlərin cavablarına münasibət bildirilir.

4-cü addım. Müəllim ədatlarla bağlı qaydaları izah edir, fikirlərin nümunələrlə əsaslandırır. Yalnız 4 ədatdan sonra durğu işarələrinin işlənməsi ilə bağlı izahat verir.

5-ci addım. 13-15-ci tapşırıqlar üzərində iş aparılır. Tapşrıqlar müəllimin seçimi əsasında cürlərlə və ya fərdi şəkildə aparıla bilər.

6-cı addım. 18-ci tapşırıq üzərində iş aparılır. Şagirdlərin yazı vərdişlərindən asılı olaraq inşanın həcmi azaldıla bilər. Şagirdlərə yazılarında ədatlardan istifadə etmək tövsiyə edilir.

7-ci addım. Seçmə yolla yazılar oxutdurulur və evə tapşırıq verilir. 156-cı səhifədə verilmiş mövzularda (“Qeyri-adi güllər”, “Dekorativ bitkilər”, “Nadir bitkilər” və s. mövzularda təqdimat hazırlamaq tapşırılır. Yaxşı olar ki, bu tapşırıqların icrası üçün sinif qruplara bölünsün, tapşırığı yerinə yetirmək üçün qruplar birgə fəaliyyət göstərsin. Şagirdlərə dərslikdəki nümunələrlə *(velviçia mirabilis, paflesiya arnoldi)* tanış olmaq, təqdimatı işləmək üçün plan hazırlamaq tövsiyə edilir.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

5-ci dərs

Seyranın göyərçinləri

Standartlar: 3.1.2., 3.1.3., 4.1.2.

Təlim nəticələri:

Mətni intonasiyanın tələblərinə uyğun oxuyur.
Abzaslar arasındakı əlaqəni müəyyən edir.
Abzaslar arasında əlaqəni gözləməklə mətni tamamlayır.

İş forması: kollektiv, kiçik qruplar

İş üsulu: proqnozlaşdırılmış oxu, səsli oxu

1-ci addım. "Seyranın göyərçinləri" mətninin oxusunu müəllim qurduğu dərsdən asılı olaraq oxunun müxtəlif növlərindən uyğun olanını seçməklə təşkil edə bilər.

1. Səsli oxudan istifadə edərkən müəllim əvvəlcə səlis və aydın, hamının eşidəcəyi səs tonu ilə mətni oxuyur. Daha sonra məzmunun şagirdlərin qavrama səviyyəsini öyrənmək üçün onlara sual və tapşırıqlar verir.

2. Müəllim şagirdləri qruplara ayıra bilər və hər qrupdan bir şagirdə mətnin müəyyən hissəsini səsli oxumağı tapşıra bilər. Yaxud sinifdəki bütün şagirdlər mətni növbə ilə səsli oxuyur və suallara cavab verirlər.

3. Səsli oxu ən zamanı sözlərin düzgün tələffüzünə fikir vermək, şagirdin normal tempdə və intonasiyalı oxumağını təmin etməkdir.

Müəllimin düzəliş və qeydləri oxu bitdikdən sonra aparılmalıdır.

4. Proqnozlaşdırılmış və ya fasiləli oxu üçün dərslikdə mətnarası suallar verilmişdir. Mətnin oxusundan əvvəl və ya sonra orfoqrafiya və ya otfoepiya tapşırıqları icra edilir.

2-ci addım. Mətnin birinci hissəsinin oxusu bitdikdən sonra hadisələrin necə davam etməsini bilmək üçün şagirdlər dərslikdə verilmiş planla tanış edilir. Mətnin ardının şifahi və ya yazılı şəkildə hazırlanması müəllimin seçimi əsasında həyata keçirilir.

Mətnin ardı:

Seyran qabağa düşdü. Kabinetin qarşısında müavinlə qarşılaşdılar.

– Seyran kimi axtarırsan?

– Müəllim. Atam direktoru görməyə gəlib- deyə atasını göstərdi.

Dərs hissə müdiri dərhal Seyranın atasına müraciət etdi:

– Gəlməkdə yaxşı etmisiniz. Biz Seyrandan çox razıyıq.Ağıllıdır, çalışqandır, gözüaçıqdır, tərbiyəlidir. Görünür, Seyran gələcəkdə zooloq olacaq. Onda quşlar aləminə böyük maraq var. Məktəbimizdə "Quşları sevin" alı guşə yaratmağı və bu işi Seyrana tapşırmağı düşünürük. Bu barədə onun gözəl fikirləri var.

– Çox sağ olun, müəllim. Elə gəlmişdim ki, Seyranla maraqlanım. Məni arxayın saldınız. Deməli, göyərçinlər onun dərs oxumağına mane olmur?

3-cü addım. Tapşırıq icra edilir. Əgər şagirdlər mətnin ardını yazmaqda çətinlik çəkərlərsə, müəllim mətni bir dəfə oxuya bilər. Şagirdlər yaddaşlarında qalana əsasən onu tamamlaya bilər-

LAYİHƏ

lər. Əlbəttə, ən yaxşısı şagirdlərin təxəyyüllərinə əsasən plana görə mətnin sonluq hissəsini hazırlamalarıdır. Tapşırığın icrası üçün 10-15 dəq. kifayətdir. Tapşırığın kiçik qruplarla icrası məqsədəmüvafuqdir.

4-cü addım. Tapşırıqlar yoxlanır və qrupların yazıları qiymətləndirilir.

5-ci addım. Mətnun məzmunu üzərində iş aparmaq üçün 1-8-ci tapşırıqlar üzərində iş aparılır. Vaxta qənaət etmək üçün taprıqların cütlər vasitəsilə icrası məqsədəmüvafiqdir.

6-cı addım. 9-11-ci tapşırıqlar mətnin lüğət tərkibi üzərində iş aparmaq üçündür. Müəllim əlavə tapşırıqlar da hazırlaya bilər.

7-ci addım. Evə tapşırıq verilir.

- "Göyərçin sülh quşudur" adlı rəsm işi
- "Göyərçinin faydaları nədir?" adlı təqdimat
- "Poçtalyon göyərçinlər" adlı divar qəzeti hazırlamaq
- Verilmiş şəkil əsasında kiçik inşa yazmaq

Şəkli təsvir etmək etmək üçün şagirdlərə plan təqdim etmək olar. Plan şagirdlərə veriləcək şəkildən asılı olaraq dəyişə bilər. Yaxud mövzunu verib həmin mövzuda şəkil tapmağı şagirdə də həvalə etmək olar. Şagird tapdığı şəkil əsasında plan hazırlayıb kiçik inşa yaza bilər.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə görə aparılır.

LAYİHƏ

6-cı dərs

Seyranın göyərçinləri

Standartlar: 2.1.3., 4.1.2., 4.1.3.

Təlim nəticələri:
Müzakirələrdə deyilənləri ümumiləşdirir.
Dialoq hazırlayır.
Modal sözlərin yazılışını bilir.

İş forması: kollektiv, fərdi

İş üsulu: müzakirə, müəllimin mühazirəsi

1-ci addım. Dərs ev tapşırıqlarının yoxlanması ilə başlanır. Şagirdlərin mövzu ilə bağlı fikirləri "Seyranın göyərçinləri" mətni ilə əlaqələndirilir və ümumiləşdirilir. Göyərçinin sülh quşu hesab edilməsi ilə bağlı yığcam məlumat verilir, yaxud şagirdlərdən bununla bağlı hansı biliklərə malik olduqları suallar vasitəsilə soruşulur. Müzakirələr zamanı şagirdlərin sözləri və şəkilçiləri düzgün tələffüz etməsi, sözləri düzgün vurğu ilə tələffüz etməsi, başqalarının fikirlərini ümumiləşdirməsinə və münasibət bildirməsinə, fikirlərini yığcam və dolğun cavablandırılmasına diqqət yetirilir.

2-ci addım. 12-ci tapşırıq yerinə yetirilir. Tapşırıq modal sözlərin öyrədilməsi üçün motivasiya xarakterlidir.

3-cü addım. Müəllim modal sözlər haqqında izahat verir, fikirlərini nümunələrlə əsaslandırır.

4-cü addım. 13-17-ci tapşırıqlar fərdi qaydada şagirdlər tərəfindən icra edilir. Tapşırıqların tez yerinə yetirilməsi üçün şagirdlərə vaxtın verilməsi məqsədəmüvafiqdir.

5-ci addım. 18-ci tapşırıq üzərində iş aparılır. Şagirdlər dialoq hazırlamaq üçün dərslikdə verilmiş istiqamətlə tanış edilir. Lazım gələrsə, plan hazırlanır. Tapşırığın kiçik qruplarla icrası məqsədəmüvafiqdir. Müəllim dialoq hazırlamaq üçün hər qrupa mövzunu özü də təqdim edə bilər. Yaxud bir neçə mövzunu şagirdlərə təqdim edir, şagirdlər mövzunu özü seçir.

6-cı addım. Qruplar mövzu üzərində işləyir və təqdim edirlər. Şagirdlərin yazı işləri qiymətləndirilir.

7-ci addım. Seyranın tərcümeyi-halını yazmaq tapşırılır.

8-ci addım. Dərsin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

7-ci dərs

Kiçik Summativ Qiymətləndirmə

Qədim insanların səyahəti

1,9 min il bundan əvvəl Homo Erqaster (düzyeriyən insan) özünü qorumaq, iri heyvanları ovlayıb ətini kəsmək, qida toplamaq üçün daşdan alətlər düzəltməyi öyrənmişdi. Çapacaqlarla yanaşı, onların yaşadığı ərazilərdə ocaq izləri də qeydə alınmışdı. Homo Erqasterin yaşama tarixi intensiv soyuqlaşma və istiləşmənin **səciyyəvi** olduğu dövrə təsadüf edir. Homo Erqasterlərdə nitqin ilkin rüşeymləri **müşahidə** olunmuşdu. Soyuqlaşma vaxtı buz örtüyü Şimali Amerikanın və Şimal-Qərbi Avrasiyanın əksər hissəsini əhatə edir, qısa istiləşmədə isə geri çəkilirdi. Buzlaşma dövründə Avropanın, Qərbi və Şərqi Asiyanın landşaftı tundraya çevrildi. Soyuqlaşma məməli heyvanların yayılmasına **şərayit** yaratdı. Subtropik ərazilərdə yağıntının miqdarı çoxaldı. Tropik zonalarda isə quraqlıq başladı və yağış meşələrinin sahəsi kiçildi. Buzlaşma səbəbindən su axınlarınn itməsi nəticəsində okean akvatoriyası kiçildi. Dənizlərdə suyun səviyyəsi xeyli aşağı düşdü. Bu, insanların Cənub-Şərqi Asiyanın adalarında məskunlaşmasına şərait yaratdı. Belə dəyişiklik Homo Erqasterin yeni yaşayış yerlərini mənimsəməsinə, kiçik qruplarla Avropa və Asiyada məskunlaşmasına gətirib çıxardı. Homo Sapienslər təqribən 130000 min il əvvəl Şərqi Afrikaya gəlmişdir. Şüurun inkişafı və mükəmməl alətlər onlara bütün planetdə məskunlaşmağa şərait yaratmış, istənilən təbii mühitə uyğunlaşdırmışdır.

"Böyük Coğrafi Kəşflər" kitabından

1. Mətnə əsasən demək olar:

A) Homo Erqasterlər qədim insanlardır.
B) Homo Erqasterlər düz yeriyə bilmirdilər.
C) Onlar əmək alətlərini düzəltməyi Homo Sapienslərdən öyrənmişdilər.
D) Oddan istifadə edə bilmirdilər.
E) Əsasən, dağlarda yaşamışlar.

2. Mətndə hansı cümlə artıqdır? Həmin cümləni seçib yazın və səbəbini göstərin.

_____

_____

3. Hansı cümlələrdən sonra abzasa ehtiyac vardır?

1. 1,9 min il bundan əvvəl Homo Erqaster (düzyeriyən insan) özünü qorumaq, iri heyvanları ovlayıb ətini kəsmək, qida toplamaq üçün silah düzəltməyi öyrənmişdi.
2. Soyuqlaşma vaxtı buz örtüyü Şimali Amerikanın və Çimal-qərbi Avrasiyanın əksər hissəsini əhatə edir, qısa istiləşmədə isə geri çəkilirdi.
3. Tropik zonalarda isə quraqlıq başladı və yağış meşələrinin sahəsi kiçildi.
4. Buzlaşma səbəbindən su axınlarınn itməsi nəticəsində okean akvatoriyası kiçildi.
5. Belə dəyişiklik Homo Erqasterin yeni yaşayış yerlərini məsnimsəməsinə və kiçik qruplarla Avropa və Asiyada məskunlaşmasına gətirib çıxardı.

LAYİHƏ

6. Homo Erqasterlərdə nitqin ilkin rüşeymləri müşahidə olunmuşdu.

4. Mətndəki səbəb və nəticə əlaqələrini göstərin.

Səbəb	Nəticə

5. Aşağıdakı hökmlərdən birini seçib fikrinizi əsaslandırın.

Mətn faktlar əsasında yazılmışdır, çünki _____

Mətn fərziyyələr əsasında yazılmışdır, çünki _____

6. Bunlardan biri *tundra* sözünün izahıdır:

A) Hər tərəfdən dəniz və okeanlarla əhatə olunmuş ən böyük quru sahəsi
B) Meşə ərazisində açıq sahə
C) Meşəlik ərazinin olmadığı çox soyuq ərazi
D) Ağacların sıx və çox olduğu yer
E) Bitki qatının inkişaf etdiyi üst qat

7. Mətnin ilk cümləsində altından xətt çəkilmiş sözləri hansı sözlərlə əvəz etsəniz, daha düzgün olar?

kəsmək _____ toplamaq _____

8. Sözləri ifadə etdiyi məna baxımından uyğunlaşdırın.

tropik	→	Yer kürəsində iki qurşaq arasında aralıq vəziyyətu tutan coğrafi zona
subtropik	→	Yer kürəsinin səthundə ekvatorun hər iki tərəfində yerləşən isti qurşağı

9. Mətndə işlənmiş *çapacaq* sözünün ifadə etdiyi mənanı müəyyən edin. Həmin sözü fərqli mənada cümlədə işlədin.

LAYİHƏ

10. *Bu, insanların Cənub-Şərqi Asiyanın adalarında məskunlaşmasına şərait yaratdı* **cümləsində bu əvəzliyindən sonra vergülün işlənmə səbəbini yazın.**

11. Mətndə verilmiş sayları sözlə yazın.

_____

_____

12. Tünd şriftlə verilmiş sözlərdən hansı səhv yazılmışdır?

1) müşahidə 2) şərayit 3) səciyyəvi

13. Sözlərdən hansının tələffüzü yanlışdır?

A) quraqlıq – [quraqlıx]
B) heyvanları – [heyvannarı]
C) miqdar – [miqdar]
D) buzlaşma – [buzdaşma]

14. Mətnə nəticə hissəsini tamamlamaq üçün bir neçə cümlə yazın.

_____

_____

15. Mətndə altından xətt çəkilmiş sözləri cədvələ əsasən qruplaşdırın.

İsim	Sifət	Say	Əvəzlik	Feil	Zərf	Köməkçi nitq hissələri

LAYİHƏ

8-ci dərs

Təbiət özü-özünü tənzimləyir

Standartlar: 1.1.1., 1.1.2.,3.1.2., 4.1.2.

Təlim nəticələri:

Mətnin tərkib hissələrini əlaqələndirir.
Fakt və hadisələri qruplaşdırır.
Mətni oxuyur.
Abzaslar arasında əlaqə yaratmaq üçün mətni tamamlayır.

İş forması: kollektiv, fərdi, kiçik qruplar

İş üsulu: klaster, debat, müzakirə

1-ci addım. Müəllim dərsə bir neçə üsuldan istifadə etməklə başlaya bilər.

1. Aşağıda verilmiş linklərdən uyğun olanından istifadə etməklə:
   1. https://www.youtube.com/watch?v=s3WtTH06Ask (“Təbiət mənzərələri”)
   2. https://www.youtube.com/watch?v=bVs8aCIFQuI (“Meşə səsləri”)
   3. https://www.youtube.com/watch?v=8x1bYCupdtY (“Yellouston Milli Parkı”)
   4. https://www.amerikaninsesi.org/a/yellouston-milli-parki/4191166.html

2. Dinləmə mətnindən istifadə etməklə

*1872-ci ildə ABŞ-da yaranan və dünyanın ilk milli parkı hesab edlən Yellouston Milli Parkı Aydaho, Vayominq və Montana ştatlarının sərhədlərinin kəsişdiyi ərazidə yerləşir. Parkın sahəsi təxminən 8987 km^2-dir. Çox böyük qeyzerləri ilə tanınan parkda d*ünyadakı isti su qaynaqlarının yarısı *yerləşir. Yelloustonda 300-dən çox qeyzer, 290-dan çox irili-xırdalı şəlalə vardır.*

Yellouston Milli Parkında müxtəlif məməlilər, quşlar, balıqlar və sürünənlərin növləri vardır. Burada, əsasən, Şimal Amerika boz ayısı, Amerika qara ayısı, Kanada maralı, antilop, bizon, çaqqal və vaşaqlar daha çoxdur. Parkın bitki örtüyü zəngindir. Burada bitkilərin 2000-dən çox növünə rast gəlmək olur.

1960-cı ilin sonuna doğru Yelloustonda ayı sayı atrmışdır. Ayılar insanlardan qorxmadıqları üçün parkda sərbəst gəzirlər.

Yelloustonda olan ən önəmli və ən çox ziyarət olunan yerlər *bunlardır: Old Feyzful qeyzeri, Böyük Kanyon, Medison, Mamont isti bulağı, Palçıq yanardağı, Norris, Vest sönmüş qeyzerləri, Yellouston gölü, Fişing körpüsü, Lover-Apper şəlalələri.*

Old Feyzful ən çox ziyarət edilən qeyzerdir. Qeyzer təxminən hər 91 dəqiqədən bir çox yüksək istilik dərəcəsinə çatan isti su və *buxar püskürdür.*

Yelloustonun isti bulaqlarında yaranan müxtəlif rənglər bu sulardakı mikroblardır. Suyun hansı rəngdə olmasını isə suyun temperaturu müəyyən edir. Sürətlə axan Yellouston çayının üzərində yerləşən Aşağı şəlalə parkın ən hündür şəlaləsidir. 94 metr hündürlüyə malik bu şəlalə Niaqaradan 2 dəfə hündürdür.

Parkın ən görməli və turistlərin marağına səbəb olan hadisəsi Old Feytful püskürməsidir.

Yellouston Milli Parkı UNESCO-nun Ümumdünya irsi siyahısına daxil edilmişdir.

LAYİHƏ

Dinləmə mətni üzərində iş aparmaq üçün mətnin tərkib hissələri, fakt və hadisələri müəyyənləşdirməklə bağlı tapşırıqlar hazırlanır.

3. Klasterdən istifadə etməklə "Təbiət nədir?" sualını cavablandırmaqla

Seçdiyi yanaşmadan asılı olaraq müəllim suallarla şagirdlərə müraciət edir.

2-ci addım. Müəllim dərslikdə verilmiş Debat mövzusundan *("Təbiətdə hər şey bir-biri ilə əlaqəlidir")* istifadə edilir. Şagirdlərin fikirləri dinlənilir və ümumiləşdirilir.

3-cü addım. Mətnin oxusu təşkil edilir. Oxunun təşkili üçün müəllim model seçməkdə sərbəstdir. Əvvəlcə mətnin bir hissəsi oxunur. Sonra şagirdlərə *"Sizcə, parkda nə baş verəcək?"* sualı ilə müraciət edilir. Şagirdlərin cavabları qeyd olunur. Sonra şagirdlər üçün dəslikdə verilmiş animasiya nümayiş etdirilir. Şagirdlər videosüjetdə gördükləri ilə öz fərziyyələrini tutuşdururlar. Mətnin ardı oxunur.

4-cü addım. Şagirdlərə *"Sizcə, vəziyyətdən çıxış yolu necə tapıldı?"* sualı ilə müraciət edilir. Cavab variantı seçilir. 2-ci cavab düzgündür. Lakin müəllim cavabın səhv, yaxud düzgün olduğuna münasibət bildirmir. Mətnin ikinci hissəsi oxunur və dərsliyin 163-cü səhifəsində verilmiş – *Sizcə, vəziyyətdən necə çıxış yolu tapılacaq?* sualı ilə şagirdlərə müraciət edilir. Şagirdlər variant seçirlər. Dərhal ikinci süjetə baxış keçirilir. Şagirdlərə baxdıqları süjet əsasında qeydlər götürmək təklif olunur.

5-ci addım. Şagirdlər mətni tamamlamaq üçün onun ardını yazırlar. Tapşırığın qruplar şəklində icrası daha məqsədəmüvafiqdir.

Qeyd. Dərslikdə bu süjet səssiz verilmişdir. Məqəd şagirdlərin gördüklərinə əsasən mətn tərtibetmə bacarığının formalaşdırılmasıdır. Vəsaitdə həmin süjet səslidir. Şagirdlər mətni yazdıqdan sonra müəlim onu səsləndirir. Şagird yazılarının animasiya mətni ilə ist-üstə düşməsi onun diqqət və məntiqinin göstəricisidir.

6-cı addım. Şagirdlərin yazıları yoxlanır. Abzaslararası əlaqə diqqətdə saxlanır.

7-ci addım. Evə şagirdlərin bacarıq səviyyəsi nəzərə alınmaqla tapşırıq verilir:

• Səh.163-də verilmiş tapşrıq *(Mətndə hansı faktlara rast gəldiniz? Canavarlar, onların həyat tərzi haqqında məlumat toplayın. Mətndəki faktların düzgünlüyünü tədiq edin)*

• "Yellouston Milli Parkının florası" mövzusunda təqdimat (divar qəzeti) hazırlamaq

• "Yellouston Milli Parkının faunası" mövzusunda təqdimat (divar qəzeti) hazırlamaq

• Yellouston Milli Parkının komiksinin hazırlanması

• Mövzu ilə bağlı rəsm əsəri çəkmək

• 8-ci tapşırıq (səh. 165)

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

9-cu dərs

Təbiət özü-özünü tənzimləyr

Standartlar: 2.1.3., 2.1.4., 4.1.1., 4.1.2., 4.1.3.

Təlim nəticələri:

Müxtəlif fikirlərə münasibət bildirir.
Müzakirələrdə söylədiyi fikirləri əsaslnadırmaq üçün müxtəlif nümunələrdən istifdə edir.
Fikirlərini əsaslandırmaq üçün müxtəlif nümunələrdən istifdə edir.
Abzaslar arasında əlaqələri gözləməklə mətn yazır.
Yazısında sözlərin düzgün yazılışına və durğu işarələrinin düzgün işlənməsinə diqqət yetirir.

İş forması: kollektiv, cütlər, böyük qruplar

İş üsulu: müzakirə, söz assosiasiyası, yazı

1-ci addım. Dərsə ev tapşırıqlarının yoxlanması ilə başlamaq məqsədəmüvafiqdir. Şagirdlərin yazılarının qiymətləndirilməsi aparılır. Şagirdlərin, yaxud qrupların bir-birini qiymətləndirməsindən də istifadə etmək olar. İşləri təqdim edərkən şagirdlərin sözləri və cümlələri düzgün tələffüz etməsinə, fikri ifadə etmək bacarığına, müzakirələrdə və yoldaşlarının rəyini dinləyən zaman göstərdiyi reaksiyaya, mənfi cəhətlər söylənilərkən dözümlülüyünə, səs tonuna və s. məsələlərə diqqət yetirilir.

2-ci addım. 1-ci tapşırıq üzərində iş aparılır. Şagirdlərə əvvəlcə *"Tənzimlənmə dedikdə nə başa düşürsünüz?"* sualı ilə müraciət edilir. Söz assosiasiyası üsulundan istifadə edilə bilər. Şagirdlərin cavabları lövhəyə qeyd olunur və düzgün variant seçilir. Şagirdlərə ikinci sualla müraciət olunur: *"Təbiətin özü-özünü tənzimlənməsi dedikdə nə başa düşülür (yaxud başa düşürsünüz)?"*

"Sizcə, nə üçün təbiət özünü tənzimləyir?", "İnsan öz fəaliyyətini tənzimləyə bilərmi?", "Bu tənzimlənmə necə baş verir?" və s. suallarından da istifadə oluna bilər. Şagirdlərin cavabları ümumiləşdirilir.

3-cü addım. 2-ci tapşırıq cütlər vasitəsilə, 3-cü tapşırıq kollektiv şəkildə icra edilir. 4-6-cı tapşırıqlar müəllimin seçimi əsasında kollektiv və ya cütlər vasitəsilə icra edilir. 6-cı tapşırığın icrası şagirdlərin nitqində leksik normanın düzgünlüyü baxımından əhəmiyyətli tapşırıqdır. Sözlər aşağıdakı kimi uyğunlaşdırılmalıdır:

1) gəzmək	1) dağ, çəmən, aşağı, çöl, meşə, park, yuxarı, dost
2) otlamaq	2) dağ, çəmən, çöl, meşə
3) qaytarmaq	3) geri, söz, yemək, güclə
4) kəsilmək	4) rabitə, əlaqə, iştaha, qurban, ət, mal-qara

LAYİHƏ

4-cü addım. https://www.youtube.com/watch?v=7Mn4M2O9Y68 (“Meşə və təbiət səsləri”) linkindəki materialdan istifadə etmək olar.

7-ci tapşırıq üzərində iş aparılır. Tapşırıq cütlər və ya böyük qruplar vasitəsilə aparıla bilər. Dərs prosesində vaxta qənaət etmək baxımından böyük qruplarla icrası daha məqsədəuyğundur.

Əvvəlcə 165-ci səhifədə meşənin “sözləri” şagirdlərə oxutdurulur. Mətni oxuyarkən müəllim şagirdlərə meşənin sözlərinə diqqət yetirməyi tövsiyə edir.

Unutmayın ki, meşənin son sözləri budur:

Meşə deyir:

– Meşədə ziyanvericilər olmur. Həşəratlar və quşlar ağacları parçalayır, qidalı maddələrin torpağa düşməsini, yəni maddələr mübadiləsini təmin edir. Əgər ağaclar çürüməsəydi, məhv olmasaydı, torpaqda canlı bitkilər üçün qida maddələri olmazdı. Göbələklər qocalmış və qurumuş ağacların parçalanmasını sürətləndirir. Onlar özləri də digər canlılar üçün qiymətli qidadır. Ziyanverici adı ilə onları məhv etmək parçalanmanı zəiflətmək, torpağın qeyri-münbit olması, quşların və heyvanların qidasız qalması deməkdir. Bitki və ağacların tozlanmasını da quşlar və həşəratlar həyata keçirir. Deməli, meşədə ziyanverici yoxdur. Gördüyün kimi, təbiət özü özünü tənzimləyir.

Şagirdlərə suallarla da müraciət etmək olar: *“Hansı sözlər və ya hadisələr meşəni bu sözləri söyləməyə məcbur edir?”, “Sizcə, nə olmalı idi ki, meşə bu sözləri desin?”, “İnsanların hansı hərəkətləri meşəni bu sözlərideməyə məcbur edir?”* və s.

5-ci addım. Şagirdlər dialoqu hazırlamaq üçün plan da tərtib edə bilərlər. Tapşırıq icra edilir. Tapşırığın icrası üçün 20 dəqiqə kifayətdir. Mətnin məzmununa uyğun olaraq atalar sözləri, aforizmlər, hikmətli sözlərdən də istifadə etmək şagirdlərə tövsiyə edilir. Müəllim bu məqsədlə özü də şagirdlərə belə fikriləri təqdim edə bilər.

Məsələn;

• *İnsan təbiətdən öyrənir, onun havası ilə pərvəriş tapır, ağıla dolur, zənginləşir, təzələnir, təmizlənir. (Heydər Əliyev)*

• *Xoşbəxtliyin birinci və hamının qəbul etdiyi şərti təbiətlə insanın vəhdəti, yəni açıq səma, günəş şüaları altında, təmiz havada insanın torpaqla, çiçəklərlə, heyvanlarla ünsiyyətidir. (Lev Tolstoy)*

• *Təbiətə uyğun olaraq yaşamaq lazımdır. (Mark Tulli Siseron)*

• *Təbiəti sevən, təbiətlə daima təmasda olan insan heç zaman nankor, rəhmsiz, vicdansız ola bilməz. (Həsən Əliyev)*

6-cı addım. Tapşırıqlar yoxlanılır, müzakirəsi təşkil olunur. Şagirdlərin fikirləri “Təbiət özü – özünü tənzimləyir” mətnində ifadə olunan fikirlərlə əlaqələndirilir.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

10-11-ci dərslər

“Yaşıl planet” (hekayənin yazılması)

Standartlar: 2.1.3., 2.1.4., 4.1.1., 4.1.2., 4.1.3.

Təlim nəticələri:

Müxtəlif fikirlərə münasibət bildirir.
Müzakirələrdə söylədiyi fikirləri əsaslnadırmaq üçün müxtəlif nümunələrdən istifdə edir.
Fikirlərini əsaslandırmaq üçün müxtəlif nümunələrdən istifdə edir.
Abzaslar arasında əlaqələri gözləməklə mətn yazır.
Yazısında sözlərin düzgün yazılışına və durğu işarələrinin düzgün işlənməsinə diqqət yetirir.

İş forması: kollektiv, kiçik qruplar, fərdi

İş üsulu: müzakirə, yazı

1-ci addım. Şagirdlərə “Yaşıl planet” adlı hekayə yazmaq təklif olunur. *“Hekayə nədir?”, “Hekayədə neçə obraz olur?”, “Hadisələr necə təqdim olunur?”* və s. suallardan istifadə edilir. Əvvəlki illərdən də şagirdlər hekayənin yazılması ilə tanışdırlar.

MÖVZU: **Təbiət, sağlamlıq, təhlükəsizliyin təmini, planetin qorunması**

AD: YAŞIL PLANET
(Təxminidir. Özünüz istədiyiniz adı seçə bilərsiniz.)

İDEYA: **Təbiətin qorunması planetin təhlükəsizliyidir.**
(Təxminidir. Özünüz ideya müəyyən edə bilərsiniz.)

2-ci addım. Şagirdlərin ekologiya və onun qorunması ilə bağlı fikirləri ümumiləşdirilir.

3-cü addım. Şagirdlər hekayə yazmaq üçün dərsliyin 166-167-ci səhifələrində verilmiş məqsəd və hədəflərlə, plan və istiqamətlə tanış edilirlər. Diqqət mərkəzində yazılavaq hekayədə vacib olan məsələlərə yönəldilir.

PLAN:

- ✓ *Hadisə düşünün.*
- ✓ *Obrazlar yaradın.*
- ✓ *Obrazların dialoquna diqqət yetirin.*
- ✓ *İdeyanı müəyyən edəcək hadisələr düşünün.*
- ✓ *Hadisələrin tərkib hissələrə uyğunluğuna diqqət yetirin.*
- ✓ *Hekayənin yığcam olmasına çalışın.*

LAYİHƏ

İSTİQAMƏT:

- Əsas nitq hissələrindən istifadə
- Köməkçi nitq hissələrindən istifadə
- Müraciət bildirən sözlərdən istifadə
- Təkrarçılığın olmaması üçün əvəzliklərdən istifadə
- Sözlərin düzgün yazılışına diqqət
- Durğu işarələrindən düzgün istifadəyə diqqət

4-cü addım. Şagirdlərlə mövzu ətrafında müzakirələr təşkil edilir, lazım gələrsə, müvafiq videolardan istifadə edilir.

https://www.youtube.com/watch?v=mMbQn1GquC8 ("Meşələr və insanlar")

Hekayənin yazılması üçün müəllim iş formasını seçməkdə sərbəstdir. Tapşırığın fərdi, kiçik və ya böyük qruplarda aparılması dərsin təşkil edilməsindən asılıdır. Hekayənin yazılması üçün kiçik qruplardan istifadə edilməsi tövsiyə edilir. Belə olan halda 4 fərqli hekayə alınacaq.

Müəllim hətta dərs dediyi paralel siniflər (əgər varsa), yoxdursa, sinifdə elə kiçik qruplar arasında "Ən yaxşı hekayə" müsabiqəsi təşkil edə bilər.

5-ci addım. Müəllim şagirdlərin mövzu ilə ətraflı tanış olduqlarına və hekayə yazacaqlarına əmin olduqdan sonra yazının icrasına başlamaq üçün tapşırıq verir..

6-cı addım. Şagirdlər (fərdi və ya kiçik qruplar) hekayəni yazmaq üçün fəaliyyətə başlayırlar. Müəllim yazıları yoxladıqdan sonra növbəti dərsdə hekayələrin oxusu, müzakirəsi və qiymətləndirilməsi təşkil edilir.

Hekayənin qiymətləndirilməsi üçün müəllim standartlardan istifadə etməklə meyarlar hazırlaya bilər.

- Mətnin tərkib hissələrini əlaqələndirir.
- Cümlələri əlaqələndirir.
- Abzasları əlaqələndirir.
- Məzmunu mətnin adına uyğunlaşdırır.
- Məzmunu tam açа bilir.
- Cümlələri düzgün qurur.
- O, bu əvəzliklərindən sonra vergül işarəsindən düzgün istifadə edir.
- Cümlənin sonunda durğu iaşrələrindən düzgün istifadə edir.
- Dialoqlarda durğu işarələrindən düzgün istifadə edir.
- Mürəkkəb sözlərin yazılışına (əgər varsa) düzgün əməl edir.
- Əsas nitq hissələrini düzgün yazır.
- Köməkçi nitq hissələrindən yerində istifadə edir.
- Köməkçi nitq hissələrini düzgün yazır.
- Köməkçi nitq hissələrinin işlənmə yerindən asılı olaraq durğu iaşrələrindən düzgün istifadə edir.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

LAYİHƏ

12-ci dərs

Haqqın səsi

Standartlar: 1.1.2., 2.1.3., 3.1.2., 4.1.1.

Təlim nəticələri:

Dinlədiyi mətndəki hadisələri müəyyən edir.
Müxtəlif fikirlərə münasibət bildirir.
Şeiri ifadəli oxuyur.
Mövzu ilə bağlı fikirlərini əsaslandırır.

İş forması: kollektiv, fərdi, cütlər

İş üsulu: müzakirə, qeydlər götürməklə oxu, auksion, cəld yazı

1-ci addım. Müəllim https://www.youtube.com/watch?v=EZ7z8M5KYJs (Şəhriyarın ifasında "Hedərbabaya salam" şeiri) linkindən istifadə etməklə müəllim dərsə başlaya bilər. Şeir şagirdlərə dinlədilir, müəllim tərəfindən şeir haqqında yığcam məlumat verilir. Sonra *"Məhəmmədhüseyn Şəhriyar kimdir?", "Şairin haqqında hansı məlumata maliksiniz?"* sualları ilə şagirdlərə müraciət edir. Müəllim bu mərhələdə auksion, klaster və ya anlayışın çıxarılması üsullarından istifadə edə bilər. Üsul seçərkən sinfin səviyyəsini nəzərə almaq lazımdır.

Müəllim Şəhriyar haqqında məlumat vermək üçün əvvəlcədən şair haqqında hazırladığı təqdimatı da nümayiş etdirə bilər.

2-ci addım. Müəllim "Haqqın səsi" şeirinin dünyanın qorunması üçün Şəhriyarın insanlara etdiyi çağırışlarla bağlı olduğu haqqında məlumat verir. Şeirin oxusundan əvvəl onun adı üzərində iş aparılır, şagirdlərin şeirin adına münasibət bildirməsi ilə bağlı müzakirə təşkil edilir. Sonra şeirin ifadəli oxusu əvvəlcə müəllim, yaxud ifadəli oxu bacarığına malik hər hansı bir şagird tərəfindən təşkili edilir. Hər bəndin bir şagird tərəfindən oxunması da məqsədəmüvafiqdir. Şeirin oxusunu təşkil edərkən şagirdlərin oxudan əvvəl və oxudan sonrakı fikirlərinə diqqət yetirilir. Oxu zamanı sözlərin düzgün tələffüzü, şagirdlərin səs tonu, ritm, ahəng diqqətdə saxlanılır. Ehtiyac yaranarsa, şagirdlərin oxusuna düzəliş edilir.

Şeirin oxusunun *qeydlər götürməklə oxu* üsulundan istifadə edilməklə təşkili məqsədəmüvafiqdir.

Şeirin oxusundan sonra müəllim onun "Heydərbabaya salam" şeiri ilə oxşar olub-olmadığını və hansı baxımdan oxşar olduğunu soruşur. Bu məqsədlə venn diaqramından istifadə edə bilər.

3-cü addım. Müəllim şeirin oxusu zamanı şagirdlərin götürdüyü qeydlərlə tanış olmaq üçün müzakirələr təşkil edir. *"Sizcə, şeirdə nədən danışılır?", "Şəhriyarı hansı məsələlər narahat edir?" "Bu narahatlıq hissləri hansı misralarda ifadə olunmuşdur?", "Sizdə yeni fikirlər yarandımı?"* və s. suallarla şagirdlərə müraciət edir. Şagirdlərin cavabları ümumiləşdirilir.

4-cü addım. Şagirdlərə *"Zirvədə olmusunuzmu? Oradan ətrafı, doğma yurdu müşahidə etmisinizmi?, Nə hiss etmisiniz?"* sualları ilə şagirdlərə müraciət edir.

Şeirin məzmunu üzərində iş aparmaq üçün şagirdlərə aşağıdakı kimi iş vərəqi təqdim etmək olar:

LAYİHƏ

Şeirin bəndi	Bəndin məzmunu
Bir bax ətrafına, gör dünya nədir? Sonu görünməyən bir xəzinədir. Nə zəngin yaranmış ana təbiət, Torpaqda səxavət, suda səxavət.	Bizi əhatə edən dünyamız əvəzsiz xəzinədir, bizə bəxş olunan ana təbiət zəngindir, torpağı da, suyu da bərəkətlidir.

Tapşırığın cütlərlə icrası tövsiyə edilir.

5-ci addım. Şəklin təsvir edilməsi üçün şagirdlərə tapşırıq verilir. Tapşırığın yazılı və fərdi şəkildə icrası məqsədəmüvafiqdir. Bunun üçün şagirdlərə 10 dəq. vaxt verilir İnşanın həcminin 15-20 cümlədən ibarət olması şagirdlərə tövsiyə edilir.

6-cı addım. Şagirdlərin yazıları oxutdurulur.

7-ci addım. 170-ci səhifədə verilmiş şəkillərin təsviri evə tapşırılır.

8-ci addım. Qiymətləndirmə təlim nəticələrinə görə aparılır.

13-cü dərs Haqqın səsi

Standartlar: 2.1.2., 3.1.1., 4.1.3

Təlim nəticələri:

Danışarkən nitqinə uyğun səs tonu seçir.
Əsas və köməkçi nitq hissələrinin mətndəki rolunu izah edir.
Yazısında nitq hissələrinin yazılışına diqqət yetirir.
Durğu işarələrindən yerində istifadə edir.

İş forması: kollektiv, fərdi, cütlər

İş üsulu: müzakirə, yazı, Venn diaqramı

1-ci addım. Müəllim dərsə ev tapşırıqlarının yoxlanması ilə başlayır. Şagirdlərin yazılarının yığcam müzakirəsi təşkil edilir və qiymətləndirilir. Yaxşı olar ki, müəllim şagirdlərin yazılarını qiymətləndirmək üçün meyarları əvvəlcədən müəyyənləşdirsin. Meyarlara əvvəlki dərslərdə nümunələr vardır.

Daha sonra əvvəlki dərslərdə olduğu kimi, bu mətnin əvvəlcə məzmunu üzərində iş aparılır. Məzmun üzərində iş yekunlaşdıqdan sonra lüğət, dah sonra qrammatik tapşırıqlar üzərində iş aparılır.

2-ci addım. *Siz "Bizim planet" şeiri ilə tanış olmuşdunuz. "Haqqın səsi" şeirini də oxudunuz. Müxtəlif zaman və məkanlarda yaşamasına baxmayaraq, hər iki şairi qürurlandıran və narahat edən məsələlər hansılardır?* sualı ilə şagirdlərə müraciət edilir. Venn diaqramından istifadə edilməklə tapşırığı icra etmək olar.

LAYİHƏ

3-cü addım. Mətnin üzərində iş apararkən əsas diqqət planetimizin qorunması, insanların təhlükəsiz mühitdə yaşaması üçün şairin çağırışlarına, həmin çağırışlara şagirdlərin münasibətinə diqqət yetirilir. Mətnin məzmunu üzərində iş aparmaq üçün 1-9-cu tapşırıqlar yerinə yetirilir. Tapşırıqların cütlər, kollektiv, yaxud fərdi şəkildə icra edilməsi müəllim tərəfindən müəyyənləşdirilir.

4-cü addım. Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 10-13-cü tapşırıqlardan istifadə edilir.

5-ci addım. 14-15-ci tapşırıqlar yerinə yetirilir.

6-cı addım. Şagirdlərin mövzu ilə bağlı fikirləri yekunlaşdırılır. Daha sonra 15-ci tapşırıq üzərində iş aparılır. Tapşırığı icra etmək üçün dərsliyin 173-cü səhfəsində verilmiş plan üzərində iş aparılır. Ehtiyac yaranarsa, plana əlavələr edilə bilər.

PLAN:

- *Pəncərədə yaşıl aləm* ifadəsinin mənasını aydınlaşdırın.
- "Yaşıl aləm"in təsvirini verin.
- "Yaşıl aləm"in qorunması üçün təkliflər verin.
- Fikirlərinizi arqument (sübut) gətirməklə əsaslandırın.
- Fikirlərinizi "Haqqın səsi" əsərində ifadə olunan fikirlərlə əlaqələndirin.
- Fikirlərinizi ümumiləşdirin.

7-ci addım. Şagirdlərin yazıları dinlənilir və qiymətləndirilməsi aparılır.

LAYİHƏ

14-cü dərs

Layihənin yekunu

Standartlar: 2.1.3, 2.1.4., 4.1.2.

Təlim nəticələri:

Müzakirələrdə eşitdiyi fikirləri ümumiləşdirir.
Atalar sözlərindən istifadə edir.
Dialoq qurur.

İş forması: kollektiv, cütlər

İş üsulu: müzakirə, yazı

1-ci addım. Şagirdlərə "Planeti qorumaq üçün nə etmək lazımdır?" sualı ilə müraciət edilir və onların fərziyyələri dinlənilir.

2-ci addım. Uşaqlara Yer kürəsi ilə dialoq qurmaq tapşırığı verilir. Şagirdlər dərslikdəki planla tanış edilir. Müəllim dialoq qurmaq üçün şagirdləri bir daha təlimatlandırır. Əvvəlki illərdə də bu, şagirdlərə öyrədildiyi üçün tapşırığın icrası elə də çətinlik törətməyəcək.

Dialoq qurmaq üçün müəllim iki yanaşmadan istifadə edə bilər.

1. Sinif vahid dialoq quruq. I qrup dialoqun giriş hissəsini; II qrup əsas hissəsini; II qrup nəticə hissəsini qurur.

2. Hər qrupa yığcam bir dialoq qurmaq tapşırılır.

Təqdimat, divar qəzeti də bu yanaşmalardan uyğun olanını seçməklə hazırlana bilər.

3-cü addım. 174-cü səhifədə verilmiş şeir oxunur, məzmun müzakirə edilir. Müəllim təbiətlə bağlı uyğun gördüyü digər şeir nümunələrindən də istifadə edə bilər. Daha sonra dərslikdə ağ çərçivədə verilmiş çağırış oxunur, şagirdlərlə birlikdə müzakirə edilir.

Müəllim *"Meşələrə hücum dedikdə nə başa düşürsünüz?", "Nə üçün yaşıllığın məhvi ən ağır cinayət hesab edilir?", "Təbiətin nizamının pozulması nə deməkdir?"* və s. suallarla şagirdlərə müraciət edilir.

4-cü addım. 174-cü səhifədə verilmiş "Planeti unutma! O sənin yağadığın yerdir!" sxemi üzərində iş aparılır. Şagirdlərlə birlikdə hər bəndin müzakirəsi aparılır. Müzakirələrin yığcam olmasına diqqət yetirin. Mövzu ilə bağlı şagirdlərin fikirlərini yığcam ifadə etməsi onlarda hər-hansı bir mövzuya dəqiq, konkret və lakonik fikir bildirmə bacarıqları formalaşdırır.

5-ci addım. Şagirdlər tapşırığı yazmağa sövq edilir. Qruplarda vəzifə bölgüsünün aparılması tövsiyə edilir. Şagirdlər dərslikdə verilmiş təlimat və plana uyğun işləyirlər. Hekayənin yazılması üçün 25-30 dəq. yetərlidir. Bu, kiçik qruplarla icra edilsə, göstərilən müddət kifayət edəcəkdir.

6-cı addım. Qruplar tapşırığı təqdim edirlər. Müəllim məzmuna, mətnin tərkib hissələrində təsvir edilənlərin, cümlələrin üslubi cəhətdən düzgünlüyünə, eyni zamanda, şagirdlərin düzgün intonasiyasına, düzgün tələffüzə diqqət yetirir. Lazım gələrsə, istiqamət verir.

LAYİHƏ

7-ci addım. Tərkib hissələr arasında əlaqələndirici cümlələrin yazılması üzərində iş aparılır. Bu, şagirdlərdə cümlələr və abzaslar arasında əlaqə yaratmaq bacarığının formalaşması baxımından çox vacibdir.

8-ci addım. Qiymətləndirilmə təlim nəticələrinə uyğun aparılır.

15-ci dərs Şəkil əsasında inşa

Standartlar: 4.1.1., 4.1.2., 4.1.3.

Təlim nəticələri:

Şəkil əsasında inşa yazır və fikirlərini əsaslandırır.
Cümlələr arasında rabitə yaradır.
Abzaslararası əlaqəni gözləyir.
Sözləri və cümlələri düzgün yazır.
Durğu işarələrinin işlənməsinə əməl edir.

İş forması: fərdi

Şagirdlərə şəkil əsasında inşa (və ya esse) yazmaq təklif olunur.

LAYİHƏ

Müəllim fərqli, uyğun bildiyi rəsm əsərlərindən və ya fotolardan istifadə edə bilər. Hər bir şagirdə, yaxud cütlərə fərqli şəkillər də təqdim oluna bilər.

Şagirdlərə plan verilə bilər.

Plan (nümunə):

- Şəkildə nə təsvir olunmuşdur?
- Şəkli necə adlandırardnız?
- Şəklin rəng və formasına münasibət
- Şəklin ifadə etdiyi məzmuna münasibət
- Şəklin ideyası

16-cı dərs Kiçik Summativ Qiymətləndirmə

Yer

Bizim Yer planetimiz Günəş ətrafında dolanan planetlərdən biridir. Bu, qabığı möhkəm dağ s(ü,u)xurlarından, özəyi isə qatı və yanar metaldan olan nəhən(g,k) kürədir. Günəş sisteminin digər planetlərindən fərqli olaraq, Yer **qaz** örtüyü – atm(a,o)sfer təbəqəsi ilə əhatə olunmuşdur. Onun səthinin böyük hissəsi su ilə örtülüdür. Hava və suyun sayəsində planetimizdə həyat mümkün olmuşdur.

Yer **qapalı oval** trayektoriya üzrə daim Günəşin ətrafında **dolanır**. O, saniyədə 30 km sürətlə hərəkət edir və bütün orbiti 365 sutka və 6 saata, yəni bir ilə keçir. Günəşin ətrafında fırlanan Yer eyni zamanda öz oxu ətrafında da hərəkət edir.Yer öz oxu ətrafında hər 24 saatdan bir tam dövr edir.Yer fırlandıqca onun bir tərəfini Günəş işıqlandırır və orada gündüz olur. Digər tərəfi isə kölgədə qalır və orada gecə olur.

Yer kürəsində iqlim şəraitinə görə **dörd** fəsil mövcuddur. Qütb zonalarında və ekvator boyu ərazilərdə **fəsillər** müşahidə edilmir.

Yer qabığı 20 tektonik tavadan ibarətdir. Bu tavaların səthində materiklər yerləşir[1]. Tavalar daim hərəkətdədir.[2] İki tava toqquşanda yer qabığı sınır və dağlar əmələ gəlir[3]. Bəzi yerlərdə tavalar bir-birinə sürtünür və bunun nəticəsində **zəlzələ** və vulkan püskürməsinə səbəb olan **yüksək** təzyiq əmələ gəlir[4].

Yer səthinin **70** faizindən çoxu su ilə **örtülmüşdür**. Planetdə olan suyun 97 faizi dəniz və okeanlarda olan **duzlu** sulardır. Qalan 3 faizi isə çaylar, göllər və buzlaqlarda olan şirin sulardır. Suyun sayəsində planetdə həyat üçün lazım və yararlı olan iqlim əmələ gəlir. Su bütün canlıların yaşaması üçün zəruridir. Ərazidən və yerləşdiyi yerdən asılı olaraq iqlim müx(t,d)əlif zonalarda müxtəlif cür olur. Qütb zonalarında hava həmişə **soyuq**, ekvatorda və tropik zonalarda hava çox isti və rütubətlidir. Mərkəzi zonalarda **iqlim** mülayimdir.

1. *Tavalar bir-birindən aralananda isə onların arasında yaranan çatlardan maqma axır. Maqma soyuyaraq yeni torpaq və ya okeanın dibini əmələ gətirir* cümləsini mətndə nömrələnmiş cümlələrin hansından sonra yerləşdirsəniz, ardıcıllıq pozulmaz?

LAYİHƏ

2. Fikirlərdən biri mətndə vardır:

A) Həyatın mənbəyini yalnız su təşkil edir.
B) Fəsillər bütün ərazilərdə eyni olmur.
C) Palnetdəki suyun əsas hissəi içməli sudur.
D) Günəş saniyədə 50 km. sürətlə Yerin ətrafında dövr edir.
E) Qütb zonalarında hava mülayim olsa da, tropik zonalarda hava həmişə isti olur.

3. Mətnə əsasən demək olar:

1. Su olmasa, həyat olmaz.
2. Həyat yalnız suyun olmasından asılıdır.
3. İqlim zonalardan asılı olaraq dəyişir.
4. Zəlzələ və vulkanlar da gözəlliyin yaranmasına səbəb olur.
5. Atmosfer təbəqəsi Yerdə yaşayışın təmin edilməsində əsasdır.
6. İlin fəsillərinin əmələ gəlməsi iqlim şəraitindən asılıdır.

A) 1, 2, 4, 5 B) 2, 3, 5, 6 C) 1, 3, 5, 6
D) 3, 4, 5 E) 1, 4, 5, 6

4. Birinci cümlədən hansı sözü çıxarsanız, cümlənin məzmununa xələl gəlməz?

_____

5. Mətnə əsasən Yer ilə bağlı fikirlərdən düzgün olanı hansıdır?

6. *Ərazidən və yerləşdiyi yerdən asılı olaraq iqlim müxtəlif zonalarda müxtəlif cür olur* **cümləsində altından xətt çəkilmiş sözləri hansı bir sözlə əvəz etmək olar?**

LAYİHƏ

7. Cədvəli tamamalayın:

çay	→	...
dəniz	→	Okeanın bir hissəsi olub, quru ilə əhatə olunmuş acı-duzlu su ilə örtülü böyük bir sahə
okean	→	...

8. Hansı söz vurğusunun yerinə görə fərqlənir?

A) planetdə B) tavalar C) ekvator
D) tropik E) günəşin

9. Mətndə *Yer* və *Günəş* sözlərinin böyük hərflə yazılmasının səbəbini izah edin.

10. Mətndə altından xətt çəkilmiş cümlələrdə:

- o əvəzliyindən sonra vergül işarəsinin işlənmə səbəbini yazın.

_____

- bu əvəzliyindən sonra vergül işarəsinin işlənmə səbəbini yazın.

_____

11. Sözlərin düzgün və ya səhv yazılışını müəyyən edin.

Sözlər	Yazılış düzdür	Yazılış səhvdir
s(ü,u)xur		
nəhən(g,k)		
atm(a,o)sfer		
müx(t,d)əlif		

12. Mətndə tünd şriftlə verilmiş sözləri cədvələ əsasən qruplaşdırın.

İsimlər	Sifətlər	Saylar	Əvəzliklər	Feil

LAYİHƏ

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2021-ci il 18 iyun tarixli 175 nömrəli Qərarı ilə

təsdiq edilmişdir.

Azərbaycan dilinin orfoepiya normaları

1. Ümumi müddəalar

1.1. Azərbaycan dilinin orfoepiya normaları "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının 2002-ci il 30 sentyabr tarixli 365-IIQ nömrəli Qanununun 13.1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və müasir Azərbaycan ədəbi dilində işlənən söz və şəkilçilərin, eləcə də ixtisarların düzgün tələffüzü qaydalarını müəyyən edir.

1.2. Müasir Azərbaycan şifahi ədəbi dilində tələffüz qaydaları lüğəvi, qrammatik və qrafik şərait prinsiplərinə görə müəyyən edilir və fonetik prinsip əsas götürülür. Bu prinsiplərə uyğun olaraq, Azərbaycan mənşəli sözlərin böyük əksəriyyəti, eləcə də alınma sözlərin müəyyən hissəsi yazıldığı kimi tələffüz edilir: *badam [badam], çəpər [çəpər], ev [ev], göyərçin [göyərçin], Qarabağ [Qarabağ], oğlan [oğlan], paylaşım [paylaşım], lisey [lisey], reqlament [reqlament], yaxşı [yaxşı]* və s. Alınma sözlərin bir çoxunun təlffüzündə əsasən, tarixi-ənənəvi prinsipə üstünlük verilir. Bəzi alınma sözlər Azərbaycan ədəbi dilinin ahənginə, səciyyəvi fonotaktik və fonoloji xüsusiyyətlərinə uyğun şəkildə tələffüz edilir.

1.3. Danışıqda ədəbi dil normaları sabitləşdikcə, tələffüzlə yazı qaydaları arasındakı fərq azalır.

2. Saitlərin tələffüzü

2.1. Müasir Azərbaycan ədəbi dilində saitlər adi, bəzi hallarda isə qısa və uzun tələffüz olunur.

2.2. Ərəb və fars dillərindən bir çox alınma sözlərdə ***a, e, ə, i, ö, u*** saitləri uzun tələffüz olunur və bu hala, əsasən aşağıda göstərilən açıq hecalarda rast gəlinir:

2.2.1. ərəb və fars mənşəli bəzi sözlərin ***a, u, i*** saitləri ilə bitən açıq hecalarında uzanma baş verir: *adil [a:dil], mübariz [müba:riz], hökumət [höku:mət], xəzinə [xəzi:nə], xüsusi [xüsu:si], şagird [şa:girt], vəzifə [vəzi:fə]* və s.;

2.2.2. ərəb mənşəli bir çox sözlərdə ***e, ə, ö*** saitləri mənbə dilin təsirinin nəticəsi olaraq açıq hecada və əsasən, ilk hecada uzun tələffüz olunur: *elan [e:lan], etibar [e:tibar], əla*

LAYİHƏ

[ə:la], memar [me:mar], məna [mə:na], mötəbər [mö:təbər], təmir [tə:mir], tətil [tə:til], şölə [şö:lə] və s.;

2.2.3. ərəb və fars mənşəli sözlərdə ***ba-, bi-, la-, na-*** ön şəkilçilərində saitlər uzun tələffüz olunur: *baməzə [ba:məzə], bitərəf [bi:tərəf], ləməkan [la:məkan], narazı [na:razı]* və s.

2.3. Tərkibində eynicinsli qoşa saitlər olan ərəb mənşəli sözlər bir uzun saitlə tələffüz olunur: *bədii [bədi:], camaat [cama:t], inşaat [inşa:at], maarif [ma:rif], maaş [ma:ş], mətbəə [mətbə:], saat [sa:t], təbəə [təbə:], təəssüf [tə:ssüf], təbii [təbi:] və s.*

2.4. Avropa mənşəli sözlərdəki qoşa ***o*** saiti bir uzun ***[o:]*** və ya adi ***[a]*** səsi ilə tələffüz olunur: *kooperativ [k'aperativ], koordinasiya [k'ardinasiya], zoologiya [zo:logiya], zoopark [zo:park']* və s.

2.5. Müxtəlifcinsli qoşa saitlər aşağıdakı qaydada tələffüz olunur:

2.5.1. ***ai, ia, iə, əi, io*** yanaşı saitlərinin işləndiyi alınma sözlərin tələffüzü zamanı həmin saitlərin arasına ***[y]*** səsi artırılır: *ailə [a:yilə], dairə [da:yirə], vəsait [vəsa:yit], dialekt [diyalek't], dialoq [diyalok'], faciə [fa:ciyə], müdafiə [muda:fiyə], təbiət [təbiyət], radio [radiyo], stadion [stadiyon], zəif [zəyif]* və s.;

2.5.2. ***aə*** yanaşı saitlərinin işləndiyi sözlərdə ***a*** səsi uzun tələffüz olunur: *bəraət [bəra:ət], itaət [ita:ət], qənaət [qəna:ət]* və s.;

2.5.3. ***ae, ea, eə, əa, eo***, ***üa***, ***üə, au, ua, ue, uə*** yanaşı saitlərinin işləndiyi sözlər yazıldığı kimi və uzanma hadisəsi baş vermədən tələffüz olunur: *aerodrom [aerodrom], aeroport [aeroport], okean [okean], realizm [realizm], teatr [teatr], fəaliyyət [fəaliyət], səadət [səadət], teorem [teorem], müalicə [müalicə], müavin [müavin], müəllim [müəllim], müəllif [müəllif], aktual [aktual], aul [aul], dua [dua], duel [duel], maneə [maneə], məcmuə [məcmuə], mətbuat [mətbuat], pauza [pauza], Rauf [Rauf], taun [taun], Zaur [Zaur]* və s.;

Qeyd. *Yanaşı **üa, üə** saitlərində **ü** səsi qısa tələffüz olunur.*

2.5.4. saitlə bitən sözün açıq saitlə başlayan sözlə birləşməsi nəticəsində yaranmış mürəkkəb sözlərin tələffüzündə birinci sözün son saiti düşür: *bacıoğlu [bacoğlu], bibioğlu [biboğlu], əliaçıq [əlaçıx], Əliağa [Ələğa], xalaoğlu [xaloğlu]* və s.

2.6. Rus və Avropa dillərindən alınmış sözlərdə vurğusuz hecalardakı ***o*** saiti vurğulu hecadan əvvəl ***[a]*** səsi ilə tələffüz olunur: *fontan [fantan], laboratoriya [labaratoriya], Moskva [Mask'va], Odessa [Adessa], samovar [samavar]* və s. *Oktyabr* və *noyabr* sözləri yazıldığı kimi deyilir.

2.7. Tərkibində ***ov, öv*** hərf birləşmələri olan sözlərdə səs düşümü hadisəsi baş vermir, fonetik prinsipə uyğun olaraq sözlər yazıldığı kimi tələffüz edilir: *cövhər [cövhər], çovğun [çovğun], dovğa [dovğa], dövlət [dövlət], mövqe [mövqe], mövsüm [mövsüm], novlu [novlu], novruz [novruz], növbə [növbə], şövkət [şövkət], şövq [şövq], tövbə [tövbə]* və s.

LAYİHƏ

3. Samitlərin tələffüzü

3.1. Müasir Azərbaycan ədəbi dilində kar samitlər cingiltili, cingiltili samitlər isə kar tələffüz oluna bilir.

3.2. Söz ortasında eynicinsli qoşa kar samitin ***(kk, pp, tt)*** və ya müxtəlifcinsli iki kar samitin (***st, xt, sk, tk*** və s.) ikincisi cingiltili tələffüz olunur: *səkkiz [səkgiz], təşəkkür [təşəkgür], guppultu [gupbultu], hoppanmaq [hopbammax], əlbəttə [əlbətdə], xəttat [xətdat], taxta [taxda], tüstü [tüsdü], usta [usda], kəskin [kəsgin], ötkəm [ötgəm]* və s.

3.3. Söz ortasında ***qq*** cingiltili samitinin birincisi kar tələffüz olunur: *diqqət [dik'qət], müvəqqəti [müvək'qəti], saqqal [sak'qal], toqqa [tok'qa]* və s.

3.4. Söz ortasında eynicinsli digər qoşa cingiltili (***bb, cc, dd, ll, mm, nn, rr, vv, yy, zz)*** və qoşa kar ***(ff, hh, ss, şş)*** samitlər yazıldığı kimi tələffüz olunur: *addım [addım], amma [amma], bənna [bənna], dəbbə [dəbbə], güllə [güllə], qəyyum [qəyyum], güllə [güllə], qüvvə [qüvvə], ləzzət [ləzzət], meşşan [meşşan], məhəccər [məhəccər], mürəbbə [mürəbbə], rəssam [rəssam], səhhət [səhhət], səyyar [səyyar], şəffaf [şəffaf], terror [terror]* və s.

3.5. Söz ortasında ***kk*** ilə yazılan rus və Avropa mənşəli sözlər bir ***[k']*** ilə tələffüz olunur: *akkordeon [ak'ardeon], akkreditasiya [ak'reditasiya], akkumulyator [ak'umulyator]* və s.

3.6. Ərəb mənşəli sözlərdə ***-iyyat, -iyyət, -iyyə*** şəkilçilərindəki **yy** samitləri ***[y]*** kimi tələffüz olunur: *cəmiyyət [cəmiyət], davamiyyət* [*davamiyət*], *ədəbiyyat [ədəbiyat], fərziyyə [fərziyə], nəzəriyyə [nəzəriyə], riyaziyyat [riyaziyat]* və s.

3.7. Söz ortasında yanaşı gələn müxtəlifcinsli kar samitlərin ikincisi əsasən, cingiltili tələffüz olunur: *axtarış [axdarış], asfalt [asvalt], bəxtiyar [bəxdiyar], böhtan [böhdan], dəftər [dəfdər], dəstə [dəsdə], kəşfiyyat [kəşviyat], məftil [məfdil], məxfi [məxvi], müştəri [müşdəri], püstə [püsdə], saxta [saxda], şaftalı [şafdalı], taxta [taxda], təşkil [təşgil]* və s.

Qeyd. *Kar samitlə bitən sözlərə qoşulan fars mənşəli **-kar, -keş, -paz** şəkilçiləri fars dilindəki leksik mənasını saxladığı üçün (kar "iş", keş "çəkən", paz "bişirən") yazıldığı kimi tələffüz olunur: sənətkar [sənətkar], zəhmətkeş [zəhmətkeş], aşpaz [aşpaz] və s.*

3.8. Söz ortasında ***b, m*** samitlərindən əvvəl gələn ***n*** hərfi ***[m]*** kimi tələffüz olunur: *dinməz [dimməz], günbəz [gümbəz], sönməz [sömməz], sünbül [sümbül], şənbə [şəmbə], zanbaq [zambax]* və s.

3.9. Sonu müxtəlifcinsli ***ft, xt, st, şt*** samitləri ilə bitən sözlərin tələffüzündə aşağıdakı qaydalar gözlənilir:

3.9.1. belə sözlərdən sonra samitlə başlayan şəkilçi və ya söz işləndikdə, ***t*** hərfi tələffüz olunmur: *behiştdən [behişdən], behişt müjdəsi [behiş müjdəsi], xoşbəxtsən [xoşbəxsən], xoşbəxt tale [xoşbəx tale], neftdən [nefdən], neft quyusu [nef quyusu], turist bazası [turis bazası], turistlər [turisdər]* və s.;

LAYİHƏ

3.9.2. belə sözlərdən sonra saitlə başlayan şəkilçi və ya söz işləndikdə, ***t*** hərfi ***[d]*** kimi tələffüz olunur: *behiştin [behişdin], behişt arzusu [behişd arzusu], xoşbəxtin [xoşbəxdin], xoşbəxt adam [xoşbəxd adam], neftin [nefdin], neft axını [nefd axını], turistin [turisdin], turist avtobusu [turisd aftobusu]* və s.

3.10. Çoxhecalı, habelə bəzi təkhecalı sözlərin sonunda işlənən cingiltili ***b, c, d, g*** samitləri aşağıdakı kimi tələffüz olunur:

3.10.1. bu samitlərlə bitən sözlər ayrılıqda işləndikdə, sondakı samit karlaşır: *ağac [ağaç], cəld* [*cəlt*], *corab [corap], dinc* [*dinç*], *fənd* [*fənt*], *gənc* [*gənç*], *ismarıc [ismarıç], kənd* [*kənt*], *qanad [qanat], qəlb* [*qəlp*], *rəng* [*rənk*], *tüfəng [tüfənk]* və s.;

3.10.2. belə sözlərdən sonra samitlə başlayan şəkilçi və ya söz işləndikdə də son samit kar tələffüz olunur: *ağacdan [ağaçdan], ağac budağı [ağaç budağı], corablar [coraplar], corab toxuyur [corap toxuyur], qanadsız [qanatsız], qanad çalmaq [qanat çalmax], tüfəngli [tüfənkli], tüfəng qundağı [tüfənk qundağı]* və s.;

3.10.3. belə sözlərdən sonra saitlə başlayan şəkilçi və ya söz işləndikdə, son samit yazıldığı kimi cingiltili tələffüz olunur: *ağacın [ağacın], ağac altı [ağac altı], corabın [corabın], corab ilməsi [corab ilməsi], qanadın [qanadın], qanad açmaq [qanad açmax], tüfəngin [tüfəngin], tüfəng almaq [tüfəng almax] və s.*

Qeyd. ***Sait+samit, samit+sait+samit*** *modeli olan təkhecalı sözlərdə sondakı* ***b, c, d, g*** *samitləri cingiltili tələffüz olunur: ac [ac], ad [ad], dad [dad], qab [qab], od [od], sac [sac], ud [ud], yad [yad] və s.*

3.11. Qapalı hecalardakı ***q*** samiti aşağıdakı qaydada tələffüz olunur:

3.11.1. Azərbaycan mənşəli çoxhecalı sözlərin sonundakı ***q*** samiti ***[x]*** kimi tələffüz olunur: *balıq [balıx], bucaq [bucax], buruq [burux], qonaq [qonax], otaq [otax], yanacaq [yanacax]* və s.;

3.11.2. belə sözlərdən sonra samitlə başlayan şəkilçi və ya söz işləndikdə, ***q*** samiti ***[x]*** kimi tələffüz olunur: *qonaqsan [qonaxsan], qonaq sözü [qonax sözü], qonaqsevən [qonaxsevən], qonaq-qara [qonax-qara]* və s.;

3.11.3. belə sözlərdən sonra saitlə başlayan şəkilçi işləndikdə, ***q*** samiti yazıda olduğu kimi, tələffüzdə də ***ğ*** səsinə keçir: *otağa [otağa], balığın [balığın], yanacağa [yanacağa], yarpağı [yarpağı]* və s.;

3.11.4. belə sözlərdən sonra saitlə başlayan söz işləndikdə (həm mürəkkəb sözlərdə, həm də söz birləşmələrində), ***q*** samiti ***[ğ]*** kimi tələffüz olunur: *bulaqotu [bulağotu], dodaqaltı [dodağaltı], uşaq oyuncağı [uşağ oyuncağı], qonaq evi [qonağ evi]* və s.;

3.11.5. ərəb mənşəli alınma sözlərdə söz ortasında kar samitdən əvvəl işlənən ***q*** samiti ***[k']*** kimi tələffüz olunur: *iqtisad* [*ik'tisat*], *nöqsan [nök'san], nöqtə [nök'tə], məqsəd [mək'sət], rəqs [rək's], təqsir [tək'sir]* və s.;

3.11.6. alınma sözlərin sonundakı ***q*** samiti ***[k']*** kimi tələffüz olunur: *filoloq [filolok'], haqq [hak'], müttəfiq [mütdəfik'], nifaq [nifak'], şəfəq [şəfək'], şərq [şərk']* və s.;

LAYİHƏ

3.11.7. ***q*** hərfi ilə bitən alınma sözlərdən sonra samitlə başlayan şəkilçi və ya söz işləndikdə, ***q*** samiti ***[k']*** kimi tələffüz olunur: *üfüqdən [üfük'dən], üfüq xətti [üfük' xətdi], şərqşünas [şərk'şünas], şərq qütbü [şərk' qütbü], haqdan [hak'dan], haqq söz [hak' söz], nahaqdan [nahak'dan], nahaq danışıq [nahak' danışıx]* və s.;

3.11.8. ***q*** hərfi ilə bitən alınma sözlərdən sonra saitlə başlayan şəkilçi və ya söz işləndikdə, ***q*** samiti yazıldığı kimi tələffüz olunur: *təzyiqi [təzyiqi], təzyiq artdıqca [təzyiq artdıxca], üfüqə [üfüqə], üfüq arxasında [üfüq arxasında]* və s.

3.12. ***K*** hərfi ilə bitən sözlər aşağıdakı qaydada tələffüz olunur:

3.12.1. Azərbaycan mənşəli çoxhecalı sözlərin sonundakı ***k*** hərfi cingiltili ***y*** samitinin kar qarşılığı olan ***[x']*** kimi tələffüz olunur: *bələk [bələx'], çiçək [çiçəx'], çiyələk [çiyələx'], diləк [diləx'], dirrik [dirrix'], ərik [ərix'], körük [körüx']* və s.;

Qeyd. *Azərbaycan əlifbasında **[x']** səsini ifadə edən ayrıca hərf olmadığı üçün həmin səs şərti olaraq **y** samitinin kar qarşılığı kimi qəbul edilmişdir.*

3.12.2. bu qəbildən olan sözlərdən sonra samitlə başlayan şəkilçi və ya söz işləndikdə də ***k*** samiti ***[x']*** kimi tələffüz olunur: *çiçəklər [çiçəx'lər], çiçək dərdim [çiçəx' dərdim], diləksiz [diləx'siz], dilək tutmaq [diləx' tutmax], ərikdən [ərix'dən], ərik mürəbbəsi [ərix' mürəbbəsi], körükdə [körüx'də], körük basmaq [körüx' basmax] və s.;*

3.12.3. belə sözlərdən sonra saitlə başlayan şəkilçi işləndikdə, ***k*** samiti yazıda olduğu kimi tələffüzdə də ***[y]*** səsinə keçir: *çiçəyin [çiçəyin], diləyimiz [diləyimiz], əriyə [əriyə], körüyü [körüyü]* və s.;

3.12.4. belə sözlərdən sonra saitlə başlayan söz işləndikdə, ***k*** samiti ***[y]*** kimi tələffüz olunur: *çiçək ətri [çiçəy ətri], döşəküzü [döşəyüzü], ərik ağacı [əriy ağacı], kəklikotu [kəkliyotu] və s.;*

3.12.5. Azərbaycan mənşəli təkhecalı sözlərin sonundakı ***k*** samiti ***[k]*** kimi tələffüz olunur: *bərk [bərk], börk [börk], görk [görk], tək* [*tək*], *tük* [*tük*], *türk [türk]* və s. Belə sözlərdən sonra saitlə və ya samitlə başlayan şəkilçi və ya söz işləndikdə də ***k*** samiti [***k***] kimi tələffüz olunur*: bərk odun [bərk odun], börkdə [börkdə], görk üçün [görk üçün], türkün [türkün], türklər [türklər], türk dövlətləri [türk dövlətləri], türk ordusu [türk ordusu] və s.;*

3.12.6. ərəb və fars mənşəli təkhecalı və çoxhecalı sözlərin sonundakı ***k*** samiti ***[k]*** kimi tələffüz olunur: *çirk [çirk], əmlak [əmlak], idrak [idrak], mübarək [müba:rək], şərik [şərik], tədarük [tədarük], tərk [tərk]* və s. Belə sözlərdən sonra saitlə və ya samitlə başlayan şəkilçi və ya söz işləndikdə də ***k*** samiti ***[k]*** kimi tələffüz olunur*: çirkli* [*çirkli*], *şərikli çörək [şərikli çörəx´], tərk etmək [tərk etməx´], əmlakdan [əmlakdan], əmlakımız [əmlakımız], əmlak ortağı [əmlak ortağı], əmlak toxunulmazlığı [əmlak toxunulmazlığı]* və s.

3.13. Rus və Avropa mənşəli iki və daha çox hecalı sözlərdə ***k*** hərfi özündən sonra incə sait gəldikdə ***[k]*** kimi *(anket, buket, okean* və s.), qalın sait və samit gəldikdə isə ***[k´]*** kimi tələffüz olunur: *ekran [ek'ran], koronavirus [k´aronavirus], aktual [ak'tual] və s.*

Qeyd. *Rus və Avropa mənşəli təkhecalı sözlərin sonundakı **k** samiti [**k´**] kimi tələffüz olunur: bank [bank'], fakt [fak't], feyk [feyk´], tank [tank´] və s.*

LAYİHƏ

4. Şəkilçilərin tələffüzü

4.1. Üçüncü şəxsin təkini bildirən ***-dır⁴*** xəbərlik şəkilçisi ***[-dı⁴]*** kimi tələffüz olunur: *ağıllıdır [ağıllıdı], doludur [doludu], gözəldir [gözəldi], gözləməlidir [gözdəməlidi], istəyəsidir [isdiyəsidi], səfərdədir [səfərdədi], üstünlükdür [üsdünnüx'dü], yaxınlıqdadır [yaxınnıxdadı], yaxşıdır [yaxşıdı]* və s.

4.2. İkinci şəxsin cəmini bildirən ***-sınız⁴*** xəbərlik şəkilçisi ***[-sız⁴]*** kimi tələffüz olunur: *bacısınız [bacısız], böyüksünüz [böyük'süz], gəlirsiniz [gəlirsiz], gözəlsiniz [gözəlsiz], qohumsunuz [qohumsuz], qorxursunuz [qorxursuz], ölçürsünüz [ölçürsüz]* və s.

4.3. Zərf düzəldən ***-la²*** şəkilçisi, həmçinin ***ilə*** bağlayıcısı və qoşmasının şəkilçiləşmiş ***-la²*** forması ***[-nan²]*** şəklində vurğusuz tələffüz olunur: *atamla anam [atamnan anam], bacımla [bacımnan], cəsarətlə [cəsa:rətnən], qələmlə [qələmnən], namusla [namusnan], sürətlə [sürətnən], telefonla [telefonnan]* və s.

Qeyd. ***İlə*** *bağlayıcısı və qoşması saitlə bitən sözlərə qoşulduqda,* ***[-ynan], [-ynən]*** *kimi tələffüz olunur: atası ilə [atasıynan], dostu ilə [dostuynan], gözü ilə [gözüynən], nənəsi ilə babası [nənəsiynən babası] və s.*

4.4. ***-dan²*** çıxışlıq hal şəkilçisi ***m, n*** hərfləri ilə bitən sözlərə qoşul-duqda, ***[-nan²]*** kimi tələffüz olunur: *adamdan [adamnan], bədəndən [bədənnən], gözümdən [gözümnən], meydandan [meydannan]* və s.

4.5. ***A, ə*** saitləri ilə bitən çoxhecalı sözlərə ***y*** bitişdirici samiti ilə başlayan qrammatik şəkilçilər (***-ya², -yır⁴, -yar², -yan², -yacaq+, -yası², -yaraq², -yarkən², -yıb⁴, -yınca⁴*** və s.) qoşulduqda, bu saitlər özündən əvvəlki hecaya uyğun qapalı saitlə ***([ı], [i], [u], [ü])*** tələffüz olunur: *almayacaq [almıyacax], anaya [anıya], bağlayır [bağlıyır], başlayar [başdıyar], dəvəyə [dəviyə], gözləyəsidir [gözdüyəsidi], kölgəyə [kölgüyə], oxşayan [oxşuyan], oynayınca [oynuyunca], söyləyən [söylüyən]* və s.

4.6. ***L*** samiti ilə başlayan bəzi şəkilçilər ***d, n, r, s, ş, t, z*** samitləri ilə bitən sözlərə qoşulduqda, şəkilçinin ilk samiti assimilyasiyaya uğrayaraq fərqli tələffüz olunur:

4.6.1. ***-lı⁴*** şəkilçisi ***[-dı⁴], [-rı⁴], [-nı⁴]*** kimi tələffüz olunur: *atlı [atdı], canlı [cannı], dəyərli [dəyərri], duzlu [duzdu], qanadlı [qanatdı], qanlı [qannı], qarlı [qarrı], səsli [səsdi], söyüdlü [söyütdü], sözlü [sözdü]* və s.;

4.6.2. ***-lıq⁴*** şəkilçisi ***[-dıx⁴], [-rıx⁴], [-nıx⁴]*** kimi tələffüz olunur: *birlik [birrix'], daşlıq [daşdıx], qaranlıq [qarannıx], memarlıq [me:marrıx], pərtlik [pərtdix'], sərtlik [sərtdix'], uzunluq [uzunnux], yazlıq [yazdıx]* və s.;

4.6.3. ***-la+*** şəkilçisi ***[-da²], [-ra²], [-na²]*** kimi tələffüz olunur: *banlamaq [bannamax], dərmanlamaq [dərmannamax], düyünləmək [düyünnəməx'], hazırlamaq [hazırramax], təmizləmək [təmizdəməx']* və s.;

4.6.4. ***-lan²*** şəkilçisi ***[-dan²], [-nan²], [-ran²]*** kimi tələffüz olunur: *alqışlanmaq [alqışdammax], canlanmaq [cannammax], cəsarətlənmək [cəsa:rətdəmməx'], tumarlanmaq [tumarrammax], zəhərlənmək [zəhərrəmməx']* və s.;

LAYİHƏ

4.6.5. ***-laş²*** şəkilçisi ***[-daş²], [-raş²], [-naş²]*** kimi tələffüz olunur: *cavanlaşmaq [cavannaşmax], dərdləşmək [dərtdəşmək'], fikirləşmək [fikirrəşmək'], qatarlaşmaq [qatarraşmax]* və s.;

4.6.6. ***-lar²*** şəkilçisi ***[-dar²], [-rar²], [-nar²]*** kimi tələffüz olunur: *alətlər [a:lətdər], atlar [atdar], buludlar [bulutdar], dənizlər [dənizdər], əsgərlər [əsgərrər], qızlar [qızdar], mislər [misdər], narlar [narrar], oğlanlar [oğlannar], sərhədlər [sərhətdər], səslər [səsdər]* və s.;

4.6.7. ***-laq*** şəkilçisi ***[dax]*** kimi tələffüz olunur: *duzlaq [duzdax], qışlaq [qışdax], otlaq [otdax]* və s.

4.7. Feildən isim və ya sifət düzəldən ***-ki, -kü; -kin, -kün; -kən*** şəkilçiləri kar samitlə bitən sözlərə qoşulduqda, şəkilçidəki ***k*** samiti ***[g]*** kimi tələffüz olunur: *döyüşkən [döyüşgən], itkin [itgin], kəskin [kəsgin], küskün [küsgün], səpki [səpgi], sürüşkən [sürüşgən], sürtkü [sürtgü]* və s.

4.8. **Q** samiti ilə bitən şəkilçilər (***-ıq, -uq; -aq, -q; -lıq, -luq; -laq; -caq; -cıq; -araq; -acaq; -anaq*** və s.) söz sonunda və ya samitlə başlayan digər şəkilçidən əvvəl işləndikdə, ***[x]*** kimi tələffüz olunur: *bolluq [bollux], bozaraq [bozarax], daraq [darax], dayanacaq [dayanacax], oyuncaq [oyuncax], saçaq [saçax], tozanaq [tozanax], yaylaq [yaylax]* və s.

4.9. ***K*** samiti ilə bitən şəkilçilər (***-ik, -ük; -ək, -k; -lik, -lük; -lək; -cək; -cik, -cük; -ərək; -əcək; -ənək*** və s.) söz sonunda və samitlə başlayan digər şəkilçidən əvvəl işləndikdə, ***[x']*** kimi tələffüz olunur: *bəzək [bəzəx'], biçənək [biçənəx'], döşək [döşəx'], evcik [evcix'], əlcək [əlcəx'], əzik [əzix'], gələcək [gələcəx'], gəlincik [gəlincix'], işlək [işdəx'], sönərək [sönərəx'], sönük [sönüx'], şənlik [şənnix'], üzlük [üzdüx'], yelləncək [yelləncəx']* və s.

4.10. ***M*** və ***n*** samitləri ilə bitən sözlərdən sonra işlənən ***-dan²*** çıxışlıq hal şəkilçisi ***[-nan²]*** şəklində tələffüz olunur: *qardaşımdan [qardaşımnan], məndən [mənnən], oğlandan [oğlannan], ondan [onnan], sözümdən [sözümnən], üzümdən [üzümnən], vətəndən [vətənnən]* və s.

4.11. ***C*** samiti ilə bitən ***-ınc⁴; -qac², -ğac²; -c*** və s. şəkilçilər söz sonunda və samitlə başlayan digər şəkilçidən əvvəl işləndikdə, ***[ç]*** kimi tələffüz olunur: *gülünc [gülünç], inanc [inanç], qazanc [qazanç], sayğac [sayğaç], sevinc [sevinç], süzgəc [süzgəç], tıxac [tıxaç], tutqac [tutqaç]* və s.

4.12. Qoşa kar samitlə bitən təkhecalı sözlərdən (***həkk, şəkk, xətt*** və s.) sonra saitlə başlayan şəkilçi və ya söz işləndikdə, qoşa kar samitin ikincisi cingiltili tələffüz olunur: *şəkkin* [*şəkgin*], *şəkk etmək* [*şəkg etməx´*], *həkk olunmaq* [*həkg olummax*], *xəttin* [*xətdin*], *xəttat* [*xətdat*], *xətt üstündə* [*xətd üsdündə*] və s.

4.13. Müxtəlifcinsli samitlərlə bitən ***elm, fəhm, həcm, hökm, rəhm, rəsm, sehr, səhm, sədr, üzr, üzv, zəhm, zülm*** kimi ərəb mənşəli təkhecalı sözlərə samitlə başlayan şəkilçi qoşulduqda, tələffüz zamanı söz kökündəki samitlər arasına qapalı sait əlavə edilir: *elmli [elimli], hökmdar [hökümdar], hökmsüz [hökümsüz], rəhmli [rəhimli], sehrli [sehirri], sədrlik [sədirrix'], səhmdar [səhimdar], üzrsüz [üzürsüz], üzvlük [üzüvlüx'], zəhmli [zəhimli]* və s.

4.14. ***İdi, imiş*** hissəcikləri saitlə bitən sözlərə qoşulduqda, ***[-ydı], [-ydi], [-ymış], [-ymiş]*** şəklində tələffüz olunur: *dərməli idi [dərməliydi], dərməli imiş [dərməliymiş], qazası idi [qazasıydı], qazası imiş [qazasıymış]* və s.

LAYİHƏ

4.15. ***-stan (-ıstan, -istan, -ustan, -üstan)*** şəkilçilərindəki ***t*** kar samiti ***[d]*** kimi tələffüz olunur: *Ərəbistan [Ərəbisdan], gülüstan* [*gülüsdan*]*, Qazaxıstan [Qazaxısdan], Monqolustan [Monqolusdan], Türküstan [Türküsdan]* və s.

4.16. ***-dıqda, -dikdə, -duqda, -dükdə; -dıqca, -dikcə, -duqca, dükcə; -araq, -ərək*** şəkilçilərindəki ***q*** hərfi ***[x]*** kimi, ***k*** hərfi isə ***[x']*** kimi tələffüz olunur: *dincəldikcə [dincəldix'cə], gəldikdə [gəldix'də], qalaraq [qalarax], gördükcə [gördüx'cə], oxuduqca [oxuduxca], öyrənərək [öyrənərəx']* və s.

5. İxtisarların və qısaltmaların tələffüzü

5.1. İxtisarlar onları təşkil edən hərflərin sayından, sait və samit hərflərin yerləşməsindən, yalnız samit və ya sait hərflər əsasında formalaşmasından asılı olaraq aşağıdakı kimi tələffüz olunur:

5.1.1. ixtisarlar yalnız sait və ya samit hərflərdən ibarət olduqda, onlar hərflərin əlifbadakı adlarına uyğun tələffüz olunur: *Elmlər Akademiyası – EA [E-A], Dövlət Təhlükəsizliyi Xidməti – DTX [De-Te-Xe], Bakı Şəhər Təcili Təxirəsalınmaz Tibbi Yardım Stansiyası – BŞTTTYS [Be-Şe-Te-Te-Te-Ye-Se]* və s.*;*

5.1.2. sait və samit hərflərdən ibarət olan ixtisarlar sait hərflərin yerləşməsindən asılı olaraq aşağıdakı kimi tələffüz olunur:

1. ixtisardakı birinci hərf sait, ondan sonra gələn bütün hərflər samit olduqda, hərflər əlifbadakı adlarına uyğun tələffüz olunur: *Avropa Şurası – AŞ [A-Şe], Amerika Birləşmiş Ştatları – ABŞ [A-Be-Şe], Ümumdünya Demokratik Gənclər Federasiyası – ÜDDGF [Ü-De-De-Ge-Fe]* və s.;

2. sait hərf ixtisarın ortasında və ya sonunda olduqda, ondan əvvəl və ya sonra gələn samit hərflər yazı qaydasına uyğun tələffüz olunur: *Yeni Azərbaycan Partiyası – YAP, Bütöv Azərbaycan Birliyi – BAB, Dünya Azərbaycanlıları Konqresi – DAK, Xəzər Dəniz Gəmiçiliyi Texniki İstehsalat Birliyi – XDGTİB [Xe-De-Ge-TİB], Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti – KHVTİC [Ke-He-Ve-TİC]* və s.;

3. tərkibində iki və daha artıq sait hərf olan ixtisarlar əsasən, heca tələffüzü ilə deyilir: *NATO [NA-TO], ATƏT [A-TƏT], AMEA [A-ME-A], Kama avtomobil zavodu – KAMAZ [KA-MAZ]* və s.;

5.1.3. tərkibində *L, M, N, R* hərfləri olan ixtisarlarda, həmin hərflərdən əvvəl gələn digər samit hərfin adındakı sait səs nisbətən uzun tələffüz olunur: *Birləşmiş Millətlər Təşkilatı – BMT [Be:M-Te], AFR [A-Fe:R], Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – ƏƏSMN [Ə-Ə-Se:M-eN], Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi – BŞMŞBİ [Be-Şe:M-Şe-Bİ]* və s.

5.2. Bəzi qısaltmalar yazıldığı kimi tələffüz olunur: *Azərnəşr [Azərnəşr], Azneft [Azneft]* və s.

LAYİHƏ

6. Vurğunun tələffüzü

6.1. Azərbaycan dilində vurğu əsasən, sözün son hecasına düşür. Bu, keçici sabit vurğudur: *kitáb – kitablar – kitablarím – kitablarımdán, gözə´l – gözəllə´ş – gözəlləşdi´r – gözəlləşdiri´l – gözəlləşdiriləcə´k* və s.

6.2. Rus və Avropa mənşəli sözlərdə vurğu əsasən, mənbə dilə uyğun olaraq işlədilir: *angi´na, apelyásiya, arxitéktor, fáktor, fantáziya, kuri´kulum, qaleréya, qálstuk, li´der, lóbbi, lokál* və s.

Qeyd. *Azərbaycan dilində dəyişikliyə məruz qalan rus və Avropa mənşəli sözlərdə vurğu sonda işlənir: aptéka – apték, qazéta – qəzét, proqrámma – proqrám və s.*

6.3. Tələffüz zamanı vurğusu dəyişməklə mənası dəyişən sözlər nəzərə alınır*: akadémik* (isim) – *akademi´k* (sifət), *antibiótik* (isim) – *antibioti´k* (sifət), *eléktrik* (isim, kim?) – *elektri´k* (isim, nə?), *klássik* (isim) – *klassi´k* (sifət), *xü´lasə* (modal söz) – *xülasə´* (isim), *mü´tləq* (zərf) – *mütlə´q* (sifət), *nə´hayət* (modal söz) – *nəhayə´t* (isim), *ritórik* (isim) – *ritori´k* (sifət), *qaçа´raq* (feili bağlama) – *qaçaráq* (zərf)*, çapáraq* (feili bağlama) – *çaparáq* (zərf) və s.

6.4. Bəzi son şəkilçilər vurğusuz tələffüz olunur:

6.4.1. isim düzəldən ***-gil, -ov (-ova), -yev (-yeva)*** şəkilçiləri vurğusuz tələffüz olunur: *qardaşímgil, əmi´mgil; Ağáyev, Sultánov* və s.;

6.4.2. zərf düzəldən ***-la² [-nan²], -ca², -casına², -ən*** şəkilçiləri vurğusuz tələffüz olunur: *inádla, qəhrəmanlíqla, cəsarə´tlə, ingili´scə, tü´rkcə, yáşca, xai´ncəsinə, namə´rdcəsinə, qəhrəmáncasına, insáfən, qə´flətən, dáxilən* və s.;

6.4.3. xəbərlik (şəxs) şəkilçiləri vurğusuz tələffüz olunur:

1. 1-ci şəxs ***-am² (-yam²), -ıq⁴ (-yıq⁴)***: *azádam, azádıq, oxumalíyam, oxumalíyıq* və s.;
2. 2-ci şəxs ***-san², -sınız⁴, -ın⁴***: *azádsan, azádsınız, oxumalísınız, oxúyun* və s.;
3. 3-cü şəxs ***-dır⁴, -dırlar⁴, -lar²***: *azáddır, azáddırlar, oxumalídır, oxumalídırlar, oxuyúrlar* və s.;

Qeyd. *Feilin şərt şəkli, xəbər şəklinin şühudi keçmiş zamanı şəxsə görə təsriflənərkən şəxs sonluqları vurğulu tələffüz olunur (oxusanız, oxusalár, oxudunúz, oxudulár və s.), əmr şəkli şəxsə görə dəyişərkən 1-ci və 3-cü şəxslərdə şəxs sonluğu vurğulu tələffüz olunur (oxuyúm, oxusún, oxuyáq, oxusunlár və s.).*

6.4.4. feil şəkillərinin hekayəti ***idi (-dı⁴)***, rəvayəti ***imiş (-mış⁴)***, şərti ***isə (-sa²)*** şəkilçi kimi sözə bitişik yazıldıqda vurğu qəbul etmir: *oxuyacáqdı, oxuyacáqmış, oxuyacaqsa* və s.;

Qeyd. *Müasir Azərbaycan dilində* ***-arkən², -mışkən⁴*** *feili bağlama şəkilçisinin formalaşmasında iştirak edən* ***-kən (-ikən)*** *hissəciyi vurğusuz tələffüz olunur: oxuyárkən, oxumúşkən, deyə´rkən, demi´şkən və s.*

LAYİHƏ

6.4.5. ***-ma², -mə², -m*** inkar şəkilçisi vurğusuz tələffüz olunur: *oxúmadı, bi´lmədi; oxúmayacaq, bi´lməyəcək, oxúmur, bi´lmir* və s.;

Qeyd. *Xəbər şəklinin indiki zamanından fərqli olaraq, qeyri-qəti gələcək zamanda inkar şəkilçisi **(-m)** işlənmiş heca vurğulu tələffüz olunur: oxumáram, bilmə´rəm; oxumázsan, bilmə´zsən və s.*

6.4.6. ***ilə*** bağlayıcısının və qoşmasının şəkilçiləşmiş ***-la² [-nan²]*** forması, ***-mı⁴*** sual ədatı vurğusuz tələffüz olunur: *torpağímla, ölkə´mlə, atámla anám; oxudúnmu, bildi´nmi; oxuyúrmu, bili´rmi* və s.

6.5. Sözdən xitab kimi istifadə olunduqda vurğu əvvəlki hecalara keçə bilər: *Azərbaycán – Azə´rbaycan, Vətə´n – Və´tən* və s.

LAYİHƏ

İstifadə olunmuş ədəbiyyat

1. Abdullayev N. “Nitq mədəniyyətinn əsasları”. Bakı, 2013.
2. Abdullayev N.Ə., Məmmədov Z.T. “Müəllimin nitq mədəniyyəti”. Bakı, 2002.
3. A.Qurbanov. Ümumi dilçilik, II cilddə.
4. Axundov A. Ümumi dilçilik. Bakı, 1973.
5. A.Abbasov, H.Məmmədov. “İmla mətnləri və işgüzar sənədlər”. Bakı, 2004.
6. Azərbaycan dilinin antonimlər lüğəti. Bakı, “Şərq-Qərb”, 2007.
7. Azərbaycan dilinin dialektologiya lüğəti. Bakı, “Şərq-Qərb”, 2007.
8. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. Bakı, “Şərq-Qərb”, 2013.
9. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, “Elm”, 2021.
10. Azərbaycan dilinin sinonimlər lüğəti. Bakı, “Yazıçı”, 1990.
11. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. AMEA Nəsimi adına Dilçilik İnstitutu. Bakı, “Şərq-Qərb”, 2007.
12. Böyük coğrafi kəşflər. Bakı, “Çıraq”, 2013.
13. Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov. “Müasir Azərbaycan dili” (sintaksis). Bakı, “Şərq-Qərb”, 2007.
14. Ə.Əfəndizadə, Ə.Abbasov. “İmla məcmuəsi”. Bakı, 2006
15. Əliyev K. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2001
16. İnsan hüquqlarının tədrisi (metodik vəsait). Bakı, 2003.
17. İlyas Əfəndiyev. Seçilmiş əsərləri. 3 cilddə. Bakı, “Avrasiya Press”, 2005.
18. Q.Kazımov. “Müasir Azərbaycan dili” (morfologiya). Bakı, “Elm və Təhsil”, 2010.
19. M.Cəlal, P.Xəlilov. “Ədəbiyyatşünaslığın əsasları”. Bakı, “Maarif”, 1988.
20. M.Hüseynzadə. “Müasir Azərbaycan dili”. Bakı, “Şərq-Qərb”, 2007.
21. M.İbrahimov. Seçilmiş əsərləri, I cild. Bakı, “Şərq-Qərb”, 2005.
22. N.Əliyev. “Düşündürən hekayələr”. Bakı, “Libra kitab”, 2019.
23. Nizaminin hikmət və nəsihətləri. Naxçıvan, 2013.
24. Oxu təlimi TİPİİ
25. S.Vurğun. Seçilmiş əsərləri, II cild. Bakı, “Şərq-Qərb”, 2013.
26. Şahbaz Balakişiyev, İmran Namazov. “Əməli yazı nümunələri”. Bakı, 2006.

LAYİHƏ